ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# "ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

## Elmi-praktiki jurnal

# № 1 (05)

BAKI - 2016

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Mobil Məcidov,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin “Sənaye iqtisadiyyatı və menecment” kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA Elmi İnnovasiyalar Mərkəzinin nəzdindəki Təhsil-Tədris Mərkəzinin direktoru

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

p.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

t.ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin “Azərbaycan tarixi” kafedrasının müəllimi

b.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat” fakültəsinin dekanı

i.ü.f.d., dos. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə” fakültəsinin dekanı

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər” kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması” şöbəsinin müdiri

i.ü.f.d., dos. Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə və mühasibat uçotu” kafedrasının müdiri

i.ü.f.d. Şövqi Quliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat və idarəetmə” kafedrasının müdiri

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: 563-01-32; e-mail: jurnal@aesma.edu.az; aesma.elmi-jurnal@mail.ru.*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 11, 18.07.2016)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

**MÜNDƏRİCAT**…………………………………………………………………......3

**HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ**

**Hüseyn Qaraşov, Zeynəddin Şabanov**
Sosial tərəfdaşlığın təşkili elementləri..................................................................5

**Vəkil Həsənov**
İnzibati amirlik dövründə Azərbaycan SSR həmkarlar ittifaqlarının strukturlarında kadr siyasəti (1920-1953-cü illər)...................................................................................24

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**Ağasəlim Həsənov**
Müasir Azərbaycan cəmiyyətinin ekoloji mədəniyyəti..............................................36

**Xədicə Abbaslı**
XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ bəylərbəyiliyində sosial-iqtisadi münasibətlər..........................................................................................................41

**Самир Мамедов**
Смертная казнь за некоторые виды преступлений в обычном праве тюрков тёре (древность и средние века)...............................................................................52

**İlham Soltanov**
Azərbaycanın modernləşmə xəttində milli suverenlik problemi................................57

**Джамиля Гулиева**
Роль родителей в гендерной социализации подростков.......................................63

**Aynur Əliyeva**
Fəlsəfədə XX əsr ekzistensializm nümayəndələri......................................................70

**Sahil Cəfərov**
Yeni insan şəxsiyyətinin formalaşmasında təhsilin sosial, psixoloji və pedaqoji imkanları....................................................................................................................74

**Rinard Şərifov**
Xarici ölkələrin siyasi təcrübəsində multikulturalizm konsepsiyasının təhlili............79

**Salman Umudov**
Yeni iqtisadi münasibətlər şəraitində korporativ mədəniyyətin formalaşması mexanizmi...........................................................................................................................83

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**Гюльнара Гаджиева**
Усиление роли промышленной политики в развитии регионов...........................88

**Hicran Mirzəyeva**
Azərbaycanda taxılçılığın inkişaf məsələləri..............................................................94

**Nazim Cahangirov**
Azərbaycanda əhalinin rifah səviyyəsinin yüksəldilməsinin qiymət aspektləri..........98

**Tahir Baxşəliyev**
Auditor xidmətinin tənzimlənməsi yolları.................................................................103

**Racim Əsgərov**
Yeni iqtisadi münasibətlər şəraitində xarici ticarətin inkişafının əsas istiqamətləri.107

**Əsgər Əliyev, Sevda Məmmədova**
Cənub qaz dəhlizi layihəsinin inkişaf istiqamətləri...................................................111

**Raic Həsənov**
İqtisad elminin yaranması və inkişafının maddi əsasları..........................................117

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

**UOT – 316.33**

**Hüseyn Qaraşov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, sos.ü.e.d., professor**

**Zeynəddin Şabanov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, fəl.ü.f.d., dosent**

# SOSİAL TƏRƏFDAŞLIĞIN TƏŞKİLİ ELEMENTLƏRİ

*Məqalədə bildirilir ki, sosial tərəfdaşlıq işçilərin, işəgötürənlərin, sahibkarların, müxtəlif sosial qrupların, təbəqələrin, onların ictimai birliklərinin, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının müqavilə və sosial-iqtisadi və siyasi inkişafın mühüm istiqamətləri üzrə konsensus əldə edilməsi əsasında onların maraqlarının uzlaşdırılmasını və müdafiəsini təmin edən sivil ictimai münasibətlər sistemidir. Təcrübədə sosial, xeyriyyəçilik, mədəni, təhsil, elm və idarəçilik məqsədilə vətəndaşların qeyri-maddi tələbatlarını, onların qanuni maraqlarını, həmçinin hüquq müdafiəsini, mübahisələri, münaqişələri həll etmək, hüquqi yardım göstərmək üçün qeyri-kommersiya təşkilatlarının reallaşdırdığı, həyata keçirdiyi qeyri-kommersiya tərəfdaşlığı adlanan tərəfdaşlıq növünə də təsadüf olunur. Müəlliflərin qənaətincə, sosial tərəfdaşlıqda sosial qarşılıqlı təsir, sosial mübadilə, sosial iştirak mühüm əhəmiyyətə malikdir.*

Cəmiyyətin demokratikləşdirilməsi və eləcə də mövcud bazar iqtisadiyyatı sosial tərəfdaşlığın əsas subyektləri olan işəgötürənlər, muzdlu işçilər və dövlət arasında təzahür edən sosial-əmək münasibətlərinin xarakterini əhəmiyyətli şəkildə dəyişdirir. Bu zaman qarşıdurma, konfrontasiya və mübarizə sosial dialoqun təşkili zəruriyyətinin dərk edilməsi və həmçinin münasibətlərinin tərəflər arasında mövcud olan maraqların balansına əsasən yaradılması ilə əvəz olunur. Sosial təcrübə münasibətlərinin yeni tipini – inzibati sərəncamvericilikdən tədricən ictimai prosesin müqavilə ilə idarə edilməsini nəzərdə tutan sosial tərəfdaşlığı yaradır.

Sosial tərəfdaşlığın formalaşmış sistemində həmkarlar ittifaqı maraqlı tərəf kimi çıxış edir, belə ki, məhz bu orqan hərəkətli və eyni zamanda daha həssas olan işçi qrupun, yəni muzdlu işçilərin marağını ifadə edir. Həmkarlar ittifaqının sosial-əmək münasibətlərinin mühüm subyektləri ilə münasibətinin təşəkkül tapması, sosial tərəfdaşlığa dair bütün təsisatların inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsindən asılıdır.

Sosial tərəfdaşlığı sosial-əmək münasibətlərinin cəmiyyətdə sosial razılığın əldə edilməsinə yönəldilmiş muzdlu işçilər, sahibkarlar və dövlətin maraqlarının tarazlaşdırılması vasitəsilə tənzimlənməsinin xüsusi tipi kimi müəyyən etmək mümkündür.

Sosial tərəfdaşlığın ideologiyasının əsası həm milli, həm də beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş aşağıdakı mühüm prinsiplərdən təşkil edilmişdir:

- hüquq bərabərliyi və sosial tərəfdaşlığın bir-birindən qeyri-asılılığı;
- funksiyaların muxtariyyətliliyi;
- tərəflərin hörmət və maraqlarının nəzərə alınması;
- tərəflərin fəaliyyətində amiranə, siyasi ambisiyalar və ideoloji göstərişin qeyri-mövcudluğu;
- tərəflərin qanunvericilik təşəbbüsü hüququna malik olması;
- tərəflərin əmək mübahisələrini arbitraj orqanları vasitəsilə həll etmək hüququna malik olması;
- tərəflərin müqavilə üzrə olan münasibətlərdə iştirak etməkdə maraqlı tərəf kimi çıxış etməsi;

- dövlətin sosial tərəfdaşlığın demokratik əsaslarla möhkəmləndirilməsi və inkişaf etdirilməsində yaxından iştirak etməsi;
- tərəflər və onların nümayəndələri tərəfindən qanunlara və normativ hüquqi aktlara riayət olunması;
- tərəflərin nümayəndələrinin səlahiyyətə malik olması;
- əmək sahəsinə daxil olan məsələlərin müzakirə edilməsi zamanı azad seçimdən istifadə olunması;
- tərəflərin öhdəlikləri könüllü şəkildə öz üzərinə götürməsi;
- tərəflərin üzərinə götürdükləri öhdəliklərin real olması;
- kollektiv müqavilə və sazişlərin yerinə yetirilməsinin mütləq olması;
- qəbul olunmuş kollektiv müqavilə və sazişlərin yerinə yetirilməsinə nəzarətin olması;
- tərəflər və onların nümayəndələrinin kollektiv müqavilələr və sazişlərin yerinə yetirilməməsinə görə məsuliyyət daşıması [2, s.218].

Hər bir səviyyədə əməkdaşlığın həyata keçirilməsinin öz formaları vardır: saziş layihəsi və kollektiv müqavilələrin, eləcə də onların yekun nəticələrinin hazırlanmasına dair kollektiv razılaşmalar; sosial-əmək münasibətlərinin tənzimlənməsi məsələlərinə dair qarşılıqlı məsləhətləşmələr; işçilər və onların nümayəndələrinin təşkilatın idarə olunması sistemində iştirakı; fəhlələrin nümayəndələri və sahibkarların əmək mübahisələrinin məhkəməyə qədər həllində iştirak etməsi.

Danışıqların aparılması, müqavilə və sazişlərin hazırlanması və yekunlaşdırılmasının təmin edilməsi məqsədilə sosial tərəfdaşlıq sistemində müvafiq orqanlar fəaliyyət göstərirlər: sosial-əmək münasibətlərinin tərəfdaşlığın respublika və ərazi səviyyəsinə uyğun olaraq tənzimlənməsini həyata keçirən üçtərəfli komissiyalar, eləcə də sahələr və təşkilatlar üzrə olan səviyyəni əhatə edən ikitərəfli komissiyalar. Saziş bütün səviyyələrin büdcədən tam və ya qismən maliyyələşdirilməsini əhatə etdikdə, bu növ sazişlər dövlətin icra hakimiyyətinin müvafiq orqanlarının və eləcə də tərəfdaşlığın tərəfi kimi çıxış edən yerli özünüidarətetmə orqanlarının nümayəndələrinin mütləq iştirakı ilə imzalanır [2, s.219].

Bu və ya digər tərəfdaş öz marağını nümayəndələri vasitəsilə ifadə edir. İşçilərin nümayəndəsi isə bir qayda olaraq həmkarlar ittifaqıdır, lakin zərurət yarandıqda digər səlahiyyətli orqanlar da işçilərin nümayəndələri kimi çıxış edə bilərlər (məsələn, müəssisədə həmkarlar ittifaqı təşkilatının olmaması şəraitində). Sahibkarların nümayəndəsi təşkilatın rəhbəri və ya sahibkarların həmkarlar ittifaqı, dövlət hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları ilə dialoq aparan sahibkarlar birliyinin marağını əks etdirən könüllü qeyri-kommersiya təşkilatından səlahiyyətli şəxs olur.

Dövlətin nümayəndəsi isə özünün sosial tərəfdaşları ilə lazımi və müqavilə imzalamaq səlahiyyətinə malik olan qanunverici və icraedici hakimiyyət orqanlarıdır.

Sosial tərəfdaşlıq sistemi həmçinin özündə aşağıdakıları əks etdirir: tərəfdaşlığın (saziş, müqavilə) məqsədinin həyata keçirilmə mexanizmini, danışıq prosesinin qayda və prosedurasını, saziş və müqavilənin yerinə yetirilməsinə nəzarət, sosial tərəfdaşlığın tərəflərinin məsuliyyəti.

Məlum olduğu kimi, sosial tərəfdaşlıq münasibət və əlaqələr, rəsmi və qeyri-rəsmi qayda və prosedurların kifayət qədər mürəkkəb strukturlu elementlər olan sistemini ifadə edir. Qeyd etmək lazımdır ki, biz bu gün artıq cəmiyyətdə sosial qaydanın qorunub saxlanılmasına yönəldilmiş mühüm tənzimləyici funksiyaları yerinə yetirən təsisatları görürük.

Sosial tərəfdaşlığı dəyişən reallıqlara cavab verən sosial idarəetmənin yeni forması kimi də nəzərdən keçirmək mümkündür. Məsələn, əvvəllər (Qərb ölkələrində erkən kapitalizm dövründə və ya Sovet İttifaqında “inkişaf etmiş sosializm” mərhələsi dövründə) muzdlu işçi idarəetmənin təsir obyekti kimi tanınırdı və onu müvafiq şərtlərin yerinə yetirilməsinə məcbur etmək mümkün hesab edilirdi. Sahibkar, ağa və mülkiyyətçi isə subyekt kimi çıxış edirdisə, sosial tərəfdaşlıq sistemində muzdlu işçi əmək və onunla əlaqədar olan digər sosial münasibətlərin tam hüquqi subyekti kimi çıxış edir. Bu zaman idarəçilik sistemində dəyişiklik aydın şəkildə özünü büruzə verir. Eyni zamanda həm obyekt, həm də subyekt olduğu kimi təzahür etməyə başlayır. Qeyd edilən amil həm işçilərə,

həm də dövlət və biznesə şamil olunur. Bu zaman dövlət nəinki öz şərtlərini irəli sürür, həmçinin onun özünə müvafiq tələblər tətbiq edilir. Biznes sahəsində də bu vəziyyətlə rastlaşmaq mümkündür.

Sosial tərəfdaşlığa eyni zamanda cəmiyyətin özünütəşkilinin yeni elementi kimi də baxmaq olar. Real sosial təcrübədə baş vermiş öz-özünə əmələ gələn proseslərin nizama salınmasını güc ilə deyil, məlumat-ünsiyyət vasitəsilə sosial tərəfdaşlıq təsisatları təmin edir.

Sosial tərəfdaşlıq iqtisadi və ya sosial-əmək münasibətləri sahəsi ilə məhdudlaşmır. Onun reallaşması müxtəlif sosial qrupların, təbəqələrin, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının maraqlarını ifadə edən ictimai birliklərin fəaliyyəti prosesində iştirakla müqavilə, razılaşma və siyasi qərarlarla qəbul olunması və yerinə yetirilməsilə əlaqədardır. Onların işlənib hazırlanması və qəbul olunmasında böyük insan qrupları, əmək kollektivləri, yaşayış məntəqələrinin, ərazilərin nümayəndələri iştirak edirlər. Hakimiyyət strukturları hər şeydən əvvəl danışıqların və ya razılaşdırıcı proseslərin təşkilatçıları kimi çıxış edirlər.

Sosial tərəfdaşlığın konstruktiv sivilizasion münasibətləri müxtəlif sosial qrupların, təbəqələrin maraqlarını, onların uzlaşdırılmasının maksimal nəzərə alınmasını və daha mümkün tam reallaşmasını tələb edir. Əks halda onlar sabit sosial-iqtisadi inkişafın, siyasi stabilliyin formalaşmasına, cəmiyyətdə razılığın bərqərar olunmasına səmərəli yardım göstərə bilməz.

Sosial tərəfdaşlıq öz mahiyyəti etibarilə cəmiyyətdə konsensus, vətəndaş sülhünün formalaşmasına, müxtəlif qruplar və təbəqələr arasında qarşılıqlı münasibətlərdə gərginliyin azalmasına, bütün səviyyələrdə hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının siyasi birliyinə doğru yönəlmişdir.

Sosial tərəfdaşlıq siyasəti demokratiyanın inkişafına və dərinləşməsinə, müxtəlif qrup, təbəqə və siniflərin çoxtərəfli maraqlarının uzlaşmasının sivilizasiyalı formasının təsdiqinə, açıq demokratik vətəndaş cəmiyyətinin formalaşmasına səbəb olur.

Sosial tərəfdaşlıq özündə sosiumun, yəni: dövlət institutları, korporasiyalar, qeyri-kommersiya təşkilatları, sosial qruplar və s., bir çox subyektlərinin qarşılıqlı təsir formasını əks etdirir. Bu forma onlara öz maraqlarını azad ifadə etməyə və onlara sivil reallaşdırma üsullarını müəyyən etməyə imkan verir.

Bununla əlaqədar olaraq, birincisi, sosial tərəfdaşlığın ictimai həyat fəaliyyətinin yalnız sosial-iqtisadi deyil, həm də siyasi, mənəvi sahələri kontekstində də xüsusi sosial təcrübəsinin təhlili tələb olunur. Belə rakursda həmin problemin həlli Azərbaycanın modernləşməsinin strateji iqtisad mətninin tərkib hissəsi kimi çıxış edir.

İkincisi, bir çox sosial problemlərin həlli bəzən müqavilə əsasında həyata keçirilir. Gələcəkdə bu cür təcrübə nəzərdən keçirilən məsələlər dairəsini genişləndirərək, bu prosesin iştirakçılarının qarşılıqlı əlaqələrini mürəkkəbləşdirib dərinləşdirərək sosial tərəfdaşlığın bütün səviyyələrdə iştirakçılarının qarşılıqlı məsuliyyətləri və qarşılıqlı təsiri haqqında həmin məsələni aktuallaşdıraraq inkişaf edəcəkdir.

Üçüncüsü, müasir Azərbaycan şəraitində dövlət və cəmiyyətin yeni qarşılıqlı təsir modelinin yaranması zərurəti meydana gəlir. Sosial tərəfdaşlıq nəzəriyyəsi bu modeli, həmçinin ölkədə baş verən böhranlı hadisələrin neqativ nəticələrinin qarşısını almağa səbəb olan tədbirlər sistemini işləyib hazırlamağa imkan verir.

Qeyd olunan şərait sayəsində sosial tərəfdaşlıq problemi sosial idarəetmənin nəzəriyyə və təcrübəsinin prioritet, əsas istiqaməti sırasına daxil edilir.

**Sosial tərəfdaşlıqda sosial qarşılıqlı təsir və sosial iştirak**

Sosial tərəfdaşlıq probleminin təhlilinə başlayaraq biz öz yanaşmamızın əsasına “sosial qarşılıqlı təsir” anlayışını qoyuruq.

Bunun səbəbini izah edək. Sosial qarşılıqlı təsir – fərdin, fərdlər qrupunun davranışıdır. “Sosial qarşılıqlı təsir” anlayışı insanlar və sosial qruplar arasında müxtəlif fəaliyyət növlərinin daimi daşıyıcısı kimi, daha doğrusu, öz sosial mövqelərinə və funksiyalarına görə fərqlənən münasibətlərin xarakter və məzmununu ifadə edir. Sosial qarşılıq obyektiv və subyektiv

tərəflərə malikdir. Qarşılıqlı təsirin obyektiv tərəfi – ayrı-ayrı şəxsiyyətlərdən asılı olmayan, lakin onların qarşılıqlı təsirinin məzmun və xarakterini birləşdirən və nəzarət edən əlaqələrdir. Subyektiv tərəf – uyğun davranışların qarşılıqlı gözləməsinə əsaslanan fərdlərin bir-birinə şüurlu münasibətidir. Bu, özündə konkret məkan və zaman şəraitində təşəkkül tapan fərdlər arasında bilavasitə əlaqələri əks etdirən şəxsiyyətlərarası münasibətlərdir.

Sosial tərəfdaşlıq probleminin tədqiqi üçün dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı təsirinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Bu qarşılıqlı təsirin səviyyəsi – sosiumun inkişaf dərəcəsinin mühüm meyarlarından biridir. Belə qarşılıqlı təsir nə qədər çox olarsa, bir o qədər öz vətəndaşlarına çox rifah (maddi və mənəvi) verə bilər [2, s.184].

Demokratik cəmiyyətdə sosiumun əsas strukturları (iqtisadi, siyasi və vətəndaş) arasında qarşılıqlı təsir çoxaspektli və çoxölçülü xarakter daşıyır ki, o da müxtəlif tipli sosial qarşılıqlı münasibətlər, o cümlədən ictimai tərəfdaşlıq münasibətləri formalaşdırır.

Sosial qarşılıqlı təsir dedikdə fərdlər, sosial qruplar, sosial təsisatlar və s. arasında fəaliyyət mübadiləsi prosesi başa düşülür. Dövlətdə bu qanunverici, icraedici, məhkəmə hakimiyyəti və s. institutlarıdır. Vətəndaş cəmiyyətində bu, daim fəaliyyət göstərən, uzunmüddətli əsasa malik, eləcə də məhdud zaman miqyasında təsadüfdən – təsadüfə fəaliyyət göstərən assosiasiyalardır [3, s.46]. Təbii ki, müxtəlif  səviyyəli dövlət təsisatları arasında fəaliyyət mübadiləsi, eləcə də dövlət institutları ilə vətəndaş cəmiyyətləri institutlarının qarşılıqlı təsiri baş verir. Bununla belə, vətəndaş cəmiyyətinin institutları bir-birilə sosial qarşılıqlı təsirdə olmadan qeyri-mümkündür.

Cəmiyyətdə sosial təsirlər müxtəlif stabilləşdirici, birləşdirici və dağıdıcı (destruktuv) funksiyaları yerinə yetirir. İnkişaf etmiş demokratik ölkələrinin ictimai təcrübəsinin təhlili göstərir ki, ictimai orqanizmin uğurlu fəaliyyəti müstəsna olaraq dinamik və stabilləşdirici başlanğıcların üzvi qarşılıqlı nüfuz etməsi zamanı mümkündür [3, s.48].

Sosial qarşılıqlı təsirin məhz stabilləşdirici funksiyası bütövlükdə demokratik cəmiyyətin və onun ayrı-ayrı sferalarının ahəngdar inkişafını təmin edən mexanizmdir. Müasir mərhələdə belə funksiyanı sosial tərəfdaşlıq sosial qarşılıqlı təsirin təzahür formalarından biri kimi uğurla yerinə yetirə bilərdi.

Öz daxili qarşılıqlı əlaqələri sayəsində göstərilən anlayış biri o biri olmadan nəzərdən keçirilə bilməz. Bununla yanaşı sosial qarşılıqlı təsir kimi demokratik dövlətin inkişafının hansısa tarixi mərhələsində sosial tərəfdaşlığı doğurur, sonuncu isə öz mexanizmini formalaşdırır. Fərdin şüuru vasitəsilə, sosial norma və dəyərlərin zehniyyətdə əks olunması və onun bu norma və dəyərlərin dərk olunması əsasında real fəaliyyəti fərdin digər fərdlərlə və bütövlükdə sosial ətrafla sosial qarşılıq təsiri üsulunu müəyyən edir.

Sosial qarşılıqlı təsirə bu aspektlər - informasiyanın ötürülməsi, onun əldə edilməsi, ona reaksiya göstərilməsini, hazırlanmış informasiyanın verilməsini, qarşılıqlı təsirin digər iştirakçısının onu əldə etməsi və ona reaksiya göstərilməsi daxildir [3, s.146].

Sosial tərəfdaşlıq artıq sosial qarşılıqlı təsirdir, o, sonuncunun stabilləşdirici və ahəngləşdirici funksiyalarını təcəssüm etdirən mövcudluq formalarından biridir. Bu mənada sosial tərəfdaşlıq cəmiyyətdəki destruktiv, dağıdıcı proseslərə qarşı durur. Sosial qarşılıqlı təsirin formalarından biri olaraq sosial tərəfdaşlıq ictimai əlaqələr məcmusunda geniş miqyaslı xarakter daşıyır və buna görə də ictimai həyatın müxtəlif sferalarında qarşılıqlı təsirinin prioritet forması ola bilər [5, s.184].

Sosial tərəfdaşlıq – sosial problemlərin həlli üçün resursların, ehtiyatların yalnız yenidən bölüşdürülməsi deyildir. Ümumi məsuliyyətin obyekti yalnız öz-özlüyündə sosial problemlər deyildir, həmçinin onların həlli üsullarıdır. Bu, xalqın təşəbbüskarlığını əks etdirən vətəndaş fəaliyyətidir, vətəndaş cəmiyyəti çərçivəsində yerinə yetirilən hərəkətdir [17, s.21].

Sosial tərəfdaşlıq – sosial birlik əsasında, hakimiyyətin məqsəd və fəaliyyətinə ictimai yardımın genişləndirilməsi əsasında səmərəli dövlətə doğru yoldur [8, s.253]. Sosial tərəfdaşlış ideyası geniş xalq kütlələrinə, təbəqələrinə doğmadır, yaxındır və onların maraqlarını ifadə edir. O, haki-

miyyət və xalqla birliyinin, sosial-ədalətli qurucu, yaradıcı cəmiyyət quruluşu, maddi və mənəvinin vəhdətinin zəruriliyindən doğur.

Dövləti, sahibkarları və xalqı birləşdirən, onların birgə gücünü səfərbər edən və gücləndirən sosial tərəfdaşlıq mexanizmi əsas məqsədə çatmaq baxımından aşağıdakı kimi görünür:

- cəmiyyətə münasibətdə dövlət, hakimiyyət və ictimai yardımın legitimliyi əvəzinə əldə etdiyi sosial təminata görə öz üzərinə dərk olunmuş məsuliyyət götürür;

- sahibkarlığa münasibətdə dövlət mülkiyyət hüququna, əlverişli sahibkarlıq mühitinə qarantiya verir, yardıma əvəz olaraq xarici aləmdə milli biznesin inkişafına kömək edir, dövlətin norma və qaydalarına ciddi riayət olunmasını təmin edir.

- cəmiyyət və kapital arasında balans sahibkarların məqsədləri, maraqları və fəaliyyətlərinə ictimai yardım edərək onların sosial məsuliyyətli davranışların prinsipi əsasında qurulur [7, s.162].

Sosial tərəfdaşlığın uğurları bir çox şərtlərlə müəyyən edilir. Lakin elə şərtlər var ki, sosial tərəfdaşlıq onsuz sadəcə olaraq işləmir. Sosial tərəfdaşlığın üç sahəsinin mühüm iştirakçılarından biri könüllü ictimai birliklərin, xeyriyyəçi və digər təşkilatların məcmusu olan vətəndaş cəmiyyəti təsisatıdır.

Könüllü birliklərdə iştirak yalnız özəl maraqlar məsələsi deyil, həm də arzu və imkanların özünü reallaşdırmasıdır. Bu, şəxsiyyət və dövlətin münasibətləri məsələsidir. Hüquq və azadlıqlardan istifadə edərək vətəndaşlar eyni zamanda öz üzərinə məsuliyyət götürür və öz hüquqlarının, o cümlədən sosial hüquqlarının müdafiəsinə görə vəzifələr yerinə yetirirlər. Məsuliyyətlə səs vermək üçün vətəndaşları cəmiyyət qarşısında duran ən mühüm problemlər haqqında məlumatlandırmaq lazımdır. Bu problemlərin sosial tərəfdaşlıq dövləti və kapital tərəfindən təqdim edilməsi və formulə edilməsi üçün bir çox məsuliyyətləri məhz ictimai birliklər öz üzərinə götürürlər [6, s.254]. Onların işlərində iştirak edərək vətəndaşlar özlərinin (və digərlərinin) məlumatlandırılmasına görə məsuliyyət daşıyır, digər nöqteyi nəzərlərə münasibətdə dözümlü olmaq vəzifəsini yerinə yetirirlər. Bu, səmərəli vətəndaş fenomeni, sosial tərəfdaşlığın hərəkətverici qüvvəsidir.

Kapitalın sosial tərəfdaşlığın üçbucaqlı sahəsində iştirakının müasir anlamı xeyriyyəçiliyə müncər edilmir: Sahibkarların bu gün sosial problemlərin həllində iştirakı belə məsrəflərin iqtisadi məqsədəuyğunluğudur. İnsan kapitalına, şəhərlərin, nəqliyyat kommunikasiyaları və rabitənin strukturuna investisiya qoyaraq sahibkar kifayət qədər gəlir əldə edir.

Dövlətin vəzifəsi bu fəaliyyətin inkişafı üçün iqtisadi və hüquqi stimul yaratmaqdır. Həmkarlar və ictimai ittifaqların vəzifəsi kapitalı mühüm, zəruri sosial problemlərin həllinə cəlb etmək və dövləti əməkdaşlığın vəziyyəti haqqında məlumatlandırmaqdır.

Xarici ədəbiyyatda bu hadisənin öyrənilməsinin üsulları və metodları ümumiləşdirilmiş, işlənib hazırlanmış, inkişaf etmiş ölkələrdə sosial iştirakın xarakteri haqqında proqnozlar irəli sürülmüşdür.

"İştirak" anlayışını ən universal şəkildə Amerika alimi C.Haqel müəyyənləşdirmişdir. Onun fikrincə, iştirak "hər hansı siyasi sistemin sıravi üzvlərinin vasitəsilə fəaliyyətə təsir etdikləri və yaxud təsir etməyə cəhd etdikləri hərəkətdir". İştirakın bu konsepsiyası siyasətə fəal daxil olma kimi siyasi həyata psixoloji daxil olmaya qarşı qoyur. Bu konsepsiya X.Makkloskiyə məxsusdur. O yazırdı: "..iştirak siyasi həyat proseslərinə daxil olma hissləridir" [4, s.217].

Bir sıra işlərdə Konstitusiya demokratiya əsasında qoyulmuş vətəndaş cəmiyyətinin prinsiplərindən biri kimi başa düşülən "vətəndaş iştirakı anlayışı da nəzərdən keçirilir. Vətəndaş iştirakı ideyası idarəetməyə idarəolunanların daxil edilməsini, (siyasi, sosial-iqtisadi, mədəni proqram və layihələrin müzakirəsi və işlənib hazırlanmasında), qərar qəbul etməyə və "aşağı" (yerli) səviyyədə onların icrasına nəzarət irəli sürür.

Sosial iştirak – vətəndaşların dövlət proqramlarının həyata keçirilməsinə, sosial gərginliyin azaltması, münaqişəni aradan qaldırmaq məqsədilə cəmiyyət qarşısında duran problemlərin həllinə cəlb olunmasıdır. İctimaiyyətin, dövlət hakimiyyəti orqanlarının qarşılıqlı təsirinin əsasında əhali, xalq seçiciləri və icra hakimiyyəti orqanları arasında işgüzar tərəfdaşlığı və

əməkdaşlığı tələb edən kollektiv məsuliyyət durur. Bu qarşılıqlı təsirin əsas məqsədi – vətəndaş şüurunun inkişaf etdirilməsi və əlverişli ictimai-siyasi mühitin yaradılmasıdır.

Rusiya elmi ədəbiyyatında D.Qoncarova və İ.Qopnarevanın monoqrafiyaları fərqlənir. Onlar təsdiq edirlər ki, iştirak elə instrumental fəalılıqdır ki, onun vasitəsilə vətəndaş hökumətə onun fəaliyyəti üçün arzu olunanlarla təsir etməyə cəhd edir. İştirakı təşkil edən hərəkətlərə (fəaliyyətə) bu müəlliflər: səsverməni, nümayişlərdə, mitinqlərdə, piketlərdə və s. də iştirak etməni, pul üzvlük haqlarının verilməsini, məktubların yazılmasını, etirazları, siyasi və vəzifəli şəxslərlə şəxsi əlaqələrə girilməni, müxtəlif təşkilatlara üzv olmanı, yerli səviyyədə vətəndaş təşəbbüslərinin irəli sürülməsini aid edirlər.

İştirak bir tərəfdən siyasi qərarların qəbul edilməsi prosesinə təsir kimi, digər tərəfdən dövlət idarəetmə orqanları tərəfindən qəbul edilən praktik proqramların həyata keçirilməsinin gedişində və xarakterinə təsir kimi nəzərdən keçirilir. Bu zaman müəlliflər “siyasi” və “instrumental” iştirak anlayışlarını fərqləndirirlər. Birinci iştirak dedikdə, həmişə instrumental şərhə məruz qalmayan az-çox kortəbii fəallığın təzahürü başa düşülür, ikincisi isə instrumental xarakter kəsb edən və demokratik dəyərlər kontekstində səmərəli həyata keçirilən sosial-siyasi fəallıq qaydalarına əsaslanan iştirak kimi başa düşülür.

İştirakın məhz bu forması özündə sosial tərəfdaşlığın ünsürlərini əks etdirir. Hakimiyyətdə iştirak yalnız siyasi deyil, həm də sosialdır. Məhz insanların dövlət proqramlarının cəlb edilməsi yalnız siyasi deyil, həyata keçirilməsinə həm də sosial tərəfdaşlığın problematikasını inzibati – idarəetmə cəhətdən aktuallaşdırır.

İştirak yalnız siyasi deyil, insanların hər hansı idarə olunan birliyinin ayrılmaz xüsusiyyətidir və onların maraqlarının ifadə və əldə olunma vasitələrindən biridir. Cəmiyyətin dövlət təşkil şəraitində vətəndaşların qərar qəbul etmə və idarəetmə prosesinə cəlb olunması bu və ya digər dərəcədə sosial iqtisadi və mədəni sahələrdə siyasiləşir. Sosial iştirak münaqişələrin həlli siyasi sosiallaşma və siyasi tərbiyə vasitəsi kimi dəyərləndirilir [1, s.216].

Bütövlükdə, Rusiya tədqiqatçıları aşağıdakı nəticəyə gəlirlər: postsovet Rusiyasında hələ bütün siyasi sosiallaşma sistemi, inkişaf etmiş iştirak institutları yox deməkdir; vətəndaşların fəal iştiraklarına dair siyasi liderlər və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı təsiri zəifdir. Vətəndaşlar tərəfindən siyasi iştirak tələbatlarının dərk olunması siyasi sistemin irəli sürdüyü imkanları təmin etmir. Eyni zamanda bu tələbatların ifadə edilməsi hakimiyyətin özünü ciddi müqavimətə sürükləyir; hakimiyyət əvvəlki kimi qərar qəbul etmə və işləyib hazırlamanı bilməyi arzulayır [3, s.326].

Rusiyalılarda “demokratik iştirak göstəriciləri: öz iştirakının səmərəliliyinə subyektiv inam, bir-birilərinə, dövlət və yerli idarəetmə institutlarına siyasi etibar və vətəndaş məsuliyyəti hissi özündə ictimai maraqları əks etdirən müxtəlif təşkilatlara üzvlük yox dərəcəsindədir (və ya zəif ifadə olunub), vətəndaş borcuna, vətəndaş inamına səmərəlilik və loyallığa münasibətdə pozitiv qaydalar kimi başa düşülən iştirak mədəniyyəti müəyyənləşməmişdir. Müasir Rusiyada siyasi iştirak daha çox münaqişəli xarakter daşıyır. Bu zaman hakimiyyət vətəndaşların tərəfdaşı, maraqlarının müdafiəçisi deyil, daha çox düşməni kimi nəzərdən keçirilir.

Daha çox rusiyalılarda siyasi fəaliyyətə yadlaşma meyli müşahidə olunur. Onlar hakimiyyətə qanuni təsir üsullarının səmərəliliyinə inanmırlar. Həmin şəraitdə hakimiyyət və cəmiyyətin qarşılıqlı təsiri prosesinə dövlət proqramlarının həyata keçirilməsinə fərdlərin cəlb olunması vasitəsilə sosial tərəfdaşlıq cəmiyyətdə gərginliyin azalmasına, sosiumun bütün təbəqələrinin maraqlarının balansına riayət olunmasının əldə edilməsinə imkan verir [13, s.376].

Bununla əlaqədar olaraq şəxsiyyətin yaradıcı fəallığını gücləndirməyə yönələn istedadlı adamların fərdi uğurları üçün geniş imkanlar yaradan iştirak idarəetməsi problemi aktuallaşır. İştirak idarəçiliyinin inkişafı ilə vətəndaşların yetkinliyi artır, həyata keçən qərarların təsiri güclənir, onların reallaşmasının mövcud problemlərinin yaxşılaşması təmin olunur, fərdlərin məlumatlığı yüksəlir, kommunikasiya yaxşılaşır, yeniliklərin səmərəliliyi artır.

Sosial tərəfdaşlığın öyrənilməsinə əsas nəzəri yanaşmaların təhlili nəticə çıxarmağa imkan verir ki, o, özündə ahəngdar funksiyanı təmin edən sosial qarşılıqlı təsirin ən yüksək formasını əks etdirir, demokratik cəmiyyətdə deskruktiv proseslərə qarşı durur, ən ümumi rifaha yönəlmiş sosiumun ağıllı fəaliyyətini təşkil etməyə imkan verir [15, s.253].

İctimai münasibətlərdə sosial qüvvələrin, seqmentləşdirilmiş qrupların bir birinə qarşılıqlı təsiri məcburi və ya könüllü xarakter daşıya bilər.

**Sosial tərəfdaşlıqda sosial razılıq və sosial mübadilə**

Razılıq, həmrəylik, yekdillik ideyası antik fəlsəfədə meydana gəlmişdir. “Konsensus” (yunanca “consensus”) termininin ilkin ifadəsi “razılıq” mənası verərək, “consensus omnium”– ümumi razılıq, hamının razılığı kontekstində, işlənmişdir. Hələ Aristotel dünyadakı nizamlılığın, uyğunluğun, mütəşəkkilliyin, ortaq ölçünün müəyyən dərəcəsini qeyd edirdi: “Biz gərək tədqiq etməliyik ki, təbiət hansı şəkildə tam şəkildə öz daxilində zəif və yaxşıya malikdir, onları özündə hər hansı ayrıca kimi və öz-özlüyündə mövcud olan kimi malikdirmi... Hər şey məlum şəkildə əlaqələnib, lakin heç də hamısı eyni cür əlaqələnməyib... Hər bir sistem vəhdət və müxtəlifliyin qarşılıqlı təsiri kimi səciyyələnir. Vahidə eynilik, oxşar, bərabərlik, çoxluğa – müxtəlif, oxşar olmayan, bərabər olmayan aiddir” [5, s.67]. Əlaqələndirmənin, nizamlılığın, uyğunlaşmanın yekdillik, razılıq kimi Aristotel şərhi fəlsəfədə teleloji konsepsiyaların fəlsəfi və sosial-tarixi anlaşılması üçün açar oldu.

Platonun ideal dövlət haqqında təlimində dünya hadisələrinin insan, insan tələbatlarının qarşılıqlı əlaqələri və qarşılıqlı şərtliliyi qeyd olunmuşdur. İnsanlar daim nəyə isə ehtiyacları olur və bu səbəbdən də bir-birilərinə kömək etmək üçün birləşirlər. Məsələn, Siseron insanların həmrəyliyi haqqında insanların bir-birilərinə fayda vermək üçün doğulduqları haqqında yazır. İnsanların birliyinin səbəbini onların zəifliyi ilə deyil, anadangəlmə bir yerdə yaşamaq tələbatından irəli gəldiyini qeyd edir: Siseron “konsensus”u (“consensus juris”) Roma Respublikasının mövcudluğu və qorunub saxlanmasının zəruri şərti kimi hüquqi sahədə saziş, razılıq mənasında şərh edirdi [12, s.25].

Razılıq – hər hansı münasibətdə iki və daha artıq fərdlər arasında baxışların vəhdəti və oxşar yönümlərin mövcudluğudur. Sosioloji mənada razılıq hər hansı birliyin əhəmiyyətli dərəcədə çox insanların fəaliyyətdə ifadə olunan sosial qaydaların nisbətən ən mühüm aspektlərinin konsensusudur. Rəylərdə razılığın bu və ya digər dərəcəsi və fəaliyyət uyğunluğu sosial ünsiyyətin hər hansı formaları, hər hansı sosial təşkilatlar üçün zəruridir. Sosial tərəfdaşlıq nə qədər razılığa əsaslanırsa, onda o bir o qədər sonuncunun bütün xüsusiyyətlərinə malik olur. Və öz növbəsində cəmiyyətdəki sosial razılıq və sülh-sosial tərəfdaşlığın əsas nəticəsidir.

Razılaşma dedikdə həmçinin tələbatlara, maraq məqsədlərə, eyni zamanda hüquqi normalarda təsbit olunmuş onların uğurları üsulları haqqında ümumi təsəvvürlərə malik sosial subyektlərin vəhdətində olanların arasındakı qarşılıqlı əlaqə də başa düşülür.

Sosial razılığı sosial birlik daxilində fərdlər arasında və yaxud sosial sistemlərin (birlik, təsisat, bütövlük və cəmiyyət) nisbi fəaliyyət üsullarına baxışların prinsipial vəhdəti ilə və onun fəaliyyətilə əlaqədar hərəkətlərin vəhdəti ilə səciyyələnən müxtəlif birliklər arasında sosial münasibətlərin növü kimi müəyyən etmək olar [18, s.56].

Sosial razılıq sosial həyat hadisələrinin (məqsədlər, dəyərlər, normalar, sosial rolların bölgüsü, digər birliklərə və müxtəlif sosial institutlara münasibətlər) sosial birliyinin həyati fəaliyyəti üçün baxışların vəhdətini əhatə edir və insanların ümumi maraqları və dəyər yönümləri əsasında formalaşır. Sosial qaydaların formalaşmasında bilavasitə insanların həyat fəaliyyəti prosesindəki qarşılıqlı təsir prosesi həlledici əhəmiyyət kəsb edir.

Sosial razılıq stabilliyin mühüm amili kimi çıxış edir və buna görə də sosial sistemləri səmərəli fəaliyyətini təmin edir.

Lakin izah etmək lazımdır ki, sosial razılıq hansı ideya-siyasi əsasda formalaşır. Konkret şəraitlərdə o, demokratik başlanğıc bazasında meydana gələ bilər və fəaliyyəti sosial tərəfdaş-

lığın təşəkkülü ilə bağlı olan sosial-hüquqi dövlətin əsasına o, xidmət edə bilər. Eyni zamanda nəticədə totalitarizmin dayağı olan müxtəlif növ mürtəce ideyalar əsasında da formalaşa bilər.

A.B.Dmitriyev konfliktdən, münaqişədən fərqli olaraq razılığı "hər cür qrupların əksər insanların həyat fəaliyyətlərinin nisbətən ən mühüm problemlərinin, maraqlarının, dəyərlərinin və identiklərinin qismən və tam şəkildə üst-üstə düşməsi" kimi müəyyən edir. Razılıq onların həlli üzrə birgə fəaliyyəti təmin edir. Razılığın bu və ya digər dərəcəsi sosial ünsiyyətin hər cür formaları, hər cür institutlar və təşkilatlar üçün zəruridir. Buna görə də, sosial razılığa müxtəlif səviyyələrdə yalnız vəziyyət kimi deyil, həm də hərəkət, hər cür proseslərə xas olan statistik və dinamik maraqların məcmusu kimi də baxmaq lazımdır [9, s.164]. Problem ondadır ki, bu hərəkət hansı istiqamətə doğru gedir. Cəmiyyətdə, təbiidir ki, həmişə münaqişə və barışıq, razılaşma ünsürləri iştirak edir. Bu ünsürlərin müəyyən zaman kəsiyində hansının üstünlüyündən asılı olaraq, o ya nisbətən dinc, əmin-amanlıq, sülh barışı yaradır, ya da gur toqquşmalara, hətta hərbi və inqilabi münaqişələrə çevrilə bilər.

M.M.Oxotnikova sosial razılığı "vəhdətdə olan, oxşar, uyğun dəyərlərə, tələbatlara, məqsəd və maraqlara malik sosial subyektlər arasında qarşılıqlı təsir prosesi, əlaməti, vəziyyəti kimi müəyyən edir ki, bu zaman sosial sistem həmrəylik, möhkəmlik inteqrasiya, birlik, nizamlılıq, stabilliyə malik olur və o, öz tamlığını, bütövlüyünü saxlaya bilir" [4, s.274].

Razılaşma, barış ideyası özünün sonrakı inkişafında sosiumun bir çox digər sferalarını da əhatə etmiş və razılaşma, barış – onun əksi olan münaqişə kimi hər yerdə mövcud olan ideyaya çevrilmişdir. Bununla yanaşı, aşkar edilmişdir ki, barış, razılıq, saziş ideyası, konflikt, münaqişə ideyası kimi öz funksional rollarına görə də birmənalı deyildir. Razılaşma, barış, yekdillik ideyası ziddiyyətlərin sivilizasiyalı həllinə yönəlmiş və sosial-təhlükəli münaqişələrin etibarlı sınanmış vasitəsinə çevrilmişdir. Lakin buna həmişə nail olmaq mümkün olmamışdır. Barış, razılıq və qarşıdurma bir-birilə vəhdət və inkarın daxil olduğu sıx qarşılıqlı təsir şəraitində olur, onlar obyektlərin və sistemlərin tarazlığına kömək edərək canlı ümumdünya tarixi prosesi səciyyələndirirlər. Onların tarazlığı gah az-çox dərəcədə tam bərqərar olur, bəzən yeni formalar kəsb edirlər. Lakin ya barış, razılıq və ya qeyri-razılığın, qarşıdurmanın şəriksiz hökmranlığı proseslərində və şəraitində yalnız bəzi mərhələ əmələ gəlir ki, öz əksini əvəz edə bilsin.

Razılaşma, barış - obyektiv mövcud olan ehtimaldır ki, əvvəlcədən sözləşmə, razılaşma olmadan iştirakçılar qarşılıqlı təsirin bu və digər formalarında konsensus əldə edirlər. Razılaşmaya əsaslanan bu cür davranışın anlaşılması zamanı o, "müqaviləyə" söykənən davranışdan fərqlənir. Razılaşmaya qarşılıqlı təsir iştirakçılarının ən müxtəlif daxili vəziyyətləri, məqsədləri, motivləri səbəb ola bilər. Bu zaman fərdlərin psixoloji həyəcanları deyil, onların dərk olunmuş razılıq və fəaliyyətə yönümləri xüsusi əhəmiyyət kəsb edir [4, s.154].

Belə hesab olunur ki, ümumi qaydada məsələlərə dair (nüfuzun, gəlirin bölüşdürülməsi) razılaşma vəziyyəti xüsusi məsələlər üzrə bir-birilə ixtilafda olan sosial bölmələr sistemləri arasında əldə oluna bilər. Bu zaman bütün məsələlər, hətta əsaslı məsələlər üçün ümumi konsensus məcburi olmur. Bu konsensus xüsusi qaydada ixtilafların dağıdıcı vəziyyətə çevrilməsinədək qorunub saxlanır. Bu sistemin ümumi vəzifələrinin həllində insanların əməkdaşlığının bərqərar olmasına səbəb olan makrososial qaydaların zəruri ünsürüdür [10, s.287].

Mərkəzi və əyalətləri, müxtəlif sosial qrupları, etnik qrupları birləşdirən kommunikativ proseslərin məhdudluğu sayəsində cəmiyyətdə tam razılaşmanın əldə olunması qeyri-mümkündür. Eyni zamanda, adətən, bütün cəmiyyət bir sıra əks mühüm parametrlərə dair razılaşmanın olmadığını göstərən vətəndaş müharibələri və inqilabların olmaması ilə səciyyələnən uzunmüddətli dövrlər ərzində kifayət qədər möhkəmliyə və sabitliyə malik olur [16, s.78].

T.Mayerin qeyd etdiyi kimi fərdin, dövlətin və cəmiyyətin və fərdi azadlığın sosial əsaslarının qarşılıqlı münasibətləri haqqında sosialist və liberal təsəvvürlərin sintezinin müəyyən minimum formaları – Qərb demokratiyasının özünəməxsus baza konsensusun (razılaşmasının) sintez forması budur. "Bu konsensusun yaratdığı çərçivədə bu gün liberal-neokonservativ, so-

sialist cərəyanları və partiyaları ictimai təsir etmək və öz təsəvvür və maraqlarını reallaşdırmaq üçün siyasi hakimiyyətə malik olmaq uğrunda mübarizə aparırlar. Razılaşmanın siyasətinə, texnologiyasına və praktikasına dair tədqiqatlarda razılaşmanın münaqişəli aspekti, onun sosial münaqişə ilə bağlılığı üstünlük təşkil edir” [6, s.43].

Razılaşmanı cəmiyyətin ideal vəziyyəti kimi deyil, onun mövcudluğunun, dağılmasının, eyni zamanda elementar qaydalara malik olmasının ayrılmaz səciyyəsi kimi anlamaq lazımdır. Cəmiyyətdə razılaşma da, ixtilaf da qanunauyğundur, lakin mühüm olan odur ki, aparıcı rolu razılaşma, barış oynasın. Cəmiyyətdə razılaşma: birincisi, cəmiyyətin ümumi vəzifələrini həll etmək, onu təkmilləşdirmək üçün subyektlərin şüurlu fəaliyyətlərinin ümumi məqsədlərlə birləşməsi kimi; ikincisi, zorakılıq tətbiq etmədən düşmənçilik və dözümsüzlük etmədən müxtəlif sosial-siyasi qüvvələrin birgə sivilizasiyalı, demokratik norma və qaydalarla işləyib hazırladığı razılaşdırılmış siyasət kimi; üçüncüsü, insanlar arasında münasibətlərdə müəyyən güzəştləri genişləndirən siyasi mübarizədə sadə ümumbəşəri normalara riayət edilməsi kimi başa düşülür.

Razılaşmanın əldə edilməsi müxtəlif sosial qrupların kifayət qədər geniş ümumi maraqlara malik olması şəraitində mümkündür. Bu sfera ola bilsin ki, hakimiyyətin ədalətsiz siyasəti və ya ekstremist qüvvələrin hərəkətləri sayəsində kəskin şəkildə məhdudlaşa, bəzi hallarda isə yox ola bilər. Ümumi maraqların obyektiv bazasının məhdudlaşması – inzibatçılığın əsas mərkəzi vəzifələrindən biri hesab olunan sosial təhlükənin xəbərdar edilməsindən biridir. Bütün cəmiyyət üzvləri, dövlət orqanları və bələdiyyələr, korporasiyalar, əhalinin müxtəlif qrupları arasında məqsədlərin uzlaşmasını təmin edən sosial münasibətlər formasından biri kimi sosial tərəfdaşlıq ictimai həyatın mühüm problemlərinin həllində bu cür vəziyyətlərin meydana gəlməsi ehtimalını istisna etməyə imkan verir [15, s.38].

Bəzən ictimai şüurda sosial tərəfdaşlıq anlayışının özü düzgün şərh olunmur. Bir çoxları bu hadisəni korporativdaxili əməkdaşlıq və yaxud digər təşkilatlarla tərəfdaşlıq münasibətlərinin qaydaya salınması kimi başa düşürlər. Nəticədə sosial tərəfdaşlığın həqiqi mənası təhrif olunur və anlayışın dəyişməsi baş verir.

Sosial tərəfdaşlığın tarixi şüarı sinfi münaqişə və inqilabın antitezi kimi, əmək və kapital ara ziddiyyətlərin həlli üsulu kimi meydana gəlmişdir. Dövlət quruluşunun əsas konsepsiyasının – sosializmin, dövlət təhlükəsizliyinin və modernləşmənin böhranı yeni yanaşma axtarışlarını tələb etdi. İctimai və siyasi təsirin fokusunda qeyri-kommersiya və ictimai hərəkatlar birliklərində birləşən vətəndaşların təşəbbüskarlıqları meydana gəldi.

Bu gün sosial tərəfdaşlığın mənası ictimai arenada üç qüvvə – dövlət strukturları, kommersiya müəssisələri və qeyri-kommersiya təşkilatları (bu qüvvələr müvafiq olaraq birinci, ikinci, üçüncü sektor adlanır) arasında konstruktiv qarşılıqlı təsirləri qaydaya salmaqdan ibarətdir.

Sosial tərəfdaşlıq – problemə görə bölünmüş məsuliyyətə və insan həmrəyliyi hisslərinə əsaslanan sosial fəaliyyətdir. Ən ümumi halda demək olar ki, sosial tərəfdaşlıq üç sektorun nümayəndələri birlikdə işlədikdə hər bir qrupun cəmiyyətdə bütöv halda faydalı olduğunu dərk etdikdə əmələ gəlir.

Sosial tərəfdaşlığın aşağıdakı əsas məqamlarını göstərmək olar:

- Sosial problem;
- Tərəfdaşların maraqları;
- Tərəfdaşların hüquqi əsaslandırılması;
- Tərəfdaşların imkanları və güclü tərəfləri;
- Qarşılıqlı təsir və qarşılıqlı nəzarət qaydaları;
- İnformasiya sahəsinin mövculuğu;
- Tərəflərin birgə təşkili üsulu kimi layihənin mövcudluğu;
- Sosial tərəfdaşlığın daimiliyi və stabilliyi;
- Sosial problemlərin innovasion həlli yolları [10, s.249].

Sosial tərəfdaşlığın ətrafında formalaşdığı əsas məqam – sosial problemdir. Lakin onun təzahür etməsi və hamı tərəfindən dərk olunması sosial tərəfdaşlığın əmələ gəlməsi üçün kifayət deyildir – tərəflərin maraqlarının artikulyasiyası zərurətdir:

- Tərəflərdən hər biri üçün sosial problemlərin əhəmiyyəti;
- Mümkün tərəfdaşlardan hər birinin maraqlarının bərqərar olması;
- Fəaliyyətin vəzifə və məqsədlərinin birgə formulə edilməsi;
- Problemlərin həlli üzrə öz imkanlarının qiymətləndirilməsi, cəmiyyətdə özünün statusunun, rolunun dərk edilməsi;
- Əməkdaşlıq prosesində dəqiq hərəkət qaydalarının işlənməsi;
- Tərəflər tərəfindən onların qüvvə və vasitələrinin birləşməsinin kumulyativ səmərə verməsinin dərk olunması [11, s.266].

Hər şeydən əvvəl yuxarıda duran rəhbərliyin direktivlərilə tənzim olunan gündəlik problemlərin həllində səylərin, cəhdlərin sadə qarşılıqlı təsirini və yaxud kooperasiyasını sosial problemləri həll etməyə cəhd edən və bölünən tərəflərin bərabərhüquqlu, uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığına əsaslanan sosial tərəfdaşlıqdan fərqləndirmək lazımdır.

O.Olsen özünün “Paritnership For Sosial Welfare” adlı əsərində yazır ki, “tərəfdaşlıq – kooperasiyadan böyükdür. Ona tərəfdaşlar tərəfindən qəbul edilən, vəzifələrin bölgüsü (məsuliyyətin) mühiti kimi layihə mədəniyyətinin inkişafı, tərəfdaşların bir-birinə cəlb etdikləri yeni qərar axtarışları prosesi daxildir. O özündə müqasilə öhdəliklərini, bütün tərəfdaşların yaxşılaşdırmaq və inkişaf etdirmək istədikləri keyfiyyətin artırılması sistemini əks etdirir” [14, s.325].

Sosial tərəfdaşlıq sistemində hər bir sektor (bölmə) özünün güclü və zəif tərəflərinə malikdir. Dövlətin güclü tərəfi – onun hakimiyyət mexanizmləri, biznesin güclü tərəfi maliyyə ehtiyvatları ilə təmin etmək qabiliyyətidir, üçüncü bölmə yeni ideyaların təşəbbüskarıdır. Lakin onlardan birgə istifadə etmək bir sıra problemlər doğurur. Birincisi, ən çətin vəzifələrdən biri layihələrin maliyyələşdirilməsi mənbəyinin axtarışıdır. Əksər hallarda sosial problemlər həcmi işlərin nəticələrinin real keyfiyyətindən praktiki olaraq asılı olmayan yalnız büdcə dotasiyası vəsaitləri ilə həll olunur. Belə ki, dövlət təşkilatları üçün büdcə stroku həmişə ciddi şəkildə məhdud olur. Bundan başqa Rusiya indiyədək Qərb ölkələrində ciddi maliyyə mənbəyi olan xeyriyyəçilik fəaliyyətinin həvəsləndirilməsi sistemi yaradılmışdır. Xarici xeyriyyəçi təşkilatların və fondların qrant vəsaitləri də sosial tərəfdaşlığın geniş inkişafı üçün də kifayət deyildir [20, s.164].

İkincisi, insan resurslarının, ehtiyatlarının əskikliyi problemi, daha dəqiq desək, sosial tərəfdaşlıq prosesini səmərəliliyini təmin etməyə qabil olan peşəkarların çatışmazlığı problemi də mühümdür. Bu və ya digər layihənin reallaşması təşəbbüsü, hər şeydən əvvəl, üçüncü sektordan gəlir. Onun nümayəndələrində inzibati fəaliyyət, vəsaitlərinin cəlb olunması təcrübəsinin olmaması tərəfdaşlığın güclü sosial səmərəsinə mane olur. Coşqunluq peşəkarlıq bazasına əsaslanmalıdır. Əks halda, o, tez sönə bilər.

Üçüncü problem – innovasiyalara uyğunlaşmamaq problemidir. İctimai təşkilatların təşəbbüskarlığı ilə irəli sürülən və ya digər ölkələrin təcrübəsindən alınmış işin texnologiyası və novatorluq metodikası həmişə sosial sistemin mövcud çərçivəsinə tətbiq edilməyə də bilər [20, s.165].

Vəziyyət həm də ona görə ağırlaşır ki, müxtəlif dövlət idarəetmə orqanlarının məmurlarında, xüsusilə üçüncü sektordakı işlərdə dəyişikliklərə qərəzli münasibət təzahür edir. Bu sektorun nümayəndələri bəzən “iltimasçılar” və yaxud da “tabeolanlar” kimi deyil, hətta “rəqiblər” kimi qəbul olunurlar. Elə də olur ki, rəqabət və ya hətta qibtə, paxıllıq bir təşkilatın və ya sektorun daxilində elə qızışdırılır ki, bu da əməkdaşlığın davam etdirilməsinin təcrid olunmasına gətirib çıxarır. Bəzən isə əks şərait də əmələ gələ bilər: bu zaman bir sıra ictimai xadimlər belə hesab edirlər ki, dövlət bir çox məsələləri müstəqil həll etməlidirlər. Belə yanaşma vətəndaş cəmiyyəti təsisatlarının inkişaf etməməsinin ümumi səbəblərilə izah olunur.

Sonuncu barışdırıcı və yaxınlaşdırıcı qarşılıqlı faydalı başlanğıcı özündə ehtiva edən, təkliflərin, dəyərlərin, ideyaların, proqramların və s. sosial effekt verən könüllü sosial mübadilənin əsasını təşkil edən qarşılıqlı əlaqədə olan subyektlərin maraqlarının balansıdır.

Nəticədə qarşılıqlı fayda əsasında əməkdaşlıq insanları, sosial qrupları və təşkilatları "birlikdə yaşamaq və effektiv ictimai münasibətləri (əlaqələri) idarə etməyə öyrədir. Əgər sosial mübadilənin münasibətləri (əlaqələri) nəzərə alınmırsa, o zaman subyektlərin qarşılıqlı təsirinin nəticələri qeyri-adekvat, effektsiz olacaq. İctimai münasibətlərin (əlaqələrin) iştirakçıları arasında sosial mübadilənin problemlərinin həlli aşağdakı suallara (məsələlərə) cavab axtarışlarıyla bağlıdır:

- sosial mübadilənin mahiyyəti nədir;
- sosial mübadilə zamanı mənfəət nədədir;
- ictimai münasibətlər (əlaqələrin) şəbəkələrində qeyri-kommersiya mübadilələrin xüsusiyyətləri nədən ibarətdir;
- mübadilə sazişlərində hansı prinsipləri rəhbər tuturlar;
- yanlış mübadilələrin xüsusiyyəti nədir? [15, s.226].

**İctimai münasibətlərdə sosial mübadilə**

Sosial davranışda insanlar bir-biri ilə qarşılıqlı sərfəli mübadilələr əsasında əlaqə qururlar, bu zaman hər tərəfin hərəkətləri (təsirləri) qarşılıqlı olaraq mükafatlandırılır.

Bu könüllü sosial mübadilə xeyir əsasında olur: insanlar və onların qrupları o münasibətləri (əlaqələri) davam etdirirlər və can atdıqları arzu olunanı alırlar. Sosial mübadilənin ilkin ümumi ictimai cəhətdən – psixoloji şərti budur. Sosial mübadilənin problemləri 60-70-ci illərdə sosial interaksionizm və struktur funksionalizmə zidd olaraq biheviorizm əsasında fəal işlənir.

Hazırda “yanlış mübadilələr” problemi ayrıca nəzərə çarpır.

Problem ondan ibarətdir ki, müxtəlif (zidd) maraqlar mövcudluğunda “birlikdə yaşamağı”, başqaların xeyirini nəzərə almağı və onların təsirləri şəraitində sosial prosesləri idarə etməyi öyrənmək lazımdır.

Bu problem sosial mübadilənin nəzəriyyəsi və təcrübəsi əsasında-əsasən isə onun funksiyasıyla həll edilir. Bu seçim azadlığına və müxtəlif dəyərlərlə qarşılıqlı təsir edən tərəflərin arasında könüllü mübadilədə qarşılıqlılığın gözlənmələrinə söykənən etibarın yaradılmasıdır: maddi (pul, vaxt, informasiya, imtiyazlar və s.), mənəvi (ictimai diqqət, tanınma, nüfuz, əməkdaşlıq, sevgi və s.), praktik təsirlər, hərəkətlər, kömək, statuslar və s.

Mübadilə prosesində hər bir iştirakçı nəsə əldə edir, amma gözləmələrin dayandırılması vaxtı mübadilə münasibətləri də həmçinin dayanır.

Sosial fayda. Sosial davranış - bu individlərin bilavasitə əlaqələrlə mübadilə fəaliyyətidir, bu zaman hər kəsin hərəkəti başqasının hərəkəti ilə qarşılıqlı möhkəmləndirilir-korrelyasiya edilir və müvafiq olaraq, hər kəs də başqasına təsir edir: onlar başqalarına “möhkəmlik verirlər” və əvəzində uyğun olan ekvivalent (qarşılıqlı bərkitmələr) “almağa” çalışırlar [21, s.175].

Bərkidilməyə mübadilə nəzəriyyəsində effektivliyi qüvvədə olan subyektin (məhrum etməsinin) deprivasiyasının səviyyəsiylə təyin edən mükafat kimi baxırlar. (məsələn, aclıq vaxtı - qida möhkəmləndirici rol oynayır, toxluq vaxtı isə belə deyil. Pozitiv möhkəmləndirici mükafatlar forması qəbul edir, bununla gələcəkdə hərəkətin təkrarı ehtimalını artırır. Neqativ-forma nəsə xoşagəlməz bir şeyin aradan qaldırılmasını tələb edir. Bu davranışın qarşısını alan stimulların pozitiv istifadəsi (cəza, müəyyən hərəkəti izləyən) möhkəmləndirici cəza kimi də xidmət edə bilər.

Cəzanın neqativ forması - məhrum etməyə və ya mükafatdan (podkrepitelya itkisi) məhrum edilmə təhlükəsi yəni xəbərdarlıq vasitəsi ilə davranışın dayandırılmasıdır. Pozitiv və neqativ möhkəmləndiricilər motivasiya sisteminin yaradılması vaxtı təşkilatlarda geniş istifadə olunurlar. Məsələ ondan ibarətdir ki, konkret vəziyyətdə dəstək və ya cəza nədir?

Nəticədə sosial mübadilə baş verir - bu da məhz başqa şəxslərdən “mükafat” (cəza) gözlənilir alınması zamanı meydana çıxan münasibətlərin çərçivəsində olan qarşılıqlı təsir tipidir. Hər dəfə gözləmələr təsdiqini tapanda, insan məmnunluq (narazılıq) hissi keçirir. Məsələn, iki aşiq. Onlar daim görüşürlər, asudə vaxtı birlikdə keçirirlər, diqqətin nişanlarıyla və simvollarla mübadilə edirlər. Onlarda hər şeydən əvvəl hislərə əsaslanan möhkəm şəxslərarası münasibətlər sevgi, nifrət, xeyirxahlıq, soyuqluq, qısqanclıq, qürur formalaşır. Aşiqlərin emosional bağlılığı onları bir-birinə ehtiyatla münasibət bəsləməyə məcbur edir, bu isə başqasına o şeyi et ki, o da istəyərdi ki, onu sənə et-

sin prinsipi üzrə mübadilə qurulur. Öz sevgisini bəxş edərək, qarşı tərəf ümid edir ki, əvəzində az olmayan qarşılıqlı hisslər alacaq. Və beləcə bu özünü hər yerdə göstərir: hədiyyələrlə mübadilədən tutmuş salamlaşma və hisslərin mübadiləsinə kimi. Əgər mübadilə vaxtı həvəsləndirən reaksiya baş verirsə, onda həmin davranış, ehtimal ki, belə vəziyyətlərdə gələcəkdə də təkrar hasil ediləcək. Əksinə, mənfi reaksiya davranışın təkrar olma ehtimalını azaldacaq. Beləliklə, sosial mübadilənin əsasını iqtisadi və sosial-psixoloji (insanın, qrupun davranışı) tələbatlarının kombinasiyasına əsaslanan fərdi (qrup) maraqlar təşkil edir. İnsanlar arasında sosial mübadilənin mahiyyəti ondan ibarətdir ki, onda öz davranışından başqa insana vermək üçün daha çox qiymətli təqdim edlən, sizə veriləndən, sizin üçün böyük dəyəri olan mükafat vardır. Bu vəziyyət “başqalarla bağlı onların səninlə bağlı hərəkət etməyini istədiyin kimi davran” “qızıl qaydasına” tamamilə uyğundur olaraq səslənir**:** Konkret vəziyyətlərdə sosial davranışa ödəmənin funksiyası kimi baxmaq olar: onun miqdarı və növü insan tərəfindən alınan mükafatın (cəzanın) miqdarından və növündən asılıdır. Bu halda ödəmə şəxsiyyətin funksional vəzifəsi və məsuliyyətidir, məcburi xarakter daşıyır, yəni nə ilə o davranışı ödəməyə məcburidirsə, onu nəzərdə tutan şəxsdir. Mükafatlandırma isə şəxsiyyətin funksional hüququdur-haqqıdır (hansına ki, borcludur), yəni davranış mükafatına, hansına ki, o hesablaya bilər. Problem ondan ibarətdir, onları necə bərabərləşdirmək olar [21, s.254].

Sosial mübadilə fayda əsasında formalaşır, belə ki, insanlar maraqlarını onlara faydalı olduğu üçün əlaqələndirirlər.

Fayda bu halda sosial mübadilə prosesində qarşılıqlı təsirin subyektləri tərəfindən çıxardılan ödəmənin və mükafatın (fərqi) ölçüsüdür. Mübadilə edənlərin hər biri çalışır ki, mənfi sanksiyalardan qaçaraq öz itkilərini (xərclərini) azaltsın və gəlirini (mükafatını) artırsın. Bu cəhd insanın eqoizm təbiətindən qaynaqlanır.

Buna görə sosial mühitin səviyyəsində bu ölçünün daimi axtarışı gedir və müvafiq olaraq, konkret tarixi şəraitdən (şərtlərdən) asılı olaraq onun islah edilməsi də həyata keçirilir.

Bu yanaşma əsasında bazar mədəniyyətinin şəxsi prinsipini əks etdirən sosial davranış modeli dayanır (Spenser):

- şəxsi xeyrə (faydaya) cəhd;
- onun nailiyyətinin üsulları üçün (insanlar və Allah qarşısında) cəzanın qorxusu: “canlı və “ölü” - kilsə qarşısında qorxunu dövlət dəstəkləyir;
- ictimai maraqların nəzərə alınması.

Bu model bazar münasibətləri şəraitində şəxsiyyətin və cəmiyyətin qarşılıqlı təsirinin mexanizmini təmin edir. Xüsusilə, cəmiyyət, sosial maraqları əks etdirərək, nizamı, sabitliyi, (statikanı), ümumi normalar və dəyərləri təmin edən normativ quruluşdur. Ancaq şəxsi olanın üstündə ictimai (kollektiv) maraqların prioritetinə aparan ölçünün itkisi və müvafiq olaraq, demokratik azadlıqların itkisini və totalitarlığın qurulmasını artırır.

Totalitar dövlət şəraitində faydaya yönələn hüquq (haqq) yalnız ondan ibarətdir ki, dövlət mənafeyinə nail olunması üçün “məqsəd vasitələrə haqq qazandırır” prinsipi üzrə istənilən hərəkətlər sosial yalandır, populizmdir, fərdi azadlıqların yatırılması və s. üçün isə zorakılıq-məhv etmədir. Bütün bunlar, xüsusilə, utopik kommunist layihəsi üçün poliqon olaraq seçilmiş sosializm və vahid “sovet xalqı”nda dövlətin xeyirinə-mənfəətinə xidmət edirdi.

Şəxsiyyətin fərdi marağından məhrum edilməsi “real sosializm” üçün əngəl daşı oldu.

Bu halda istənilən qeyri-standartlığa mövcud status-kvonun sosial təhdidi kimi baxılır. Qüdrətli dövlət mərkəzləşdirilmiş iqtisadiyyat, ictimai mülkiyyət şəxsiyyəti boğan və istehsal-təsərrüfat fəaliyyətinin azadlığını ləğv edən belə cəmiyyətin qoruyucu alətidir. Bu, öz növbəsində, durğunluğa və kollapsa aparır.

Əksinə, fərdi tədbirlilik, şəxsi xeyrə və azadlığa cəhd dinamikanı, onun inkişafını təmin edərək cəmiyyətə çeviklik verir. Bununla birlikdə fərdi eqoizm prioritetinə aparan ölçünün itkisi qaçılmaz “hamı hamıya qarşı mübarizəyə” aparır və diktaturanın (avtoritarizmin) müxtəlif formalarının yaranması (meydana çıxması) üçün zəmin hazırlayır.

Məsələ ondan ibarətdir ki, ictimai və şəxsi maraqların ziddiyyətlərini aradan qaldırmaqda, hansı uyğunlaşdırma və mexanizmləri istifadə etmək olar?

Müasir tarix istənilən xarici əlamətlərlə və əksinə, liberal-demokratik mexanizmlərin şüurluluğu ilə totalitar-avtoritar rejimlərin perspektivsizliyini bütün aşkarlıqla təsdiq etdi.

Bazar münasibətləri şəraitində plüralist demokratiya (həmçinin iqtisadi) fərdi tədbirliliyin (xeyirə-mənfəətə cəhdlər) və sosial nizamın uyğunlaşdırılmasının aləti kimi çıxış edir. O, hüquqi dövlətin (yuxarıdan) və vətəndaş cəmiyyətinin (aşağıdan) siyasi (sosial) imkanlarından istifadə edərək “nizamı və irəliləməni” tarazlaşdırmağı bacarır [4, s.186].

Problem ondadır ki, bu halda dövlətin və insan hüquqlarına müdaxiləsinin ölçüsü necə olur?

Liberal-demokratik mexanizmlər cəmiyyətin dinamikasına və özünü təşkil etməsinə imkan verən sosial nizam çərçivəsində xüsusi mülkiyyətin və şəxsi marağın prioritetini təmin edir. Sonuncu əsasında dəyişikliklərin bütün formalarını dəstəkləyən və yeniləşdirici mübadilə prosesləri dayanan təşkilatın özünün böyüməsini bildirir. Nəticədə qarşılıqlı təsirin düsturu belə görünür: şəxsiyyətin axtarışı - cəmiyyətin təklifləri - şəxsiyyətin seçimi - cəmiyyət qarşısında məsuliyyət.

Bu zaman dövlət insanlara qazanmağa mane olmur və onlarda mərhəmət hissini boğmur, həm də mövcud sosial nizamı (qanunları) pozmağa imkan vermir.

Beləliklə, sosial davranış bir insanın fəaliyyətinin digər insanın fəaliyyətini mükafatlandıran və ya cəzalandıran mübadilədir. Hər birimiz çalışırıq (məcburuq) ki, başqa insanlarla əlaqələrdən “gəlir” (maddi, mənəvi, praktiki) alaq. Bu zaman ortaya sual çıxır: “bu və ya digər insanla əlaqədən mən nə əldə edəcəyəm?”. Xidmət göstərən zaman, bizim haqqımız çatır ki, əvəzində nəyisə gözləyək, hərçənd mükafatın təbiəti həmişə danışıqların predmeti ola bilmir. Səxavətə görə, qonaqpərvərliyə görə, xeyriyəçiliyə görə mükafat almağa təminat verilmir və s. Bundan başqa, bir çox sosial “xeyirlər”in qiyməti (pul ekvivalenti) yoxdur. Ancaq əgər insanlar “gəlir” əldə etmirlərsə, onda onlar onu əldə etmək üçün öz davranışını dəyişdirirlər və ya əlaqələri kəsirlər. Bu halda məqsədə uyğun fəaliyyət göstərən subyektlər öz xərclərinin azadılması və maksimum gəlir əldə etmək arasında rasional seçim etməyi əsas götürürlər.

C.Xomans növbəti nümunədə sosial mübadilənin mahiyyətinə baxır [10, s.319].

İki dəftərxana qulluqçusu A və B öz işini yerinə yetirirlər. Hər kəs müstəqil işləyir və ofisin qaydaları üzrə, əgər köməyə ehtiyac duyursa, müdirə müraciət etməlidir. Qulluqçu A - yenidir, hansı ki, köməyə daim ehtiyac duyur. Ancaq o, müdirə müraciət etmək istəmir, çünki səriştəsizliyin təzahürü onun karyerasına zərər vura bilər.

Bunun yerinə o, qulluqçu B-yə köməyə görə müraciət edir və B yardım göstərir, mübadiləyə A-dan minnətdarlıq alır. Bu minvalla qulluqçu B xidmət fəaliyyətinin mübadiləsi olaraq minnətdarlıq alır. İki insan köməklə və razılıqla mübadiləetdi - dəyişdi. Kömək A üçün nə qədər daha qiymətli olacaqsa, o qədər daha tez-tez o ona öz minnətdarlığını ifadə edəcək [10, s.319].

Buradan sosial mübadilə konsepsiyasının əsas məziyyəti ortaya çıxır: insan üçün fəaliyyət nə qədər daha qiymətlidir, hansını ki, başqa insan ona verir, xüsusən tez-tez o, başqasının fəaliyyətiylə mükafatlandırılan fəaliyyəti edəcək.

Qeyri-kommersiya mübadiləsi. İctimai münasibətlərdə (əlaqələrdə) insanlar, sosial güclər xeyirləri bütün iştirak edən tərəflərin (qarşılıqlı xeyirlərini) nəzərə alan sosial mübadilə əsasında əlaqələrə və birləşmələrə daxil olmağa yönəldilmişdir: onları dəstəkləyirlər, əgər bu hərəkətlər (təsirlər) real mükafatlarını (əvəzini) alırsa. Bu mübadilə, əsas qarşılıqlı təsir edən subyektlər sosial nailiyyətə (lakin ticarət effektinə deyil) cəhd edəndə və nəticələrə ona məxsus olanda qeyri-kommersiya xarakterini daşıyır. Sonuncular bilavasitə tam gəlirin alınmasıyla bağlı deyillər, o halda ki, bu, material-maddi istehsalatda və ticarətdə baş verir və bütövlükdə əhalinin və ya cəmiyyətin ayrı qruplarının xeyirinə yönəldilmişdir. Nəticədə, bu fəaliyyət iqtisadi (maliyyə) nəticəsinin alınmasına imkan yaradır, hansı ki, ancaq qeyri-kommersiya mübadiləsinin düz hədəfi deyil:

- Ticarət subyektləri;
- Qeyri-kommersiya subyektləri;
- Seçilmiş mübadilə sferasında hüquqların zəmanəti;

- İqtisadi effekt;
- İqtisadi güzəştlər və maliyyələşdirilmə;
- Sosial effekt;
- Hüquqların və azadlıqların zəmanəti, ehtiyacların məmnunluğu;
- Hüquqlara və vəzifələrə uyğun olaraq davranış [15, s.276].

Qeyri-kommersiya təhsili əsas subyekt kimi çıxış edir: Dövlət və yerli özünüidarə orqanları, sahibkarlar və sənayeçilər birliyinin, həmkarlar ittifaqı təşkilatları, təhsil, sosial müdafiə və s.

Xüsusilə, onların fəaliyyəti münasibətlərin tənzimlənməsinə dair siyasət sahəsindən çıxarılıb iqtisadiyyat sahəsində, sosial müdafiə, mədəniyyət, səhiyyə, əhalinin məşğulluğu, əməyin mühafizəsi, ekoloji təhlükəsizlik və s. cəmiyyətin həyat fəaliyyətinin sosial problemlərinin həllinə də geniş yer ayrılır.

Bu etimadın yaradılması təklifləri, ideyaları, dəyərləri, informasiya, bilik, proqram və s. əsas subyektlərinin və gözləmə müddəti qarşılıqlı mübadiləsi, könüllü olaraq seçim azadlığı əsasında bu fəaliyyətin uğurunun mütləq şərtidir. Bu sazişin reallaşdırılması gözlənilən sosial effekti verən nümunəvi bir əks-səda (müsbət cavab reaksiyası) almağa istiqamətlənib.

Beləliklə, sosial mübadilə və bazar münasibətlərinin əsas subyekti arasında alqı-satqı prosesləri dövlət-ictimai əməkdaşlıq sistemində onların ehtiyaclarının və məqsədlərinin təmin edilməsinin razılaşdırılmış formasıdır.

Məsələ ondadır ki, qeyri-kommersiya marketinq alətlərininköməyi ilə də möhkəmləndirilən ictimai münasibətlər tərəfləri  təkrar əqdlər (birdəfəlik yox) etməyə stimullaşdıran kompleks şərait yaratmaqdır.

**Sosial mübadilə prinsipləri**

Bazar şəraitində ictimai münasibətlər mübadilə xarakteri daşıyır: fəaliyyətin subyektləri arasında qarşılıqlı münasibətlər, müxtəlif sosial qurumlarda, mükafat və (hüquq, mənfəət) xərclərin (vəzifələri, haqqı) mübadilə mürəkkəb sistem kimi çıxış edir.

Məsələn, əgər qarşılıqlı əlaqədə olan tərəflərdən birinin ehtiyacları var, amma əvəzində ekvivalent bir şey təklif edə bilməzsə, onda aşağıdakı alternativlər var: A) digər tərəfdən məcbur etmə; B) üçün lazım olan nemətlərin digər mənbəyin tapılması; V) Onları pulsuz almaq cəhdi; Q) digər tərəfə tabe olmaq [21, s.163].

Sosial mübadilə konsepsiyası sosial sahədə dəyər qanunun təsirini aradan qaldırır və  fərdi və qrup davranış prinsiplərinə əsaslanan qeyri-kommersiya mübadiləsi çərçivəsində sosial davranışı anlamağa imkan verir.

Prinsiplər və postulatlar sosial mübadilənin müsbət tipli təməl nəzəriyyə və praktikasını təşkil edir və sosial davranışı mükafat (funksional hüquq) fəaliyyət mexanizmi çərçivəsində və haqq (ödəniş) (funksional vəzifələri) başa düşməyə imkan verir [21, s.61].

Mülahizə nəticəsində könüllü rasional mübadilə ilə bir-birinin əksinə yönəlmiş maraqların arasında tam uyğun və mürəkkəb sosial qurumlara institutlaşmış dəyərlərə əsaslanan tətbiq edilə bilən hesab edilir.

Bu aspektdə incəsənət idarəçiliyi faydalılıq (möhkəmləndirmələr, mükafatlar) və əldə etmə (itkilər, cəzalar) elementləri arasında yaranan qazanc götürmək bacarığı kimi çıxış edir.

Bununla da ədalətli sosial mübadilə iştirakçıların iddiaları və onların ödənilməsi imkanlarının arzuolunan davranışını və istənilən reaksiyasını doğuran, ümidləri nəzərə alınmaqla bir situasiyanı modelləşdirmək imkanı yaradır.

Bu zaman yaranan şəbəkənin əsasında “mübadilə məzənnəsi” qrup maraqlarının təmin edilməsinin dinamikasının mənbəyi və səbəbi olaraq, hakimiyyəti və nüfuzu şərtləndirir.

Təəssüf ki, institusional və təşkilati səviyyələrdə sosial mübadilənin şəbəkələrinin səmərəliliyinin təhlili, daha da ağırlaşan sosial həyatın bütün prosesləri tam həcmdə idarəçiliyi üçün hələ də başa düşülməyəndir.

**Mübadilə əqdi.** İctimai münasibətlərdə sosial qarşılıqlı təsirlər prosesi ümumi gözləmə müddəti (ekspedisiya) qarşılıqlı mübadiləsi, insanlar, sosial qruplar, onların birlikləri, onların müxtəlif maddi, mənəvi, əməli, dəyərləri arasında könüllü olaraq çıxarılır-əldə edilir.

Bu proses bu sosial mübadilə "şəbəkələr"i çərçivəsində davranış aktlarının mübadiləsi sazişlərinin əsasında həyata keçirilir. P. Blau onları insanların öz aralarında ən böyük xeyirlərin əldə edilməsi məqsədi ilə "sövdələşirlər" apardığı "bazarla" müqayisə edirdi [19, s.31]. Mübadilə sazişlərində müxtəlif növ mexanizmlər (hüquqi, mənəvi, işgüzar və s.) və konkret vəziyyətlərdə mübadilələrin arasında balansa çatmağa imkan verən mübadilə prosesinin tənzimlənməsi hərəkətləri icra edilir. Bütün onlarda ən böyük rolu sosial dəyərlər, normalar və normativ strukturlar oynayırlar. Onlar iştirakçıların konformizminin sayəsində möhkəmləndirilirlər: uyğunlaşırlar - deməli, dərk edilmiş üstünlüyü alırlar. Dəyərlər və normalar mürəkkəb sosial strukturlarda bağlayıcı mexanizmdir, ancaq qiymətli-normativ razılıq sosial mübadiləni mümkün edir və ictimai münasibətlərdə qarşılıqlı təsir proseslərini idarə edir.

Bu halda qısamüddətli faydanın alınması ilə uzunmüddətli perspektivdə potensial itkilər arasında problem (güzəşt) baş verir.

Mübadilə sazişlərinin nizamlanması prinsipləri:

- Mübadilə prosesində iştirakın şəxsi məqsədə uyğunluğu: ümumi mükafat xərcləri (xərclər) ötür.
- Bu zaman lazımlı xərclər nəticəsində kifayət qədər (arzu olunan) mükafatı verən zaman həmin ölçünün rasional seçim məsələsi meydana gəlir.
- Tərəfdaşlar üçün qarşılıqlı effektivlik: əgər tərəflərdən birinin maraqları sıxışdırılırsa, o mübadilənin şəraitini (şərtlərini) təkrar gözdən keçirməyə və yeni üsulda onları nizama salmağa çalışacaq; bu münaqişələr və qeyri-sabit vəziyyətlər üçün təməldir.
- Mübadilənin iştirakçıları üçün meyarların (dəyərlər, normalar) vahidliyi: ödəmənin və mükafatın ölçüsünün qarşılıqlı yekdilliyi münasibətlərdə tarazlıqları təmin edir.
- Tamamilə bərabər mübadilələrin qeyri-mümkünlüyü isə odur ki, biri üçün baha olan, başqası üçün ucuz ola bilər.
- İnvariant (daimi) və deindividuallaşdırılmış (tarixən alınmış) mübadilələrin xarakteri: bu cəmiyyətdə mübadilə sazişlərinin tipik standartlarıdır, hansılar ki, (uyğunlaşmağa) rasional davranışın seçimi zamanı nəzərə almaq lazımdırlar.
- Mübadilə sazişlərində ədalət: haqsız münasibətlərdə öz iştirakını aşkar etmiş iştirakçılar psixoloji diskomfortu hiss edirlər. Haqsızlıq nə qədər daha güclü dərk edilirsə, daha güclü diskomfort və ədaləti bərpa etmək cəhdi o qədər intensiv olur.
- Mübadilə prosesində qrup davranışı: qrup kollektiv faydanı artırır, individlərin eqoizm təbiətini məhdudlaşdırır və şəxslərarası münasibətlərdə ədalətə riayət etməyə nail olur [20, s.173].

Yanlış mübadilələr. Yalanla bağlı "yanlış" mübadilələr problemi ayrıca maddələrdir. Özünü aldatma, səriştəsizlik, artıq sadəlövhlük və s. Yalan gündəlik və sosial həyatın universal müşayiətçi amilidir: o hər yerdə var, harada "görüş" insanların və sosial qrupların maraqları ilə həyata keçirilir. Onun problematikası müxtəlifdir; pisniyyətli yalandan səxavətliliyə və özünü aldatmaya qədər amplitudalarda görünür.

İnsanların, sosial qrupların və təşkilatların qarşılıqlı təsirlərində yalan fenomeni sosial mübadilənin neqativ tipini yaradır. Bu aldadılmış insanların səhv nəticə çıxardığı yanlış informasiya ilə bağlıdır.

Bu halda aldadan tərəf haqsız (qeyri-qanunini) faydanı əldə etməyə imkan tapır (imkan alır) və bu şəxs ən əxlaqsızdır.

Mübadilənin neqativ tipi prosesində ünsiyyətə görə tərəfdaşın yalanı texnologiyalardan və faktların təhrifi (informasiyalar, həqiqətlər, şüuru manipulyasiya etmə) metodlarından istifadəylə mümkün olur.

Onların istifadəsi müəyyən növ yalanın maskalanması incəsənətinə bağlıdır, fərdi şəxsi xüsusiyyətlərdən istifadələr və başqaları kimi yanlış fikrin insanlara tətbiqi.

Buna görə mübadilə sazişlərindən daha qiymətlisi odur ki, onlara diqqət göstərmək, ehtiyatlılıq, başqa tərəfin niyyətlərini anlamaq, yüngül inamlı davranışda sadəlövhlükdən imtina etmək bacarıqları daha çox lazımdır [20, s.207].

Aldanmağa (aldadılmağa qarşı çıxmaq) qarşı durmağın zəruriliyi, onun effektini aşağı salmaq, həqiqətdən yalanı ayırmağa kömək edən sosio-psixoloji müdafiə formaları haqqında bilik ehtiyacına səbəb olur. Qeyri-səmimilikdən səmimiyyət, safqəlbilikdən ikiüzlülük, dürüstlükdən yaltaqlığı seçməyə kömək edir.

**Hakim idarəetmə strukturlarında sosial mübadilə problemi**

İnsanların əməkdaşlığı pozitiv sosial mübadilənin meyarıdır, onun pozulması isə sosial əlaqələrin və münasibətlərin disbalansına səbəb olur. Bu mübadilə proseslərində sosial assosiasiyaların formaları yaranır - birlik, inteqrasiya, razılaşmalar və qarşıdurmalar, mübahisəlik, razılaşmama. Onlar mürəkkəb sosial strukturlar (institutlar, təşkilatlar) və alt strukturları yaradırlar. Sosial assosiasiyaların strukturu belə sosial proseslərdə cazibədarlıq, razılıq (təsdiq), qarşılıqlılıq və rasional davranış kimi köklərə malikdir. Ümumi dəyərlər bu proseslərdə vasitəçilər kimi çıxış edir və tərəflərin birbaşa və dolayı mübadilələrini mümkün edir. Beləliklə, ümumiliklərdə hərəkətləri əlaqələndirərək, qrupları və sosial nizamı qanuniləşdirərək.

Sosial dövlət çərçivəsində insanlar o gözlənti ilə sosial əlaqələrə və birləşmələrə daxil olurlar ki, onlar mükafatlandırlır və dəstəklənirlər, əgər bu hərəkətlər (təsirlər) faydalıdırsa real mükafatlandırılan olurlar. Belə mübadilə praktik xeyir gətirir və sosial mübadilədə iştirak edən tərəflərin arasında sosial əlaqələri möhkəmləndirir. Xüsusi halda, “mübadilə sazişləri” əsasında təmin olunma (məmnunluq) ictimaiyyətin gözləmələrinin maraqları qrupların hakimiyyətdən və nüfuzdan istifadəsinin dinamikasına səbəb olur. İnzibati strukturların idarə etdiyi həmin üsuldan faydalanaraq insanlar kollektivlə birlikdə onların adına təqdim edilən həmin üstünlükləri bəyənirlər. Nəticədə idarə etmək hüququyla tanınan tərəfin ümumi loyallıq hissi və onların müsbət qiyməti (qiymətləndirilməsi) inkişaf edir. İctimaiyyət onlara mövcud idarə sistemindən alınmış faydalar üçün administrativ-idarə strukturlarını mükafatlandırır, nəinki, öz siyasi dəstəyini institutsionalilaşdırılmış sosial normalara və dəyərlərə göstərir. Hakimiyyət, öz növbəsində, ictimai etibar və qiymətli razılıq əsasında sosial sıra (nizam) təşkil edir və onu möhkəmləndirir. Əksinə, insanların güman etdiklərinin alınmaması halında, onlarda mövcud inzibati-idarə strukturlarına qarşı narazılıq inkişaf edir. Həddən artıq tələblərlə əlaqədar zülm hissi insanları mübadiləyə narazılıqlarla birgə itələyir və müxalifət hərəkatlarının təşkilini sürətləndirir.

Sosial həyatın bir çox aspektləri sosial qarşılıqlı təsirdən fayda alınmasında marağı əks etdirir və insanlar öz sosial assosiasiyalarında (ictimai hərəkatlar, həmkarlar ittifaqları və s.) mükafatı əldə etməyə çalışırlar. Bu halda əgər əməkdaşlıq onlar üçün mükafatlandırılandırsa, onda sosial həyatda iştirakla (qeyri-kommersiya) mübadilə şəxsi maraqların və güman edilən mənfəətlərin insanlar tərəfindən reallaşdırmasına imkan yaradır. Belə mübadilə mükafatlandırılan təcrübəylə əməkdaşlıqdan xeyirləri gətirir və sosial mübadilədə iştirak edən tərəflərin arasında sosial əlaqələri möhkəmləndirir.

Beləliklə, cəmiyyətin struktur elementlərinin əməkdaşlığında maraq onların şəxsi mükafat gözləmələrindən asılıdır. Göstərilmiş xidmətlər üçün sosial öhdəliklər bununla yaradılır. Bununla insan başqa stimulları onunla dostluq münasibətləri davam etməkdən məhrum edir. O həmçinin naşükürlükdə ittiham ediləcək: insanlar könüllü göstərilmiş xidmətlər üçün qarşılıqlılığı gözləyirlər. Əksinə, “hakimiyyət ictimaiyyətin xeyrinə hərəkət edən (qüvvədə olan),” ona gələcəkdə fayda gətirməyə imkan verən minnətdarlıq, hörmət - reputasiya, nüfuz, imic qazandıran əməkdaşlıqdır [20, s.274].

Sosial tanınma, siyasi dəstək və kredit - daha (daha çox) üstün işdir, nəinki sosial borcun (vəzifənin) mövcudluğu.

Dövlət hakimiyyəti onların xidmətlərində ictimaiyyətin ehtiyaclarını təmin etməyə öhdəliklərin özünə qəbul əvəzi olaraq cəmiyyətin həyat fəaliyyətini idarə etməsinə eksklüziv hüququnu əldə edir. Vətəndaşların və hakimiyyət orqanlarının qarşılıqlı anlaşmasının ümumi gözləntisi, onları təqdim edən şəxslərin ictimai cəhətdən əhəmiyyətli sosial əməkdaşlığa can atan əməkdaşlıqların qarşılıqlı təsiri üçün əsas yaradır. Öz sosial öhdəliklərinə məhəl qoymama insanları hakimiyyətdən döndərir və ona etibarsızlıq, təmənnasızlıqda şübhə, qınama kimi neqativ münasibətə səbəb olur.

Bu aspektdə inzibati-idarə orqanlarının və onlarla ictimaiyyət arasında əməkdaşlığın lazımi əsası kimi borcun (vəzifənin) və etibarın zəncirlərinin yaradılması ictimai münasibətlərdə onlar arasında səylərin birləşdirilməsinin yüksək dərəcəsini təmin edən sosial mübadilənin əsas funksiyasıdır. Sosial tərəfdaşlıq sistemi Qərb dünyasında, eləcə də Rusiyada inkişaf edib ki, onların təcrübəsindən bəhrələnmək gərəkdir.

Rusiyanın əksər xalqlarının maraqları naminə ədalətli sosial qaydalar sisteminin yaradılması yalnız dövlətin işi ola bilməz. Dünya təcrübəsi, o cümlədən inqilabaqədərki Rusiyanın təcrübəsi göstərir ki, sosial münaqişələri heç bir dövlət, heç bir bazar, heç bir ailə təklikdə aradan qaldıra bilməz. Yalnız sosial tərəfdaşlıq ictimai arenada müxtəlif qüvvələrin konstruktiv qarşılıqlı təsiri insanlara ləyaqətli həyat üçün bərabər imkanları təmin etməyə qabildir [11, s.304].

Bu gün Rusiyada sosial tərəfdaşlığın mənası – dövlət strukturları, sahibkarlıq strukturları, həmçinin həmkarlar ittifaqları və ictimai təşkilatların daxil olduğu üç ictimai sahə çərçivəsində qarşılıqlı faydalı qarşılıqlı təsirdir.

Qarşılıqlı təsir zəruridir ki, yoxsulluq, evsizlik, yetimçilik, ətraf mühitin çirklənməsi, cinayətkarlığın çoxluğu kimi ciddi problemləri birgə səylərlə həll etmək mümkün olsun. Yuxarıda göstərilən üç sahənin hər birinin nümayəndələri bu bəşəri fəlakətlərə görə öz məsuliyyətlərini müxtəlif cür dərk edirlər, yardım üçün müxtəlif imkan və ehtiyatlara, resurslara malikdirlər, sosial problemlərin özünün təbiəti haqqında müxtəlif təsəvvürləri var. Lakin müxtəlifliklərə və ziddiyyətlərə baxmayaraq, əməkdaşlıq mümkündür, ən başlıcası isə zəruridir.

Rusiyada dövlətin mühüm funksiyalarından biri həmişə əhalinin müxtəlif sosial təbəqələr arasında tarazlıq və dialoqa yardım etmək olmuşdur. Keçmiş dövrdə bazar islahatlarının əsas səhvi sosial sferada və bazar iqtisadiyyatının idarə olunmasında ümumdövlət təsisatlarının rolunun tamamilə düzgün qiymətləndirilməməsidir [11, s.309].

Rusiyada sosial tərəfdaşlığın uğurlu orta sinfin formalaşması dinamikası müəyyən edilir. Bu sinif son məqamda əhalinin 50%-ni əhatə edə bilər. Eyni zamanda əhalinin gəlirinin yaşayış minimumu 10-15%-dən az olan payı aşağı düşür. Dövlət əgər onun təbii dayağı insanların kütləvi təbəqəsi orta çatışmazlıqla sürətlə təşəkkül tapmağa başlamırsa, sadəcə olaraq, uzun müddət parçalanmış cəmiyyətin ziddiyyətli seqmentlərini birləşdirə bilməz.

Bunlar özləri, öz yaxınları üçün, eləcə də öz ölkələri üçün nə istədiklərini aydın təsəvvür edən insanlardır. Orta sinfin formalaşması bütün sosial konstruksiyanın zəruri sabitliyini verir və sosial parçalanmanın aradan qaldırılması üçün əsas rolunu oynayır.

Beləliklə, sosial tərəfdaşlığın əsas məqsədi müxtəlif qrup, təbəqə və siniflərin maraqlarının uzlaşdırılması və müdafiəsi, aktual iqtisadi, sosial və siyasi məsələlərin həllinə, sosial hüquqa dövlət və açıq demokratik vətəndaş cəmiyyətinin formalaşmasına yardım etməkdir. Sosial tərəfdaşlıq sistemində bütün tərəflər dərk etməlidirlər ki, sosial tərəfdaşlıq öz üzərinə götürülmüş öhdəliklərin tam yerinə yetirilməsini və keyfiyyətə görə yüksək məsuliyyət, peşəkarlıq tələb edir. Yalnız belə halda – birgə əməkdaşlıq sayəsində mövcud problemləri aradan qaldırmaq, sosial prosesləri səmərəli etmək olar.

Sosial tərəfdaşlıq sistemində hər bir sektorun öz güclü tərəfləri olur. Birlikdə onlar güclü sinergetik səmərə verir. Qərb ölkələrində o, təsir subyektləri arasında hərəkət birliyi, tərəfdaşlığın dəqiq sazlanmış mexanizminin tənzimlənməsi sayəsində əldə edilir.

Bir çox hallarda kommersiya sektoru öz maraqlarını, dövlət isə öz baxışlarında mühafizəkar olaraq qalır və çox vaxt novator layihələrdə ehtiyatlılıq, təmkinlilik amili rolunda çıxış edir. Belə

vəziyyətdə üçüncü sektor daha tez dəyişən sosial şəraitin tələblərinə cavab verən yeni ideyaları toplamağa, yığmağa qabil olan yaradıcı qüvvə olmalıdır.

**Məqalədəki təhlildən bir sıra elmi nəticələr hasil olunur:**

Sosial tərəfdaşlıq özündə sosiumun (dövlət institutları, korporasiyalar, qeyri-kommersiya təşkilatları, sosial qruplar və s.) bir çox subyektlərinin qarşılıqlı təsirini əks etdirir ki, onlara öz maraqlarını sərbəst ifadə etməyə, onların həyata keçirilməsinin sivil yollarını tapmağa imkan verir:

1. Sosial tərəfdaşlığın təhlilinə nəzəri yanaşmanın əsasında “sosial qarşılıqlı təsir” anlayışı durur. O, insanlar, o cümlədən sosial tərəfdaşlar arasında münasibətlərin xarakter və məzmunu ifadə edir. Sosial qarşılıqlı təsir cəmiyyətdə müxtəlif funksiyaları: stabilləşdirici, birləşdirici, destruktiv funksiyaları yerinə yetirir. İctimai inkişafın müasir mərhələsində stabilləşdirici funksiyanın əsas yerinə yetirilmə mexanizmi sosial tərəfdaşlıqdır;

2. Sosial tərəfdaşlıqda sosial tərəfdaşın öyrənilməsinə sonrakı yanaşma – sosial razılaşma nəzəriyyəsidir. O, bir çox insanların baxışlarının və əməllərinin prinsipial vəhdətini səciyyələndirən müxtəlif növlü ictimai münasibətləri əks etdirir. Bunun ictimai qüvvələr arasında məqsədlərinin uzlaşmasını sosial tərəfdaşlıq institutu təmin edir;

3. Daha bir yanaşma – sosial iştirak nəzəriyyəsidir. O, insanların dövlət və cəmiyyət qarşısında duran problemlərinin həllinə, onların cəlb olunması prosesini izah edir. İctimaiyyət və hakimiyyət orqanları arasında qarşılıqlı təsir əsasında işgüzar tərəfdaşlıq tələb edən kollektiv məsuliyyət prinsipi durur.

**Açar sözlər:** sosial tərəfdaşlıq, sosial razılıq, sosial iştirak, sosial mübadilə, sosial qarşılıqlı təsir

**İstifadə edilmiş ədəbiyat**

1. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Bakı: Elm və təhsil, 2010, 636 s.
2. Qaraşov H.T. Həmkarlar ittfaqı rəhbəri: sosial idarəetmə subyekti kimi. Bakı: 2010, 139 s.
3. Абрамов Н.Р. Региональные аспекты социальное партнертво. М.: 2009, 141 с.
4. Баглай М.В. Профсоюзы и рынок в социальном государстве. М.: 2015, 110 с.
5. Батин М.Т. Социальное партнерство: новый взгляд. М.: 2007, 214 с.
6. Вальковой А.Ф. Урегулирования трудовых споров в рамках системы социального партнерства. М.: 2002, 340 с.
7. Войтова Л.С., Сиротенко Д.В. Система социального партнертва в Белгородской области. М.: 2012, 180 с.
8. Волгин Н.А. Эффективность социального партнертва. М.: 2009, 470 с.
9. Гайнуллина Ф.И. Международный опыт развития социального партнерства. М.: 2009, 195 с.
10. Гусейнов К.А. Профсоюзы Азербайджана. Баку: Эльм, 1965, 259 с.
11. Домнич А.М. Перспективы развития социального партнертва. М.: 2003, 140 с.
12. Жуков В.И. Российское образование: итоги, традиции, проблемы. М.: 2011, 168 с.
13. Жукова И.Г. Социальное партнертво на мунициальном уровне: реальность или декорации. М.: АТИСО, 2007, 192 с.
14. Ионов А.А. Социальные формы информационного партнерства в системе современного гражданского общества. М.: 2007, 201 с.
15. Каменецкий В.А. О партнерстве. М.: 2008, 211 с.
16. Киселев В.Н. О необходимости формировния российской модели социальное партнерство. М.: 2014, 179 с.

17. Маниева Р.С. Основы профсюзного движения. Баку: Авропа, 2015, 242 с.
18. Олейникова О.Н. Социальное партнертво в сфере профессионального образования. М.: 2013, 284 с.
19. Перегудов С.П. Трипартизм и новое социальное партнертво. М.: 2009, 125 с.
20. Сафронова И.В. Проблема социального партнертво в Российских средствах массовой инфомации. М.: 2011, 239 с.
21. Шулус А.А. Российская модель социального партнерства. М.: 2007, 241 с.

**Гусейн Гарашов**
**Зейнаддин Шабанов**

## ЭЛЕМЕНТЫ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОГО ПАРТНЕРСТВА

### Резюме

В данной статье отмечается, что социальное партнерство является системой защищающих цивильных обществе отнощения и соглосование работадателей, предприниателей, различных социальных групп и слоев, государственных органов и местных органов управления по направлению договоров, политико-социально-экономического развития для достижения конценсуса. На практике с целью социальных, культурных, образовательных, научных, управленческих и благатворительности нематериальные потребности населения, их правовые интересы, а также правовой защиты, рзрешит споры, конфликты, встречается партнерство, которое реализуется некоммерческими организациями. По мнению авторов в социальном партнерстве социальное взаимодейстие, социальный обмен, социальное участия имеет важное значение.

**Ключевые слова:** социальное партнерство, социальное согласие, социальное участие, социальный обмен, социальное взаимодействие

**Husseyn Qarashov**
**Zeynaddin Shabanov**

## ELEMENTS OF THE ORGANIZATION OF SOCIAL PARTNERSHIP

### Summary

İt is noted that social partnership is a system of civilized social relations, it provides protection of workers, employers, entrepreneurs, different social groups, sections, public unions, state government and local self-government bodies, on the direction of social-economic, political development for achieving the consensus. With social, charitable, cultural, educational, scientific and management purposes, for solving non-material needs, legal interests, human rights protection and conflicts of citizens, non-commercial partnership implemented by non-commercial organizations is found in practice. According to the authors, social interaction, social exchange, social participation in the social partnership are important.

**Keywords:** social partnership, social agreement, social partnership, social exchange, social interaction

**UOT – 316.33**

**Vəkil Həsənov**
**Azərbaycan Dövlət İqtisad Universiteti, t.ü.e.d.**

# İNZİBATİ AMİRLİK DÖVRÜNDƏ AZƏRBAYCAN SSR HƏMKARLAR İTTİFAQLARININ STRUKTURLARINDA KADR SİYASƏTİ (1920-1953-cü illər)

*Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə yeni sistemin – inzibati amirlik rejiminin əsası qoyuldu. Bu sistem bütün idarə orqanlarının, o cümlədən ictimai təşkilatların işinə də öz təsirini göstərdi. Həmkarlar ittifaqlarının strukturunda, onların kadrlarla təmin edilməsində əsaslı dəyişiklik baş verdi. Kadr siyasəti tam şəkildə partiyanın nəzarəti altında idi. Həmkarlar ittifaqlarına kadrlar sinfi prinsiplə, əsasən fəhlə və kəndlilərdən seçilirdi. Kadr siyasətində hökm sürən milli ayrıseçkilik azərbaycanlıların dövlət işlərinə cəlb edilməsinə mənfi təsir göstərirdi.*

Həmkarlar ittifaqları inzibati amirlik sistemində öz yeni roluna - Kommunist partiyasının həmkarlar ittifaqları barədə proqramına uyğun olaraq fəaliyyət göstərmişlər. Bu proses mürəkkəb və ziddiyyətli bir proses idi, yeni iş forma və metodlarının axtarışı, bir çox hallarda isə yol verilmiş müxtəlif səhvlərin əzabla aradan qaldırılması ilə səciyyələnirdi. İnzibati amirlik sisteminin möhkəmlənməsi şəraitində həmkarlar təşkilatları kütlələri idarə etmək bacarığına yiyələnməklə yanaşı, zəhmətkeşlərin mənafelərinin müdafiəsi funksiyasını da yerinə yetirməli, bu vəzifəni əməyin təşkili, istehsalatın inkişaf etdirilməsi qayğısına qalmaq fəaliyyəti ilə uzlaşdırmalı idilər. İnzibati amirlik sistemində dövlət idarəçiliyi funksiyalarını da öz əlində cəmləşdirmiş Kommunist partiyası sovet dövlət aparatında mövcud olan bürokratik əngəllərdən zəhmətkeşləri müdafiə etməli olan həmkarlar təşkilatlarını faktiki olaraq özündən asılı bir orqana çevirmişdi. Kommunist partiyası həmkarlar ittifaqlarından zəhmətkeşlərin mənafelərini müdafiə etmək funksiyasının sovet dövlətini möhkəmləndirmək vəzifəsi ilə uzlaşdırılmasını tələb edirdi. Bu isə inzibati amirlik sistemində son dərəcə çətin bir iş idi. Ona görə də həmkarlar təşkilatları öz əsl funksiyalarını tam şəkildə yerinə yetirə bilmirdilər. Formal olaraq partiya həmkarlar ittifaqlarına heç bir göstəriş vermək hüququna malik deyildi. Ancaq partiya həmkarlar ittifaqlarına rəhbərliyi həmin təşkilatlarda işləyən kommunistlər vasitəsilə həyata keçirirdi. Həmkarlar təşkilatlarındakı kommunist fraksiyalarının əsas vəzifəsi həmkarlar ittifaqları orqanlarında inandırma yolu ilə elə qərarların qəbul edilməsinə nail olmaq idi ki, onlar partiyanın direktivlərinə uyğun gəlsin. İ.V.Stalin yazırdı ki, “… bunsuz biz fəhlə sinfinin bu təşkilatlarında ixtilaf və qarışıqlığa nail olmuş olardıq” [1, s.82].

1920-ci il aprelin 28-də Azərbaycanın tarixində əsaslı siyasi dəyişiklik baş verdi. Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycanda müstəqil respublika süqut etdi və yeni bir rejimin - Sovet hakimiyyətinin əsası qoyuldu. Yeni yaranmış proletariat diktaturasının hakimiyyəti dövründə siyasi sistem də dəyişdirildi. Bu sistemdə əvvəlki cəmiyyətdə əzilən sinif olan fəhlələr hakim qüvvəyə çevrildilər. Ona görə də fəhlələrin üstünlük təşkil etdikləri ictimai təşkilatların da yeni cəmiyyətdə rolu dəyişildi. Ən kütləvi təşkilatlardan biri olan həmkarlar ittifaqlarının təşkilati quruluşunda yeni şəraitə uyğun olaraq dəyişikliklər edildi.

Azərbaycanda sovet həmkarlar ittifaqlarının yaradılmasına 1920-ci ilin mayında başlandı. 1920-ci il iyunun 5-də isə həmkarlar ittifaqlarının təşkilati cəhətdən yenidən qurulması nəticəsində 24 həmkarlar ittifaqı yaradıldı [2]. Azərbaycan həmkarlar ittifaqları Ümumrusiya həmkarlar ittifaqları Mərkəzi Şurasının (ÜRHİMŞ) müəyyən etdiyi sxemə uyğun olaraq istehsalat prinsipi üzrə yaradılırdı. İlk dövrdə Azərbaycanda Sovet Rusiyasının həmkarlar ittifaqlarının müvafiq respublika şöbələri təşkil edilmişdi. 1920-ci il iyunun 30-da keçirilən həmkarlar ittifaqlarının birinci Ümumbakı konfransında onların vahid təşkilat şəklində birləşməsi prosesi başa çatdı. Konfransda vahid respublika mərkəzi həmkarlar ittifaqları orqanı olan Azərbaycan həmkarlar ittifaqları şurası - AHİŞ ya-

radıldı. Azərbaycanın qəzalarında isə həmkarlar ittifaqlarının qəza şöbələrini və onları birləşdirən orqanlar - qəza büroları yaratmaq barədə qərar qəbul edildi. AK(b)P MK və BK-nın göstərişi əsasında AHİŞ-in rəyasət heyətinə İ.İ.Anaşkin, B.D.Ağayev, Z.Dadaşov, İ.M.Konuşkin, Qausman, A.İ.Mikoyan, L.İ.Mirzoyan, M.E.Sapunov və A.A.Nikişin seçildilər. AHİŞ-in sədri isə A.İ.Mikoyan təyin edildi [3, s.164].

1920-ci il 29 avqust - 6 sentyabrda keçirilən Azərbaycan həmkarlar ittifaqlarının birinci qurultayında seçilən rəyasət heyəti üzvlərinin tərkibi də o dövrdə milli ayrıseçkiliyin açıq nümunəsi idi. Qurultayda rəyasət heyətinə 7 üzv: L.İ.Mirzoyan, M.E.Sapunov, İ.M.Konuşkin, Z.Dadaşov, A.A. Nikişin, Ə.Xanbudaqov, A.E.Çurayev və 2 namizəd - R.İzmaylov və Mikadze seçilmişdilər [1, s.82]. Göründüyü kimi AHİŞ-in rəyasət heyətinə seçilənlərin əksəriyyəti başqa millətlərin nümayəndələri idi. Qurultaydan sonra sentyabrın 7-də keçirilən AHİŞ-in Rəyasət Heyətinin iclasında təşkilati məsələyə baxılmış, M.E.Sapunov AHİŞ-in sədri, L.Mirzoyan isə katib təyin edilmişdi [5]. AHİŞ-in mərkəzi aparatında məsul vəzifə tutanların hamısı başqa millətlərin nümayəndələri idi. 1921-ci ildə Xalq Əmək komissarı A.Çurayev, AHİŞ-in Mədəniyyət şöbəsinin müdiri V.Kasparov, Statistika şöbəsinin müdiri B.Quxman, İnformasiya şöbəsinin müdiri M.Danilov, İqtisadi şöbənin müdiri E.Şeftel, Təşkilat şöbəsinin məsul katibləri Rayxlin və L.Frik, Tarif-iqtisadi şöbəsinin müdiri T.A.İvanov, Əməyin normalaşdırılması şöbəsinin müdiri İ.M.Konuşkin idi [6]. 1921-ci il martın 26-da keçirilən AHİŞ-in Rəyasət heyətinin iclasında L.Mirzoyan AHİŞ-in sədri seçildi [7]. 1923-cü il fevralın 10-da AHİŞ-in rəaysət heyətinin iclasında isə AHİŞ-in sədri İ.Konuşkin seçildi [8]. AHİŞ-in idarə aparatının bu cür tərkibi təkcə azərbaycanlı kadrların çatışmazlığının nəticəsi deyil, milli ayrıseçkiliyin bariz nümunəsi idi. Həmkarlar ittifaqları öz müstəqilliklərini itirərək Kommunist partiyasının göstərişlərini yerinə yetirən bir təşkilata çevrildilər. Kommunist partiyası yaxşı başa düşürdü ki, geniş fəhlə kütlələrini öz sıralarında birləşdirən həmkarlar ittifaqlarının köməyi olmadan sosialist təsərrüfat quruculuğunu həyata keçirmək, geniş kütlələri bu işə cəlb etmək çətin olacaqdır. Ona görə də Kommunist partiyası həmkarlar ittifaqlarına idarəetmə məktəbi, kommunizm məktəbi, dövlət hakimiyyətinin ehtiyat qüvvəsi kimi baxırdı. Həmkarlar ittifaqlarının fəaliyyətinə partiyanın nəzarəti getdikcə güclənirdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin partiya üzvlərinə 1920-ci il 28 may tarixli müraciətində proletariat diktaturası dövründə həmkarlar ittifaqlarının rolu qeyd edilmiş, diyar komitəsi hər bir kommunistə həmkarlar ittifaqlarında partiyanın baş xəttini fəal həyata keçirməyi bir vəzifə olaraq tapşırmışdı [9].

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda həmkarlar ittifaqlarına partiya rəhbərliyi nümayəndələr mübadiləsi yolu ilə həyata keçirilirdi, yəni AHİŞ-in nümayəndəsi AK(b)P MK-ya və əksinə, MK-nın nümayəndəsi AHİŞ-ə daxil edilirdi. Sonrakı illərdə partiya həmkarlar ittifaqlarının fəaliyyətinə nəzarəti daha da gücləndirdi və bu işi əsasən həmkarlar təşkilatlarındakı kommunistlərdən ibarət fraksiyalar vasitəsilə həyata keçirirdi. Partiya həmkarlar təşkilatlarına zəhmətkeşləri təsərrüfat quruculuğuna cəlb etmək üçün özünün əsas ehtiyat qüvvəsi kimi baxırdı. AK(b)P-nin II qurultayının (1920-ci il, oktyabr) qətnaməsində deyilirdi: “həmkarlar ittifaqları fəhlə kütlələrinin geniş tərbiyə məktəbidir, partiya və dövlət yeni ictimai quruluşu yaratmaq üçün bütün yeni qüvvələri oradan götürür” [10, s.14]. 1921-ci ildə AK(b)P MK-nın həmkarlar ittifaqlarının fəaliyyətinə partiyanın rəhbərliyini tənzimləyən sərəncam xarakterli məktubu nəşr edildi. Bu sənəddə bütün partiya komitələrinə həmkarlar təşkilatları nəzdində paritiya üzvləri və namizədlərindən ibarət kommunist fraksiyalarını təşkil etmək barədə göstəriş verilmişdi. Partiya komitələri bu fraksiyalar vasitəsilə həmkarlar ittifaqlarının fəaliyyətini istiqamətləndirməli, həmkarlar ittifaqlarında partiyanın baş xəttinin həyata keçirilməsinə nəzarət etməli idilər. Mərkəzi komitənin məktubunda açıq şəkildə bildirilirdi: “həmkarlar ittifaqlarının fraksiyaları - həmkarlar ittifaqlarının qəza büroları və yerli katibləri iki həftədə bir dəfədən az olmayaraq partiya komitələrinə həmkarlar ittifaqlarında işin vəziyyəti barədə məruzə etməlidirlər” [10, s.14]. Məktubda həmçinin partiya və həmkarlar təşkilatları nümayəndələrinin bu təşkilatların rəhbər orqanlarına qarşılıqlı daxil edilməsi qaydaları göstərilmişdi. Səran-

cam xarakterli bu məktub partiya təşkilatlarının həmkarlar ittifaqları ilə qarşılıqlı münasibətlərini tənzimləyən ilk sənəd oldu. Məktubda ciddi şəkildə partiyanın qərarlarının həmkarlar ittifaqlarına məcburi qəbul etdirilməsinə yol verilməməsi, onlara ən kiçik himayə edilməsinin yolverilməzliyinin zəruriliyi barədə xəbərdarlıq edilirdi. Bu xəbərdarlığa baxmayaraq, Kommunist partiyası məhz bu fraksiyalar vasitəsilə həmkarlar ittifaqlarının fəaliyyətinə nəzarət mexanizmini həyata keçirirdilər. Ona görə də həmkarlar təşkilatlarında kommunistlərdən ibarət fraksiyaların gücləndirilməsinə xüsusi diqqət verilirdi. AK(b)P-nin IV qurultayının qərarlarında (1922-ci il, fevral) həmkarlar təşkilatlarında müxtəlif təmayüllərin və səhvlərin baş verə biləcəyinin qarşısını almaq məqsədilə bu təşkilatlarda kommunistlərdən ibarət fraksiyaların gücləndirilməsinə diqqətin artırılması partiya komitələrindən tələb edilirdi. Qurultayın qərarında deyilirdi: “həmkarlar hərəkatına fövqəladə mühüm əhəmiyyət verərək və orada partiyanın daimi möhkəm rəhbərliyi olmadan təmayüllərin mümkünlüyünü nəzərə alaraq, keçmişdə heç bir siyasi partiyaya daxil olmamış ən sınanmış və qocaman partiya üzvlərini rəhbər həmkarlar işinə göndərmək lazımdır. Həmkarlar ittifaqlarının idarə heyətlərinin katibləri üçün 5 ildən az olmayan, qəza həmkarlar burosunun katibləri üçün isə iki il partiya stajı müəyyən edilsin” [11, s.76-77].

Partiyanın göstərişlərinə uyğün olaraq həmkarlar təşkilatlarının idarə heyətlərində kommunistlərin sayı ildən ilə artırdı. Sovet sisteminin bütün mövcudluğu dövründə rəhbər orqanlara kommunistlərlə bitərəflərin seçilməsi təmin edilirdi. 1923-cü ildə zavod komitələri üzvlərinin 36%-ə qədəri kommunistlər idisə, 1924-cü ildə onların sayı 60%-ə çatmışdı [12, s.20]. 1926-cı il yanvarın 1-nə olan məlumata görə Azərbaycan həmkarlar ittifaqları idarə heyətlərinin 442 nəfər seçkili işçisinin 72,4%-i kommunist, 3,4%-i isə komsomolçu idi. Sosial mənşəyinə görə bu işçilərdən 257 nəfəri fəhlə, 178 nəfəri qulluqçu, 7 nəfəri isə kəndli idi [13, s.50]. Kommunist partiyası həmkarlar ittifaqlarında kommunist fraksiyalarının fəaliyyətinin gücləndirilməsinə daimi diqqət yetirirdi. AK(b)P MK-nın 1925-ci ilin sentyabrında keçirilmiş plenumunda qəbul edilmiş “AHİŞ-in işi haqqında” xüsusi qətnamədə deyilirdi: “kommunist özəklərinin fabrik-zavod komitələrini ən kiçik himayə etməsi hallarını aradan qaldırmaq lazımdır. Özəklər kommunistlərdən ibarət fraksiyalar vasitəsilə fabrik-zavod komitələrinin işinə rəhbərlik etməli və onu istiqamətləndirməlidirlər”. Qətnamədə fraksiyaların təşkilinə diqqətin artırılması tələb edilirdi: “yerlərdə fabrik-zavod komitələrinin fraksiyalarını formalaşdırmaq lazımdır. Harada ki onlar yoxdur, təşkil olunmalıdır” [11, s.227].

Partiyanın həmkarlar ittifaqlarına nəzarəti getdikcə güclənirdi. Həmkarlar ittifaqlarının fəaliyyətində inzibatçılıq və bürokratik meyillər artırdı. Fəhlə kütlələri içərisində əməli iş aparmaq əvəzinə həmkarlar ittifaqları bəzən öz işlərini göstəriş və əmr vermək formasında qururdular. Bir sıra hallarda fabrik-zavod komitələrinin işinə rəhbərliyi partiya orqanları öz əllərinə alırdılar, bu isə bitərəf fəhlələrin həmkarlar təşkilatlarının işinə marağını azaldırdı. Fəhlələr həmkarlar təşkilatlarının iclaslarına həvəssiz gedirdilər və bunu onunla əsaslandırırdılar ki, onsuz da kommunistlər bütün məsələləri iclasa qədər özləri həll etmişlər və müzakirə formal xarakter daşıyır. Bu cür hallar həmkarlar ittifaqlarının öz əsas vəzifəsindən uzaqlaşmasına, onların kütlələr içərisində tərbiyə işinə mənfi təsir göstərirdi. İnzibatçılığa meyil, işdə formalizm və yeknəsəklik, fəhlələrin mənafeyini müdafiə etmək əvəzinə müəssisə rəhbərliyinin mövqeyinin danışıqsız müdafiə edilməsi və s. kimi hallar fəhlələrin öz həmkarlar ittifaqlarına inamını azaldır, onları aşağı həmkarlar orqanlarında fəal işdən uzaqlaşdırırdı.

Həmkarlar ittifaqlarının rəhbər orqanlarında azərbaycanlılar azlıq təşkil edirdilər. 1923-cü ilin iyulunda Azərbaycan həmkarlar ittifaqları idarə heyətlərinin 291 nəfər üzv və namizədindən cəmi 22,5%-i azərbaycanlı, 52,7%-i rus, 13%-i erməni, 11,8%-i isə başqa millətlərin nümayəndələri idi [14]. Bəzi həmkarlar ittifaqlarının aparatında isə bir nəfər də olsun azərbaycanlı yox idi. 1923-cü ildə fabrik-zavod həmkarlar komitələri üzvlərinin cəmi 25,4%-ni azərbaycanlılar, 74,6%-ni isə başqa millətlərin nümayəndələri təşkil edirdilər. Həmkarlar müvəkkillərinin cəmi 17,6%-i azərbaycanlı idi.

Azərbaycan həmkarlar ittifaqlarının idarə heyətlərində daimi işləyənlər içərisində vəziyyət daha acınacaqlı idi. 1922-ci ildə həmkarlar ittifaqları aparatında çalışan 244 nəfər həmkarlar işçisindən 116 nəfəri rus, 45 nəfəri yəhudi, 52 nəfəri başqa millətlərin nümayəndələri, cəmi 31 nəfəri və ya 12,7 %-i azərbaycanlı idi [14]. Kiçik həmkarlar təşkilatlarının birləşməsi nəticəsində həmkarlar ittifaqları idarə heyətlərinin ştatda olan məsul və texniki işçilərinin sayı 1922-ci ildə 244 nəfərdən 1924-cü ildə 237 nəfərə enmişdi [15]. 1926-cı il yanvarın 1-nə isə idarə heyətlərində 442 nəfər çalışırdı. Onlardan 257 nəfəri fəhlə, 178 nəfəri qulluqçu, 7 nəfəri kəndli idi [16, s.50]. Maraqlı cəhət burada idi ki, həmkarlar ittifaqlarının aşağı təşkilatlarında da azərbaycanlılar azlıq təşkil edirdilər. 1924-cü il yanvarın 1-nə Azərbaycanda həmkarlar ittifaqlarının 373 seçkili orqanlarında (fabrik-zavod yerli komitələrində) 1537 nəfər çalışırdı. Bundan əlavə 1133 təşkilatda 4807 nəfər müvəkkil və nümayəndə var idi. Fabrik-zavod komitələrində işləyənlərin 46%-i rus, 31%-i azərbaycanlı, 22,9%-i başqa millətlərin nümayəndələri idi. Müvəkkil və nümayəndələrin tərkibində isə ruslar 43,9%, azərbaycanlılar 29,5%, başqa millətlər 26,6% təşkil edirdi [17, s.20-21]. 1924-cü illə müqayisədə 1926-cı ildə fabrik-zavod komitələri üzvlərinin tərkibində azərbaycanlıların sayının artması bütövlükdə həmkarlar ittifaqları üzvlərinin sıralarında azərbaycanlıların sayının xeyli artması, həmçinin həmkarlar ittifaqlarının təşkilati-kütləvi işinin güclənməsi ilə bağlı idi. Həmkarlar ittifaqları üzvləri tərkibində azərbaycanlılar 1924-cü ilin yanvarında 32,1% təşkil edirdisə, 1926-cı ilin yanvarında bu 39,1%-ə yüksəlmişdi. Buna baxmayaraq, həmkarlar ittifaqları üzvləri içərisində azərbaycanlılar başqa millətlərlə müqayisədə yenə də azlıqda qalırdılar. 1926-cı il martın 10-da AHİŞ-in plenumunda 16 nəfər üzv və 5 namizəddən ibarət rəyasət heyəti seçilmişdi. Rəyasət heyətinin üzvlüyünə L.İ.Mirzoyan, S.A.Qutin, T.A.İvanov, H.B.Ağaverdiyev, R.A.İzmaylov, İ.Rəhimov, E.B. Şeftel, Z.A.Edelson, O.Ə.Zeynalov, P.Qasımov, İ.İ.Qodlevski, Y.Abdinov, B.Səfərov, E.Qriqoryan, N.D.Çeçetkin, N.Qolubev, namizədliyə Z.Pokopov, E.N.Mişina, F.V.Qodov, M.Seyidov, Y.Andreyev seçilmişdilər. Plenumda T.A.İvanov AHİŞ-in sədri, R.A.İzmaylov katibi, İ.Rəhimov təşkilat şöbə müdiri, Z.A.Edelson mədəniyyət şöbə müdiri, L.M.Frik AHİŞ-in məsul xəzinədarı, N.Qolubev Azərbaycan SSR Xalq Əmək komissarı, Y.Andreyev AHİŞ-in orqanı olan «Trud» qəzetinin redaktoru seçilmişdilər [18, v.7].

1928-ci il martın 21-28-də isə Azərbaycan həmkarlar ittifaqlarının VI qurultayı keçirildi. Qurultayda iştirak edən 450 nəfər nümayəndədən cəmi 196 nəfəri (43%) azərbaycanlı idi. Dövrün tələbinə uyğun olaraq qurultay nümayəndələrinin xeyli hissəsi - 122 nəfəri fəhlə idi. Qurultayda seçilmiş AHİŞ-in rəyasət heyətinə T.A.İvanov (AHİŞ-in sədri), İ.Rəhimov (məsul katib), İ.Q.Yarıqin (təşkilat şöbə müdiri), F.P.Sudik (tarif-iqtisadi şöbə müdiri), M.Şahbazov (mədəniyyət şöbəsinin müdiri), S.A Qutin, O.Zeynalov, N.D.Çeçetkin, P.Qasımov, B.Səfərov, Y.Abdinov, İ.İ.Qodlevski, İ.E.Rıbakin, D.Kuznetsov, P.Balbasov, S.Badırov və Karamyan seçilmişdi. Qurultayda həmçinin V.A.Udalov Azərbaycan mühəndis və texniklər bürosunun sədri, N.C.Məmmədli isə proletar tələbələr bürosunun sədri seçilmişdi [19, v.528; 15].

Həmkarlar ittifaqlarının VI qurultayında da seçilmiş rəyasət heyəti üzvlərinin və namizədlərin əksəriyyəti başqa millətlərin nümayəndələri idi. AHİŞ-in 1928-ci ilin iyun plenumunda isə İ.Rəhimov AHİŞ-in sədri, İ.Q.Yarıqin isə məsul katib seçilmişdilər [20, s.35]. 1920-ci ildən 1928-ciilədək keçən müddət ərzində yalnız qısa müddətə 1924-1926-cı illərdə AHİŞ-in sədri azərbaycanlı olmuşdu. Azərbaycan həmkarlar ittifaqlarının IV qurultayında (25 fevral - 2 mart 1924-cü il) S.Y. Yaqubov AHİŞ-in sədri seçilmişdi. AHİŞ-in rəyasət heyətinin 22 nəfər üzv və namizədi içərisində isə cəmi 8 nəfər azərbaycanlı var idi [21, s.40]. Həmkarlar ittifaqlarının mərkəzi aparatında milli ayrı-seçkilik hələ də hökm sürürdü. İdarə heyətləri üzvlərinin əksəriyyəti yenə də başqa millətlərin nümayəndələri idi.

1928-ci ilin sentyabrından 1929-cu ilin mayınadək olan dövrdə keçirilmiş sahə həmkarlar ittifaqlarının qurultaylarında seçilmiş Mərkəzi idarə heyətlərinin 542 nəfər üzvündən 340 nəfəri və ya 62,7%-i (1927-ci ildə isə 58%) fəhlə idi [22, v.87-88]. 1930-cu il sentyabrın 26-da AHİŞ-in ple-

numunda da təşkilati dəyişikliklər həyata keçirildi. A.Əmiraslanov AHİŞ-in sədri, rəyasət heyəti üzvlüyünə Korıtnıy, Boquş, Ə.Babayev, Barablev, Y.A.İqnaçenko, Kayurov və A.Bezzubov seçildilər. AHİŞ-in katibləri N.D.Çeçetkin, Korıtnıy, təşkilat şöbə müdiri A.Bezzubov, mədəniyyət şöbəsinin müdiri Y.A.İqnaçenko oldular [23].

1930-cu ildə AHİŞ-in 43 nəfər məsul işçisindən cəmi altı nəfər azərbaycanlı idi. Sosial mənsubiyyətinə görə rəhbər işçilər içərisində fəhlələr əsas yer tuturdular. Eyni zamanda rəhbər işçilər içərisində 31 nəfər kommunist partiyasının üzvü, 12 nəfər isə bitərəf idi. Təbii ki, bu Sovet dövlətinin yeritdiyi siyasətin məntiqi nəticəsi idi. Bitərəflərin əksəriyyəti sosial mənşəyinə görə qulluqçu idilər. Diqqəti cəlb edən cəhətlərdən biri məsul işçilərin savad səviyyəsi idi. Göründüyü kimi onların 20 nəfəri ibtidai, 15 nəfəri orta, 7 nəfəri ali, 1 nəfər isə Fabrik-zavod şagirdliyi məktəbi səviyyəsində təhsilə malik idilər [24, v.95].

AHİŞ-in, ümumilikdə isə həmkalar ittifaqlarının rəhbər orqanlarında kommunistlərin üstünlük təşkil etməsi, savad səviyyəsinin aşağı olması, kommünist patiyasının həmkarlar təşkilatlarına rəhbərliyi öz əlinə keçirməsi həmkarlar ittifaqlarının fəaliyyətində inzibati amirlik metodlarının kök salması üçün şərait yaradırdı. 1931-ci ilin sentyabrında AHİŞ-in aparatında yenidən dəyişikliklər edildi. Qrupbazlıqda təqsirləndirilən A.Əmiraslanov (AHİŞ-in sədri), Y.A. İqnaçenko, Kazarinova, M.Həsənov, Kayurov, Adrov və b. AHİŞ-in rəyasət heyəti üzvlüyündən azad edildilər. AHİŞ-in sədri A.Mahmudov seçildi [25]. Həmkarlar ittifaqlarının VII qurultayında isə (1932-ci il, aprel) yenidən AHİŞ-in sədri A.Mahmudov, AHİŞ-in katibi Nauman, şöbə müdirləri Lunin, Boqdanov, Əzimov, Əliyev, İ.Rəhimov, Faynqart, Rayxlin, Terberov seçildilər. Azərbaycan sosial-sığorta idarəsinin rəisi isə P.Adamyan seçildi [26].

Kommunist partiyasının XVII qurultayında (26 yanvar - 10 fevral 1934-cü il) həmkarlar ittifaqlarının işinin yenidən qurulması haqqında qərar qəbul edilmişdi. Həmkarlar təşkilatları bu dövrdə tamamilə partiyanın göstərişləri əsasında fəaliyyət göstərirdilər. Hətta həmkarlar ittifaqlarının təşkilati quruluşunda baş vermiş dəyişikliklər də partiyanın qərarları əsasında həyata keçirilirdi.

AHİŞ aparatında işçilərin sayı 71-dən 51 nəfərə enmişdi. Onların əvəzinə həmkarlar işinə 35 nəfər könüllü təlimatçı cəlb edilmişdi [27]. AHİŞ-in 1935-ci ilin avqustunda keçirilmiş plenumunda L.Rəsulov AHİŞ-in sədri vəzifəsindən azad edildi, onun yerinə əvvəllər Lenin adına toxuculuq fabrikinin direktoru işləmiş Əbülfət Heydər oğlu Məmmədov seçildi. AHİŞ-in katibi vəzifəsində isə P.K.Adamyanı D.İ.Lunin əvəz etdi [28].

30-cu illərin ikinci yarısında həmkarlar ittifaqlarının fəaliyyətində ciddi nöqsanlara yol verilmişdi. İnzibati-amirlik sisteminin cəmiyyətdə dərin kök salması həmkarlar ittifaqlarının fəaliyyətində demokratik prinsiplərin tamamilə aşılanmasına gətirib çıxarmışdı. 1937-ci ildə ayrı-ayrı həmkarlar ittifaqlarının idarə aparatları ləğv edildi. Həmin ildə keçirilmiş həmkarlar ittifaqlarının hesabat seçki kampaniyasında onların tərkibi tamamilə yeniləşdirildi. Azərbaycan həmkarlar ittifaqlarının Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasından (ÜİHİMŞ) asılılığı daha da gücləndirildi. Sovetlər birliyinin digər respublikalarında olduğu kimi Azərbaycanda da həmkarlar ittifaqları Şurası ləğv edilərək onun funksiyası ÜİHİMŞ-in səlahiyyətli müvəkkilinə verildi. Yalnız 1948-ci ildə respublikalarda həmkarlar ittifaqları şuraları bərpa edildi. Həmkarlar ittifaqlarının fəaliyyətinin yeni şəraitdə gücləndirilməsində 1948-ci ilin axırında respublika, ölkə və vilayətlərdə həmkarlar ittifaqları şuralarının yaranmasına böyük əhəmiyyəti oldu.

27-29 noyabr 1948-ci ildə Azərbaycan həmkarlar ittifaqlarının birinci konfransı keçirilmişdir. Konfransda Azərbaycan həmkarlar ittifaqları Şuraları seçkilərini keçirən təşkilat bürosunun sədri M.Z.Babayev “Respublika,ölkə və vilayətlərdə həmkarlar ittifaqları Şuraları yaratmaq haqqında” ÜİHİMŞ XIX plenumunun (1 oktyabr 1948-ci il) qərarı barəsində məruzə edib. Məruzə və çıxışlarda həmkarlar ittifaqları Şuralarının yaradılması həmkarlar ittifaqı hərəkatının daha da yüksəlməsinə xidmət edəcəyi göstərildi. Konfrans qəbul etdiyi qətnamədə ÜHİMŞ XIX plenumunun qərarlarını bəyənmiş və respublikanın həmkarlar ittifaqı təşkilatlarını, 1948-ci ilin planlarını vaxtından əvvəl

yerinə yetirmək, müharibədən sonrakı beşilliyi müvəffəqiyyətlə başa çatdırmaq uğrunda kütlələrin sosializm yarışını daha da genişləndirməyə çağırmışdır. Gizli səsvermə yolu ilə 35 üzv və 11 namizəddən ibarət Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası və təftiş komissiyası seçilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Şurasının noyabrın 29-da keçirilən birinci plenumunda Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə Tofiq Əliheydər oğlu Allahverdiyev seçilmişdir [29].

AHİŞ yaradıldıqdan sonra respublikada həmkarlar ittifaqları işi əsaslı surətdə canlanmağa başladı. 29 may 1950-ci ildə AHİŞ-in Plenumu təşkilat məsələsinə baxmışdır. Plenum T.Ə.Allahverdiyevi başqa işə keçməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad etmiş, yeni sədr İsmayıl Nəsrulla oğlu Əsgərov seçilmişdir.

10-11 fevral 1951-ci ildə Azərbaycan həmkarlar ittifaqlarının respublika ittifaqlararası ikinci konfransı keçirildi. Konfransda 485 min həmkarlar ittifaqı üzvünü təmsil edən 159 nümayəndə iştirak edirdi. Konfrans AHİŞ-in iki illik fəaliyyəti haqqında hesabatı müzakirə etdi və həmkarlar ittifaqlarının qarşısında duran vəzifələrini müəyyənləşdirdi. Konfransda əməyin mühafizə və texniki təhlükəzilik sahəsində və həmkarlar ittifaqlarının mədəniyyət müəssisələrinin işində yol verilmiş nöqsanlar da qeyd edilmişdir. Konfrans AHİŞ-in tərkibinə 43 üzv və 14 namizəd seçdi. Yeni seçilmiş AHİŞ heyətinin birinci plenumu İ.N.Əsgərovu AHİŞ-in sədri seçmişdir [30].

22 sentybar 1952-ci ildə AHİŞ-in yeddinci Plenumu təşkilat məsələsinə baxmış, başqa işə keçməsi ilə əlaqədar İ.N.Əsgərovu AHİŞ-in sədri vəzifəsindən, AHİŞ-in Rəyasət Heyətinin üzvlüyündən azad etmişdir. AHİŞ-in sədri Zöhrə Adıgözəl qızı Kərimova seçilmişdir [31].

1953-cü ilin yayında bir sıra nazirliklərin birləşdirilməsi və ÜHİMŞ-in qərarına uyğun olaraq, respublikada Həmkarlar ittifaqlarının birləşdirilməsi həyata keçirildi. Belə ki, 15 may 1953-cü il üçün 32 həmkarlar respublika komitəsindən 20 respublika komitəsi və ibtidai və orta məktəb içşiləri həmkarlar ittifaqının Mərkəzi Komitəsi qalmışdı.

1920-1953-cu illərdə Azərbaycan həmkarlar ittifaqlarının kadrlarla təmin edilməsi məsələsi ən ciddi problemlərdən biri idi. O dövrdə xalq təsərrüfatının və idarəçilik aparatının digər sahələrində olduğu kimi yeni yaranmaqda olan sovet həmkarlar ittifaqları sistemində də yeni cəmiyyətin tələblərinə cavab verən kadrlar, demək olar ki, yox idi. İlk günlərdən AHİŞ həmkarlar kadrları hazırlanmasına xüsusi diqqət yetirirdi. Ancaq bu sahədə xüsusi təhsil müəssisələri olmadığına görə AHİŞ qısa müddətli - üç aylıq həmkarlar kursları, məktəbləri və dərnəkləri təşkil edirdi. 1920-ci il avqustun 30-da AHİŞ-in həmkarlar hərəkatı məktəbinin ilk buraxılışı oldu. Məktəbin hazırladığı 85 nəfər təlimatçı həmkarlar işini təşkil etmək üçün qəzalara göndərildi. Bundan əlavə, AHİŞ və həmkarlar ittifaqlarının idarə heyətləri 100 nəfərdən artıq əməkdaşını qəzalarda həmkarlar işinə cəlb etmişdi [32, s.3].

1922-ci ilin sonu 1923-cü ilin birinci yarısında AHİŞ-in təşkil etdiyi qısa müddətli kursları 400 nəfərədək həmkarlar ittifaqı üzvü bitirmişdi. Onların əksəriyyəti fabrik-zavod komitələri işçiləri idi [33]. Qəzalarda həmkarlar aparatı işçiləri, demək olar, yox dərəcəsində idi. Bu vəziyyəti də ancaq qısamüddətli həmkarlar kursları vasitəsilə qismən düzəltmək mümkün idi. 1925-ci ilin iyununda AHİŞ yanında qəza həmkarlar aparatı işçiləri hazırlamaq üçün yaradılmış üç aylıq kursları 30 nəfər bitirmişdi.

1925/26-cı ilin payız - qış mövsümündə isə Bakı və onun mədən rayonlarında 65, qəzalarda isə 30-dan yuxarı həmkarlar savad dərnəkləri təşkil edilmişdi [34, s.58]. Bakıda təşkil edilmiş dərnəklərin əksəriyyəti ruslar üçün nəzərdə tutulmuşdu. Belə ki, 65 dərnəkdən 46-sı rus, 16-sı Azərbaycan və 3-ü erməni dərnəyi idi. Bu dərnəklərdə adətən dinləyicilərə həmkarlar ittifaqlarının tarixi, onların iş xüsusiyyətləri barədə məlumat verilirdi. AHİŞ 1926-cı ilin iyununda həmkarlar fəallarına metodiki məsləhət xidməti göstərmək üçün həmkarlar işçisi kabineti yaratmışdı [35].

AHİŞ-in mədəniyyət şöbəsi nəzdində təşkil edilmiş kurslarda 1926-cı ildə 50 nəfərədək azərbaycanlı həmkarlar işçisi hazırlanmışdı [36]. Bu işçilər əsasən qəza həmkarlar aparatı üçün nəzərdə tutulmuşdu. 1926-cı il yanvarın 20-də AHİŞ və həmkarlar ittifaqları mərkəzi idarə heyətləri üçün

texniki işçilər hazırlanması məqsədilə 5 aylıq həmkarlar kursu təşkil edilmişdi [37]. Bundan əlavə İnşaatçılar həmkarlar ittifaqı üzrə iki, Metalçılar həmkarlar ittifaqı üzrə bir bu cür kurs təşkil edilmişdi. Kurslara 100 nəfərədək adam cəlb edilmişdi [38, s.59]. 1926-cı ildə kurslarla yanaşı Bakı və onun rayonlarında 1250 nəfəri əhatə edən 65, o cümlədən azərbaycanlılar üçün 16 həmkarlar dərnəyi fəaliyyət göstərirdi. Azərbaycanın qəzalarında isə bu cür 20 dərnək var idi [39]. Dərnək üzvlərinin əksəriyyəti ilk həmkarlar təşkilatlarının işçiləri idi. Göründüyü kimi, həmkarlar kadrlarının hazırlanması sahəsində də milli ayrıseçkilik özünü göstərirdi.

Azərbaycanlılar üçün yaradılmış dərnəklər azlıq təşkil edirdi. Buna baxmayaraq həmkarlar aparatında azərbaycanlı kadrlara ehtiyac həddindən artıq çox idi. Bu dövrdə qəzalarda həmkarlar ittifaqları kadrlarına ehtiyac daha çox idi. Bu sahədə müəyyən tədbirlər görülsə də, problemin həllindən danışmaq hələ tez idi. Qəza həmkarlar işçiləri kurslarını 5 il ərzində (1923-1928-ci illər) 182 nəfər həmkarlar işçisi bitirmişdi. Kurslarla yanaşı 1926/27-ci ildə klublar yanında 2693 nəfəri əhatə edən 121 həmkarlar maarifi məktəbi var idi [40]. 1927/28-ci ildə isə həmkarlar maarifi sistemi ilə 2612 nəfər əhatə edilmişdi [41, v.5]. 1927/28 və 1928/29-cu illərdə Mədən fəhlələri həmkarlar ittifaqı üzrə həmkarlar məktəbləri, kursları, seminar və dərnəklərini bitirmiş 3366 nəfərdən cəmi 762 nəfəri (22,6%) azərbaycanlı, qalanları isə başqa millətlərin nümayəndələri idi. Yeni hazırlanmış həmkarlar kadrları içərisində ruslar - 1887 nəfər (56,0%) üstünlük təşkil edirdilər [42]. Bu fakt o dövrdə yeridilən ruslaşdırma siyasətinin əyani nümunəsi idi. Qəza həmkarlar ittifaqları aparatının möhkəmlənməsində oraya göndərilən kadrlar böyük rol oynamışlar. 1929-cu ildə ilk təşkilatlarda işləmək üçün 102 nəfər, 1930-cu ildə isə 105 nəfər həmkarlar işçisi səfərbərliyə alınıb rayonlara göndərilmişdi [43, v.54; 1-3].

Əvvəlki illərdə olduğu kimi yenə də qısa müddətli həmkarlar ittifaqları kursları kadr hazırlığında əsas vasitə idi. 1929-cu ildə Ə.Bayramov adına klubda qadınların xahişi ilə qadın həmkarlar işçisi hazırlamaq üçün Fəhlə Universitetinin 95 nəfərlik şöbəsi açılmışdı [44, s.59]. 1930-cu ildə qısa müddətli həmkarlar kursları ilə 645 nəfər əhatə olunmuşdu [45, s.95]. Ancaq bu kurslar həmkarlar kadrlarına olan tələbatı ödəmirdi. Buna görə də həmkarlar təşkilatları 1930-cu ildən başlayaraq həmkarlar kadrları hazırlanması məsələləri ilə ardıcıl olaraq məşğul olmağa başlamışdılar. AHİŞ-in rəyasət heyəti 1930-cu il martın 22-də Ali partiya məktəbi yanında 150 dinləyicisi olan 2 illik həmkarlar şöbəsi açmaq haqqında qərar qəbul etmişdi [46, s.28]. 1930-cu ildən başlayaraq həmkarlar ittifaqları kadrları hazırlanması işinə pul vəsaiti ayrılması gücləndirildi. 1928-ci ildə bu məqsəd üçün 45 min rubl, 1930/31-ci ildə 384 min rubl, 1931/32-ci ildə isə 1069 min rubl xərclənmişdi [47, v.16; 112]. Göründüyü kimi kadr hazırlanmasına sərf edilən vəsait ildən-ilə artırdı. Təbii ki, bu da öz nəticəsini verirdi. Təkcə 1930-cu ildə həmkarlar təhsili sistemi ilə 5 min nəfərədək dinləyici əhatə olunmuşdu [48, v.54]. Bundan əlavə 1930/31-ci ildə Azərbaycanda 350 nəfəri əhatə edən 6 aylıq həmkarlar hərəkatı məktəbi və 40 nəfəri əhatə edən muzdur kursları təşkil edilmişdi [49, v.130]. Ümumiyyətlə, 1930/31-ci ildə həmkarlar ittifaqları maarifi sisteminin bütün növləri ilə 1362 nəfər əhatə olunmuşdu [50, v.150]. Qəza həmkarlar ittifaqları aparatı üçün kadr hazırlığı yenə də diqqət mərkəzində idi. Təkcə 1931-ci ildə 415 nəfər həmkarlar ittifaqı kadrı hazırlanıb yerlərə göndərilmişdi [49, s.23].

Həmkarlar ittifaqları aparatı üçün kadr hazırlığı işini yaxşılaşdırmaq məqsədilə yeni tədris müəssisələri yaradılırdı. 1931-ci ilin ikinci yarısında 248 nəfəri əhatə edən birillik respublika həmkarlar hərəkatı məktəbi və 665 nəfəri əhatə edən xüsusi həmkarlar kadrları evi təşkil edilmişdi [45, s.95]. Ancaq yenə də həmkarlar ittifaqları kadrlarının hazırlanmasının əsas forması kurslar və dərnəklər idi. 1930-1933-cü illərdə birillik və altıaylıq həmkarlar hərəkatı məktəblərini 899 nəfər (onların 58%-i azərbaycanlı idi) bitirmişdi. Bu məktəblərdə hazırlanan həmkarlar işçilərinin 74%-i kommunist, 11%-i isə komsomolçu idi. Bu da partiyanın həmkarlar ittifaqlarında kommunist fraksiyalarını gücləndirmək barədə göstərişlərinə uyğun idi. 1932/33-cü illərdə isə qısa müddətli kurslarda 559 nəfər təhsil almışdı [51, s.108]. 1931-ci ilin noyabrında keçirilən fabrik-zavod yerli komitə-

lərinin hesabat-seçki kampaniyasından sonra yeni seçilmiş həmkarlar fəalları üçün qısa müddətli kurslar təşkil edilmişdi [45, s.95].

Azərbaycan həmkarlar ittifaqları aparatı üçün kadrlar hazırlanmasında respublikadan kənarda fəaliyyət göstərən həmkarlar ittifaqı təhsil sistemi də əhəmiyyətli rol oynamışdı. 1931-ci ildə Tbilisidə yerləşən Zaqafqaziya həmkarlar hərəkatı məktəbinə 40 nəfər təhsil almağa göndərilmişdi [52, v.v. 16; 1-3]. Bu dövrdə həmkarlar ittifaqları üçün istehsalat müşavirələri təşkilatçıları, mədəniyyət işçiləri, həmkarlar təhsili sahəsində təbliğatçılar, bədən tərbiyəsi təlimatçıları, tarif-norma işçiləri hazırlayan kursların fəaliyyəti də səmərəli olmuşdur. Bu kadrlara ehtiyac daha çox idi. Həmkarlar ittifaqları aparatının fəaliyyətinin səmərəsi daha çox bu cür kadrlardan asılı idi. 1932-1933-cü illərdə bu kurslarda 387 nəfər həmkarlar ittifaqı kadrı, o cumlədən 74 nəfər tarif-norma işçisi, 51 nəfər təbliğatçı, 36 nəfər mədəniyyət işçisi hazırlanmışdı. Rayon həmkarlar şuraları və fabrik-zavod yerli komitələri katibləri və sədrləri hazırlayan kursları isə 270 nəfər bitirmişdi [53, s.108].

AHİŞ və ayrı-ayrı həmkarlar ittifaqları mərkəzi idarə heyətləri kadr hazırlığı işinə diqqəti artırmışdılar. Sözsüz ki, bu məsələdə əsas diqqət sovet cəmiyyətinin tələblərinə cavab verə bilən kadrların hazırlanmasına yönəldilmişdi.

AHİŞ-in rəyasət heyətinin 10 may 1932-ci il tarixli qərarı ilə mayın 16-dan iyunun 5-dək həmkarlar kadrları hazırlanması işinə baxış keçirilmişdi. Baxış dövründə AHİŞ-in və həmkarlar ittifaqlarının bir sıra məsul işçiləri səfərbərliyə alınmış və baxışın keçirilməsinə əməli kömək üçün fabrik və zavodlara təhkim edilmişdilər. AHİŞ-in nəzdində isə 7 nəfərdən ibarət təbliğatçılar qrupu təşkil edilmiş, baxış gedişində onlar geri qalmış həmkarlar ittifaqlarına kömək məqsədilə əməli iş aparmışdılar. AHİŞ baxışı yaxşı təşkil edən həmkarlar ittifaqı Mərkəzi idarə heyəti üçün 1000 rubl məbləğində mukafat fondu ayırmış, ayrı-ayrı həmkarlar ittifaqları arasında baxışı yaxşı keçirmək üçün müsabiqə təşkil edilmişdi. 1932-ci il iyunun 11-də müsabiqənin nəticələrinə həsr edilmiş konfrans keçirilmişdi. Konfransda Azərbaycanın rayonlarında həmkarlar ittifaqı maarifi sisteminin kifayət qədər genişlənmədiyi, həmkarlar maarifi sistemində fərqlənənlərin qeydiyyatının aparılmadığı, dinləyicilərin 100% davamiyyətinin təmin olunmaması, təbliğatçıların düzgün və vaxtında seçilməməsi və s. nöqsanlar olduğu qeyd olunmuşdu. Eyni zamanda müsabiqə nəticəsində həmkarlar ittifaqlarının fəaliyyətində bir sıra nailiyyətlər olduğu da müəyyən edilmişdi. Müsabiqəyə qədər yeni seçilən həmkarlar fəalları 8338 nəfər, müsabiqədən sonra isə 11296 nəfər idi. Qısamüddətli həmkarlar kurslarını müsabiqəyə qədər 2590, müsabiqədən sonrakı iki il ərzində isə 4212 nəfər bitirmişdi [54, v.65]. Sonrakı illərdə də həmkarlar ittifaqları kadrlarının hazırlanmasının əsas forması qısa müddətli kurslar olaraq qalırdı. 1939-cu ilin noyabrından 1941-ci ilin fevralınadək təkcə Qafqaz neft sənayesi fəhlələri həmkarlar ittifaqı üzrə həmkarlar kurslarında 218 nəfər təhsil almışdı. Azərbaycanın başqa həmkarlar ittifaqları üzrə isə 491 nəfər həmkarlar fəalı bu dövrdə həmkarlar kursları və seminarlarında təlim keçmişdilər [55, s.289-290].

ÜİHİMŞ katibliyinin qərarı ilə 1952-ci ilin avqust ayından AHİŞ-in nəzdində həmkarlar ittifaqlarının kadr və fəallarını hazırlamaq üçün kurslar bazası fəaliyyətə başlayır. İnzibati amirlik illərində həmkarlar ittifaqları üçün kadrlar hazırlanmasının əsas forması qısa müddətli kurslar və məktəblər idi. Sözsüz ki, bu kursların fəaliyyəti səmərəli idi və o dövrdə həmkarlar ittifaqları aparatında mövcud olan kadr boşluğunu aradan qaldırmaq üçün əhəmiyyətli rol oynamışdır. Ancaq həmin problemi bu yolla həll etmək mümkün deyildi. Ona görə də digər vasitələrdən də istifadə edilirdi.

Bu dövrdə sovet dövləti fəhlə sinfinin nümayəndələrinin həmkarlar ittifaqları aparatına cəlb edilməsinə xüsusi diqqət yetirirdi. Sovet dövlətinin başçısı V.İ.Lenin yazırdı ki, həmkarlar ittifaqlarının mühüm vəzifələrindən biri “…kütləni idarə etməyə öyrətməkdir, kitab vasitəsilə deyil, mühazirələr, mitinqlər vasitəsilə deyil, təcrübə yolu ilə öyrətməkdir, elə etməkdir ki, proletariatın öz içərisindən yetişdirdiyi, rəhbərlik etməyi, təşkil etməyi ona tapşırdığı qabaqcıl təbəqənin yerini həmin idarələrə getdikcə daha çox miqdarda daxil olan yeni-yeni fəhlə təbəqələri tutsun, bu yeni təbəqənin yerini onlarca belələri tutsun” [56, s.489]. Sovet rəhbərinin bu göstərişini yerinə yetirən həmkarlar

ittifaqları istehsalatdan fəhlələrin məsul partiya, dövlət və həmkarlar ittifaqları işinə irəli çəkilməsinə xüsusi diqqət yetirirdilər. 1922-ci ildən 1927-ci ilədək olan dövrdə istehsalatdan 400 nəfərədək fəhlə məsul vəzifələrə irəli çəkilmişdi. Təkcə 1925-ci ildə həmkarlar ittifaqları təsərrüfat, kooperativ və həmkarlar işinə 292 nəfəri cəlb etmişdilər. 1927-ci il sentyabrın 1-dən 1928-ci il avqustun 1-dək olan dövrdə isə 240 nəfər fəhlə sovet və dövlət orqanlarında işə cəlb edilmişdilər. Onlardan 31 nəfəri isə həmkarlar ittifaqları aparatında işə götürülmüşdü [57, s.106-107]. 1929-cu ildə isə 591 nəfər irəli çəkilənlərin içərisində həmkarlar ittifaqlarında işə cəlb edilənlər cəmi 26 nəfər təşkil edirdi [58, v.1]. Məsul vəzifələrə irəli çəkilənlər arasında həmkarlar ittifaqları aparatına cəlb edilənlərin sayının azlıq təşkil etməsi həmkarlar təşkilatlarının bu sahədə fəaliyyətinin zəif olmasının göstəricisi idi.

Həmkarlar ittifaqları aparatına cəlb edilən fəhlələrin, təbii ki, bu sahədə iş təcrübəsi yox idi. Ona görə də ayrı-ayrı həmkarlar təşkilatlarının irəli çəkilənlərlə xüsusi iş aparması tələb olunurdu. Ancaq həmkarlar ittifaqlarının bu sahədə fəaliyyəti qənaətbəxş deyildi. 1928-ci ilin əvvəlində Mədən fəhlələri həmkarlar ittifaqının irəli çəkilənlərlə keçirilən müşavirəsində ittifaqın onlarla kifayət qədər iş aparmadığı qeyd olunmuşdu [59, s.23-24]. Bu sahədə həyata keçirilən əsas iş forması irəli çəkilənlər üçün xüsusi kursların təşkil edilməsi idi. 1928-ci ildə Kommunal işçiləri həmkarlar ittifaqı irəli çəkilənlər üçün 35 nəfəri əhatə edən kurslar təşkil etmişdi [60]. Həmkarlar ittifaqları öz iclaslarında onların hesabatlarını dinləyirdi. Ancaq bu tədbirlər, təbii ki, kifayət deyildi. 1929-cu il aprelin 24-də keçirilən irəli çəkilənlərin konfransında həmkarlar ittifaqlarının yeni kadrlarla zəif iş apardıqları qeyd olunmuşdu [61, s.15; 232]. 1930-cu ildə 61 nəfər, o cümlədən 6 nəfər məsul həmkarlar işinə irəli çəkilmişdi. 1929-cu il oktyabrın 1-dən 1932-ci il yanvarın 1-dək olan dövrdə məsul vəzifələrə cəlb edilən 1518 nəfərdən 151 nəfəri həmkarlar ittifaqlarında çalışırdılar [62, v.v.16; 17]. Göründüyü kimi, irəli çəkilənlər içərisində həmkarlar ittifaqlarında işə cəlb edilənlər azlıq təşkil edirdilər. Bu, ilk növbədə həmkarlar ittifaqlarının həmin sahəyə lazımi dərəcədə diqqət yetirməmələri ilə bağlı idi. İrəli çəkilən fəhlələrin əksəriyyəti aşağı həmkarlar ittifaqları aparatına cəlb edilirdilər. İrəli çəkilənlər içərisində azərbaycanlılar azlıq təşkil edirdilər. Bunu həmkarlar ittifaqları idarə heyətlərində və aşağı həmkarlar aparatında işləyənlərin milli tərkibinə aid faktlar sübut edir. Sonrakı illərdə də fəhlələrin partiya, sovet, təsərrüfat və həmkarlar işinə çəlb edilməsi prosesi davam etdirilirdi. Təkcə bir il ərzində (1937-ci ilin 1 iyunundan 1938-ci ilin 1 iynunadək) rəhbər işə 10379 nəfər, o cümlədən 2446 nəfər fəhlə (22,7%) irəli çəkilmişdi [63, s.288].

20-30-cu illərdə tətbiq edilən qabaqcıl fəhlələrin məsul vəzifələrə, o cümlədən həmkarlar ittifaqı işinə irəli çəkilməsi də həmkarlar ittifaqları aparatını kadrlarla təmin etməyin formalarından biri idi. Bütövlükdə, göstərilən illərdə Azərbaycan həmkarlar ittifaqlarını kadrlarla təmin etmək işində müəyyən nailiyyətlər əldə edilsə də, bu iş hələ lazımi səviyyədə deyildi. Həmkarlar ittifaqları kadrları içərisində ali təhsilli mütəxəssislərin sayı cüzi idi, azərbaycanlıların nümayəndələri kifayət qədər deyildi. Eyni zamanda o dövrdə tez-tez keçirilən kadr dəyişiklikləri və həmkarlar ittifaqları üzvləri içərisində aparılan “təmizləmələr” hazırlıqlı kadrların sıradan çıxarılmasına səbəb olurdu.

Ümumiyyətlə, 1920-1953-cu illərdə Azərbaycan həmkarlar ittifaqlarının təşkilatlanmasında inzibati amirlik metodları özünü qabarıq şəkildə göstərirdi. AHİŞ və ayrı-ayrı sahə həmkarlar ittifaqlarının idarə heyətləri Kommunist partiyasının göstərişləri əsasında formalaşdırılırdı. Həmkarlar ittifaqlarının idarə heyətlərinin formalaşdırılmasında tətbiq edilən seçki prinsipi əslində formal xarakter daşıyırdı. Bu dövrdə həmkarlar ittifaqlarının təşkilatlanmasında hökm sürən ən kobud nöqsanlardan biri onların idarəçilik orqanlarında ruslaşdırmanın dərin kök salması idi. Azərbaycanlıların həmkarlar ittifaqları aparatında azlıq təşkil etməsi onların fəaliyyətinə mənfi təsir göstərir, xüsusilə azərbaycanlı fəhlə və qulluqçuların həmkarlar təşkilatlarına marağını azaldırdı. O dövrdə həmkarlar ittifaqları üzvlərinin malik oldüqları imtiyaz və güzəştlərdən başqa millətlərin nümayəndələri daha geniş və səmərəli istifadə edirdilər.

Azərbaycan həmkarlar ittifaqlarının təşkilati quruluşunda inzibati qaydada həyata keçirilən dəyişikliklər faktiki olaraq onların partiya orqanlarından asılılığının güclənməsinə şərait yaradırdı.

Həmkarlar ittifaqları kadrlarının hazırlanması və yerləşdirilməsində də milli ayrı-seçkilik siyasəti özünü göstərirdi. Bütün bunlar həmkarlar ittifaqlarının zəhmətkeşlər içərisində nüfuzunun aşağı düşməsinə, onların partiyanın əlində təsərrüfat problemlərini həll etmək üçün bir alətə çevrilməsinə gətirib çıxarırdı.

**Açar sözlər:** Azərbaycan, həmkarlar ittifaqları, kadr siyasəti, inzibati-amirlik dövrü, sovet hakimiyyəti

**İstifadə edilmiş ədəbiyyat**

1. Основы марксистско-ленинского учения о профсоюзах. Профсоюзы в условиях диктатуры пролетариата. Выпуск II. М., 1934
2. Газ. «Коммунист», 1920, 8 июня., Газ. Коммунист, 1920, 16 июня
3. Гусейнов К.А., Найдель М.И. Профсоюзы Советского Азербайджана. Исторический очерк. М.: Профиздат, 1962, 309 с.
4. Резолюции I Азербайджанского съезда профессиональных союзов. Баку: 1920
5. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 2, v. 4
6. Бюллетень АСПС. Баку: 1921, 1 июня, №4
7. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 5, v. 29
8. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 24, v. 9
9. Газ. «Коммунист», 1920, 2 июня
10. Известия ЦК АКП(б). Баку, 1921, №5
11. Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференции и пленумов ЦК. Том первый, 1920-1937. Баку: Азернешр, 1986, 675 с.
12. XIII Общебакинская конференция АКП (б). (26 апреля - 4 мая 1924 г.). Стеног. Отчет. Баку: Изд. БКАКП (б), 1924, 310 с.
13. Профдвижение Закавказья за 1924 и 1925 гг. Отчет Закпрофсовета к III съезду профсоюзов Закавказья. Тифлис: Изд. Закпрофсовета, 1926, 79 с.
14. Информационное писмо АСПС. Газ. «Труд», 1923, 1 октября
15. Отчет Закбюро ВЦСПС 2-му Закавказскому съезду профсоюзов. 1922-март-1924. Тифлис: 1924
16. Профдвижение Закавказья за 1924 и 1925 гг. Отчет Закпрофсовета к III съезду профсоюзов Закавказья. Тифлис, 1926
17. Отчет Закбюро ВЦСПС 2-му Закавказскому съезду профсоюзов. 1922-март-1924. Тифлис: Изд. Закбюро ВЦСПС, 1924, 136 с.
18. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 470
19. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 2641. Бюллетень VI Азербайджанского съезда профсоюзов. №7, Баку: 1928
20. Резолюции и постановления 2-го сессии пленума АСПС (25-28 мая 1928 г.). Баку: Изд. РИОАСПС, 1928, 36 с.
21. Резолюции VI Азербайджанского съезда профессиональных союзов. 25.II.-2.III.1924 г. Баку: 1924

22. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 2930
23. Газ. «Вышка», 1930, 28 сентября
24. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 7795
25. Газ. «Вышка», 1931, 10 сентября
26. Газ. «Вышка», 1932, 1 апреля
27. Газ. «Бакинский рабочий», Баку, 1934, 12 августа
28. Пленум АСПС (11 август 1935 г.) Газ. «Вышка», 1935, 14 августа
29. Газ. «Бакинский рабочий», 1948, 28, 30 ноября
30. “Kommunist” qəz., 1951, 11 fevral
31. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, s. 5, iş 200, v. 1-3
32. Вестник профдвижения. Баку: 1920, №7-8
33. Информационное писмо АСПС. Газ. «Труд», 1923, 1 октября
34. Профдвижение в Азербайджане к 5-му съезду профсоюзов. Баку: 1926
35. Газ. «Заря Востока», 1926, 18 июня
36. Газ. «Заря Востока», 1926, 9 сентября
37. Газ. «Труд», 1926, 21 января
38. Профдвижение в Азербайджане к 5-му съезду профсоюзов. Баку: Азпрофиздат, 1926, 88с.
39. Газ. «Труд», Баку, 1926, 5 февраля
40. Həmkarlar maarifi. “Yeni yol” qəz., Bakı, 1927, 28 oktyabr
41. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 776
42. Азербайджанский ЦП Союза Горнорабочих СССР. Работа союза в диаграммах. (К XII Азербайджанскому съезду). Баку, 1929
43. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 3780; iş 7538
44. Гассиев И.К. Решение женского вопроса в республиках бывшего Советского Востока (20-30-ые годы XX в.) Баку, 2005
45. Материалы к отчету ЗСПС за 1928-1932 гг. Тифлис, 1932, 47 с.
46. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 8008
47. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy.1, iş 3785,
48. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 3780
49. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 1580
50. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy. 1, iş 135
51. Профсоюзы Азербайджана к XII съезду АКП(б). Баку: Издание АСПС, 1934, 113 с.
52 Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy.1, iş 3785; Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 1296
53. Мухтаров К.Я. Сельскохозяйственные рабочие Азербайджана (1920-1929 гг.). Автореф. дисс. … канд. ист. наук. Баку, 1971
54. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 1583
55. Гусейнов К.А., Найдель М.И. Очерки истории профдвижения в Азербайджане. Баку: Азернешр, 1966, 484 с.
56. Lenin V.İ. Həmkarlar ittifaqlarının 11 Ümumrusiya qurultayında məruzə. 20 yanvar 1919-cu il. Əsərlərinin tam külliyyatı, cild 37. Bakı: 1982

57. Материалы к вопросу о проверке выполнения директивы ЦК ВКП(б) от 12 сентября 1927 года по отчету Бакинской организации к XVII общебакинской партконференции. Баку: 1929
58. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 977
59. Труд, 1928, № 7
60. Газ. «Вышка», 1928, 4 октября
61. Həmkarlar ittifaqı, 1929, № 15., “Kommunist” qəz., 1929, 26 aprel
62. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 1114, siy.1, iş 8305; Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F. 805, siy. 1, iş 977
63. Очерки истории рабочего класса Азербайджанской ССР. Том первый (1917-1940 гг.). Баку: Элм, 1974

**Векил Гасанов**

## КАДРОВАЯ ПОЛИТИКА В СТРУКТУРАХ ПРОФСОЮЗОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР В УСЛОВИЯХ КОМАНДНО-АДМИНИСТРАТИВНОЙ СИСТЕМЫ (1920-1953 гг.)

**Резюме**

С установлением советской власти в Азербайджане были заложены основы командно-административной системы управления. Эта система оказывало свое влияние на все органы управления, в том числе общественные организации. Произошли коренные изменения в структуре профсоюзов, в обеспечении их кадрами. Кадровая политика полностью перешла под контроль партии. В профсоюзы кадры избирались по классовому принципу, в основном из рабочих и крестьян. Проводимая при выдвижении кадров политика дискриминации по национальному признаку оказывало отрицательное влияние на вовлечение азербайджанцев в государственные органы власти.

**Ключевые слова:** Азербайджан, профессиональные союзы, кадровая политика, командно-административная система, советская власть

**Vekil Hasanov**

## PERSONNEL POLICY IN THE STRUCTURE OF TRADE UNIONS OF AZERBAIJAN SSR İN ADMINISTRATIVE COMMAND PERIOD (1920-1953 years)

**Summary**

With the establishment of soviet power in Azerbaijan the new system-administrative command regime was founded. This system affected all management bodies, including public organizations. There was a major change in the structure of trade unions and in ensuring their staff. Personnel policy was under the control of the party. Trade unions cadres were elected mainly from workers and peasants. The reigning national discrimination in personnel policy had a negative impact on the involvement of Azerbaijanis to the state affairs.

**Keywords:** Azerbaijan, trade unions, personnel policy, administrative command regime, soviet power

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

**UOT – 316.6**

**Ağasəlim Həsənov**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.**

# MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNİN EKOLOJİ MƏDƏNIYYƏTİ

*Məqalədə müasir Azərbaycan cəmiyyətinin ekoloji mədəniyyəti araşdırılır. Qeyd olunur ki, Azərbaycan cəmiyyətinin ekoloji mədəniyyətində individualist-utilitar yanaşma üstünlük təşkil edir. Həmçinin, ekoloji vəziyyətlə bağlı vətəndaş fəallığı aşağı səviyyədə qalmaqda davam edir. Xüsusi vurğulanır ki, ictimaiyyətin ekoloji cəhətdən əhəmiyyətli qərarların hazırlanması və qəbul olunmasında iştirakı olduqca vacibdir. Lakin əhalinin ekoloji risk məsələlərinə dair məlumatlılıq səviyyəsinin aşağı olması müəyyən çətinliklər yaradır. Çıxış yolu kimi ekoloji maarifləndirmə və ictimai fəallığın artırılması göstərilir.*

Müasir dövrdə ekosistemin qlobal xarakterli problemləri mövcuddur və bu da ayrı-ayrılıqda hər bir ölkə üçün narahatlıq döğurur. Ekosistem insan üçün həyati əhəmiyyət daşıdığına görə ona münasibət daim humanist olmalıdır. İndi insan təbiətə münasibətdə daha ehtiyatlı olmalı və ekoloji problemlərə diqqətlə yanaşmalıdır. İnsanın təbiətlə necə rəftar etməsi bilavasitə ekoloji şüurun və mədəniyyətin səviyyəsindən asılıdır. Ekoloji problemlər daima həm cəmiyyətin, həm də dövlətin diqqətində olmalıdır.

XX əsrin 60-cı illərindən kəskinləşən ekoloji vəziyyət təbiətlə mədəniyyət arasındakı münasibəti əvvəlki dövrlərdən fərqli olaraq başqa bir müstəviyə keçirmişdir. Bu, ilk növbədə insanın texniki imkanlarının artması nəticəsində təbii ilə suninin qarşılıqlı münasibətlərinin kəskin şəkildə dəyişməsi və təbii mühitlə qlobal səviyyədə qarşılıqlı münasibətlərə keçidlə əlaqədardır [1, s.92].

Hazırki qlobal ekoloji böhranın ilkin əlamətləri özünü daha çox XX əsrdə büruzə verməyə başladı. Keçən əsrin 70-ci illərində Roma klubunun məruzələrində bu böhran hadisələri kompleks şəkildə - ekoloji, demoqrafik, iatisadi və resurs sferası ilə birlikdə ilk dəfə müzakirə edildi.

1971-ci ildə İsveçrənin Funa şəhərində keçirilən inkişaf və ətraf mühitə həsr olunmuş beynəlxalq seminarda ümumekoloji təhlükənin mövcudluğundan və bunun üçüncü dünya ölkələri üçün aktuallağından bəhs olundu. Ən əsası isə bu seminarın ətraf mühitin qorunmasına dair 1972-ci ildə Stokholmda keçiriləcək Ümumdünya konfransına yol açması oldu. Bu konfrans elmi dairələrdə çoxdan bəri həyəcan doğuran dərin ekoloji böhran faktını təsdiqləmiş oldu. Bəşəriyyətin getdikcə artan tələbatlarının təmin olunması üçün dünyanın inkişaf xəttinin ətraf mühitlə dərin münaqişəyə girməsi məsələsi hərtərəfli qəbul edildi. Stokholm konfransının nəticəsi BMT çərçivəsində ətraf mühitə dair Proqramın (UNEP) qəbul edilməsi oldu. Onun həyata keçirilməsi üçün katibliyi Nayrobidə (Keniyada) yerləşən Əlaqələndirici şura yaradıldı [2, s.121]. Fikrimizi ümümiləşdirərək qeyd edə bilərik ki, ekoloji problemlər daha çox ötən əsrin ortalarından etibarən aktuallıq kəsb etməyə başladı və bununla əlaqədar dünyanın müxtəlif ölkələrində davamlı olaraq tədbirlər reallaşdırılmış və ekoloji tarazlığın nizamlanma yolları nəzərdən keçirilmişdir. Qlobal ekoloji durum, ekoloji mədəniyyət və s. bu qəbildən olan problemlərin həlli ayrı-ayrılıqda hər bir dövlətin bu sahədə həyata keçirdiyi siyasətlə sıx bağlıdır.

Ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə Azərbaycanda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunub, normativ-hüquqi sənədlər, dövlət proqramları hazırlanıb təsdiq edilmişdir. Bununla belə ölkə üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasın-

da həll edilməsi məqsədilə müvafiq dövlət proqramları çərçivəsində tədbirlərə daima ehtiyac duyulur.

Müstəqilliyin ilk ilində qəbul edilən “Təbiəti mühafizə və təbiətdən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununda (1992) “Vətəndaşların ekoloji mədəniyyətinin formalaşmasında zəruri olan ekoloji biliklərə yiyələnmək üçün Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün orta ixtisas və ali tədris müəssisələrində onların profilinə uyğun olaraq təbiəti mühafizə və təbiətdən səmərəli istifadə üzrə xüsusi kursların tədrisi” nəzərdə tutulur. Respublika ərazisində cəmiyyətin ekoloji mədəniyyətini və mütəxəssis kadrların peşə hazırlığını yüksəltmək məqsədilə məktəbəqədər, məktəb, orta ixtisas və ali tədris müəssisələrində onların ixtisaslarının artırılmasını təmin edən ümumi, kompleks fasiləsiz ekoloji təhsil və tərbiyə sistemi müəyyən edilir. Tədris müəssisələrində ekoloji biliklərin tədrisinin icbariliyi ilə yanaşı ekoloji biliklərin təbliği də qanunda öz əksini tapıb. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu (1999) isə tədris müəssisələrində, onların profilindən və mülkiyyət formasından asılı olmayaraq, ekologiyanın əsaslarının tədrisini nəzərdə tutur. Ölkədə aparılan təhsil islahatları, dövlət səviyyəsində müəllimlərə verilən müstəqillik, təhsil prosesinə yaradıcı münasibət, yeni texnologiyaların tətbiqi, təhsilin dünya standartları səviyyəsində yenidən qurulmasında mühüm rol oynayır. Bu islahatlar çərçivəsində ekoloji təhsilin inkişafı və ekoloji dünyagörüşün formalaşması üçün geniş perspektivlər yaranıb. Bu perspektivlərdən yetərincə yararlanmaq üçün isə hələ çox işlər görülməlidir [3].

Azərbaycanda 2001-ci ildən bir sıra komitə və eləcə də birlik ləğv edilərək əvəzində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Bundan əlavə 2003-cü ildən bu günə kimi ətraf mühitin mühafizəsi ilə əlaqədar 9 adda dövlət və milli proqram və digər dövlət əhəmiyyətli bir sıra planlar qəbul edilmişdir.

“Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (2002) əhalinin ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması, orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi, ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi dövlət siyasətinin əsas prinsipləri kimi götürülüb.

Bütün bunlarla yanaşı bir çox sosial-ekoloji problemlər mövcuddur ki, bu da əsasən iqtisadi yanaşma ilə əlaqədardır. Belə ki , hələ də iqtisadiyyatın effektivliyinə makroiqtisadi maraqlardan yanaşılır və bu vaxt istehsalın sosial dəyərləndirilməsi kölgədə qalır.

Azərbaycanda ekoloji tənzimləməyə dair kifayət qədər hüquqi əsasların olmasına baxmayaraq, reallıqda effektiv icra mexanizmlərində bəzi problemlərin olması təəssüf doğurur. Buna misal olaraq Azərbaycanda kommersiya məqsədilə tikilən binaları göstərmək olar: varlanmaq, gəlir götürmək məqsədilə Bakının və eləcə də ölkənin digər bölgələrinin florasına öldürücü zərbələr endirilir, yaşıllıqlar məhv edilir. Bu gün yeni tikililərin Bakının estetik görünüşünü xeyli yaxşılaşdırdığını etiraf etsək də, təəssüf hissilə şəhərdə yaşıllıqların, ağac-bitki örtüyünün xeyli az olduğunu etiraf etməliyik. Amma Avropa və ABŞ şəhərləri yaşıllıqlara bürünüb. Bu yaşıllıqlar yeni ucalan göydələnlər və digər tikililərlə harmonik şəkildə bir-birini tamamlayır. Hava o qədər təmizdir ki, həftələrlə avtomobili yuduzdurmağa, ayaqqabı təmizləməyə belə ehtiyac duyulmur. Amma küləklər şəhəri olan Bakıda isə vəziyyət tam əksinədir. Belə ki, ətraf mühit çirkli olduğundan küləkli havalarda bütün toz, plastik paketlər və digər zibil tullantaları havaya qalxaraq insanların sağlamlığına ciddi ziyan vurur. Bu da insanların ekoetik davranışlarının aşağı səviyyədə olmasına işarədir.

Azərbaycanda ekoloji vəziyyətlə bağlı vətəndaş təşəbbüsünün intellektual və sosial potensialı da aşağı səviyyədə qalmaqda davam edir. Bu istiqamətdə heç bələdiyyə səviyyəsində ekoloji qanunvericilik lazımınca yerinə yetirilmir və ciddi işlər həyata keçirilmir. İctimaiyyətin ekoloji cəhətdən əhəmiyyətli qərarların hazırlanması və qəbul olunmasında iştirakı – ümumdemokratik prinsipdir və onun reallaşdırlması dövlət hakimiyyəti orqanlarına, kommersiya strukturlarına, sosial birliklərə yalnız xeyir gətirə bilər. Lakin əhalinin ekoloji risk məsələlərinə dair məlumatlılıq səviyyəsinin aşağı olması müəyyən çətinliklər yaradır. Deməli, ekoloji maarifləndirmə və ictimai fəallıq olmadan heç bir ekoloji problemi əsaslı həll etmək mümkün deyil.

Əslində ictimaiyyətin ekoloji problemlərin həllinə cəlb olunması dövlət hakimiyyəti orqanları üçün mühüm əhəmiyyətə malikdir:

Əvvəla, ictimaiyyətin iştirakı geniş fikir diapazonunu müəyyənləşdirir, hakimiyyət orqanlarını layihə təşəbbüskarlarından “informasiya asılılığından” azad edir;

İkincisi, ictimaiyyətin iştirakı daha açıq və şəffaf dövlət idarəçiliyinə imkan yaradır ki, bunun da nəticəsində əhalinin hakimiyyət orqanlarına inamı artmış olur;

Üçüncüsü, ictimaiyyətin iştirakı sosial-ekoloji gərginliyin aradan qaldırılması üçün şərait yaratmış olur;

Dördüncüsü, ictimaiyyətin effektiv iştirakının təmin olunmasından maraqlı müəssisələr, banklar, təşkilatlar və s. xeyli mənfəət götürmüş olurlar. İctimai iştirak nəticəsində onlarda imkan yaranır ki:

a) Bu və ya digər fəaliyyətin ətraf mühitə təsiri haqqında yeni informasiya alsınlar və nəticədə texniki-iqtisadi, istehsal-texnoloji qərar və hesablamalarda buraxılan səhvləri düzəldə bilsinlər;

b) Obyektin gələcəkdə rahat fəaliyyət göstərməsi üçün layihədə əlavə dəyişikliklər aparmaq məqsədi ilə yerli əhalinin tam həcmdə rəyini nəzərə alsınlar;

c) İctimaiyyətlə gələcək əlaqələri inkişaf etdirmək üçün öz əlaqələrini QHT-lər, KİV və əhali ilə möhkəmləndirsinlər;

d) Təşkilatın imicinə ləkə gətirmək istəyən rəqiblərin xoşagəlməz metodlara (qara PR-a) əl atmasının qarşısını ala bilsinlər.

Müasir Azərbaycan cəmiyyətinin ekoloji mədəniyyətində individualist-utilitar yanaşma üstünlük təşkil edir. Ətraf mühitin ümumi tənzimlənməsi mədəniyyəti istehlak mədəniyyəti ilə sıxışdırılır ki bu da sosiumun inkişafının ümumi kontekstində neqativ meyillərin formalaşdırılmasına şərait yaradır. Təbii ki, bu da Azərbaycan əhalisinin yaşayış keyfiyyətini pisləşdirir .

Ancaq uzun illərdən bəri yığılıb qalmış ekoloji problemləri iqtisadi keçid dövründə olan Azərbaycan Respublikasının daxili imkanları hesabına həll etmək mümkün deyildir.

Azərbaycan Respublikasının əsas ekoloji problemləri aşağıdakılardan ibarətdir:

• su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsi, o cümlədən transsərhəd çirklənməyə məruz qalması;

• yaşayış məntəqələrinin keyfiyyətli su ilə təminatının aşağı səviyyədə olması, şirin suların tələbatçılara çatdırılmasında müəyyən itkilərə yol verilməsi, kanalizasiya xətlərinin azlığı;

- sənaye müəssisələri və nəqliyyat vasitələri tərəfindən atmosferin çirklənməsi;
- münbit torpaqların deqradasiyaya uğraması (eroziya, şoranlaşma və s.);
- bərk sənaye və məişət tullantılarının, o cümlədən təhlükəli tullantıların tələb olunan səviyyədə idarə olunmaması;
- biomüxtəlifliyin seyrəkləşməsi;
- meşə ehtiyatlarının, faunanın, o cümlədən balıq ehtiyatlarının azalması [4].

Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmış ekoloji tənzimləmə siyasəti ölkənin davamlı inkişaf konsepsiyasına əsaslanmalıdır. Çünki davamlı inkişaf konsepsiyası çoxşaxəlidir və burada ekoloji sahə digər sahələrlə əlaqəli şəkildə inkişaf etdirilməlidir. Ekoloji sahə ilk öncə sosial-iqtisadi sahə ilə sıx əlaqədardır. Azərbaycandakı sosial-iqtisadi vəziyyəti nəzərə alaraq, ekoloji siyasətin aşağıdakı üç əsas istiqamətini müəyyənləşdirmək olar:

1) ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulların tətbiq edilməsi;

2) indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə etmək, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olunmaq;

3) qlobal ekoloji problemlərin düzgün qiymətləndiriməsi, milli səviyyədə ekoloji problemlərin düzgün müəyyənləşdirilməsi və həll yollarının tapılması, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də potensial imkanların yenidən dəyərləndirilməsi.

Ekoloji siyasətin prioritet istiqamətlərdən biri də zəngin təbii və əmək ehtiyatları olan Azərbaycanda insan potensialından düzgün istifadə edərək əhalinin sağlamlığını təmin edən ekoloji mühit yaratmaqla dayanıqlı inkişafı təmin etməkdən ibarətdir. Lakin sənaye və kənd təsərrüfatının inkişafı təmin edilərkən, ekoloji amillərin nəzərə alınmaması ilə əlaqədar ölkəmizin ciddi problemlərlə üzləşməsi, respublika ərazisinin böyük bir hissəsinin işğal altında qalması və insanların yaşayış yerlərindən köçkün düşməsi ətraf mühitin mühafizəsi sahəsindəki problemləri daha da dərinləşdirmişdir. Azərbaycanda ekoloji siyasətin həyata keçirilməsi beynəlxalq standartlara uyğunlaşdırmalı, yeni qanunvericilik bazası yaradılmalı, ətraf mühit üzrə dövlət idarəetmə sistemi təkmilləşdirilməli, beynəlxalq təşkilatlarla əlaqələr genişləndirilməlidir. Dövlətin ekoloji siyasətinin əsasında ictimai şüur, insanların özünütəşkilə hazır olması, bilik və bacarıq səviyyəsi, idarəçilik təcrübəsi və başqa bu kimi keyfiyyətlər durmalıdır. Burada elmin, o cümlədən sosial fəlsəfənin da rolu böyükdür. Belə ki, təbiət və cəmiyyət arasındakı münasibətlərin, eyni zamanda ekoloji mədəniyyətin öyrənilməsi sosial-fəlsəfi və ya sosioloji araşdırma tələb edir. Çünki bir çox ekoloji problemlər ekoloji mədəniyyətin aşağı səviyyədə olmasından qaynaqlanır.

Ekoloji mədəniyyət şəxsiyyətin mahiyyəti, onun müxtəlif tərəfləri və keyfiyyətləri ilə üzvi şəkildə bağlıdır. Estetik mədəniyyət təbiətdəki gözəllik və harmoniyanı emosional cəhətdən qəbul etmək üçün şərait yaradır; mənəvi mədəniyyət şəxsiyyətin təbiətə münasibətini ruhlandırır və s. Bütün bu mədəniyyətlərin qarşılıqlı münasibətindən “cəmiyyət-təbiət” sistemini saxlamağa və inkişaf etdirməyə xidmət edən ekoloji mədəniyyət törəyir [5, s.57-58]. Deməli, ekoloji mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin xüsusi bir seqmenti olaraq cəmiyyətin ətraf mühitlə ahəngdar qarşılıqlı münasibətini əks etdirir, eləcə də onun təbiətə şüurlu münasibəti və təbiəti qoruyub saxlamaqda praktiki iştirakı ilə səciyyələnir. Ekoloji mədəniyyət cəmiyyətin ekoloji istiqamətli dəyərlər sistemini formalaşdırır, ictimai rəyə və sosial subyektlərin davranışına birbaşa təsir göstərir [6].

Təbiət və cəmiyyət həyatındakı iqtisadi, sosial siyasi proseslərin kəsilməzliyini təmin etmək üçün yeni nəsillərin sağlam böyüməsi çox vacibdir... Ekoloji böhran şəraitində insanın varlığının qorunub saxlanması məsələsi olduqca ciddi və çətin məsələdir. Bu problem ətraf mühitin insanın genefonduna, sağlamlığına təsiri məsələsidir [7].

Azərbaycanda ekoloji mədəniyyətin və mövcud ekoetik davranışların vəziyyətini daha da yaxından dərk etmək üçün sosioloji tədqiqatların nəticələri maraq doğurur. Bakı şəhərinin ekoloji təmizliyini tədqiq etmək məqsədilə “ELS” Müstəqil Araşdırmalar Mərkəzinin 2011-ci il 16-19 May tarixdə paytaxtın yeddi rayonu ərazisində keçirdiyi tədqiqatın nəticələri maraq doğurur [8]. Alınan nəticələrdən aydın olmuşdur ki, paytaxt küçələrinin vəziyyətinin qənaətbəxş olmamasının səbəbi ilk növbədə insan faktoru ilə bağlıdır: respondentlərin 71,1%-i əhalinin mədəni səviyyəsinin aşağı olmasını qeyd etmişdir. Tədqiqat nəticəsində aşağıdakı qənaətə gəlmək mümkün olmuşdur: əhalinin maarifləndirilməsi məqsədi ilə müxtəlif tədbirlərdən istifadə olunmalıdır - aksiyalar və kampaniyalar (misal üçün, “Təmiz şəhər hər birimizdən başlanır”) keçirilməli, şəhərin müxtəlif yerlərində sosial reklamlar yerləşdirilməli və eyni zamanda kütləvi informasiya vasitəliri ilə təbliğat aparılmalıdır; şəhərin təmizliyinin saxlanılmasına ciddi dövlət nəzarəti təşkil edilməli, müvafiq cəza sanksiyaları tətbiq edilməli və bunların həyata keçirilməsi üçün lazımi qurumlar yaradılmalıdır; ətraf mühitlə bağlı bir çox problemlərin məhz əhalinin fəal dəstəyi olduğu halda həll edilə bilər və buna nail olmaq üçün ictimai rəyin formalaşdırılması, icma üzvlərinin ekoloji mədəniyyətinin artırılması, əhalinin düşüncə və hərəkət tərzinin dəyişməsi istiqamətində əsaslı iş aparılmalıdır. Hər bir insanda özünü dəyişmək və bununla da ətraf mühiti dəyişməyə köməklik göstərmək üçün inanılmaz imkanlar vardır. Hər bir insanın təbiətlə harmoniyada yaşamağı öyrənməsi bu gün bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edir.

Beləliklə, müasir Azərbaycan cəmiyyətinin ekoloji mədəniyyətində individualist-utilitar yanaşma üstünlük təşkil etdiyini qeyd edə bilərik. Ətraf mühitin ümumi tənzimlənməsi mədəniyyəti istehlak mədəniyyəti ilə sıxışdırılır. Bu neqativ meyillər cəmiyyətin ekoloji mədəniyyətinə, əhalinin düşüncə və hərəkət tərzinin dəyişməsinə təsirsiz ötüşmür.

**Açar sözlər:** Cəmiyyət, ekoloji mədəniyyət, ekoetika , vətəndaş , dövlət

**İstifadə edilmiş ədəbiyyat**

1. Взгляд из России. М.: ИНФРА-М, 2005, 224 с.
2. Гирусов Э.В. Экологическая культура как высшая форма гуманизма. Философия и общество, № 4, октябрь-декабрь 2009, с. 74
3. http://paralel.az/index.php?mod=news&id=77639
4. http://www.mediaforum.az Azərbaycanin ekoloji problemləri hansılardır? 2012-02-29
5. Ульянова Н.В. Экологическое сознание и экологическая культура, проблемы и перспективы. Вестник ТГПУ. 2007. Выпуск 6 (69). Серия: Естественные и точные науки, с. 57-61
6. Environmentally Sustainable Economic Development: Building on Brundtland. UNESCO 1991. 100 p.http://www.nasledie.ru
7. [PDF] İnsan ekologiyası bioloji və sosioloji aspektlər. http://www.anl.az/el/a/ae_iebvsa.pdf
8. http://www.solidwaste.ru/publ/view/24.html

**Агаселим Гасанов**

## ЭКОЛОГИЧЕСКАЯ КУЛЬТУРА СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА

### Резюме

В статье изучается экологическая культура современного Азербайджанского общества. Подчеркивается, что в экологической культуре азербайджанского общества преобладает индивидуалистическо-утилитарный подход. Кроме того, гражданская активность связанный с экологической ситуацией по прежнему остается на низком уровне. Одноко, низкий уровень информированности населения по вопросам экологического риска создает некоторые трудности. В качестве выхода из положении указывается повышение экологического просвещения и социальной активности. Отмечается важность участия общественности в подготовки и принятии с экологической точки зрения решений.

**Ключевые слова**: общество, экологическая культура, экоэтика, гражданин, государство

**Agasalim Hasanov**

## ECOLOGICAL CULTURE OF MODERN AZERBAIJAN SOCIETY

### Summary

Ecological culture of modern Azerbaijan society is explored in the article. İt is noted that individualistic-utilitarian approach dominates in the ecological culture of Azerbaijan society. Also, civil activity related to ecological situation continues to be at a low level. It is particularly emphasized that public participation in the preparation and adoption of important decisions about ecological issues is very important. But low level of public awareness on issues of ecological risk creates certain difficulties. As a way out, ecological awareness and increasing of social activity are shown.

**Keywords:** society, ecological culture, ecoethics, civil, state

**UOT – 33.330**

**Xədicə Abbaslı**
**Azərbaycan Dövlət İqtisad Universiteti, tar.ü.f.d.**

# XVIII ƏSRİN BİRİNCİ YARISINDA GƏNCƏ-QARABAĞ BƏYLƏRBƏYİLİYİNDƏ SOSİAL-İQTİSADİ MÜNASİBƏTLƏR

*XIII əsrin I yarısında sosial-iqtisadi münasibətlər feodalizm cəmiyyətinə xas olan iqtisadi bazaya əsaslanırdı. Bu dövrdə Azərbaycan ərazisi üç böyük imperiyanın-Səfəvilər, Osmanlı və Əfşarlar imperiyalarının tərkibində olmuşdur. Ona görə də bu dövlətlərə xas olan sosial-iqtisadi münasibətlər həmin dövlətlərin idarəçilik sisteminə uyğun idi. Məqalədə XVIII əsrin birinci yarısında mövcud olan torpaq mülkiyyət formalarına, vergi sisteminin araşdırılmasına geniş yer verilmişdir.*

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən biri olan Gəncə-Qarabağ bəylərbəyiliyində mövcud olan sosial-iqtisadi münasibətlər əvvəlki əsrlərdə formalaşmış və bütün Azərbaycan üçün xarakterik olan sosial-iqtisadi münasibətlərdən, demək olar ki, fərqlənmirdi. Bütün Azərbaycanda olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də torpaq əsas istehsal vasitəsi kimi qalırdı və onun altı əsas mülkiyyət forması mövcud idi [1, s.75-76; 4, s.78]. Bu məsələ haqqında tarixi ədəbiyyatda geniş məlumat verildiyindən biz onların üzərində qısa dayanacağıq.

Səfəvilər dövlətinin digər ərazilərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də torpaq mülkiyyətinin aşağıda adları səkilən 6 əsas forması mövcud idi:

1. Əraziye-divani adlanan dövlət torpaqları.
2. Şah ailəsinə məxsus olan xassə torpaqları.
3. Xidmət müqabilində verilən torpaqlar (soyurqal, tiyul).
4. Bəzi hallarda ərbabi adlandırılan mülk torpaqları.
5. Müxtəlif dini təşkilatlara məxsus vəqf torpaqları.
6. Kənd icmalarına məxsus torpaqlar.

Səfəvilər dövlətində divan torpaqları daha böyük sahələri əhatə edirdi. Bəzi məlumatlara görə, belə torpaqlar ölkə üzrə bütün becərilən torpaqların 1/3 hissəsini təşkil edirdi [2, s.111]. Bu torpaqlardan əldə edilən bütün gəlirlər dövlət xəzinəsinə daxil edilirdi. Şah ailəsinə mənsub olan torpaqlardan əldə edilən gəlir isə ailə üzvlərinin xərclərinin ödənilməsinə sərf edilirdi. Bununla belə, qeyd etmək lazımdır ki, Azərbaycanda, o cümlədən Gəncə-Qarabağ bəylərbəyiliyində istər divan, istərsə də xassə torpaqları o qədər də çox deyildi. Bunun əsas səbəbi kimi Səfəvi şahlarının torpaq mülklərinə dövlətin mərkəzi vilayətlərində sahib olmağa üstünlük vermələrini göstərmək olar [3, s.126]. Lakin Gəncə-Qarabağ bəylərbəyiliyinin ərazisində az miqdarda da olsa, divan və xassə torpaqları mövcud idi. Osmanlı işğalı dövründə bu torpaqlar türk sultanının sərəncamına keçmişdi. Torpaq mülkiyyətinin şərti xarakter daşıyan formaları da geniş yayılmışdı. Dövlət torpaqlarından ayrılan belə torpaqlar hərbi və mülki şəxslərə xidmət müqabilində, xidməti müddətində, ömürlük və yaxud irsən verilirdi. Verilmə şərtlərindən asılı olaraq bu torpaqlar tiyul, soyurqal və nadir hallarda iqta adlandırılırdı.

XVI əsrdən tətbiq edilməyə başlayan tiyul torpaqları bir sıra özünəməxsus xüsusiyyətlərə malik idi. Əksər hallarda tiyul dedikdə müəyyən ərazilərdən alınan vergilərin ayrı-ayı şəxslərə bağışlanılmış hissəsi nəzərdə tutulurdu. Tiyuldar adlanan belə torpaq sahibləri onlar üçün ayrılmış torpaqlarda yaşamaya da bilərdilər. Onlar tiyul kimi nəzərdə tutulmuş məbləği birbaşa kəndlilərdən deyil, vergi yığanlardan alırdılar [4, s.189-190].

XVIII əsrin əvvəllərində Azərbaycanın digər yerlərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də tiyulun iki növü geniş yayılmışdı. Birinci növ tiyul dövlətdə müəyyən vəzifə tutan

şəxslərə vəzifə müddətinə verilirdi. Əgər vəzifə müəyyən səbəbdən və vaxtdan sonra digər şəxsə verilirdisə, sonuncu həm də tiyulun sahibi olurdu [5, s.86]. Tiyulun ikinci növü hər hansı vəzifəni tutmaqla bağlı olmayıb ayrı-ayrı şəxslərə dövlət qarşısındakı xüsusi xidmət müqabilində mükafat şəklində verilirdi [4, s.200-201].

Azərbaycanda uzun müddət mövcud olmuş şərti torpaq mülkiyyət formalarından biri də soyurqal olmuşdur. İrsi xarakter daşıyan bu torpaq mülkiyyəti soyurqal sahibinə verginin dövlət xəzinəsinə getməli olan hissəsinə sahib olmaq hüququ verirdi. Soyurqal torpaq sahibliyi hərbi xidmətlə sıx bağlı olub soyurqal sahibinin şah ordusuna müəyyən miqdarda silahlı əsgər verməsini nəzərdə tuturdu. Soyurqal torpaq sahibliyi haqqında deyilən bu xüsusiyyətlər Səfəvi hökmdarı Sultan Hüseynin 1701-ci ildə verdiyi fərmanda tam əks olunmuşdur. Fərmanda göstərilirdi ki, Qaradağın Dizmar mahalından toplanan malcəhət və digər vergilərin 63.096 dinarı soyurqal hüququ ilə Qaradağ hakimi Bayandur sultanın oğlu Məhəmmədqasım bəyə verilir [4, s.63].

Bəzi hallarda soyurqal torpaqlarının verilməsi belə torpağı olan şəxsə həm də dövlət xəzinəsindən məvacib təyin edilməsiylə də müşayiət olunurdu. Şah II Təhmasibin (1722-1732) fərmanlarından birində deyilirdi ki, dövlət qarşısındakı xidmətlərinə görə Talıb xan Qacarın oğlu Dövlətyar bəy “keşikçibaşı” vəzifəsinə təyin edilir. Fərmanda daha sonra göstərilirdi ki, “Xəmsə mahalının (mənbələrdə və tarixi ədəbiyyatda Qarabağın xristian məliklikləri bəzən “Xəmsə” adı ilə verilir) kəndlərindən birini soyurqal şəklində və at arpası toplamaq hüququ ilə onun sərəncamına veririk və şah hakimiyyətinə sədaqətlə xidmət etməsi üçün ona pulla illik məvacib təyin edirik” [6, s.47].

XVIII əsrin birinci yarısında yarımköçəri həyat tərzi keçirən bir çox maldar tayfaların istifadəsində olan torpaqları da soyrqal torpaqları sırasına aid etmək olar. Öyrənilən dövrdə Gəncə-Qarabağ bəylərbəyiliyinin ərazisində yaşayan Cavanşir, Otuziki, İyirmidörd, Kəbirli və başqa tayfaların istifadə etdikləri torpaqlar, çox güman ki, onlara vaxtilə soyurqal hüququ ilə verilmişdi. Bu tayfalara daxil olan oymaqlardan hər birinin özünəməxsus qışlaq və yaylaq yerləri var idi. “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”nin verdiyi məlumatdan aydın olur ki, Cavanşir tayfasına məxsus 25 oymaqdan hər birinin Dizaq, Bayat, Arasbar nahiyyələrində əkin yerləri, Kür çayı sahilində, Ləmbəran, Dizaq, Xaçın və ən çoxu Arasbar nahiyyələrində qışlaqları, İrəvan vilayəti ilə həmsərhəd olan bölgələrdə isə yaylaqları var idi [7, s.436-453].

Nəsli xarakter daşıyan bu torpaqlar faktiki olaraq tayfa başçılarının ixtiyarında olurdu. Tayfalar özlərinə məxsus yaylaq və qışlaqlara hərəkət edərkən onlar üçün müəyyənləşdirilmiş sərhədlərdən kənara çıxa bilməzdilər. Bununla da ayrı-ayı tayfalar arasında baş verə biləcək toqquşmaların qarşısı alınır və dövlətin hər bir tayfa üzərində nəzarət etməsi yüngülləşdirilirdi. Soyurqal torpaqlarından istifadə edən tayfalar zərurət yarandıqda şah ordusuna tələb olunan sayda əsgər verməli idilər [8, s.127].

XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ bəylərbəyiliyində geniş yayılmış torpaq mülkiyyət formalarından biri də mülk idi. Hələ ərəb xilafəti dövründən məlum olan bu torpaq mülkiyyət forması digər torpaq mülkiyyət formalarından iki əsas xüsusiyyətlərinə görə fərqlənirdi. Birincisi, mülk torpaqlarını almaq, satmaq və irsən vermək mümkün idi. İkincisi, mülkə sahib olmaq dövlət qarşısında hər hansı xidmətlə bağlı deyildi. Yalnız torpaq deyil, həmçinin müxtəlif növ daşınmaz əmlak, o cümlədən müxtəlif təyinatlı tikililər, bağlar, suvarma arxları mülk ola bilərdi [4, s.228].

Mülk torpaqlarına sahiblik hüququ hakimiyyət orqanları tərəfindən verilmiş təliqə və qəbalə vasitəsilə təsdiq edilirdi. XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ bəylərbəyiliyində torpaq mülklərinə sahibliyi təsdiq edən belə sənədlərdən bəziləri zəmanəmizədək gəlib çatmışdır. 1728-ci ilə aid olan bu sənədlərdən birində mübahisəli hesab edilən torpaq mülkünün sahibliyi müəyyənləşdirilmişdir. Sənəddə Əkkərə kəndinin sakini Məlik Kərəm və onun övladları Gəncə sərəsgəri Mustafa paşaya bildirirdilər ki, Keşkərən kəndində onlara məxsus olan torpaqlar Əgərək kəndindən olan Hacı İbrahim bəy və Sultanhüseyn bəy tərəfindən tutulmuşdur. Sərəgər Mustafa paşanın əmrilə şi-

kayət şəriət qaydaları əsasında araşdırıldıqdan sonra mübahisəli torpaqların Məlik Kərəmin mülkü olması təsdiq edilmiş və bu haqda onlara sənəd verilmişdir [9, v.239].

Mülk torpaqları vərəsəlik əsasında uzun müddət eyni nəsildən olan şəxslərə mənsub olurdu. XIX əsrin əvvəllərində tərtib edilmiş sənəddən aydın olur ki, Qarabağda yerləşən Qal kəndi hələ Qarabağ xanlığı yaranmamışdan xeyli əvvəl Hidayət bəy İsmayıl bəy oğlunun ulu babalarına məxsus olmuşdur və onlar həmin torpaqdan tam sərbəst istifadə etmişlər [9, v.247].

Mülk torpaqlarına məxsus xüsusiyyətlərdən biri onların alqı-satqı obyektinə çevrilməsi idi. Yeni torpaq sahələrini satın alan feodallar bu yolla öz mülklərinin həcmini və gəlirlərini artırmaq məqsədi güdürdülər. XVIII əsrin birinci yarısında Azərbaycanın digər yelərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də mülk torpaqlarının alınıb satılması heç də nadir hadisə deyildi. 1738-ci ilə aid qəbalədə göstərilirdi ki, Bərgüşad mahalının sakinlərindən biri özünə məxsus torpaq mülkünün 2/6 hissəsini Məlik Kərəm adlı feodala 25 tümənə satmışdır. Maraqlı burasıdır ki, gələcəkdə baş verə biləcək torpaq mübahisələrinə yol verməmək üçün satılmış torpağın sərhədləri qəbalədə dəqiq göstərilmişdi [10, s.238]. 1727-ci ilə aid başqa bir mənbədə bir feodalın eyni zamanda iki müxtəlif mülk torpağının satılmasından bəhs edilir. Sənəddə göstərilir ki, “Hacı Məmməd Məlikməhəmməd oğlu Carıca çölündə yerləşən özünə məxsus torpaq sahələrindən birini 50, digər, daha böyük sahəni isə 100 tümənə Hacı Ağakişi bəy Hacı Mirəhməd bəy oğluna satmışdır” [10, s.298].

Mülkədarlar satın aldıqları torpaqlarda, adətən, qaçqın kəndliləri yerləşdirir, bununla da yeni gəlir mənbəyi əldə edirdilər. Qarabağın Əliqulukənd adlı kəndinin sakinlərinin şifahi məlumatı əsasında XIX əsrdə tərtib edilmiş sənədlərdən birində göstərilir ki, bu kəndin torpaqları onun hazırkı sahibi Əli Əkbər bəyin əcdadları tərəfindən satın alınmışdır. Həmin torpaqların müxtəlif yerlərdən gəlmiş qaçqın kəndlilər hesabına məskunlaşdırılması isə Əli Əkbər bəyin babası Murtuza bəy tərəfindən Qarabağ xanı Pənahəli xanın dövründə həyata keçirilmişdir [11, s.90].

Azərbaycanın digər yerlərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də süni suvarma vasitələrinin bir hissəsi mülk hüququ ilə ayrı-ayrı feodallara məxsus idi. Daha böyük maddi imkanlara malik olan feodallar öz vəsaitləri hesabına arxlar çəkdirir və kəhrizlər qazdırırdılar. Belə halda suvarma vasitəsi onu tikdirənin mülkü hesab edilirdi. Elə buna görə də suvarma vasitəsinin sahibi ondan istədiyi kimi istifadə etmək, daha doğrusu, satmaq, bağışlamaq, irsən vermək və iltizama vermək hüququna malik idi. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində Səfəvilər dövründə süni suvarma vasitələrinin sahiblərinin hüquqları, eləcə də onların sudan istifadə edən kəndlilərlə münasibətləri haqqında maraqlı məlumat verilir. Həmin məlumatdan aydın olur ki, hər bir kəndin ərazisindən axan arxın öz sahibi var idi. Həmin arxın suyundan istifadə edən kəndli əldə etdiyi məhsulun $^1/_4$ hissəsini üşr şəklində torpaq sahibinə, $^1/_{15}$ hissəsini isə bəhrə şəklində suvarma vasitəsinin sahibinə verirdi [7, s.25].

Əvvəllər olduğu kimi, XVIII əsrin birinci yarısında da məscidlərə, müqəddəs məzarlara, ocaqlara və ruhanilərə məxsus olan torpaqlar vəqf torpaqları adlanırdı. Torpaq sahələri ilə yanaşı vəqf mülkləri sırasına evlər, dükanlar, karvansaralar, bağlar, sənətkar emalatxanaları, suvama arxları, dəyirmanlar və s. də daxil olurdu. Vəqf torpaqlarından və mülklərindən əldə edilən gəlir müsəlman ruhanilərinin saxlanılmasına, eləcə də məscid və mədrəsələrin ehtiyaclarına sərf edilirdi [12, s.349].

Vəqf torpaqları dövlət xəzinəsinə ödənilən vergilərdən azad idilər. Bəzi feodallar bundan istifadə edərək öz mülklərini formal olaraq ayrı-ayrı dini müəssisələrə bağışlayır, bununla da dövlətə vergi verməkdən boyun qaçırırdılar. Belə yalançı vəqflərdən əldə edilən gəlirin bir hissəsi ruhanilərə, digər hissəsi isə həmin torpağın faktiki sahibinə çatırdı. XVIII əsrin 30-cu illərində Nadir şahın hakimiyyət başına gəlməsilə vəqf torpaqlarının və ruhanilərin hüquqlarının kəskin şəkildə məhdudlaşdırılması prosesi başlandı. Yeni şahın əmrilə Azərbaycanda bir çox vəqflər müsadirə edilərək dövlət xəzinəsinin sərəncamına verilirdi. Əksər hallarda müsadirə edilən vəqf torpaqlarından əldə edilən gəlir Nadir şahın çoxsaylı ordusunun ehtiyaclarının ödənilməsinə yönəldilirdi [6, s.43]. Vəqf

torpaqlarına belə münasibət Nadir şahın ölümünə qədər davam etmişdir.

Camaat torpaqları adlanan torpaq mülkiyyət forması kənd icmasının sərəncamında olurdu. Belə torpaq istər həcminə, istərsə də keyfiyyətinə görə feodallara məxsus torpaqlardan xeyli geridə qalırdı. Ən münbit torpaqları öz əllərində cəmləşdirən feodallar kənd icmalarının istifadəsinə dağlıq və bataqlıq ərazilərdə əkinçilik üçün elə də yararlı olamayan torpaqlar verirdilər. Müsəlman şərqinin digər ölkələrində olduğu kimi, Azərbaycanda da icma torpaqlarının və kənd icmasının, nə də ondan istifadə edən kəndlilərin mülkiyyətinə aid etmək olmaz. Əslində bu torpaqların mülkiyyətçisi rolunda dövlət çıxış edirdi. Kəndlilər isə bu torpaqlardan istifadə etdiklərinə görə dövlət xəzinəsinə vergi ödəyirdilər [13, s.120].

XVII əsrin sonu - XVIII əsrin əvvəllərində, onsuz da az olan camaat torpaqlarının sahəsi getdikcə azalırdı. Bu dövrə aid mənbələrdə camaat torpaqları haqqında məlumatların azlığını da bununla izah etmək lazımdır. Məhz bu dövrdə camaaat torpaqlarının iri feodallar tərəfindən ələ keçirilməsi geniş miqyas almışdı. Səfəvi hökmdarı Süleymanın (1666-1694) kənd icmalarına məxsus torpaqların iri feodallar tərəfindən zəbt olunmasının qarşısını almaq üçün verdiyi xüsusi fərmanlar da bunu təsdiq edir [4, s.242-243]. Camaat torpaqlarının və kəndli təsərrüfatlarının iri feodallar tərəfindən ələ keçirilməsinin ən geniş yayılmış forması “könüllülük” idi. İri feodal tərəfindən vaxtaşırı təzyiq və qarətlərə məruz qalan kəndli becərdiyi torpaqları ona güzəştə getməyə məcbur edilirdi [14, s.254].

XVIII əsrin birinci yarısında bütün Azərbaycanda olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də əhalinin sosial strukturu istehsal münasibətləri və məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə sıx bağlı idi. İstehsal vasitələrinə münasitbətə görə əhali iki əsas qrupa - feodallara və kəndlilərə bölünürdü. Bunlarla yanaşı, şəhərlərdə tacir və sənətkarlar da yaşayırdılar. Lakin natural təsərrüfatın hökmranlığı şəraitində əhalinin bu qruplarının ölkənin sosial-iqtisadi və siyasi həyatına təsiri çox az idi.

Hakim sinif olan feodallar iki kateqoriyaya bölünürdülər. Birinci kateqoriyanı dünyəvi feodallar təşkil edirdi və onların sırasına xanlar, bəylər, sultanlar, məliklər, darğalar, naiblər və başqaları daxil idi. Yarım köçəri tayfaların başçıları olan elbəyilər də dünyəvi feodalların sırasında idilər. Bütün bu feodallar bir-birindən dövlət strukturunda tutduğu mövqeyə və sahib olduqları əmlakın miqdarına görə fərqlənirdilər.

Feodal əyanların ikinci kateqoriyasını ruhani feodallar təşkil edirdilər. Hakim siniflərlə sıx bağlı olan ali müsəlman ruhanilərinin əsas gəlir mənbəyini vəqf torpaqları təşkil edirdi. Bütün Səfəvilər dövləti çərçivəsində vəqf əmlakının idarəçiliyi şahdan sonra ikinci şəxs hesab edilən sədrin əlində cəmləşmişdi. Bütün ölkə miqyasında məhkəmə işləri də ruhanilərin əlində cəmləşmişdi. Bu işlərlə bilavasitə məşğul olan şeyxülislam və qazılar ruhanilərdən təyin edilirdi. Gəncə-Qarabağ bəylərbəyiliyində də şiə ruhanilərinə və şəriət məhkəmələrinə başçılıq etmək üçün şeyxülislam, qazı və sədr vəzifələri mövcud idi [4, s.118-119; 8, s.118-119].

XVIII əsrin birinci yarısında bütün Azərbaycanda olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də əhalinin əsas hissəsini kəndlilər təşkil edirdi. Tədqiqatçılar son orta əslərdə Azərbaycanda kəndlilərin rəiyyət, rəncbər, elat və icmaçı kəndli kimi kateqoriyalarının adlarını çəkirlər. Göstərmək lazımdır ki, camaat torpaqlarında yaşayan və ancaq dövlətə vergi ödəyən icmaçı kəndlilərin sayı çox cüzi idi. Bu, hər şeydən əvvəl, camaat torpaqlarının feodallar tərəfindən zəbt olunması ilə bağlı idi.

Kəndlilərin böyük əksəriyyətini rəiyyətlər təşkil edirdi. Kiçik torpaq payına malik olan rəiyyətlər öz torpaqlarını becərməklə yanaşı divan, vəqf, bəy, məlik və sultan torpaqlarında işləyirdilər. İ.P.Petruşevski yazır ki, rəiyyət kateqoriyasına daxil olan kəndlilər formal olaraq yaşayış yerlərini tərk etmək hüququna malik olsalar da, faktiki olaraq bu hüquqdan istifadə edə bilmirdilər [4, s.248].

Hansı torpaqlarda yaşamalarından asılı olmayaraq rəiyyətlər ümumilikdə müxtəlif növ vergi

və mükəlləfiyyət yerinə yetirirdilər. Bu vergilər arasında malcəhət, üşr, bağbaşı, cüftbaşı, salyana, bayramlıq və başqaları daha geniş yayılmışdı [4, s.265].

Rəiyyətlərlə müqayisədə, torpaqsız kəndlilər olan rəncbərlərin vəziyyəti daha ağır idi. Əsas istehsal vasitələrindən məhrum olan rəncbərlər çox ağır şərtlərlə feodal təsərrüfatında işləyirdilər. Onlar taxıl və çəltik tarlalarında çalışır, tut bağlarını becərir, feodala məxsus yüklərin daşınması ilə məşğul olurdular. Şəxsən asılı vəziyyətdə olan rəncbərlər ağır istismara məruz qalırdılar [15, s.85].

Kəndlilərin rəncbər vəziyyətinə düşmələri əsasən iki yolla baş verirdi. Bu və ya digər səbəbdən müflisləşərək var-yoxdan çıxan kəndli özünün kiçik torpaq sahəsini feodala satır və bununla da rəncbərə çevrilirdi [16, s.46]. Rəncbər kateqoriyalı kəndlilərin yaranmasının ikinci yolu başqa yerlərdən gələn rəiyyətlər və ağasının dözülməz zülmü nəticəsində qaçmağa məcbur olan elə həmin rəncbərlər olurdu. Mənbələrdən birində göstərildiyi kimi, feodalların tətbiq etdikləri zorakı metodlar və əldə edilən gəlirlərin hədsiz dərəcədə az olması rəncbərləri öz yaşayış yerlərindən qaçmağa məcbur edirdi [17, s.726].

Gəncə-Qarabağ bəylərbəyiliyində yaşayan kəndlilərin xeyli hissəsini yarımköçəri rnaldarlıqla məşğul olan elatlar təşkil edirdi. Ayrı-ayrı tayfalar halında yaşayan elatların aşağı təbəqəsi həm dövlət, hə də tayfa başçıları tərəfindən istismar edilirdi. Bununla belə, XVII əsrin sonlarınadək, oturaq kəndlilərlə müqayisədə, elatların vəziyyəti yaxşı idi. Onların dövlət qarşısında yerinə yetirdikləri əsas mükəlləfiyyət orduda xidmət etməkdən ibarət idi. Bəylərbəyilik tərəfindən hərbi yürüş elan edilərkən hər bir elat tayfası müəyyən olunmuş qaydada süvari əsgər verməli idi. Hər bir tayfanın dövlət üçün əhəmiyyəti göndərilən silahlı əsgərlərin miqdarı ilə müəyyənləşirdi [3, s.145].

Elat tayfalarının hərbi xidmətlə bağlı olmaları dövləti onlarla bir qədər ehtiyatlı davranmağa vadar edirdi. Rəiyyətlərinin ödədikləri bütün vergilərin elatların da üzərinə qoyulması onları hərbi cəhətdən etibarsız edə bilərdi. Elə bunun nəticəsi idi ki, elat tayfalarının əksəriyyəti dövlətə ancaq çobanbəyi vergisi ödəyir, rəiyyətlər üzərinə qoyulan malcəhət, darğalıq, ixracat kimi vergilərdən tamamilə azad olunurdular. Qızılbaş tayfa birliyinə daxil olan elat tayfalarının vəziyyəti daha yaxşı idi. Onlar vergilərdən azad olmaqla yanaşı, həm də ən yaxşı otlaqlarla təmin edilirdilər. Gəncə-Qarabağ bəylərbəyiliyinin ərazisində yaşayan ziyadoğlu, qazaxlı və şəmşəddinli tayfaları məhz belə vəziyyətdə idilər [4, s.311]. Bununla belə, XVII əsrin sonu-XVIII əsrin əvvəllərində elat tayfalarının vəziyyətində bir sıra əsaslı dəyişikliklər müşahidə edilirdi. Onların təsərrüfat fəaliyyətində maldarlıqla yanaşı, əkinçilik də mühüm rol oynamağa başlamışdı. “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərindən” aydın olur ki, bəylərbəyilikdə yaşayan elat tayfalarının, demək olar ki, hamısının düzənlik bölgələrdə əkin sahələri var idi. Onlar bu əkin sahələrinə görə torpaq sahibinə “üşr” adlı vergi ödəyirdilər [7, s.436-453].

Səfəvilər dövlətində XVII əsrin sonlarından başlamış dərin iqtisadi böhran, digər yerlərdə olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyin ərazisində yaşayan elatların da vəziyyətinə pis təsir göstərdi. Əhalinin digər təbəqələri kimi, elatlar da Səfəvi hökmdarı şah Sultan Hüseynin keçirdiyi vergi islahatının ağırlığını öz üzərində hiss etməyə başladılar. Yesayi Həsən Cəlalyanın sözlərinə görə “tərəkəmə” adlandırılan tayfalar üzrə də siyahılar tərtib edildi. Bu siyahılara onların otlaqları, ilxıları, müxtəlif heyvan naxırları daxil edildi və onların üzərinə qoyulan vergilər bir neçə dəfə artırıldı [18, s.20].

Əvvəllər olduğu kimi, XVIII əsrin birinci yarısında da Azərbaycanda olduqca mürəkkəb vergi sistemi mövcud idi. Bəzi tədqiqatçıların apardıqları hesablamalara görə bu dövrdə Azərbaycanda əhalidən toplanan vergilərin ümumi sayı 35-ə çatırdı [4, s.264-302; 19, s.751-791]. Əlbəttə, bu qədər vergi heç də əhalinin bütün təbəqələri üçün məcburi deyildi. Dövlət tərəfindən vergi obyektinin müəyyənləşdirilməsinə bu və ya digər bölgənin yerli xüsusiyyətləri, ayrı-ayrı əhali qruplarının təsərrüfat fəaliyyətinin istiqamətləri və başqa amillər təsir göstərirdi. Nəticədə müəyyən vergilər bir və yaxud başqa vilayətdən toplandığı halda, bəzi vergilər bütün ölkə üçün xarakterik olur və bütün

vergi ödəyicilərindən toplanırdı [20, s.198].

XVIII əsrin birinci yarısında İranda və Azərbaycanda gedən siyasi proseslər də vergilərin istər həcminə, istərsə də xarakterinə ciddi təsir göstərən amillərdən olmuşdur. Məhz siyasi şəraitin qeyri sabitliyi, ilk növbədə isə az vaxt ərzində bölgənin müxtəlif rejimlərin təsiri altına düşməsi vergilərin bütün dövr üzrə vahid siyahısını tərtib etməyə imkan vermir. Bu dövrdə bütün Azərbaycanda olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də əsas vergi malcəhət idi. Terminoloji baxımdan malcəhət əkinçilikdən toplanan əsas vergi, məhsulun hissəsi, daha dəqiq ifadə etsək, məhsul vergisinin əsas hissəsi mənasını verir. Natura ilə toplanan bu vergi bəzən ancaq dövlətin, bəzən ancaq torpaq sahibinin xeyrinə toplandığı halda, bəzi vaxtlarda isə müəyyən nisbət çərçivəsində onların arasında bölüşdürülürdü [4, s.266]. Bu dövrdə əkinçilərdən toplanan üşr, xərac və dəhyek kimi vergilər ya malcəhət vergisinin eyni olur, ya da ondan çox cüzi şəkildə fərqlənirdilər. Məsələn, Gəncə-Qarabağ bəylərbəyiliyində türk işğalı dövründə bu vergi “üşr” adı altında toplanırdı [7, s.21].

XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ bəylərbəyiliyində geniş yayılmış vergi növlərindən biri süni suvarma ilə sıx bağlı olan bəhrə idi. Kəndli suvarma suyundan istifadə etdiyinə görə süni suvarma vasitəsinin sahibinə bəhrə adı altında vergi ödəyirdi. Adətən, bu verginin həcmi əldə edilən məhsulun $^1/_{15}$ hissəsini təşkil edirdi. Bəzi hallarda həm süni suvarma vasitəsinin, həm də torpağın sahibi eyni şəxs olurdu. Belə halda malcəhət və bəhrə sahibkara vahid vergi şəklində və daha çox bəhrə adı altında ödənilirdi [21, s.82]. Görünür, elə bunu nəzərə alan bir çox tədqiqatçılar malcəhət vergisi ilə bəhrənin eyniyyət təşkil etməsi fikrini irəli sürürlər. İ.P.Petruşevski bu haqda belə yazır: “Mal-u cihat” termininin sinonimi “bəhrə” termini idi ki, İrəvan və Naxçıvan xanlıqlarında ancaq bu termin işlədilirdi [4, s.267]. Bəhrənin malcəhətin sinonimi olması fikrini H.B.Abdullayev də irəli sürür: “Verginin bu növü Şəki və Şamaxı xanlıqlarında mal-q cihat, Qarabağ xanlığında isə bəhrə adlanırdı” [22, s.170]. Lakin XVIII-XIX əsrə aid mənbələrin təhlili göstərir ki, yuxarıda adları çəkilən müəlliflərin irəli sürdükləri fikirlər real vəziyyəti heç də düzgün əks etdirmir, daha doğrusu, heç də həmişə və hər yerdə bəhrə malcəhətin sinonimi deyildi. 1823-cü ildə tərtib edilmiş “Qarabağ əyalətinin təsviri” bu baxımdan çox maraqlı məlumat verir. Həmin məlumatlardan aydın olur ki, XVIII-XIX əsrlərdə Qarabağda malcəhət və bəhrə ayrı-ayrı vergilər olub öz həcmlərinə görə bir-birindən əsaslı şəkildə fərqlənirdilər. Məsələn, Vərəndə mahalının Dommi kəndindən malcəhət vergisi kimi məhsulun $^1/_5$ hissəsi toplanırdı [10, s.171]. Yenə həmin kənddən toplanan vergilərdən bəhs edən xüsusi qeydlərdə deyilir ki, “bu kəndin torpaqları qəbaləyə görə polkovnik məlik Cəmşidin oğlu Bəhram bəyə məxsusdur və buna görə də o, buna görə də becərilən torpaqlardan bəhrə alır” [23, s.171]. Göstərilən faktlar sübut edir ki, Qarabağda bir vergi obyekti kimi əkin sahəsindən iki adda vergi toplanırdı. Dövlət xəzinəsi üçün toplanan vergi malcəhət adlanır və məhsulun $^1/_5$ hissəsini təşkil edirdi. Torpaq sahibinin xeyrinə toplanan vergi isə məhsulun $^1/_{10}$ hissəsini təşkil edib bəhrə adlanırdı.

XVIII əsrin birinci yarısında maldarlıqla məşğul olan əhalinin ödədiyi əsas vergi çobanbəyi adlanırdı. Bu verginin əsas ödəyiciləri dövlətə məxsus yaylaq və qışlaqlardan istifadə edən yarımköçəri maldar tayfaları idi. Onu da göstərmək lazımdır ki, çobanbəyi vergisi hələ XVI əsrdən Gəncə-Qarabağ bəylərbəyiliyində əhalidən toplanan əsas vergilərdən biri idi. Bu hər şeydən əvvəl Səfəvilər dövlətinin bu bölgəsində maldarlığın daha çox inkişaf etməsi ilə bağlı idi. Murtuzaqulu xan Ziyadoğlunun vəziri olmuş Məhəmməd Məsum göstərir ki, türk səfirini heyrətləndirmək istəyən Gəncə-Qarabağ bəylərbəyi Şahverdi sultan Ziyadoğlu çobanbəyi vergisinin toplanmasına nəzarət edən məmurlardan bəylərbəyilikdə qoyunların sayını əks etdirən siyahını açıqlamağı tələb etmişdi. Bu siyahıdan aydın olmuşdu ki, Qarabağda 100 min qoyun sürüsü və onlara baxan 200 min nəfər çoban vardır [24, s.271]. Bu rəqəmlər xeyli dərəcədə şişirdilmiş olsa da, Gəncə-Qarabağ bəylərbəyiliyindən toplanan vergilər arasında çobanbəyi vergisinin mühüm yer tutduğunu təsdiq edir. Onu da göstərmək lazımdır ki, çobanbəyi vergisi kənd təsərrüfatı məhsullarından toplanan ən ağır vergilərdən

biri idi. Verginin həcmi hər il artırıldığından onu ödəmək imkanı olmayan oturaq kəndlilər vəziyyətdən yeganə çıxış yolunu özlərinə məxsus qoyunların satılmasında göründülər. Beləliklə, çobanbəyi vergisinin ağırlığı nəticəsində kəndlilər öz heyvanlarından və əmlaklarından məhrum olaraq yoxsullaşırdılar [4, s.271].

1723-1735-ci illərdə olmuş Osmanlı işğalı dövründə türk hakimiyyət orqanları Gəncə-Qarabağ əyalətinin maldar əhalisindən 8 adda vergi toplayırdılar. Bunların arasında yataq vergisi, kərə yağı vergisi, qoyun vergisi, qışlaq vergisi və yaylaq vergisi xüsusilə geniş yayılmışdı. Onu da göstərmək lazımdır ki, əsas məşğuliyyəti qoyunçuluq olan tayfalar çobanbəyi vergisi kimi iki adda vergi-qoyun vergisi və rüsum ödəyirdilər. “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri” əsasında apardığımız hesablamalara görə türk hakimiyyət orqanları hər il Cavanşir tayfasına mənsub olan oymaqlardan ildə 204.180 ağca qoyun vergisi, 107.400 ağca rüsum, Otuziki tayfasının oymaqlarından isə 147.760 ağça qoyun vergisi, 73.630 ağça rüsum toplayırdılar [7, s.436-466].

Gəncə-Qarabağ bəylərbəyiliyində kəndlilərin ödədiyi vergilərdən biri də mal-bağ və yaxud bağbaşı vergisi idi. Bu vergi XVII əsrin əvvəllərinə aid rəsmi dövlət sənədlərində “mal-i bağ” (fars dilində - bağdan vergi) formasında qeydə alınmışdır. Məlumdur ki, 1607-ci ildə Osmanlı Türkiyəsi ilə müharibə aparan şah I Abbas (1587-1629-cu illər) Şirvana yürüş etmiş və Şamaxı qalasını mübarizəyə almışdı. Həmin hadisələr zamanı Bakı əhalisi Osmanlı ordusu əleyhinə üsyan qaldırmış və şəhəri azad etmişdir [25, s.258]. Yaranmış əlverişli şəraitdən istifadə edən Bibiheybət məqbərəsinin məsul şəxsləri Şamaxıya şah I Abbasın görüşünə getmiş və məqbərəyə vəqf edilən əmlakın azad edilməsi haqqında fərman almışdılar. 1607-ci ilin fevralında verilmiş fərmanın izahatında həmin vaxta qədər Bibiheybət məqbərəsindən toplanan vergilər sırasında meyvə və üzüm bağlarından “mal-i bağ” adı altında toplanan vergi də verilir [6, s.11-12]. Əldə olan məlumatların təhlili əsasında belə qənaətə gəlmək olar ki, bu vergi üzüm və meyvə bağlarından əldə edilən məhsulun 1/10 hissəsini təşkil edirdi. Bu verginin həcminin müəyyənləşdirilməsinə bir neçə amil təsir göstərirdi [4, s.271]. Bu amillər sırasında meyvə ağaclarının sayı, növü, məhsuldarlığı və becərilmə şəraiti mühüm rol oynayırdı. Məsələn, suvarılan üzüm bağlarından toplanan bağbaşı vergisinin həcmi suvarılmayan üzüm bağlarından toplanan həmin vergidən çox olurdu.

Gəncə-Qarabağ bəylərbəyiliyində əhalinin ödədiyi vergilər arasında “Bayramlıq” adlanan vergi xüsusi yer tuturdu. Bu vergini, adətən, kəndlilər Ramazan və Novruz bayramları münasibətilə öz torpaq sahiblərinə və yerli hakimlərə ödəyirdilər. “Bayramlıq” ərəb mənşəli termin olmasına baxmayaraq, XVIII əsrdə Azərbaycan dilində özünə tam vətəndaşlıq hüququ qazanmışdı. İ.P.Petruşevskinin yazdığına görə bu termin Ağqoyunlu “şahzadəsi Qasımın soyurqal fərmanında xatırlanan” idi və “novruzi” terminləri ilə uyğunluq təşkil edirdi [4, s.281]. Rus məmurlarının XIX əsrin əvvəllərində tərtib etdikləri kameral təsvirlərdən aydın olur ki, bayramlıq hər bir kəndlinin ödədiyi icbari vergilər sırasına daxil idi. “Qarabağ əyalətinin təsviri” adlı belə təsvirlərdən birində göstərilir ki, bu verginin həcmi hər bir kəndli ailəsi üçün ayrılıqda deyil, bütün kənd üçün ümumi bir məbləğ şəklində müəyyənləşdirildi. Lakin hər bir kəndli ailəsinin bu zaman nə qədər bayramlıq ödədiyini və bu ödənişin hansı prinsipə əsaslandığını aydınlaşdırmaq çətindir. Belə ki, 53 vergi ödəyicisi olan Tativ kəndi ildə 32 manat ödədiyi halda, 23 nəfər vergi ödəyicisi olana Qocaəhmədli kəndi 55 manat ödəyirdi [26, s.174, 246]. “Bayramlıq” vergisi ödəyən bütün kəndlərə dair statistik məlumatların təhlili göstərir ki, hər bir vergi ödəyicisinin payına bəzən 50 qəpik, bəzən isə 2-3 manat bayramlıq vergisi düşürdü. Ehtimal etmək olar ki, vergi kənd üzrə bölüşdürülərkən hər bir kəndli ailəsinin imkanları nəzərə alınırdı.

XVIII əsrin birinci yansında Gəncə-Qarabağ əhalisinin ödədiyi vergilər arasında ixracat vergisi də var idi. Səfəvilər dövlətinin bütün ərazisi üçün xarakterik olan ixracat vergisi müəyyən inzibati ərazi vahidi daxilində olan ordunun, əyanların və dövlət məmurlarının ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulurdu [4, s.273]. Bu verginin xarakterik xüsusiyyəti onun hər bir qrup üçün ayrıca

dəftərdə qeyd olunması və vergi ödəyiciləri üçün hədsiz dərəcədə ağır olması müəyyənləşir. XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin dərin maliyyə böhranı keçirdiyi bir şəraitdə ordu və məmurlar üçün toplanan ixracat vergi sistemi sırasına daha birisi – “şahzadə ixracatı” adlı yeni vergi də daxil edilmişdi. Alban katalikosu Yesayi Həsən Cəlalyanın sözlərinə görə 1701-ci ildə şah Sultan Hüseynin əmrilə tətbiq edilən bu vergi şahın oğlanlarının xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuşdur [18, s.20]. Yeri gəlmişkən qeyd edək ki, Sultan Hüseyn 1701-ci ildə daha iki yeni vergi – sudan istifadəyə görə toplanan apikuran və nəyə görə toplanması hələ aydın olmayan “şeş dinar” vergisi təyin etmişdi [18, s.20].

Gəncə-Qarabağ bəylərbəyiliyinin xristian əhalisi cizyə adlı can vergisi ödəyirdi. Sonuncu Səfəvi hökmdarları dövründə də toplanan bu verginin həcmi haqqında dəqiq məlumat yoxdur. Yalnız onu göstərmək olar ki, XVII əsrdə şah II Abbasın dövründə (1642-1666) Azərbaycanda yaşayan xristian əhalinin hər birindən 6 dinar həcmində cizyə toplanırdı [3, s.153]. Səfəvilər dövlətinin vergi sistemini, demək olar ki, dəyişməz saxlamış Osmanlı dövlətinin vergi məmurları Gəncə-Qarabağ bəylərbəyiliyinin xristian əhalisindən bu vergini “ispəncə” adı altında toplayırdılar. Onun həcmi hər nəfər xristian üçün 120 ağça müəyyənləşdirilmişdi. Müqayisə üçün göstərək ki, bölgəninin müsəlman əhalisinin hər nəfərindən toplanan can vergisinin həcmi 40 ağçaya bərabər idi [7]. Göstərmək lazımdır ki, ayrı-ayrı Səfəvi hökmdarları dövlət qarşısındakı xüsusi xidmətlərinə görə bu və ya digər xristian monastırını cizyə vergisinin ödənilməsindən azad edirdilər. Nadir şahın hakimiyyəti dövründə isə bu sahədə mövcud olan vəziyyət əsaslı şəkildə dəyişdirildi. Görünür, bu məsələdə Nadir şahın Osmanlı Türkiyəsinə qarşı apardığı müharibələrdə Qarabağın xristian məliklərinin böyük fəallıq göstərmələrinin az rolu olmamışdı. 1736-cı ildə keçirilmiş Muğan qurultayının iştirakçılarından olan erməni katalikosu Abraam Kretatsinin xahişi ilə xristianlar Nadir şahın əmrilə cizyə vergisinin ödənilməsindən azad edilmiş və qərara alınmışdı ki, bundan sonra vergilər təyin edilərkən müsəlmanlarla xristianlar arasında heç bir fərq qoyulmayacaqdır [27, s.16; 4, s.283-284]. Maraqlıdır ki, Nadir şahın tətbiq etdiyi bu qayda yalnız onun hakimiyyəti dövründə deyil, XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərini əhatə edən xanlıqlar dövründə də öz qüvvəsini saxlamışdı. Hər halda Gəncə-Qarabağ bəylərbəyiliyinin yerində yaranmış həm Gəncə və Qarabağ xanlıqlarında, həm də onlarla qonşu olan Şəki, Şamaxı və Naxçıvan xanlıqlarında xristian əhalidən “cizyə” adı altında vergi toplanması haqqında bu dövrün mənbələrində heç bir məlumat yoxdur. Görünür, hələ Nadir şahın dövründən başlayaraq müsəlman əhalidən “səranə”, xristianlardan isə “cizyə” adı altında toplanan can vergiləri “baş pulu” adı altında birləşdirilərək dini mənsubiyyətindən asılı olmayaraq bütün əhalidən toplanırdı.

Səfəvilər dövlətinin digər ərazilərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də əhalidən toplanan vergilər arasında “yurtane” adlı vergiyə də rast gəlmişdi. Fars-türk mənşəli bu terminin hərfi mənası “dayanacaq”, “yurd yeri”, “ev” deməkdir. Terminaloji baxımdan yurtane hər bir ailədən, yaşayış evindən toplanan vergi mənasını verir. Ehtimal etmək olar ki, bu vergi yeni tətbiq edildiyi dövrdə ancaq maldarlıqla məşğul olan əhalidən toplanmışdır. Lakin bu termin sonrakı dövrdə özünün ilkin formasını itirərək Azərbaycan türk dilində eyni mənanı verən “otaq xərci” termini ilə əvəz olunmuşdur. Qarabağ xanlığında əsas vergilər sırasında olan “otaq xərci” istinasız olaraq bütün kənd və şəhər əhalisindən toplanırdı [26, s.204].

Gəncə-Qarabağ bəylərbəyiliyində əkinçilikdən toplanan əsas vergilərdən biri də “cüftbaşı” adlı vergi idi. İ.P.Petruşevskinin izahatına görə fars mənşəli termin olan “cüft” hərfən “bir cüt öküz” mənasında işlədilirdi və terminoloji baxımından iki mənada – “kotana qoşulmuş bir cüt öküz” və “kotanla şumlanmış sahə”, daha doğrusu, kotana qoşulmuş bir cüt öküzlə bir gün ərzində əkilmiş sahə mənasını bildirir [4, s.175]. Əslində “cüftbaşı” bir mövsüm ərzində iki öküz və şumlanıb becərilən sahənin məhsulundan alınan vergi mənasında işlədilirdi. Səfəvi hökmdarı şah II Abbasın hicri 1066-cı ilin zilhiccə ayında (sentyabr 1656-cı il) verdiyi fərmandan aydın olur ki, bu vergi, soyuzqal

torpaqları istisna olmaqla, yerdə qalan bütün əkin sahələrindən toplanırdı [6, s.59].

Türk tədqiqatçısı Ömər Lütfi Barkan öz əsərində bir cüftlük əkin sahəsinin əhatə dairəsi haqqında maraqlı məlumat verir. Onun verdiyi məlumatlardan aydın olur ki, o qədər də məhsuldar olmayan dəmyə torpaqlarının əkilməsi zamanı istifadə edilən cüftlük suvarılan torpaqların əkilməsi zamanı istifadə edilən cüftlükdən çox idi. Bir cüftlük sahə dedikdə isə, orta hesabla, eni və uzunu 40 addım olan bir dönüm (türk ölçüsü olan 1 dönüm 919 kv.m.-ə bərabərdir) əkilmiş sahə nəzərdə tutulurdu [28, s.132].

Gəncə-Qarabağ bəylərbəyiliyinin əhalisi, ölkənin digər bölgələrində olduğu kimi, bir neçə mükəlləfiyyət də yerinə yetirirdi. Bu mükəlləfiyyətlər arasında biyar, əvariz və çərik daha ağır idi. Kəndlilərin feodalların və dövlətin xeyrinə yerinə yetirdikləri icbari pulsuz işləri nəzərdə tutan biyar Azərbaycanda hələ erkən orta əsrlərdən tətbiq olunurdu. Səfəvilərin hakimiyyəti dövründə biyar həm Gəncə-Qarabağ bəylərbəyiliyində, həm də onunla qonşu olan digər Azərbaycan torpaqlarında geniş yayılmışdı. Biyar dedikdə kəndlilər üzərinə hökumət və yerli hakimlər tərəfindən qoyulan məcburi işlər nəzərdə tutulur. Bu işlər sırasına saray və qalaların tikintisi, yolların salınması, tikinti materiallarının daşınması, suvarma kanallarının çəkilməsi daxil idi [4, s.284]. Bundan əlavə, kəndlilərin dövlət və feodallara məxsus torpaqlarda gördüyü işlər də biyar sırasına daxil idi. XVIII əsrdə işlər Qarabağda, istərsə də Azərbaycanın digər ərazilərində biyarın geniş tətbiq edilməsi haqqında xeyli məlumat var. Şəkili Məhəmmədhəsən xanın Məlik arxı deyilən yerdəki əkin sahələrinin əkilib becərilməsi Şəki xanlığında yaşayan bütün kəndlilərin mükəlləfiyyəti hesab edilirdi. Hər il bu sahənin əkilib becərilməsinə 500 xış və 2484 nəfər birinci cəlb edilirdi [29, v.67-68].

Biyarın yerinə yetirilmə müddəti Azərbaycanın müxtəlif yerlərində müxtəlif olub 2 gündən 6 günə qədər davam edirdi. Qarabağın Vərəndə mahalının polkovnik Cəfərqulu ağaya məxsus Arazzəmin kəndi biyar işlərinin yerinə yetirilməsinə 3 gün vaxt sərf edirdilər. Onlar iki gün ərzində 12 kotanla torpağı şumlayır, bir gün isə yetişmiş taxılı biçirdilər. Əgər sonuncu işi bir gün ərzində yerinə yetirmək mümkün olmurdusa, növbəti gündən başlayaraq kəndlilər gördükləri işlərin müqabilində haqq olmağa başlayırdılar. Daha doğrusu, torpaq sahibi kəndliləri gündəlik yeməklə təmin edir və hər 20 dərzdən 3 dərə hesabilə onlara haqq ödəyirdi [26, s.338]. Azərbaycanın kəçsər yerlərində olduğu kimi, Gəncə-Qarabağ bəylərbəyiliyində də kəndlilərin elliklə gördükləri pulsuz işlər əvəz adlandırılırdı. Digər mühüm mükəlləfiyyət olan çərik Azərbaycanda XIII əsrdən – monqol istilası dövründən tətbiq edilirdi [3, s.154]. Çərik dedikdə əsas orduya digər vilayətlərindən göndərilən köməkçi qüvvələr nəzərdə tutulur. İ.P.Petruşevski göstərir ki, çərik zərurət yarandığı hallarda şahın və yaxud bəylərbəyiliyinin əmri ilə köçəri maldarlardan və maaflardan toplanırdı. Tayfa mənsubiyyəti əsasında formalaşan çərik hərbi birləşmələrinin başında hər bir tayfanın başçısı dayanırdı [4, s.290-291]. 1743-cü ildə Nadir şahın ağır vergi siyasətinə qarşı Xoy və Salmasda güclü üsyan baş vermişdi. Bu üsyanı yatırmaq üçün Azərbaycanın bütün bəylərbəyiliklərindən, o cümlədən Gəncə-Qarabağ bəyərbəyiliyindən çərik toplanmışdı. Məhəmməd Kazım xəbər verir ki, köçəri tayfaların başçıları və yerli feodal hakimlər topladıqları çəriklə birlikdə öz bəylərbəyiliyinin sərəncamına gəlmişdilər [30, s.100-104[a]].

Nadir şah Osmanlı Türkiyəsinə qarşı apardığı müharibələr zamanı da çərik adlanan qoşun növündən istifadə etmişdi. Yenə də həmin Məhəmməd Kazımın sözlərinə görə Nadir şah 1742-ci ildə Azərbaycan və Gürcüstandan 60 min nəfərlik çərik toplamaq haqqında əmr vermişdi. Müəllif çərik toplanılan ərazilərin sırasında digər yerlərlə yanaşı Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibində olan Bərgüşad, Gəncə, Qarabağ, Bərdə və s. ərazilərin də adlarını çəkir [30, s.6a; 4, s.291-292]. Doğrudur, etibarlı hesab edilmədiklərindən kəndlilər çərik qismində orduya çağırılmırdılar. Lakin bu hərbi birləşmələrin silah, sursat və ərzaqla təchizatı ağır bir mükəlləfiyyət kimi tamamilə onların üzərinə düşürdü.

**Açar sözlər:** Azərbaycan, sosial münasibətlər, bəylərbəyilik, torpaq mülkiyyəti, vergilər

**İstifadə edilmiş ədəbiyyat**


1. Заходер Б.И. История Восточного средневевековья. М.: Изд-во МГУ, 1944, 159 с.
2. Иванов М.С. Иран. Новая история колониальных и зависимых стран. М.: 1940, с.111.
3. Рахмани А.А. Азербайджан в конце XVI – и в XVII веке. Баку: Элм, 1981, 237 с.
4. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград: Изд-во ЛГУ, 1949, 382 с.
5. Tadhkirat al-muluk. A manual of Safavid administration. Persian text in faksimile, trans and exsplaned by V. Minorski. London: 1943, 218 p.
6. Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 149 s.
7. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov. Bakı: Şuşa, 2000, 576 s.
8. Путешествие одного миссионера (перевод с франц. Абезгуза). AMEA ТИ EA, F. 1, siy. 2, iş 474
9. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 55, siy. 1, iş 3
10. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 55, siy. 1, iş 4
11. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 55, siy. 1, iş 2
12. Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII в. // Труды института истории АН Азерб. ССР, т.1, 1947, с. 24-42
13. Кислякова Н.А. Патриархально-феодальные отношения среди оседлого населения Бухарство ханства в конце XIX – нач. XX в. М.: 1962
14. Lombton A.K. Londlord and peasant in Persia. London: Oxford Universiti Press. 1958, 459 p.
15. Azərbaycan MEA Tİ EA, f.1, siy. 2, iş 540
16. Лерх И.Я. Сведения о втором путешествии в Персии, совершенном в 1745-1747 гг. (Перевод М.М. Абезгуза). // Azərb. MEA Tİ EA, f. 1, siy. 2, iş 491
17. АКАК, т. II, ч. I, Тифлис, 1867, док. 1081
18. Есаи Хасан Джалалян. Краткая история страны Албанской (1702-1722). Перевод с древнеарм. языка Т.И.Тер-Григоряна. Предисловия и подготовка к изданию академика З.М.Буниатова. Баку: Элм, 1989, 48 с.
19. Юнусова Л. И. Торговая экспансия Англии в бассейне Каспия в первой половине XVIII века. Баку: Элм, 1988, 158 с.
20. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку: Изд-во АН Азерб. ССР, 1956, 420 с.
21. Гусейнзаде А. Об институте бахре в XVIII-XIX вв. // Народы Азии и Африки. 1964, №4, с.82-86
22. Локкарт Л., Надир шах. Критическое исследование на основе первоисточников (переведено с английского Н.Р. Гезаловой). Баку: Изд-во «Qanun», 2004, 395 с.
23. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 24, siy. 1, iş 141.
24. Посланник Петра I на Востоке. Посольство Флориа Беневини в Персию и Бухару в 1718-1725 годах. М., «Наука», 1986, 159 с.
25. Azərbaycan tarixi. 7 cilddə, III c. (XIII-XVIII əsrlər). Bakı: Elm, 1999, 584 s.
26. Описание Карабагской провинции, составленное в 1823 году по распоряжению главноуправлявшего в Грузии Ермолова. Тифлис, 1866 (Подготовка ко второму переизданию и автор предисловия Земфира Гаджиева). Баку: 2003, 415 с.

27. Кретации А. История о случивишихся с ним событиях и о Надир шахе персидском (пер. с. арм. Т.И.Патканова). // AMEA Tİ EA, f. 1, siy. 2, iş 800
28. Omer Lütfı Barkan. XV ve XVI asirlarda Osmanlı imperatorluğunda zirai ekonominin hukuki və mali əsasları. I cilt. Kanunlar. İstanbul: 1943
29. Azərbaycan Respublikası Dövlət Arxivi: F. 24, siy.1, iş 72
30. Мухаммед Казим. Наме-йи Аламара-йи Надири. Издания текста и предисловие Н.Д. Миклухо-Маклая, т.III, М.: «Наука», 1966, с.192[a]

**Хадиджа Аббаслы**

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ В ГЯНДЖА-КАРАБАХСКОМ БЕГЛЯРБЕГСТВЕ В ПЕРВОЙ ПОЛОВИНЕ XVIII ВЕКА

**Резюме**

В первой половине XIII века социально-экономические отношения Азербайджана основывались на господстве феодальных отношений. В этот период территория Азербайджана последовательно находилась в составе трех великих империй - Сефевидов, Османской и Афшаров. Поэтому социально-экономические отношения, присущие этим государством соответствовали системе управления этих государств. В статье  особое внимание уделено исследованию земельных форм собственности, налоговой системы.

**Ключевые слова:** Азербайджан, социальные отношения, беглярбегство, земельная собственность, налоги

**Khadija Abbaslı**

## SOCIAL-ECONOMIC RELATIONS IN GANJA-KARABAGH BEYLERBEYLIK IN THE I HALF OF XVIII CENTURY

**Summary**

In the I half of XIII century social-economic relations were based on economic base inherent in feudal society. In this period the territory of Azerbaijan was in three great empires - Safavids, Ottoman and Afshars. Therefore, social-economic relations inherent in these states were consistent with the system of management of those states. The forms of land ownership existing in the I half of XVIII century and investigation of the tax system were widely covered in the article.

**Keywords:** Azerbaijan, social relations, beylerbeylik, land ownership, taxes

**УДК – 93/94**

**Самир Мамедов**
**НАНА Институт Философии и Права, д.ф.ист.**

# СМЕРТНАЯ КАЗНЬ ЗА НЕКОТОРЫЕ ВИДЫ ПРЕСТУПЛЕНИЙ В ОБЫЧНОМ ПРАВЕ ТЮРКОВ ТЁРЕ (ДРЕВНОСТЬ И СРЕДНИЕ ВЕКА)

*В статье рассматриваются некоторые виды преступлений в обычном праве тюрков тёре, за которые предусматривалась смертная казнь, исполняемая различными способами вопросы и проводятся параллели из истории права древнего периода. Так, были исследованы некоторые виды наказаний в виде смертной казни за мятеж против законной власти и измена, прелюбодеяние и изнасилование, а также за некоторые воинские преступления.*

На протяжении всей своей многовековой истории тюркские народы создали множество различных государств, в которых общественные отношения длительное время регулировались нормами обычного права. В тюркских традициях государственности, обычное право тюрков называлось «тёре» и, как отмечает В.А.Гордлевский, фактически регулировало все стороны их жизнедеятельности [8, с.85]. Тёре – как нам представляется, это санкционированное государством и основанное на обычаях и традициях народа совокупность правовых норм, применяемых на протяжении длительного времени и регулировавших общественные и, в том числе военные правоотношения, обязательные для исполнения и охраняемые государством посредством установленных видов наказаний на их нарушение Формирование норм обычного права, в том числе и уголовно-правовых норм началось ещё в период разложения родового строя и полностью сложилось в эпоху создания самостоятельных государств.

Устройство того или иного тюркского государства, как и нормы обычного права отличались своей специфичностью в каждом конкретном случае, хотя, конечно же, имели и много общего, что даёт нам основание судить об их общих чертах.

Так, например, тюрки верили, что их обычное право - тёре ниспослано им единым Богом -Танры, с которым они связывали свою государственность и право [5, т. 4, с.647]. Особое место в тёре занимает положение о сакральной связи правителя тюркского государства с Богом. Согласно этому положению, главе государства, избранному тюркским народом, власть ниспослана Танры, причем эта основополагающая линия в тюркской традиции государственности отчетливо прослеживается от Хунну и до азербайджанских Сефевидов. Вот почему в огузском героическом эпосе «Китаби-Деде Коркут» («Книга моего Деда Коркута») подчеркивается, что «падишахи – тень Бога; кто поднимет мятеж на своего падишаха, тому удачи не будет» [1, с.136]. Титулом хуннского главы государства было «Тенгрикут», т.е. «освященный со стороны Тенгри (Танры)». К.Иностранцев в связи с этим отмечает, что этот титул впоследствии принял и Чингиз хан [11, с. 94-95]. Одним из тяжких преступлений в обычном праве тюрков считалась измена и мятеж против законной власти. Виновных в подобных преступлениях ждала неминуемая смерть, исполняемая посредством удушения, отсечения головы или повешения. Существовали и другие виды наказаний, о которых будет сказано ниже. Но вначале казни следовала конфискация всего движимого и недвижимого имущества [8, с.175].

Другим тяжким преступлением у тюркских народов считалось прелюбодеяние, совер-

шение которого также неминуемо влекло за собой смертную казнь, о чем свидетельствуют источники эпохи [3, с. 33-34]. Ахмед ибн Фадлан, посол багдадского халифа, отправленный в 921-922 г.г. к царю волжских булгар, так описывает наказание за совершение прелюбодеяния у тюрков: «Они [огузы] не знают блуда. Но если относительно кого-либо они откроют какое-нибудь дело, то они разрывают его на две половины, а именно: они сужают промежуток [между] ветвями двух деревьев, потом привязывают его к веткам и пускают оба дерева, и находящийся при выпрямлении их разрывается» [12, с.126, 52]. У другого тюркского народа булгар наказание за прелюбодеяние наказывалось также смертной казнью, но иным способом: «А кто совершит прелюбодеяние, кто бы он ни был, то заколотят для него четыре сошника, привяжут к ним обе его руки и рассекут [его] топором от затылка до обоих его бедёр. И таким же образом они поступают и с женщиной. Потом каждый кусок его и её вешается на дерево» [12, с.138]. Отметим, что не только у тюрков, но и у многих других народов, существование такого сурового наказания за данное деяние объяснялось стремлением оградить нравственность народа от посягательств подобного рода, чреватую тяжелыми последствиями для общества и государства в целом [4, с.390-391].

Очень интересно, что описание этого наказания поразительно напоминает некоторые рельефы из Ниневии, относящийся к VII веку до н.э., где изображается казнь пленных вождей племён, (возможно, кутиев, луллубеев и других), проживавших на территории древнеазербайжанского государства Манна и оказывавших ожесточенное сопротивление ассирийцам. Некоторые из этих рельефов приводятся также И.М.Дьяконовым в его книге «История Мидии» (см. прил. ил. № 1) [7, с. 159]. Заслуживает внимания то обстоятельство, что древнеазербайжанские племена вели борьбу за свободу и независимость против самой мощной и совершенной военной машины того времени – Ассирийской державы в самом зените её расцвета и как мы знаем, в конце концов Ассирия была разгромлена при непосредственном участии этих самых древнеазербайджанских племен. На указанных рельефах изображены сцены казни, в которых приговоренный к смерти показан в лежачем положении и лицом вниз, привязанный руками и ногами к четырем сошникам. Другой, приводящий казнь в исполнение держит в руке предмет, напоминающий нож, он изображен в склонившейся над ним позе. Судя по рельефам казнь могла приводиться в исполнение либо так, как это описывается в приводимом выше источнике X века, либо же с приговоренных к смерти заживо могли сдирать кожу, о чем имеются сведения из древних источников.

Таким образом, рельефы дают нам сведения о том, что вышеописанный вид наказания имел довольно глубокие корни, уходящие во мглу тысячелетий и не исключено его ретроспективное применение и в Азербайджане в средние века, поскольку Азербайджан является родиной тюрков, здесь испокон веков жили тюрки и издревле применялось обычное право, регулирующее в том числе и военные правоотношения. Вместе с тем, может возникнуть вопрос: почему ассирийцы применяют нормы обычного права тёре, нормы права тюрков, а не свои нормы? Ответ прост: дело в том, что в древности это было довольно распространенным обычаем - применялись те нормы права, которые были применительны на конкретной территории или среди конкретного этноса. Например, в известном эпизоде о Пророке Юсифе (Библейский Иосиф) (а) и его братьях, изложенных в Коране и Библии, когда египтяне спрашивают его братьев о наказании за кражу чаши, предусмотренном в праве их народа, те отвечают, что виновный отдается в рабство (видимо, на определённый срок) [Коран, 12/75].

К смертной казни приговаривали и виновного в изнасиловании и прелюбодеянии в войске тюрков, о чем даёт свидетельствует следующая фраза из «Огуз-наме» Рашид ад-Дина:

«его схватили и заточили в тюрьму…в присутствии войска разрубили пополам» [14, с.55-56]. Примечательно, что за совершение изнасилования виновный был наказан публично перед войском, что исходило из понимания, что данное преступление является общественно опасным деянием. Кстати, к воинам, совершившим те или иные правонарушения, применение наказания перед войском, являлось военным обычаем многих народов в древности и средневековье, в том числе и в рассматриваемый период.

Məqalədə valideyn referent qrupunda gender mədəniyyəti münasibətlərinin qarşılıqlı əlaqələrinin tədqiqinin nəticələrini və yeniyetmələrdə sosial anormal davranışın təzahür xüsusiyyətləri işıqlandırılır. Sosial anormal davranışın gender xüsusiyyətlərinə deviant davranışın predispozisiyası, yeniyetmənin gender və sosial identikliyinin deformasiyasının nəticəsi kimi baxılır. Yeniyetmə yaşda sosial anormal davranışın təzahür xüsusiyyətlərinə valideynlərin gender mədəniyyətinin təsirinin əsas psixoloji mexanizmləri göstərilir.

**Açar sözlər:** anormal davranış, gender, fəaliyyət, deskriptor, Mən-konsepsiyası, gender identikliyi, hərəkət, məna

**Jamila Quliyeva**

**ROLE OF THE PARENTS IN GENDER SOCIALIZATION OF TEENAGERS**

**Summary**

The results of the relations of gender culture in the parent referent group and the features of social abnormal behavior of teenagers are illuminated in the article. Gender characteristics of social abnormal behavior are considered as the predisposition of deviant behavior, the result of determination of gender and social identity of teenager. The main psycologycal mechanisms of the influence of parents` gender culture on the features of the social abnormal behavior in teenage age are shown.

**Keywords:** abnormal behavior, gender, activity, descriptor, self-concept, gender identity, act, meaning

**UOT – 1(09)**

**Aynur Əliyeva**
**Azərbaycan Əmək və Sosial Münasiibətlər Akademiyası**

# FƏLSƏFƏDƏ XX ƏSR EKZİSTENSİALİZM NÜMAYƏNDƏLƏRİ

*Ekzistensializm fəlsəfədə formalaşan cərəyanlardan biridir. Ekzistensializmin nümayəndələri öz elmi əsərlərində insan azadlığı probleminə üstünlük vermişlər. Məqalədə ekzistensialist filosofların yaradıcılığı barədə təhlil aparılır. Bu filosofların istifadə etdiyi kateqoriyalara münasibət bildirilir. Qeyd olunur ki, ekzistensialistlərin irəli sürdüyü ən ümumi problem həyatın mənası, insanın dünyada yeri və onun özünə həyat yolu seçməsi məsələsidir.*

Ekzistensializm XIX əsrin ortalarında Qərbdə çox dəbdə olan fəlsəfi cərəyanlardan biridir. Onun ən görkəmli nümayəndələri Almaniyada, M.Haydegger və K.Yaspers, Fransada Q.Marsel, J.P.Sartr, A.Kamyu, İtaliyada N.Abbanyano, ABŞ-da U.Barrerdir. Bu fəlsəfə öz metodunu xeyli dərəcədə alman filosofu E.Husserlin fenomenologiyasından, onun ilkin ideyalarını isə Danimarkanın din mütəfəkkiri S.Kyerkeqorun əsərlərindən götürmüşdür.

Ekzistensializmə görə fəlsəfənin vəzifəsi elmin problemləri ilə deyil, sırf insan varlığının (mövcudluğunun) məsələləri ilə məşğul olmaqdan ibarətdir. İnsan öz iradəsindən asılı olmayaraq bu dünyada, öz taleyinə atılmışdır və o, ona yad olan aləmdə yaşayır, onun varlığı hər tərəfdən sirli işarələrlə, simvollarla əhatə olunmuşdur. Həyat olduqca irrasionaldır, onda hər hansı bir formada iztirab üstünlük təşkil edir. Qorxu ekzistensializmi fəlsəfənin ən mühüm anlayışıdır. Dünya mənasız və anlaşılmaz olduğu üçün daha da qorxuludur. İnsanı hər addımda pislik güdür. İnsanlar "bir-biri üçün" pərdəsi altında bir-birinə qarşı hərəkət edirlər. Ekzistensializm insanın hər şeydən əvvəl hadisələrə, emosiyalara yanaşmasına əsaslanır: o, ətrafda baş verənlərə nəinki nəzəri, intellektual, həm də hər şeydən əvvəl emosional formada öz münasibətini bildirir.

İnsan nə üçün yaşayır, onun həyatının mənası nədir; o, dünyada nə kimi yer tutur, öz həyat yolunu necə seçir? Bunlar insanları narahat edən olduqca mühüm məsələlərdəndir. Lakin ekzistensialistlər bu məsələləri elmi şəkildə həll etmirlər. İş ondadır ki, mövcudluq dedikdə onlar şəxsiyyətin mənəvi varlığını, şüurunu nəzərdə tuturlar. Yaspers yazırdı ki, mövcudluq şüurdur və mən şüur kimi mövcudam. Mövcudluğu təhlil etmək şüuru təhlil etmək deməkdir. İnsan özünün mövcudluğunu anlamaq üçün yalnız Yaspersin "sərhəd situasiyaları" adlandırdığı xüsusi şəraitə düşməlidir. Ölüm, əzab, qorxu, müqəssirlik və s. bu qəbildəndir. Dünyanı dərk etməyin ən etibarlı üsulu intuisiya "ekzistensional nurlanmadır" [4, s.149].

Ekzistensializmdə insanın "özü-özünü" seçməsi kimi müəyyən edilən azadlıq problemi mühüm yer tutur. İnsan özünü azad surətdə necə seçirsə, elə də olur. Ekzistensializmdə azadlıq tam indeterminizm ruhunda, yəni hər hansı bir qanunauyğunluqdan, səbəbiyyət asılılığından, onlardan asılı olmadan şərh edilir. O, nə səbəbə, nə də əsasa yol vermir. Buna görə də azadlıq indinin keçmişdən, gələcəyin isə indidən müstəqilliyini tələb edir. Lakin azadlıq fəaliyyət azadlığı kimi deyil, seçmə azadlığı yaxud subyektin ondan asılı olmayan mühitə münasibəti kimi şərh edilir. Subyekt öz vəziyyəti ilə azad surətdə razılaşa bilər. Ya da eyni ilə sərbəst surətdə düşdüyü vəziyyəti qəbul etməyə bilər. Obyektiv situasiya öz-özlüyündə bizim azadlığımızı məhdudlaşdırmır, yalnız onu məhdudiyyət kimi həyəcanlandırır. Məsələn, məhbus yaxud qul özünün düşdüyü vəziyyətə öz münasibətini müvafiq surətdə müəyyənləşdirərək "azad" ola bilər. Bundan belə bir nəticə çıxır ki, insanın vəzifəsi dünyanı dəyişdikrməkdən ibarət deyil, özünün ona olan münasibətini dəyişməkdən ibarətdir.

Ayrı-ayrı nümayəndələrinin dini yaxud ateist meyillərindən asılı olmayaraq müasir ekzistensializm dünyagörüşü sistemi kimi insanı əhatə edən aləmin hər tərəfində ancaq neqativ cəhəti görən, varlığı və şüuru dağılma, parçalanma, məhv olma, yaxud böhran vəziyyətində təsvir etməyə çalışan bir təlimdir. Ona görə də bu fəlsəfəyə haqlı olaraq “böhran fəlsəfəsi” də deyirlər.

Ekzistensializmin birmənalı şərh edilməsi həddən artıq bəsitləşdirmə olardı. Ondakı fərziyyəlilik prinsipi qətiyyən kənaredilmə ilə eyni mənalı deyildir, o, insanın ictimai həyata və hətta mübarizəyə cəlb edilməsini inkar etmir. Belə ki, Sartr və Kamyu Hitler faşizmi tərəfindən zəbt edilmiş Fransada müqavimət hərəkatının iştirakçıları olmuşlar. Lakin iş burasındadır ki, bütün sosial, o cümlədən də mənəvi problemlər ekzistensialistlər tərəfindən fərdi problemlər, onlarda iştirak etmək isə hər kəsin şəxsi və könüllü işi hesab edilir. Heç kim və heç nə insanı bu və ya digər hərəkət etməyə məcbur edə bilməz, heç bir mənəvi norma onun üzərində hökmran ola bilməz. Onun bütün davranışı və hərəkəti bu və ya digər situasiyadan azad seçmə ilə müəyyən edilməlidir. Ekzistensializm bütün mövcudatı şəxsiyyətin varlığı ətrafında cəmləşdirir, insanın həyatını isə bu dünyadakı iztirablara müncər edir. Ekzistensia (mövcudluq) hər bir insan həyatının yeganəliyini, nadirliyini, onun fərdi taleyini, onun “mən”inin gizli dərinliklərini ifadə edir. “Olduğun kimi olmaq və ya olmamaq” məsələsinin intellektual və mənəvi cəhətcə inkişaf etmiş hər bir insanın qarşısına qoyması onun mənlik şüurunun yüksək səviyyədə olduğunu sübut edir. Bəs bu məsələ necə həll edilir? Ekzistensialistlər şəxsiyyətin nadirliyini, onun əzəli vəziyyətində, toxunulmazlığında, sosial-tarixi kontekstə onun qoşulmamazlığının saxlanması zəruriliyində görürdülər. Lakin onlar başa düşmürdülər ki, fəaliyyətdən kənarda nə cəmiyyət, nə də özünün nadirliyi ilə birlikdə şəxsiyyət yoxdur. İnsan həyatın bütün məzmununu, mənasını cəmiyyətdən kənarda deyil, məhz orada əxz edir.

Ayrıca cərəyan kimi ekzistensializmin əsası XIX əsrin böyük Danimarka filosofu S.Kyerkeqor (1813-1855) tərəfindən qoyulmuşdur. Bəziləri isə bu varisliyin XVII əsr fransız yazıçısı Paskaldan qaldığını iddia edirlər. Bütün bunlarla bərabər ekzistensializmin nümayəndələri XIX əsr rus mütəfəkkiri İ.V.Kiryevskini (1806-1856) özlərinin ən nüfuzlu sələfi hesab edirlər. 1961-ci ildə AFR-də çap olunmuş fəlsəfi lüğətdə Q.Şmidt yazırdı: “Slavyan düşüncə tərzi əslində ekzistensialdır və o Avropaya dahi rus yazıçısı Dostoyevskinin əsərləri vasitəsilə güclü təsir etmişdir” [2, s.4].

1974-cü ildə A.F.Skott özünün “Müasir ədəbi terminlər lüğətində” ekzistensializmi aşağıdakı kimi xarakterizə edir: “Existensialism. Latin ex(s)istere, from sistere, reduplicated from of staree to stand. Chiristian existensialism, infiveced by Kierkegaard, stressed the idea that in God mann may find freedom from tension. The other from, by Jean Paul Sartre and Martin Heideqqer, states that “man is alone in a godless universe” [5, s.54].

“Ekzistensializm” latın sözü olub “tab gətirməyə cəhd” mənasını ifadə edir. Kyerkeqorun təsiri olan xristian ekzistensializmi insanın gərginlikdən azadlığını Allahda tapa bilməsi ideyasını vurğulayırdı. Jan-Pol Sartr və Martin Haydeggerə görə isə “Allahsız aləmdə insan təkdir”.

XX əsr Amerika cəmiyyətindəki mənəvi böhran və bu böhrana qarşı çıxan yazıçıların güclənməsi ictimai həyatda, amerikalıların dünyagörüşündə və psixologiyasında böyük dəyişikliklər yaratdı. Məhz həmin proseslərin təbiətinə nüfuz edilməsi ABŞ ədəbiyyatındakı bəzi əsas fərdi xüsusiyyətləri anlamaqda bir açar rolunu oynayır.

Ekzistensializm cərəyanı bu dövrdə ABŞ bədii ədəbiyyatında fəlsəfi-estetik cərəyan kimi özünün geniş inikasını tapmışdır.

Dünya ədəbiyyatının müsbət ənənələrindən bəhrələnən gənc ABŞ ədəbiyyatı XX əsrin əvvəllərində özünün yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu sıradan təkcə M.Tven, Cek London, T.Drayzer, E.Sinkler kimi yazıçıların adlarını çəkmək kifayətdir.

İlahiyyatçı alim və filosof Paul Tillix ekzistensializmin Amerika həyatında necə rol oynadığı haqqında yazır:

“Hazırda bizim ölkəmizdə hamıya məlumdur ki, XVII əsrdə Qərbdə Paskalla başlamış ekzistensializm ölkəmizin intellektual həyatına geniş daxil olmuş, XVIII əsrdə inkişaf etmiş, XIX əsrdə inqilab etmiş və XX əsrdə özünün əsrarəngiz qələbəsini çalmışdır”.

Ekzistensializm bizim zamanda elmin bütün sahələrində bir sistemə çevrilmişdir, hətta analitik fəlsəfə cərəyanı tərəfdarları belə bu cərəyana haqq qazandırmışlar. Onlar formal problemlərin həlli ilə kifayətlənmir, ekzistensializmin nəticəsində və ədəbiyyatda öz real problemini həll etməsinə məhdud baxırlar.

XX əsrin 40-50-ci illərində öz yüksəlişinin zirvəsinə çatmış ekzistensializm, ədəbi-fəlsəfi bədii cərəyan kimi 1910-20-ci illərdə düzgün başa düşülməyə bilərdi. Buna baxmayaraq ekzistensializm ideyası dərindən anlaşıldı və rus tədqiqatçısı V.Erofeyevin haqlı olaraq qeyd etdiyi kimi “o, müasir Qərb ölkələrinin sivilizasiyasına və qanına hopdu”.

Ekzistensial fəlsəfi fikrinə əsaslanaraq, biz şəxsiyyət konsepsiyasını bədii ədəbiyyatda axtararaq, onun əsaslı dəyişikliklərini, əsas amalını üzə çıxarıb, tədqiq etməyə çalışacağıq. Bu nöqteyi-nəzərdən həyatda və həqiqətdə öz canlı əksini tapmış bir sıra görkəmli ekzistensialist yazıçıların öz əsərlərində irəli sürdükləri ideyaları araşdırmağa cəhd edəcəyik.

Bu termin XX əsrdə Yaspersin “mövcudiyyət fəlsəfəsi” ilə eyni zamanda əmələ gəlib. Bəzi ziddiyyətlərinə baxmayaraq, bütün ekzistensialist cərəyanlarını onlara məxsus olan “mövcudiyyət”, “ekzistensia”, “mahiyyət” və “ölüm” ideyasının əsas məsələsi hesab etmək tələbi birləşdirir. Onların hamısı “maddi” və ya “zahiri” nə isə “mənasız”, dərk olunmayan hesab edir, “real” və ya “vacib” problemlərlə heç bir əlaqəsi olmadığından təbii elmlərə nifrət edirlər. Tarixdən, iqtisadiyyatdan və siyasətdən heç bir real və mühüm fikir götürmək mümkün olmadığını israr edərək bu elmlərə qarşı yeni neqativ münasibət bəsləyirlər.

Onlar şəxsiyyəti cəmiyyətdən ayıraraq “azadlıq anlayışını” qururlar. Ümumiyyətlə, ekzistensialistlər xalq kütləsini ümidsizcəsinə kor, nadan hesab edirlər. Yalnız ali ruhlu zadəganların anlaya biləcəyi əsl həyat tərzini qəbul edirlər.

Amerika ədəbiyyatına ekzistensializmin gəlişi haqqında danışarkən qeyd etmək lazımdır ki, ekzistensializm ABŞ ədəbiyyatına Fransadan gəlmişdir.

Fransız ədəbiyyatında ekzistensializmin bünövrəsini qoyan Qabriel Marsel, daha doğrusu onun 1914-23-cü illərdə əxlaq konsepsiyası haqqında çap etdirdiyi “Metafizik gündəlik” əsəri olmuşdur. Ancaq fransız ekzistensializmi vahid olmamışdır, o, iki qola ayrılır: xrsitian və ateist. Qabriel Marsell xristian ekzistensializmin ən parlaq şəxsiyyətlərindən biridir. Fransız ateist ekzistensializm cərəyanının nümayəndələri J.P.Sartr və A.Kamyudur. J.P.Sartr öz fəlsəfi və ədəbi fəaliyyətinə qədim insanın mədəniyyətini öyrənməklə başlamışdır. O, Dostoyevskinin təsiri ilə Tanrıdan üz çevirərək onun əxlaqi qaydalarına qarşı çıxdı. Onlar hesab edirlər ki, Tanrı elementar əxlaqi kriteriyaları pozur.

C.P.Sartr özünün “Şeytan və Tanrı” əsərində yazırdı: “mən özüm özümlə yalqız qaldım, qərara gəldim ki, pisliyi seçim, özüm yaxşılıq yaratdım, özümü aldatdım, özüm möcüzə yaratdım, indi öz-özümü günahlandırıram. Belə qərara gəldim ki, bütün günahlardan xali olum, çünki mən insanam” [1, s.113].

1946-cı ildə J.P.Sartr yazırdı: “Ekzistensializmin insana təsiri ondan ibarətdir ki, hər bir Adam necə varsa, özü kimi olmalıdır və o, etdiyi bütün hərəkətlərə cavabdehdir, bununla biz demək istəmirik ki, təkcə o, özünün şəxsiyyətinə cavabdehdir. İnsan özünə nəyi seçirsə, o, həmin şeyi bütün insanlıq üçün edir” [3, s.105].

Beləliklə, ekzistensializmin əsas kateqoriyası mövcudluq haqqında anlayışdır. O, son və sonsuzluq, müvəqqəti və əbədilik haqqında, insanın doğulduğu gündən öldüyü ana qədər mövcud olduğu zamandır.

Qeyd etdik ki, II Dünya müharibəsindən sonra Amerika ictimaiyyətində tənhalıq problemi özünü daha qabarıq şəkildə büruzə verməyə başladı. Buna bir sıra siyasi faktorlar səbəb oldu. Düzdür buna II Dünya müharibəsi əsas səbəb olmuşdur. Lakin ABŞ-da 40-cı illərdəki sol qüvvələr hərəkatının məğlubiyyəti, makkartizmin ölkəni bürüməsi, Federal Kəşfiyyat İdarəsinin müstəqil düşünən hər bir kəsi boğması da öz rolunu oynamışdır. Cəmiyyətdə mənəviyyatsızlığın belə hal alması ekzistensialist dünyagörüşünün yayılmasına gətirib çıxardı. Bütün bu səbəblərdən 40-50-ci illərdə ekzistensializm ən təsirli bir cərəyana çevrildi.

**Açar sözlər**: ekzistensializm, mövcudluq, şəxsiyyət, azadlıq, tənhalıq

**İstifadə edilmiş ədəbiyyat**

1. Ерофеев В. «Остается одно произвол» Философия одиночества и литературно-эстетическое кредо Льва Шестовая. Вопросы Литературы.1975, №106, 350 с.
2. Зарубежная литература XX века (1871-1917). М.: Просвещение, 1979, 350 с.
3. Зверев А.М. Модернизм в литературе США: формирование, эволюция, кризис. М.: 1979, 690 с.
4. Лазарев В. Экзистенциалистическая концепция человека в США. Вопросы философии. 1967, №3

**Айнур Алиева**

## ПРЕДСТАВИТЕЛИ ЭКЗИСТЕНЦИАЛИЗМА XX ВЕКА В ФИЛОСОФИИ

### Резюме

Экзистенциализм одна из тенденции, которая формировалась в философии. Представители экзистенциализма в своих научных публикациях и произведениях рассматривают проблему человеческой свободы. В статье проводится анализ творчества экзистенциалистских философов. Проявляется отношение к категориям, используемым этими философами. Подчеркивается, что самыми общими вопросами, выдвинутыми экзистенциалистами являются: смысл жизни, место человека в этом мире и проблемы выбора им себе жизненного пути.

**Ключевые слова:** экзистенциализм, существование, личность, свобода, одиночество

**Aynur Aliyeva**

## REPRESENTATIVES OF EXISTENTIALISM OF XX CENTURY IN PHILOSOPHY

### Summary

Existentialism is one of the emerging trends in philosophy. Representatives of existentialism have preferred the problem of human freedom in their scientific works. The creativity of existentialist philosophers is analyzed in the article. The categories used by philosophers are expressed attitudes. It is noted that meaning of life, man`s place in the world and his way of life are problems put forward by existentialists.

**Keywords:** existentialism, existence, personality, freedom, loneliness

**UOT – 159**

**Sahil Cəfərov**
**Lənkəran Dövlət Universiteti, ped.ü.f.d.**

## YENİ İNSAN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA TƏHSİLİN SOSİAL, PSİXOLOJİ VƏ PEDAQOJİ İMKANLARI

*Cəmiyyətin inkişaf göstəricilərindən ən ümdəsi sağlam münasibətlər sisteminin qurulmasıdır. Həmin məzmunda məqalədə insan amilinin cəmiyyətdə tutduğu mövqeyi ünsiyyət prizmasından araşdırılmışdır. Eyni zamanda, şəxsiyyət statusunun qazanılmasında təhsilin potensial imkanları sosial, psixoloji və pedaqoji prizmadan təhlil olunmuşdur. Məqalədə həm də cəmiyyətdə insan faktorunun rolu və yeri şəxsiyyətin sosiallaşması şəraitində təqdim olunmuşdur.*

İnsan dünyaya gəldiyi gündən ictimai münasibətlər sisteminə daxil olur və mərhələli formada həmin münasibətlərin genişlənməsi hesabına sosiallaşma prosesini keçir. Ailə, qohumlar, məhəllə, məktəb, dostlar, iş kollektivi, həmyaşıdlar və s. faktorlar insan amilinin qarşılıqlı münasibətlər şəraitində sosiallaşmasına real ictimai imkanlar yaradır. Hər bir faktorun sosial inkişaf mühitinə uyğun ictimai keyfiyyətlərin və davranış normalarının qazanılması missiyası reallaşır. Xarakterik əlamətdir ki, qazanılan hər bir keyfiyyət şəxsiyyət statusunun tamlığına istiqamətlənmişdir. İnsanın şəxsiyyət keyfiyyətlərinin formalaşmasında qeyd etdiyimiz hər bir mərhələnin və ya şəraitin özünəməxsus rolu danılmazdır. Lakin bu ardıcıllığın aralıq mərhələlərindən biri, bəlkə də ən ümdəsi insanın təhsil aldığı müddətdir. Çünki təhsil bütün dövrlərdə və zamanlarda cəmiyyətin kompleks inkişafına təsir göstərə bilən qüvvə olmuşdur. Bəşəriyyət elmi-texniki tərəqqinin, texnoloji sıçrayışların çağdaş səviyyəsinə, ictimai şüurun inkişaf dinamikasına görə təhsilə borcludur. Bəşəriyyət həmçinin sosial ziddiyyət və konfliktlərin bir çoxunun yüz illər boyu aradan qaldırılmamasına görə təhsili ittiham edə bilər. Təhsil zəncirinin mühüm həlqəsi olan məktəb qarşılıqlı münasibətlərin qurulması baxımından bu gün çox məsuliyyətli vəzifələrin həllini öz üzərinə götürmüşdür. Məsələnin praktik təhlilində təhsilin imkanları hüdudsuzdur.Yəni, əgər məktəbəqədər yaş dövründə insan amilinin qurduğu münasibətlər sistemində bəzi boşluqlar hiss olunurdusa, böyüyən nəslə keyfiyyətli biliklər vermək, biliklərin tətbiqi yollarını göstərmək, cəmiyyətdə birgə yaşamağın sirlərinə yiyələnmək üçün qurulan münasibətlərin demokratikləşdirilməsi və sosial təsir gücünün artırılması, insan özünüidarəsinin məzmunca dolğun, formaca rəngarəng modellərinin axtarıb tapılması, həm də analitik düşüncəyə, yaradıcı təfəkkürə əsaslanan təşəbbüskarlığın inkişaf etdirilməsi istiqamətində məktəb radikal addımlar atma imkanlarına sahibdir [1, s.273].

İnsan amilinin məktəbdə qarşılaşdığı münasibətlərdəki fəaliyyətinin sosial, pedaqoji və psixoloji cəhətlərdən məzmun və formalarının müxtəlifliyi onun idman əyləncə, əşyavi-praktik, mənəvi-praktik, idraki sahələrdə canlanmasının təmin edilməsinə imkan verir. Amerika təhsil sisteminin tanınmış mütəxəssisi U.Qlasserin ifadəsi ilə desək: “... əgər insanın şəxsiyyət tələbatları evdə ödənmirsə, onlar məktəbdə reallaşmalıdır. Müvəffəqiyyətlərə doğru gedən yolu davam etdirmək üçün insan özündə olmayan zərüri keyfiyyətləri məktəbdə almalıdır. Həm həmyaşıdları, həm də özündən böyüklərlə xoş qarşılıqlı münasibətləri mənimsəməlidir. O, istər həmyaşıdı, istərsə də özündən böyük olsun eyni cür, özününkünə bərabər, ondan aşağı səviyyəli keyfiyyətlərin daşıyıcılarını məmnunluqla qəbul edə bilməz” [6, s.134].

Məktəb şəxsiyyətin inkişafını tənhalıq kimi neqativ faktorundan insanın xilas olması, yaxud ən pis halda onun əhəmiyyətli dərəcədə zəiflədilməsi sahəsində nadir imkanları özündə ehtiva edir. Məktəb insanın özünə inam və fərdi şəxsiyyətinin dəyərliliyi duyğularının qazanılması üçün başlıca elementlərin: bilik və düşünmək bacarığının əldə edilməsinə imkan verir. Təhsil prosesi elə təşkil olunmalıdır ki, insan faktorunun həm akademik, həm də sosial xarakterli problemlər həllini müstəqil tapmağa sövq etsin. Aparılan araşdırmalar, sosial, pedaqoji və psixoloji baxımdan münasibətlə-

rin səciyyəsi onu deməyə imkan verir ki, təhsilin zəruriliyini aktuallaşdıran amillər eyni ilə insanın sosiallaşmasını şərtləndirən amillərdir. Bu baxımdan, insanın sosiallaşmasında məktəbin qarşısında aşağıdakı vəzifələr qoyulur:

1. Məktəbə daxilolma mərhələsində müvafiq şərait qurulmalıdır.

Nəzərə alınmalıdır ki, uşağın məktəbdə fəallığının həyata keçirilməsi üçün yaradılmış sosial inkişaf şəraiti heç də onun real həyat və fəaliyyəti ilə tam üst-üstə düşmür, bəzən ziddiyyətlər yaranır. İnsanın fəal ünsiyyət və əlaqəsi üçün sosial məkan rolunu oynayan məktəb daha geniş miqyasda müxtəlif tərbiyə və sosiallaşma səviyyəsinə malik şagirdləri qovuşdurur, kommunikasiya mühiti yaradır, oyun sahəsində yüksək fəallığı təmin edir. Şüurlu formada tənzimlənmiş davranış normaları insan amilində davranışın xoşagəlməz əlamətlərini sıxışdırıb çıxara bilir. Bu istiqamətdə insanın sosial-praktik imkanlarını daha çox reallaşdıran vasitələr səmərəli hesab olunur. Bu səbəblərdən insan amilinin məktəbə daxil olması zamanı qeyd etdiyimiz cəhətlər nəzərə alınmalıdır.

2. Təhsilalma prosesində qarşılıqlı münasibətlərin normalarına nəzarət gücləndirilməlidir.

Məktəbdə insan faktorunun fəallığının qrup səviyyəsində ilkin elementləri yaranır. Əgər məktəbəqədər dövrdə davranış modeli fərdi şəxslər tərəfindən (ata, ana, böyük övlad, əmi, dayı, xala, bibi, yaşlılar, dostlar, ağsaqqallar və s.) tənzimlənirdisə, artıq məktəb dövründə sosial-pedaqoji istiqamətdə kəmiyyət və keyfiyyət baxımında sistemli, ardıcıl və mükəmməl iş formaları həyata keçirilir. Məktəbdə şagirdlərin fəallığının qrup formasında reallaşması onların özləri tərəfindən qəbul edilmiş norma və dəyərlərin köməyi ilə müəyyən olunur. Qeyd etmək lazımdır ki, qrupun yaratdığı ictimai təsirlər sosial, asosial, hətta antisosial ola bilər və sosiallaşmanın hər hansı bir elementi həmin qrupun nüfuzedici təsiri nəticəsində möhkəmlənə bilər. Lakin təlim prosesində, məktəbdaxili nəzarətin və pedaqoji kollektivin şəxsi nümunəsi sinif və məktəb kollektivində mövcüd münasibətlərin məzmununa bilavasitə təsir edir. Buna uyğun olaraq, vacib sosial institut kimi məktəb ictimai inkişaf meyillərinə zidd olaraq məzmun və iş formalarında qapalılığını saxlaya bilməz. Digər tərəfdən, insan amilinin müstəqil həyata hazırlanmasında aparıcı olan sosial inkişaf şəraitin xarakteristikasında əhəmiyyətli dəyişikliklər baş verdiyindən məktəb sosiallaşmanın uğurlu həllində yaranan məqsədinə çatmaq yolunda zəruri əlaqələri saxlamalı və cəmiyyətin daim artmaqda olan tələbatlarına uyğunlaşmalıdır.

3. Şagirdlərarası münasibətlərdə korreksiyaedici təsir vasitələri müvafiq formalarda differensialaşdırılmalıdır.

Təbii haldır ki, məktəb kollektivində eyni yaş qrupuna uyğun, vahid sosial psixoloji şəraitdə böyüyən və eyni cinsə malik şagirdlərin iştirakı mümkünsüzdür. Həmin parametrlər üzrə nəzarətin vahid modeli qurula bilməz. Bu baxımdan, məktəbdaxili nəzarətin və təhsilin reallaşması missiyası şagirdlərin hüquqi statusuna və yaş- cins tərkibinə görə müəyyənləşməlidir [3, s.96].

Məktəbdə işin sosial, pedaqoji və psixoloji səciyyədə qurulması zamanı nəzərə almaq vacibdir ki, cəmiyyət nəhəng bir sistemdir, orada insanların müəyyən yer tutması kortəbii şəkildə baş verə bilməz. Hər bir insan yaş və cins xüsusiyyətlərindən asılı olaraq çoxsaylı obyektiv və subyektiv faktorlara uyğun olaraq müəyyən sosial-psixoloji vəzifələri həyata keçirir. İnsan faktoru özünütəyin-etmə, özünüreallaşdırma və özünütəsdiq vəzifələrinə uyğun olaraq cəmiyyətdə mövqeyini müəyyənləşdirir. Mövqe sosial reallığa, subyektin imkan və qabiliyyətlərinə uyğun olaraq, şagird tərəfindən qəbuletmə həddində olmalıdlr. Mövqe elə müəyyənləşdirilməlidir ki, şagird təlim prosesində qazandığı sosial imkanlar sayəsində perspektiv fəaliyyəti üçün prokmatik və realist planlar qura bilsin. Pedaqoji təcrübəmizdən deyə bilərik ki, məktəbşünaslıqda fərdi qəbul olunan və sosial bəyənilən mövqeyə əsaslanıb sosial, pedaqoji və psixoloji məzmununu özündə əks etdirən təlim-tərbiyə işini qurmaq mümkün haldır [5, s.285]. Məsələn, fərz edək ki, uşaq məktəb yaşına çatıb birinci sinfə qədəm qoyur. Yeni sosial situasiyada o, sinif yoldaşları ilə, daha yüxarı yaşda olan şagirdlərlə münasibətlərini müəyyən etməlidir. Yeniyetmə yaşlarında şagird öz cinsinə mənsub olanlarla münasibətdə öz yerini tapmağa çalışır, bir qədər sonra o, əks cinsin nümayəndələri ilə münasibətdə mövqeyini müəyyənləşdirir. Orta təhsilini bitirmək ərəfəsində şagird gələcək barədə müvafiq planlar hazırlayır,

gələcək peşəsini seçir, sabahkı həyat tərzinin, kimlərlə münasibətdə olmaq istəyinin vahid modelini müəyyənləşdirir.

Göründüyü kimi, sosiallaşma şəraiti baxımından təhsilin cəmiyyətdə funksiyaları kifayət qədər ciddi və əhəmiyyətlidir. Məhz təhsil sayəsində gənc nəslin sosiallaşmasında aşağıdakı dəyişikliklər baş verir:

- Ünsiyyətdə məzmun dəyişiklikləri təkmilləşir;
- Ünsiyyətdə nüfuzetmə bacarıqları formalaşır;
- Ünsiyyətdə kompleks və sistemlilik bərqərar olur;
- Milli və ümumbəşəri dəyərlər qazanılır;
- Ünsiyyətin məzmun elementləri müqavimətə davamlı mövqedə formalaşır;
- Qarşı tərəflərlə münasibətdə yaranan uyğunsuzluqların operativ həlli bacarıqları qazanılır.
- İnsana həyat yollarında qarşılaşdığı bir çox çətinlikləri dəf etməyə imkan verən daxili qüvvələri, qabiliyyət və bacarıqları inkişaf etdirilir;
- Sosial və təbii mühitdə müəyyən situasiyalarda adaptasiya olunmağa kömək edən mənəvi məsuliyyət və xarakter formalaşır;
- Özünüreallaşdırmanın həyata keçirilməsi üçün şəxsiyyət və peşə səviyyəsi təmin olunur;
- Özünüinkişaf və mənəvi potensialın açılması üçün lazımi şərait yaradılır;
- Ünsiyyət normalarının cəhətlərində ziddiyyətli məqamların korreksiya olunması üçün məktəbin ailə ilə sosial-pedaqoji və psixoloji əlaqələri genişlənir;
- Təhsilalma müddətində şagirdlərin cəmiyyətin ən müxtəlif təbəqələri ilə (bələdiyyə, hüquq mühafizə, idman, veteranlar, mədəniyyət işçiləri, məmurlar, dövlət qulluqçuları, müəllimlər, tibb işçiləri və s.) tələb olunan sosial normalar daxilində münasibətləri təmin olunur;
- Qazanılmış kommunikativ bacarıqlar şagirdlərin istehsalatda, mədəniyyətdə, idmanda, yaradıcılıq mərkəzində,ailədə və təhsilin sonrakı pillələrində uğuru münasibətlər sisteminə daxil olmasına geniş sosial-psoxoloji və pedaqoji zəmin yaranır [1, s.27].

Təhsilin mövcud imkanları sayəsində şagirdlərlərarası sağlam münasibətlər sisteminin yaradılmasının ən böyük sosial nailiyyəti məktəbin cəmiyyətdə sosial statusunun yüksəlməsinin əldə olunmasıdır. Bu prosesin sistemli və ardıcıl aparılması cəmiyyətin məktəbə inamını daha da artırır. Məktəb sosial, psixoloji və pedaqoji potensialı hesabına icmanın sosial-mədəni inkişafının hərəkətverici qüvvəsinə çevrilir [4]. Məktəbin cəmiyyətdə nüfuzlu statusu yalnız təhsil sayəsində qazanılmış sosial, psixoloji və pedaqoji keyfiyyətlərin şagirdlərin ictimaiyyətdə nümayiş etdirdikləri ünsiyyət formalarındakı təzahür dərəcəsi ilə ölçülür. Məhz qeyd olunan keyfiyyətlərin əldə olunması üçün, cəmiyyətin qiymətli sərvəti kimi təhsil onun hər bir üzvü üçün əlçatan olmalıdır. Xüsusən təhsilə yiyələnmənin ilkin mərhələsində hər bir insan üçün bərabər şərait yaradılmalıdır. Həmin şəraitdə hər bir insanın sosial-idraki imkanları üzə çıxacaqdır, onun ünsiyyət potensialında qabiliyyətləri, etik normaları, pedaqoji və fərdi-psixoloji xarakteristikaları müəyyənləşəcəkdir. Təhsilin real imkanları sayəsində ilk növbədə insan amilinin sosiallaşma resursları hərəkətə gəlir. Bu şəxsiyyətin özünüdərketməsinin təşəkkülü, cari həyatda və perspektivdə özünütəyinetmə, özünütəsdiq və özünüreallaşma prosesindən doğan vəzifələrdir. Sosial, pedaqoji və psixoloji işin tərkib elementlərinin hər biri müxtəlif yaş dövrlərində, müxtəlif sosial mühitdə fərqli məzmunda, fərqli həyata keçirilmə texnologiyalarına malikdir [2, s.264]. Həmin texnologiyaların həyata keçirilmə imkanları təhsilin məzmununda əksini tapmalıdır. Bu baxımdan düşünürəm ki, cəmiyyətin indiki dinamikasına uyğun, məktəbin qarşısında aşağıdakı məqsədlərin müəyyənləşdirilməsi sosial, pedaqoji və psixoloji baxımdan qəbul olunandır:

- şagird kollektivinin bütün üzvlərini cəmiyyətə maksimum adaptasiya etməyə çalışılmalıdır;
- şagirdlər əks cinslə davranış yollarını öyrənməlidir;
- şagirdlərin sosiallaşması yaşlılardan, valideynlərdən, onların norma və stereotiplərindən təcrid olunmuş şəraitdə təşkil olunmalıdır;

- rəngarəng fəaliyyətin təşkili sayəsində şagirdlərin özünüdərk, özünütəsdiq, özünüreallaşdırma prosesi sürətlənməlidir;
- şagirdlərdə özünəməxsus dəyər və normalar yaradılmalı və həmin normaların cəmiyyətə gərəkliliyi onlara təqdim olunmalıdır;
- şagirdlərdə müstəqil bilik əldə etmək bacarığı formalaşmalıdır;
- şagirdlərdə əldə etdiyi biliklərin tətbiq etmək səriştəsi aşılanmalıdır;
- şagirdlər birgəyaşayış vərdişlərinə yiyələnməlidirlər;
- şagirdlər ümumbəşəri mədəniyyət və sivilizasiyaya yiyələnməlidirlər;
- şagirdlərdə cəmiyyətin insan qarşısında və insanın cəmiyyət qarşısında öhdəliklərinin, borcunun dərk olunması missiyası formalaşmalıdır;
- şagirdlərdə elmi-texniki tərəqqinin dinamikasını qorumağa qadir insan faktoru barədə aydın və obyektiv baxışlar sistemi təşəkkül tapmalıdır;
- azad, demokratik, açıq cəmiyyət modelinin yaranmasına yardımçı ola bilən insan yetişdirilməlidir [3, s.164].

Qeyd olunan vəzifələrin reallaşmasından ötrü, təhsil cəmiyyətin qiymətli sərvəti kimi hər bir vətəndaş üçün əlçatan olmalıdır. Çünki təhsil sosiallaşma prosesinin tərkib elementlərinin sosial, pedaqoji və psixoloji baxımdan translasiya olunmasının elə vasitəsidir ki, insan ona yiyələnməkdə təkcə daim dəyişən sosiomun şəraitinə adaptasiya olunma imkanlarını qazanmır, həm də mövcüd şəraitin hüdudlarından kənara çıxmağa imkan verən qeyri- adaptə fəallığı qabiliyyətləri formalaşdırılır ki, onun köməyi ilə insan amili şəxsi subyektivliyini inkişaf etdirir, dünya svilizasiyanının potensialını çoxaldır.

İnsan şəxsiyyətinin sosiallaşmasında təhsilin sosial, pedaqoji və psixoloji vəzifələri təkcə məktəbin idarə olunmasında, qarşılıqlı münasibətlərin məzmununda nəzərdən keçirilməməlidir. Bu prosesin reallaşması təlimin sosial funksiyalarından istifadə olunduğu hallarda baş verə bilər. İnsan amilinin sosiallaşmasında təlim prosesinin rolu əvəzsizdir [5, s.283].

Təlim, təlim alanlarla təlim verənlər arasında geniş qarşılıqlı təsir prosesi olub, sosial, pedaqoji və psixoloji cəhətdən fəaliyyət üsullarının mənimsənilməsinin təşkil olunması vasitəsilə şəxsiyyətin sosiallaşmasına xidmət edən pedaqoji prosesin həyata keçirilməsidir. Bu baxımdan şəxsiyyətin sosiallaşmasına və onun ictimai münasibətlər sistemində iştirakına rəvac verən amillər təlim materialının tədrisi şəraitində aşağıdakı qaydalarda sistemləşdirilməlidir:

1. Təhsilin məzmununa şəxsiyyətin sosiallaşmasına istiqamətlənən materiallar nisbətən genişləndirilməlidir. Daxil olan mövzularda ünsiyyətin formaları, davranış normaları, qarşılıqlı münasibətlər sisteminin qurulması prinsipləri öz əksini tapmalıdır.
2. Təlimin metodlarının tətbiqi şəraitində sosiallaşma işi paralel aparılmalıdır.

Təlimin metodları sosiallaşmanın intensivləşməsini təşkil etmək məqsədi ilə qarşılıqlı münasibətlərin fasiləsizliyini təmin etməkdən ötrü çevik və dinamik olmalı, insana bilavasitə yönəlməli, hafizədən daha çox yaradıcı təfəkkürə istiqamətlənməli, interaktiv olmalı, şagirdlərin qruplarda qarşılıqlı müzakirə modeleni əks etdirməli və işgüzar münasibətlərin sağlam mahiyyətini özündə birləşdirməlidir.

3. Təlimin istifadə olunan təşkili formaları bilik, bacarıq və vərdişlərin formalaşdırılması ilə yanaşı, fəaliyyətin kollektiv şəkildə qurulmasına geniş imkanlar açmalıdır [6, s.243].

Təlimin təşkili formaları şagirdlərarası qarşılıqlı münasibətlərin həcmi və formasını düzgün müəyyənləşdirməyə yeni imkanlar açır. Bu formalar tədrisin qarşısında qoyulmuş məqsədlərə uyğun olaraq düzgün seçilməlidir. Çünki, yaradılan münasibətlər fonunda həm təlim materialı mənimsənilməli, həm də perspektiv imkanlar müəyyənləşməlidir. Bu baxımdan təlim prosesinin iştirakçıları arasında qarşılıqlı münasibətlər elə qurulmalıdır ki, insan faktorunun yaradıcı qüvvələrinin reallaşmasına sosial-psixoloji təkan versin, onun şəxsiyyət keyfiyyətlərinin sosial məzmunda inkişafına stimul yaratsın.

Yalnız qeyd olunan tədbirlərin sistemli, ardıcıl və kompleks həyata keçirilməsi bizə imkan verəcək ki, hərtərəfli inkişaf etmiş, rəqabətə davamlı, vətənini, xalqını dünya dövlətləri sırasında layiqincə təmsil etməyi bacaran vətəndaşların yetişdirilməsinə nail ola bilək.

**Açar zözlər:** sosiallaşma, sosiallaşma faktorları, ünsiyyət potensialı, sosial-psixoloji səciyyə, qarşılıqlı münasibətlər sistemi

**İstifadə edilmiş ədəbiyyat**

1. Ağayev Ə.Ə., Rzayeva Y.T., Huseynova T.M., Vahabova T.Ə. Sosial pedaqogika. Bakı: 2008, 200 s.
2. Abdulov R. Məktəbdə sosial pedaqoji işin əsasları. Bakı: Adiloğlu, 2005, 208 s.
3. Əlizadə Ə.Ə., Bayramov Ə.S. Sosial psixologiya. Bakı: QAPP-POLIQRAF NPK, 2003, 356 s.
4. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 s.
5. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya. Bakı: 2014
6. Мудрик А.В. Социальная педагогика. М.: Академия, 2002, 200 с.

**Сахил Джафаров**

## СОЦИОЛОГИЧЕСКИЕ, ПСИХОЛОГИЧЕСКИЕ И ПЕДАГОГИЧЕСКИЕ ВОЗМОЖНОСТИ ОБРАЗОВАНИЯ В ФОРМИРОВАНИИ НОВОЙ ЧЕЛОВЕЧЕСКОЙ ЛИЧНОСТИ

### Резюме

Одной из важных показателей развития общества является формирование системы здоровых отношений. В статье обучение рассматривается с точки зрения места человеческого фактора в обществе. Анализированы потенциальные возможности образования с сосиалогической, психологической и педагогической призмы в приобретении личностного статуса. В условиях социализации личности представлена роль и место человеческого фактора в обществе.

**Ключевые слова:** социализация, факторы социализации, потенсиал общения, социально-психологическая характеристика, система взаимных отношений

**Sahil Jafarov**

## SOCIAL, PSYCHOLOGICAL AND PEDAGOGICAL OPPORTUNITIES OF EDUCATION IN THE FORMATION OF A NEW HUMAN PERSONALITY

### Summary

The most important development indicator of society is to build healthy relationships. The position of the human factor in society is investigated through the prism of communication in the article. Potential opportunities of education in achieving the status of personality of social and philosophical point of view have been analyzed. In the conditions of socialization of personality the role and place of human factor in society have been presented in the article.

**Keywords:** socialization, socialization factors, communication potential, social-psychological character, mutual relations system

**UOT – 101.1:316**

**Rinard Şərifov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# XARİCİ ÖLKƏLƏRİN SİYASİ TƏCRÜBƏSİNDƏ MULTİKULTURALİZM KONSEPSİYASININ TƏHLİLİ

*Xarici ölkələrin siyasi təcrübəsində multikulturalizm konsepsiyasının təhlili müasir dünyada dövlətlərin siyasətlərinin aktual istiqamətləri və sosiomədəni inteqrasiyasiyanın dinamikası ilə əlaqəli olan məsələləri dərk etməyə imkan verir. Multikulturalizm konsepsiyasının əsasını təşkil edən tolerantlıq, mədəniyyətlərin bərabərliyi, etnik müxtəlifliyin tanınması prinsipləri onu etnosiyasətin əsası kimi kifayət qədər cəlbedici etsə də, siyasi təcrübədə bəzi xoşagəlməz təzahürlərinə də nəzər yetirmək məqsədəuyğun hesab olunur.*

Müasir dövrdə etnosiyasətin liberal modellərindən biri multikulturalizmdir. Sosial elmlər lüğətində (Dictionary of the Social Sciences) "multikulturalizm" termini bir dövlət, cəmiyyət və icma daxilində müxtəlif mədəniyyətlərin nümayəndələrinin birgə yaşayışı kimi müəyyənləşdirilir. Müəlliflər termini konkretləşdirərək, qeyd edirlər ki, "multikulturalizm" müxtəlif irqi və etnik qrupların nümayəndələrinin qarşılıqlı dözümlülük və hörmət şəraitində yaşayışını, həmçinin onların mədəniyyətlərinin unikal xüsusiyyətlərinin qorunmasını nəzərdə tutur [6, s.323].

Multikulturalizm üç səviyyədə nəzərdən keçirilir: *demoqrafik* (milli cəmiyyətlərin demoqrafik və etnomədəni parametrləri), *ideoloji* (ideya-siyasi və dünyagörüşü aspektləri əks etdirən konsepsiyalar) və *siyasi* (dövlətin siyasətində multikulturalizm prinsiplərinin tətbiq edilməsi) [4, s.8].

Siyasi praktikada multikulturalizm prinsipləri digər dövlətlərdən əvvəl Hindistanda reallaşdırılmağa başlanıldı. Artıq 1950-ci ildə Hindistan ölkənin mədəni müxtəlifliyinin möhkəmləndirildiyi Konstitusiya qəbul etdi. Hindistan dövləti əhalinin dil müxtəlifliyini tanıyır: federasiyanın rəsmi dilləri hindi, ingilis və onlarla dillər ki, ştatlarda rəsmi statusa malikdirlər. Hindistanda həmçinin əhalinin dini müxtəlifliyi də tanınır: qeyri-iş günlərinin statusuna beş hind, dörd müsəlman, iki xristian, bir buddist, bir caynist və bir sikx bayramları malikdirlər.

Multikulturalizmi rəsmi dövlət siyasəti elan edən ilk dövlət 1971-ci ildə Kanada olmuşdur. Kanada modelinin mahiyyəti xüsusi proqramlar və xidmətlər vasitəsilə etnomədəni assosiasiyalara dəstək və etnik azlıqlara onların Kanada cəmiyyətinin həyatında tamhüquqlu iştirakına mane olan maneələrin öhdəsindən gəlinməsində köməklik göstərməkdən ibarət idi. 1982-ci ildə qəbul olunmuş "Hüquqların və Azadlıqların Kanada Xartiyası" və sonra müxtəlif mədəniyyətlərə hörmətin dəstəklənməsinə və onların tam funksionallığına istiqamətlənmiş xüsusi qanunlar paketi sayəsində multikulturalizm Kanadada konstitusion norma oldu. Kanadada multikulturalizm modeli tədqiqatçıların müəyyənləşdiridiyi "assimilyasiyasız inteqrasiya" formulu kimi dərk olunurdu.

Kanadada multikulturalizm hər şeydən əvvəl dövlət siyasəti ilə assosiasiya edilən siyasi termindir [2, s.10]. Multikulturalizm ideologiyası Kanada siyasətçilərin şüurunda yüksək dərəcədə dominatlıq edir və hətta konservatorlar belə qeyd olunan məsələlərdə liberalların mövqeyi ilə uzlaşmalı olurlar. Bütün bunlara baxmayaraq, məhz Kanadada multikultralizm siyasəti özünün xoşagəlməz təzahürlərini büruzə verməyə başladı. Belə ki, mədəni pluralizm prinsiplərində sui-istifadə gizli ksenofobiyanın, antisemitizmin, irqiçiliyin güclənməsinə səbəb oldu. Kvebekdə fransız mənşəli əhalinin dövlətin multikulturalizm siyasətindən öz məqsədləri naminə istifadə edərək, şəhəri monoetnikləşdirmək meyilləri, mühafizəkarların səyləri nəticəsində ölkənin immiqrasiya siyasətinin qəlizləşdirilməsi və bərabər imkanların verilməsi kimi liberal prinsiplərdən uzaqlaşaraq, immiqrantların

“*görünən azlıqlar*” və “*görünməyən azlıqlar*” kimi fərqləndirirlməsi, nəticədə etnik qruplar arasında yaxınlaşmanı zəiflədərək, mənədiyyətlərarası əlaqələr üçün şərtləri çətinləşdirir.

Multikulturalizm siyasətinin güclü və zəif tərəflərinin nümunəsi kimi son onilliklərdə reallaşdırılan Avstraliya siyasi modeli görünə bilər. 1970-ci ilə qədər Avstraliyada dövlət icmasının formalaşdırılmasında mahiyyət etibarilə *assimilyator model* hökmranlıq edirdi. XX əarin ortalarına qədər burada “Bəyaz Avstraliya” siyasəti aparılırdı və qeyri-Avropa xalqları üçün ölkəyə daxil olmaq üçün qanunvericilik məhdudiyyətləri mövcud idi. XX əsrin ikinci yarısından sonra inkişaf edən Avstraliya iqtisadiyyatına ucuz işçi qüvvələrinin tələb olunması Asiya ölkələrindən əmək immiqrasiyasının başlanmasına səbəb oldu. İlk əvvəl, bunun sosial nəticələri az düşünülsə də, immiqrantların adaptasiyasının və assimilyasiyanın yaratdığı problemlər, o cümlədən cəmiyyətin etnodemoqrafik strukturunun kəskin dəyişməsi Avstraliya cəmiyyətinin hökmran mədəni bircinslilik prinsipindən kənarlaşmanı nəzərdə tutan Avstraliya birliyinin yeni formulasının axtarışını tələb etdi.

1973-cü ildə leyborist hökumət “Multikultural cəmiyyət – gələcək üçün cəmiyyətdir” adlı sənəd dərc edərək, ümumilikdə multikulturalizm ideyasını Kanadadan mənimsədi. Bu dövrdən başlayaraq, qəbul olunan sənədlər və proqramlar Avstraliyanın siyasi institutlarının etnik müxtəlifliyin Avstraliya cəmiyyətinin gələcək inkişafının şərti kimi təqdimatlandırılmasında olan qəti niyyətlərini təsdiq edirdi. Bu sənədlər və proqramlar multikulturalizmin institusional strukturunu yaradan bir sıra təşkilati həllərlə möhkəmləndirildi, ölkədə multikulturalizm məsələləri üzrə nazirliklər, idarələr, publik-hüquqi təsisatlar və digər ictiami təşkilatlar, fondlar yaradıldı.

1994-cü ildə multikulturalizmin hökumət siyasətinin reallaşdırılmasına kömək üçün indiki, Multikultural Avstraliya üçün Şura adlanan Multikulturalizm üzrə Milli Məşvərət Şurası yaradıldı. Bu cür kompleks tədbirlər etnik azlıqların saxlanılması üçün əlverişli şərait yaratdı. Lakin etnik qrupların qapalı və bircinsli birliklər kimi təsəvvür edilməsi, immiqrantları qeyri-iradi olaraq, özünü bu və ya digər etnik azlığa aid etməyə məcbur edərək, onların özünütəcridetməsinə gətirərək, sosial müxtəlifliklərin və münasibətlərin etnikləşməsi təhlükəsi yaradırdı.

Multikultural etnosiyasətin reallaşdırılması modelinin hakimiyyət tərəfindən düzgün seçilməməsinin dərki XX əsrin 80-cı illərinin ikinci yarısında anlaşıldı. Etnosentrik sxemə yenidən baxıldı və nəticə olaraq, praktikada multikulturalizmin “*vətəndaş modeli*” bərqərar oldu. Bu model Avstraliyada Multikulturalizm üzrə Milli Proqramda ifadə olunmuşdur. Multikulturalizm vətəndaşların real hüquq bərabərliyi baxımından nəzərdən keçirilməyə başlanıldı. Etnik azlıqların dəstəklənməsində prioritet konstitusion hüquqların təmininə və xüsusən, sosial məziyyətlərə olan hüquqlara verildi.

1989-cu ildə nəşr edilmiş Multikultural Avstraliya üçün Milli Proqram multikultur siyasətin üç istiqamətini ayırdı: *mədəni identiklik, sosial ədalət, iqtisadi effektivlik*. Birinci - hər bir vətəndəşa mədəni özünüreallaşdırma hüququnun müəyyənləşdirilməsini nəzərdə tuturdu. İkinci - irqi, cinsi, dini və s. əlamətlər üzrə diskiminasiyaya yol verilməməsini və bərabər imkanlar üçün hüquqi zəmanətləri nəzərdə tuturdu. Üçüncü - hər bir vətəndaşın etnik və irqi mənşəyindən asılı olmayaraq, istedadlarının mükafatlandırılmasını nəzərdə tuturdu. Lakin sui-istifadə hallarında, mədəni plüralizm etnik qrupların özünütəcridinə gətirib çıxardığı üçün cəmiyyətdə mədəni inteqrasiya prosesinin güclənməsinə deyil, əksinə olan proseslərə və gələcək münaqişələrə şərait yaradır. Bu baxımdan multikultural siyasətin ən uğurlu modellərindən olan Avstraliya modeli belə istisna hal deyil və bu hal özünü 2005-ci ildə Sidneydə baş verən irqi toqquşmalrdan sonra xüsusilə aşkar etdi.

Avstraliya və Kanadada multikulturalizm modellərini bütün vətəndaşların hüquq və vəzifələri ilə məhdudlaşan “*vətəndaş-plüralistik model*” kimi müəyyənləşdirmək olar. Avstraliya politoloqu T.Soutfommaseyn qeyd edir ki, bu ölkələrdə multikulturalizm birləşmiş fundamental dəyərləri təşkil edən ümumi vətəndaş mədəniyyəti ilə məhdudlaşır [8, s.410].

Avropa ölkərində multikulturalizm hər şeydən əvvəl immiqrantların inteqrasiyası problemi ilə uyğunlaşdırılır, buna görə də multikultural siyasət Avropa tədqiqatçılarının və politoloqlarının qə-

bul etdikləri kimi “yüksək dərəcədə diskussion mövzudur” [5, s.175]. Avropada multikulturalizmin prinsipləri “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasında”(1995), “Avropa Şurasının Lund təkliflərində”(1999) və digər sənədlərdə öz əksini tapmışdır.

Avropada multikulturalizm siyasətinin maraqlı nümunələrindən biri kimi əhalisinin əhəmiyyətli hissəsinin ingilislərdən, şotlandlardan, uelslilərdən, irlandlardan və o cümlədən hindli, pakistanlı miqrantlardan təşkil olunan Böyük Britaniyanı göstərmək olar. Etnik azlıqların sosial proqresinə 1965-ci ildə leyborist hökumətinin qəbul etdiyi ictimai yerlərdə diskriminasiyanı qadağa edən Qanuna 1968-ci ildə irqi və etnik mənşə əlamətinə görə diskriminasiyanın qadağa edilməsinin əlavə olunması və İrqi məsələlər üzrə İdarə yaradılması səbəb oldu. 1976-cı ildə diskriminasiyaya qarşı qəbul edilmiş yeni Qanun bu hadisəni xarakterizə edən anlayışların məzmununu daha da genişləndirdi və həmin qanunla İrqi bərabərlik üzrə Komissiya yaradıldı. Bu şəkildə multikulturalizm və ya mədəni plüralizm Böyük Britaniyada siyasi vəziyyətin fərqləndirici cəhətlərindən birinə çevrildi.

İngilis tədqiqatçıları etnik azlıqların Britaniya cəmiyyətinə inteqrasiyasının xarakterini müəyyənləşdirərək, immiqrantların və onların davamçılarının yeni yaşayış yerlərində nəinki mənsub olduğu etnosuna xas mədəniyyətin və məişətin spesifik cəhətlərini qorumasını, həm də qrup həmrəyliyini ifadə edən kompakt yerləşməsini və etnik məntəqələrin formalaşdırılmasını, müəyyən növ fəaliyyətlərin xüsusiləşdiriməsini, yəni qapalı irqi və etnik qrupların hüqudlarında həyat fəaliyyətinin lokallaşmasını ifadə edən “*inkapsulyasiya*” terminini elmi dövriyyəyə daxil etdilər. Bu cür etnosiyasət miqrantların bütün problemlərini həll etmədi və etnik azlıqların təcrid olunmuş mövcudluğuna gətirib çıxardı.

Bu gün multikulturalizm Böyük Britaniyada böhran halındadır. 2005-ci ildə London teraktlarından bir ay sonra Baş nazir Toni Bleyr rəsmi olaraq, Britan multikulturalizmini “dəfn etdi”. Etnosiyasətin yeni modelinin əsasına “Britishness” ideyası qoyulur ki, bu da faktiki olaraq, etnik azlıqları Britaniya cəmiyyətinə yumşaq adaptasiya səylərinin uğursuzluğunun tanınmasını ifadə edir.

XX əsrin 90-cı illərində mədəni müxtəlifliyə münasibətdə Fransanın dövlət siyasətini nəzərdən keçirərək, A.Hargrevas Fransa hökumətinin qarşısında dayanan iki dilemmaya - *kənarlaşdırma siyasəti* ilə *plüralizm siyasəti* arasında seçim zərurətinə diqqəti cəlb edir. Onun fikrincə, seçim “qızıl orta”nın xeyrinə edildi ki, həmin siyasət artıq 80-cı illərin ortalarından həyata keçirilirdi. Onun qeyd etdiyi kimi, dövlət siyasətinin məzmunu ondan ibarət idi ki, “mədəni müxtəliflik həmin etnik azlıqların bu müxtəliflikləri hakim mədəni normalar çərçivəsi ilə məhdudlaşdırması şərtilə qəbul olunurdu” [7, s.139].

Avropa ölkələrinin bir çoxunda son zamanlara qədər multikulturalizm siyasəti özünün düşünülməzliyi ilə seçilirdi. Onda çox zaman bir-birinə uyğun olmayan elementlər - milli identikliyin qorunmasına səy və immiqrantların mədəni identikliyinə ifrat qayğı iştirak edirdi. Nəticədə, multikulturalizm Fransada olduğu kimi mədəni assimilyasiyaya müncər edilirdi, ya da Böyük Britaniyada olduğu kimi milli dövlətin mədəni ənənələri və adətləri zərbə altında qalırdı” [3, s. 535].

Qeyd etmək lazımdır ki, multikulturalizm modelini rəhbər tutan Avstraliyada, Böyük Britaniyada və digər ölkələrdə mədəni müxtəlifliyin dəstəklənməsi mümkün olsa da, cəmiyyətin vətəndaş birliyinə nail olunmadı. Bununla əlaqədar olaraq, vacib məsələ ortaya çıxır ki, ümumilikdə etnik müxtəlifliyi qoruyaraq, prinsipcə cəmiyyətin birliyinə nail olmaq mümkündürmü? Müasir dünya təcrübəsi hələ bu suala aydın cavab verməyə imkan verməsə də, pozitiv xarakterli müşahidələr nəzərə çarpır. Bu müşahidələrin ən parlaq nümunəsini müasir dövrdə Azərbaycan Respublikası təqdim edir. Bu cür birlik nümunəsini ölkəmizin prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının timsalında xarakterizə edərək, qeyd etmişdir ki, “Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır” [1].

**Açar sözlər:** multikulturalizm, etnosiyasət, sosial ədalət, mədəni plüralizm, assimilyasiya, adaptasiya, etnik müxtəliflik, inkapsulyasiya

**İstifadə edilmiş ədəbiyyat**

1. Mehdiyev R. “Bir “qüvvə mərkəzi”nin hegemonluğu özünü doğrultmadı”, 03.12.2014, www.azertag.az
2. Антонова В. Мультикультаризм. М.: ООО “Вариант”, 2012, 118 с.
3. Пестушко Н.А., Существует ли альтернатива мультикультурализму? // Мир науки, культуры, образования, № 6 (49), 2014, 626 с.
4. Куропятник А. И. Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ, СПб.: 2000, 207 с.
5. Banks M. Ethnicity: Anthropolpgical Constructions/M.Banks. London & New York, 1997, 481p.
6. Calhoun C. Dictionary of the Social Science, Oxford University Press, 2002, 563 p.
7. Hargreaves A. Immigration, “race” and ethnicity in contemporary France, London: 1995, 267 p.
8. Soutphommasane T. Grounding multicultural citizenship: From minority rights to civic pliralism // Journal of intercultural studies, 2005, Vol. 26, № 4, p.401-416

**Ринард Шерифов**

## АНАЛИЗ КОНЦЕПЦИИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В ПОЛИТИЧЕСКОЙ ПРАКТИКЕ ЗАРУБЕЖНЫХ СТРАН

**Резюме**

Анализ концепции мультикультурализма в политической практике зарубежных стран дает возможность познать проблемы, связанные с актуальными направлениями политики государств мира и динамикой социокультурной интеграции. Толерантность, равнозначность культур, признание этнической различности, как принципы, составляющие основу концепции мультикультурализма, если даже делают его привлекательной как основу этнополитики, представляется целесообразным обратить внимание на некоторые нежелательные его проявления в политической практике.

**Ключевые слова:** мультикультурализм, этнополитика, социальная справедливость, культурный плюрализм, ассимиляция, адаптация, этническое разнообразие, инкапсуляция

**Rinard Sharifov**

## ANALYSIS OF MULTICULTURALISM CONSEPT IN A POLITICAL EXPERIENCE OF FOREIGN COUNTRIES

**Summary**

Analysis of multiculturalism concept in a political experience of foreign countries gives opportunity to realize issues related to actual direction of countries’ policy and dynamics of sosial-cultural integration. Although, tolerance, equality of cultures, the principles of recognition of ethnic diversity forming the basis of concept of multiculturalism make this concept quiet attractive as the basis of ethno-political situation, it seems appropriate to pay attention to some undersirable manifestations in a political experience.

**Keywords:** multiculturalism, ethnopolicy, social justice, cultural pluralism, assimilation, adaptation, ethnic diversity, encapsulation

**UOT – 338.242:005**

**Salman Umudov**
**Azərbaycan Respublikası Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası**

# YENİ İQTİSADİ MÜNASİBƏTLƏR ŞƏRAİTİNDƏ KORPORATİV MƏDƏNİYYƏTİN FORMALAŞMASI MEXANİZMİ

*Məqalədə qeyd olunur ki, korporativ mədəniyyətin dəyişməsi zamanı, yeniliklərin mərhələli və tədricən inkişafı vacibdir. Digər tərəfdən yeni mədəniyyətin elementlərinin banklarda mövcud olan dəyərlər sistemi ilə ziddiyyət törətməsi nəzərə alınmalıdır. Yeni mədəniyyətin bütün rəhbərlər tərəfindən qəbul olunması və dəstəklənməsi də vacibdir. Yalnız bu halda korporativ mədəniyyətin təkmilləşməsi gələcəkdə bank sisteminin çiçəklənməsinə səbəb ola bilər.*

Korporativ mədəniyyət çoxşaxəli və çoxsəviyyəli sistem kimi bank sektorunda da təzahür edir. Bu səviyyələr, tamamilə hiss olunan xarici təzahürlərini və dərindəki süuraltı baza təsəvvürlərini əhatə edir, yəni bunlar korporativ mədəniyyətin mahiyyətidir. Bu iki qütblər arasında həmin mədəniyyətin nümayəndələrinin daşıdığı müxtəlif növ kollektiv dəyərlər, normalar və davranış qaydaları yerləşir.

E.Şeynin rəyinə görə, təkcə artefaktların tədqiqatları əsasında dərin təsəvvürləri müəyyən etmək səyləri böyük təhlükə daşıyır, çünki belə interpretasiyalar sonda tədqiqatçının şəxsi hisslərinin də reaksiyalarının proyeksiyası olur [2, s.34]. Məsələn, qeyri-formal azad bir təşkilata yanaşanda əgər tədqiqatçının mövqeyi təsəvvürə söykənirsə, o, təşkilatın işini azsəmərəli hesab edə bilər, yəni azadlıq işə qeyri-ciddi yanaşma deməkdir. Və əksinə, qəti formalaşmaya məruz qalmış təşkilatla rastlaşanda, əgər onun şəxsi təcrübəsi formallığı bürokratiya kimi qəbul edirsə, bu vaxt o, təşkilatın sərtliyini innovasiya potensialının çatışmazlığı kimi hesab edə bilər. Beləliklə, yalnız artefaktların təhlili əsasında qurulmuş korporativ mədəniyyət haqqında fikirlər yanlış ola bilər.

Qrupun həyatının hər aspekti müəyyən artefaktlarla bağlıdır və buna görə təsnifləşdirmə problemi ortaya çıxır. Hansısa bir korporativ mədəniyyətin təsviri haqqında oxuyanda, qeyd etmək olar ki, müxtəlif müşahidəçilər müxtəlif artefaktlara fikir verirlər və buna görə bu təsvirləri bir-birilə müqayisə etmək çox çətindir. Əgər müşahidəçi uzun müddət bir qrupda yaşayırsa, o vaxt artefaktların mənası ona aydın olur. Əgər o həmin anlayışı qısa bir müddətə əldə etmək istəyirsə, o, qrupun üzvlərinin əldə rəhbər tutduğu işlək prinsiplərin kökündə yatan, bəyan olunmuş dəyərləri və normaları təhlil etməlidir. Belə növ tədqiqatlar korporativ mədəniyyətin növləri səviyyəsinə-bəyan olunan dəyərlər səviyyəsinə gətirir.

**Bəyan olunan dəyərlər** – qrupun bütün təcrübəsi, son nəticədə, əldə olunandan fərqlənən kiminsə orijinal təxəyyülünün əksidir. Kollektivi yaradarkən və ya yeni məsələni həll edərkən ilk addım kimi düzgün və ya yanlış, səmərəli və ya səmərəsiz olması kimi şəxsi təsəvvürünün olması üzə çıxarılmalıdır. Təşəbbüskar və ya qrupun qərar qəbul etməsinə təsir edə bilən fərdlər gələcəkdə lider ola bilərlər, lakin qrup bu mərhələdə kollektiv təcrübəyə malik deyil, çünki bu yeni vəziyyət çıxış yolunun mexanizmini hələ hazırlamayıb. Bu səbəbdən hər bir təklifi irəli sürən insan ona şübhə etmir, qrup bu təklifi şərti dəyər kimi edir. Ta ki təşkilat üzvlərinin birgə səyləri nəticəsində nəsə əldə olunmasa, o vaxtadək onun ümumi anlayış üçün barisi olmayacaq, əgər menecer təşkilatı inandırsa ki, onun təklifi ilə hərəkət etsinlər və təklif özünü doğrultsa, onda bu qəbul edilmiş təklif anınma transformasiyasına məruz qalacaq. Əvvəlcə, o, təşkilat anlamına, ya düşüncəsinə çevriləcək, sonra təşkilat tamaşası olacaq (əgər ona əsaslanan fəaliyyət əvvəlki kimi uğurlu qalacaqsa).

Beləliklə, dəstəklənən dəyərlərə - qrup tərəfindən bəyan edilən iş prinsipləri; qoyulan korporativ məqsədləri və qoyulmuş məqsədlərə nail olmaq strategiyası aid olunur. Bizim banklarda mükafatlandırma haqqında qərar qəbul ediləndə, ilk növbədə, həmin işçinin ümumi işə verdiyi töhfə nəzərə alınır.

Bəyan olunan dəyərlər bəzən baza ehtimalları ilə üst-üstə düşmür. Əsas təsəvvürlərə cavab verən dəyərləri səciyyələndirmək lazımdır. Əsas təsəvvürlərə zidd olan dəyərlər müəyyən düçüncələrin yaxud etirazların nəticələridir. Məsələn, hansısa bankda komanda işinin tətbiqi əməkdaşların baza ehtimalları ilə üz-üzə qarşılaşa bilər, çünki uğur qazanıb, karyerada yüksəlmək üçün ilk növbədə fərdi işin nəticələri vacibdir.

Əsas norma və davranış qaydaları üzrə hazırlanan, dəstəklənən dəyərlər, sözsüz ki, korporativ mədəniyyətin özəyidir. Təşkilatın təsisçiləri və nüfuzlu üzvləri tərəfindən dəstəklənən yaxud bəyan edilən dəyərlər, çox vaxt işçiləri birləşdirən, vahid fəaliyyət və təşkilatın məqsədlərinə nail olmaq üçün əsas bəndə çevrilir.

Aksiologiya (dəyərlər haqqında nəzəriyyə) elminin nöqteyi nəzərinə görə dəyərlər, ictimai predmet kimi fərdin və ya qrupun müəyyən tələbatlarının ödənməsidir [4, s.54].

Subyekt üçün aktual tələbatın ödənilməsi problemləri aşkarlandıqda dəyər münasibətləri ortaya çıxır.

Bankın korporativ mədəniyyətinə aid dəyərləri arzuolunan və bütöv bir olay kimi müəyyət etmək olar, çünki şəxsiyyət həmişə ətraf mühitin bütün elementlərinə qiymət verir. Bu halda dəyərlər stimul rolunu oynayır və istənilən növ qarşılıqlı hərəkətlər üçün zəruri şərtdir.

Cəmiyyətdə və hər bir təşkilatda mövcud olan sosial qeyri-bərabərliyə görə insanlar arasında dəyərlər qeyri-bərabər paylanır. Dəyərlərin qeyri-bərabər bölgüsü əsasında hakimiyyət və tabeçilik münasibətləri bütün iqtisadi münasibətlər, dostluq münasibətləri, tərəfdaşlıq və s. münasibətlər qurulur. Sosial qrupda, bankın əməkdaşları arasında dəyərlərin paylanmasını, sosioloqlar, həmin qrupun ya təşkilatın dəyər obrazı adlandırırlar. O ki qaldı ayrı-ayrı əməkdaşlara, təşkilatın daxilində, ümumi dəyər obrazı çərçivəsində hər biri fərdi dəyər mövqeyini tutur.

Dəyər obrazları və nöqtələri, şəxslərarası münasibətlərdə və dəyərlər mübadiləsi zamanı dəyişirlər.

Dəyərlər arasında rifah dəyərlərini səciyyələndirirlər. Bunlar insanların əqli və fiziki fəaliyyətlərini lazımi səviyyədə saxlavaq üçün lazımdır.

Tanınmış alim S.S.Frolar dəyərlər qrupuna aşağıdakıları aid edir: əminamanlıq (bura sağlamlıq və təhlükəsizlik aiddir); var-dövlət (müxtəlif vaddi nemətlərə və xidmətlərə malik olmaq); ustalıq (fəaliyyətin müəyyən növlərində peşəkarlıq); savad (bilik, məlumat potensialı və mədəni əlaqələr); hörmət (status, nüfuz, şöhrət və reputasiya [4, s.108].

Fikrimizcə, korporativ dəyər və normalara aşağıdakıları daxil etmək olar:

- korporasiyanın təyinatı və onun “sifəti” (yüksək səviyyəli texnologiya, öz sahəsində liderlik, peşəyə sadiqlik, yeniləşmə və s.);
- böyüklük və hakimiyyət (şəxsiyyətə və vəzifəyə məxsus olan səlahiyyətlər, böyüklüyə və hakimiyyətə ehtiram, onların meyarları və s.);
- müxtəlif rəhbər vəzifələrin və funksiyaların mənası (rəhbər vəzifələrin vacibliyi, bölmələrin və xidmətlərin rolu və səlahiyyətləri);
- inasanlarla rəftar (insanlara və onların ehtiyaçlarına qayğı, qərəzsiz münasibət və favoritlik, imtiyazlar, fərdi hüquqlara ehtiram, öyrətmə və ixtisasın artırılması, mənsəb, ödəmələrdə ədalətlilik, insanların motivasiyası;
- rəhbər və nəzarətçi vəzifələrinə seçim meyarları (böyüklük ya işin səmərəliliyi, daxili seçim zamanı prioritetlər, qeyri-formal münasibətlərin təsiri və s.);
- işin təşkili və nizam-intizam (könüllü və məcburi intizam; rolların dəyişməsində çeviklik, işin təşkilinin yeni formalarının istifadəsi və sair);
- rəhbərlik və idarəetmə üslubları (avtoritar, məsləhətçi və ya əməkdaşlıq, məqsədli qruplardan istifadə, çeviklik və uyğunlaşma);
- qərarların qəbul edilməsi prosesləri (qərarı kim qəbul edir, kiminlə məsləhətləşmələr aparılır, qərarların fərdi və ya kollektiv qəbul edilməsi, razılığın labüdlüyü, kompromiss imkanları və s.);
- məlumatın paylanması və mübadiləsi (işçilərin məlumatlılığı, məlumat mübadiləsinin asanlığı);
- təmasların xarakteri (şəxsi və yazılı təmaslara üstünlük, təsbit olunmuş xidməti ünsiyyət ka-

nallarından istifadə zamanı sərtlik və ya çeviklik, formal aspektlərə verilən əhəmiyyət, ali rəhbərlik ilə təmasların mümkünlüyü, iclasların tətbiqi; kimlər dəvət olunur və hansı içlaslara; iclaslarda davranış normaları);

- sosiallaşmanın xarakteri (kim kiminlə iş vaxtı və işdən sonra təmasdadır; mövcud olan maneələr; ünsiyyətin xüsusi şərtləri);

- münaqişələrin həlli yolları (münaqişədən yayınmaq və kompromisə getmək istəyi; rəsmi ya qeyri-rəsmi yolların tətbiqinə üstünlük vermək; münaqişə vəziyyətlərinin həllində ali rəhbərliyin iştirakı və s.);

- işin səmərəliliyinin qiymətləndirilməsi (real ya formal; gizli və ya aşkar; kim tərəfindən həyata keçirlir; nəticələrdə necə istifadə olunur).

Əlbəttə, korporativ dəyərlərin ümumiləşdirilmiş siyahısını təqdim etmək mümkün deyil, çünki korporativ mədəniyyət hansısa təşkilata məxsus olan dəyərlərin, münasibətlərin, normaların, vərdişlərin, ənənələrin, davranış formalarının mərasimlərin orijinal qarışığıdır. Ümumi dəyərlərə canatma, insanları təşkilatlarda birləşdirə bilər, bununla müəyyən olunan məqsədlərə nail olmaq üçün əlavə təkan verər və təşkilatın fəaliyyətinin səmərəliyini artırar.

Korporativ mədəniyyətin daha dərin səviyyəsinə keçmək üçün, təşkilatın korporativ mədəniyyətini açmaq üçün və iştirakçıların davranışlarını düzgün bilmək üçün mədəniyyətin son səviyyəsinə - əsas təsəvvürlərinə nəzər yetirmək lazımdır.

**Baza təsəvvürləri (ehtimalları) -** qrup tərəfindən şüuraltı səviyyədə qəbul edilən və şübhə doğurmayan düşüncələr və inanclar baza təsəvvürlərinə aiddir.

Həqiqətən, əgər qrup hansısa baza təsəvvürünü qəbul edib ondan fərqli başqa baza təzəvvürü ilə üzləşəndə, bu olayı anlaya bilməyəcək.

Təməl təsəvvürləri, təşkilatın hərəkətləri və dəyərləri üçün mənbədir. Onlar qruplar və ya fərdlər tərəfindən tərbiyə və öyrənmə zamanı qavranılır və, əsasən, onlara mədəni və milli xüsusiyyətlər, ailə və s. təsir edir. Təməl təsəvvürlər bizlərdə nə etiraz, nə də ki, şübhələr doğurmur və buna görə onların dəyişilməsi çox çətindir, çünki onlar şəxsiyyətin əsaslarına və toplanan təcrübəyə toxunurlar.

Korporativ mədəniyyət baza təsəvvürlərinin toplusu kimi, müəyyən edir ki, nəyə biz fikir verməliyik, predmet və olayların mahiyyəti nədir, olaylara bizim emosional reaksiyamız necə olmalıdır, hansı vəziyyətlərdə hansı hərəkətləri etməliyik.

Belə təsəvvürlər sistemini işlədikdən sonra, bizi anlayan insanların yanında rahatlıq hiss edəcəyik, və əksinə, başqa təsəvvürlər sistemi ilə üzləşəndə narahat olacağıq, çünki olayları ya qəbul edə bilməyəcəyik, ya da ki, təhrif olunmuş halda qəbul edəcəyik.

Hər bir təşkilati qrup mədəniyyəti yuxarıda göstərilən üç səviyyədə öyrənilə bilər: artefaktlar, dəyərlər və təməl təsəvvürləri səviyyəsində. Bunları bilmədən biz ölkə banklarında korporativ mədəniyyətin səviyyəsinə qiymət verə bilmərik.

Gələcəkdə təşkilatın subyektlərinin münasibətlərini mədəniyyətlərin münasibətləri kimi qiymətləndirmək faydalıdır: şəxsiyyətin mədəniyyət elementləri şəxsiyyətin ümidlərinə və gələcək iş yerinin mədəniyyətinin elementləri haqqındakı təsəvvürlərinə təsir edir [3, s.23].

Kredit təşkilatının mədəniyyət elementlərini müəyyənləşdirəndən sonra korporativ mədəniyyəti formalaşdırmaq lazımdır. Fikrimizcə, onun formalaşmasına təsir edən prinsipləri, amilləri müəyyən etmək lazımdır və bundan başqa bankların korporativ mədəniyyətinin layihələndirmə modelini qurmaq lazımdır.

Təşkilati mədəniyyətin formalaşma prinsiplərinə daxildir:

1. **Sistemlilik prinsipi.** Bu prinsip yaradılan mədəniyyətə bir-birilə bağlı olan elementlər sistemi kimi yanaşır və bu sistemin dəyişilməsi, təkmilləşdirilməsi yalnız hər elementin dəyişdirilməsi hesabına alına bilər.
2. **Komplekslilik prinsipi** – mədəniyyətə psixoloji, sosial, təşkilati, iqtisadi, hüquqi və başqa amillərin təsirinin nəzərə alınmasını əhatə edir.
3. **Millətsevərlik prinsipi** isə korporativ mədəniyyətin formalaşmasında işgüzar təşkilatın yerləşdiyi ölkənin milli xüsusiyyətlərini, mentalitetini, regionun adət-ənənlərini nəzərə alır.

4. **Tarixçilik prinsipi.** Bu prinsip təşkilatın dəyərlər sisteminin və şəxsiyyətlərarası münasibətlərinin müasir bəşəri dəyərlərinə uyğunluğunu və həmçinin onların dinamikasının tarixi təsbitini nəzərdə tutur.

5. **Elmilik prinsipi** – korporativ mədəniyyətin qurulmasında elmi əsasladırılmış üsulların istifadə edilməsini əhatə edir.

6. **Dəyərlərə istiqamətlənmə** isə korporativ mədəniyyətin formalaşmasında dəyərlərə üstünlük verməni nəzərdə tutur.

7. **Ssenari prinsipi.** Bu prinsip əməkdaşların hərəkətlərini və münasibətlərini tənzimləyən aktların, təlimatların və tövsiyələrin olmasını birləşdirir. Bu sənədlər işçilərin fəaliyyətini incəliklərlə xırdalaıyır, müəyyən davranış qaydalarını onlara öyrədir.

8. **Səmərəlilik prinsipi** isə mədəniyyətin elementlərinə və onun atributlarına, heyətin fəaliyyətinin yaxşılaşdırılmasına yönələn məqsədəyönlü təsiri əhatə edir.

Korporativ mədəniyyət formalaşarkən və inkişaf edərkən onun əhəmiyyətli əlamətlərini və xüsusiyyətini nəzərə almaq lazımdır:

- çoxsəviyyəlilik, bu əlamət idarəetmənin bir neçə səviyyəsinin yaradılmasından ibarətdir: məsələn, dövlət, korporativ, sahə səviyyələri, texnoloji zəncirin səviyyəsi, ayrıca müəssisə və ya bankın səviyyəsi;
- çoxaxınlılıq – burada təşkilatın fəaliyyəti bir neçə axına parçalanır və onlardan hər birisi idarəetmə obyekti kimi çıxış edir. Məsələn, bank çərçivəsində əməliyyat, maliyyə, informasiya, kadrlar axınları fəaliyyət göstərə bilər;
- miqyaslılıq – burada sistemin müxtəlif səviyyələrində və axınlarında idarəetmənin universal üsullarından daha çox istifadə olunur.
- sinergizm – bu əlamət idarəedilən obyektin ümumi məqsədlərinə nail olmaq üçün bütün səviyyə və axınların çoxmeyarlı idarə edilməsində özünü büruzə verir.

Korporativ mədəniyyətin formalaşdırılmasının aşağıdakı mərhələləri vardır:

- konkret korporasiyanın əsas elementlərinin vəziyyətini əks etdirən məlumatların toplanması;
- əsas elementlərin mütərəqqilik dərəcəsinin keyfiyyət təhlili, onların mütərəqqi bankın əlamətlərinə uyğunluğu;
- təşkilatın mütərəqqi mədəniyyətinin formalaşdırılması üçün lazım olan tədbirlərin siyahısı;
- hər tədbirin əsaslandırılması və layihələndirilməsi;
- korporativ mədəniyyətin mövcud olan elementlərinin transformasiyası üzrə hər tədbirin layihə parametrləninin əsaslandırılması;
- mütərəqqi mədəniyyətin formalaşdırılması üzrə təkliflərin təcrübədə reallaşdırılması;
- təklf olunan tədbirlərin səmərəliliyinin təhlili.

Bizim zənnimizcə, korporativ mədəniyyətin formalaşmasına təsir edən birinci amil-rəhbərin mədəniyyətidir.

Ümumi mədəniyyətin elementlərinə yiyələnərək menecer korporativ mədəniyyətin özü və işçiləri tərəfindən mənimsəmək üçün, ilk öncə xarici mühitin şəraitlərini, bankın daxil olduğu böyük sistemin reallıqlarını nəzərə almalıdır [1, s.56]. Peşəkarlıq səviyyəsini artırmaq üçün menecer gərək daxili mədəniyyətini daima zənginləşdirməli, yığcam və məqsədəyönlü olmalı, məsuliyyət hissinə malik olan yüksək mənəviyyatlı və peşəkar olmalıdır. Belə rəhbər özündən razı olmaqdan uzaqdır, inzibati təzyiq etmir, işlərin uzun-uzadı baxılmasına yol vermir, məvəqqətilik psixologiyasından uzaqdır. Korporativ mədəniyyətə yiyələnən menecer idarəetmə sisteminin təkmilləşdirilməsi və təşkilatın adaptasiya imkanlarının artırılması üzərində daimi işləməlidir. Xarici mühit qeyri-sabit olduqda (dövlət siyasətinin dəyişiklikliyi zamanı, bazar infrastrukturunun inkişaf etməməsi, inflyasiyanın artımı zamanı, tərəfdaşların səhlənkarlığı) bu xüsusiyyətlər çox əhəmiyyətlidir.

Məlumdur ki, rəhbərin əsas işi idarəetmə qərarlarının qəbul edilməsidir, ona görə korporativ mədəniyyətin düşüncə tərzi çox böyük əhəmiyyət kəsb edir. Onun əsas komponentləri bunlardır:

- dəyişənlər çoxluğundan (əlamətlərdən, amillərdən, şərtlərdən) hazırkı vəziyyət üçün əsaslarını seçib ayırmaq;
- düşüncələri, ideya səviyyəsində saxlamadan, həyata keçirmək bacarığı, “sualtı daşları və

gözlənilməz döngələri” fəth etmək üçün qabaqlayıcı tədbirlərin hazırlanması;

- qəbul olunan qərarın nəticələrini qabaqcadan görmək, sistemin bir neçə ardıcıl səviyyələrinə görə reallaşması gedişatı zamanı əmələ gələn ziddiyyətləri izləmək bacarığı, nəticə və fəsadların nəzərə alınması;
- mücərrəd və real sistemlər qurarkən bütövün və hissələrin birləşdirilməsi, səmərəli ölçülərin və tabeçiliyin əldə olunması;
- məqsədə nailolma zamanı, yaxın, orta və uzaq nəticələrin ölçülməsi əsasında güc və resursların cari və perspektiv işlər arasında bölüşdürülməsi.

**Açar sözlər:** korporativ mədəniyyət, xarici ticarət əlaqələri, dövlət dəstəyi

**İstifadə edilmiş ədəbiyyat**

1. Батчиков С., Петров Ю. Корпоративный сектор в переходной рыночной экономике // РЭЖ 1997, № 8, с.45-64
2. Колесников А.В. Корпоративная культура современных организаций. М.: ООО ИИЦ «Альфа-Пресс», 2011, 444 с.
3. Корпоративное управление: пер с англ-2-у изд. М.: 2000
4. Спивак В.А. Корпоративная культура. Теория и практика. СПб.: Питер, 2001, 352 с.

**Салман Умудов**

## МЕХАНИЗМ ФОРМИРОВАНИЯ КОРПОРАТИВНОЙ КУЛЬТУРЫ В НОВЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ

### Резюме

В статье в процессе изменения корпоративной культуры, важно для разработки новых продуктов и постепенно сворачиваться. С другой стороны, банки являются очень важными элементами новой культуры, которая не вызывает конфликт с существующей системой ценностей. Принятие новой культуры и должны быть поддержаны всеми старшими руководителями. Только в этом случае, корпоративное процветание в будущем может привести к развитию корпоративной культуры.

**Ключевые слова:** корпоративная культура, иностранные торговые отношения, государственная поддержка.

**Salman Umudov**

## FORMING MECHANISM OF CORPORATE CULTURE IN THE CONDITIONS OF THE NEW ECONOMIC RELATIONS

### Summary

During the change of corporate culture, phased and gradual development of innovations are very important. On the other hand it should be considered that elements of new culture does not cause a conflict with the system of values existing in banks. The adoption and support of new culture by all  leaders are very important. Only in this case, the development of corporate culture can lead to the corporate prosperity in the future.

**Keywords:** corporate culture, foreign trade relations, public support

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**УДК – 332.1**

**Гюльнара Гаджиева**
**Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э., доцент**

# УСИЛЕНИЕ РОЛИ ПРОМЫШЛЕННОЙ ПОЛИТИКИ В РАЗВИТИИ РЕГИОНОВ

*В статье исследуются значение и направления региональной политики, факторы, влияющие на экономическое развитие регионов и связанные с ним основные направления государственной поддержки и государственной политики. Далее в динамике исследованы макроэкономические показатели, такие как ВВП, добавочная стоимость в промышленности и выявлены тенденции развития. Сравнивая показатели экономических регионов выявлена территориальная специализация регионов по промышленной продукции и даны рекомендации по стимулированию эффективного использования их экономического потенциала.*

Все страны независимо от уровня социально-экономического развития сталкиваются региональными проблемами. Каждой стране присуща своя региональная политика. Однако основным направлением в региональной политике является достижение равновесия в региональных уровнях развития, между занятостью и доходами населения, между предпринимательским потенциалом и т.д. Другими словами, в решении структурных проблем национальный доход все больше воплощается в обобщении методов и задач. С исторической точки зрения региональная политика начала применятся в Западной Европе. Низкий уровень жизни, безработица, концентрация населения и хозяйств в отдельных регионах привело к диспропорциям в использовании промышленного капитала в территориальном распределении. В некоторых случаях это сопровождалась продолжающим кризисом в отраслях экономики (Великобритания, Голландия, Германия), а в других - отсталостью сельских местностей (Италия, Испания), а в третьих объясняется ограниченностью экономической деятельности в связи с трудными природными условиями (Финляндия, Швеция, Норвегия, Щвейцария).

Несмотря на то, что по территории Азербайджан не относится к большим странам,все вышеперечисленные случаи для него характерны. Однако помимо общих характерных черт Азербайджану присуще региональные проблемы, такие как, богатый природными ресурсами; 20% территорий, которые благоприятны для растениеводства, находится под оккупацией армян; миграция населения,проживающих на этих территориях; разрушение специализированного регионального промышленного потенциала; изменения, происходящие в промышленной структуре соседних стран и т.д. Все это впрямую и косвенно влияет на уровень жизни населения. С учетом выполнения требований МВФ и Мирового Банка в принятой Государственной программе по сокращению бедности в 2001 году 49% населения на уровне абсолютного, 17% относительного нищенства, а в 2005 г. она составила 40%. По мнению Дж. Гулиева в республике черта бедности даже выше – 74,5% [1, с.43].

В государственной Программе «Социально-экономического развития регионов за 2004-2008 гг., 2009-2013гг. разработаны факторы по усилению экономического развития регионов, связанные с ними основные направления государственной политики и государственной поддержки. В Государственной Программе определены факторы, влияющие на экономическое

развитие регионов и связанные с ним основные направления государственной поддержки и государственной политики. Основной целью программы является эффективное использование реального потенциала регионов Азербайджана расширяя деятельность производственных предприятий, развивая отдельные отрасли экономики, местное предпринимательство с помощью увеличения занятости, улучшения уровня жизни населения. К основным задачам претворения цели являются следующие:

- создавать новые промышленные предприятия;
- обеспечить развитие необходимой инфраструктуры в целях развития регионов;
- обеспечить благоприятные условия для привлечения инвестиций в регионы;
- стимулировать создание новых эффективных рабочих мест.

В программе имеет место направление государственных инвестиций в основном производственные предприятия, который может привести определению оптимального уровня таможенных тарифов, налога, совершенствованию тарифно-ценовой политики, учитывая покупательную способность и уровень жизни населения. В целом к региональной политике, на наш взгляд, следует подходить с разной точки зрения: во-первых, региональное развитие рассматривается как государственная стратегия; во-вторых, политика местных самоуправляющих органов (муниципалитет); в-третьих, политика самих регионов.

По мнению ученого А.М.Бабашкиной, государственная региональная политика охватывает следующие цели:

- обеспечение государственной целостности, единства, экономического, социального и правового климата;
- обеспечение равновесного эколого-экономического развития регионов;
- обоснование принципов экономного использования и сохранения природного богатства регионов;
- обеспечение геостратегических и геополитических интересов государства в сфере регионального развития;
- предотвращение чрезмерной территориальной дифференциации регионов по природно-климатическим, ресурсным и инфраструктурным особенностям [2, с.444].

Таким образом, региональная программа должна обеспечить выполнение выше изложенных задач с тем, чтобы определить место отдельных регионов в общей экономической политике. В связи с этим, необходимо вести диагностику регионов. Говоря о региональной диагностике можно понимать социально-экономическое состояние региона.

На самом деле объект региональной диагностики состоит из множеств компонентов и внутренних территориально-хозяйственных, а также социально-экономических противоречивых субстанций. А потому, формирует как положительные, так и отрицательные процессы. Осуществление региональной диагностики позволяет выявить региональную ситуацию, объединять их в типических группах, ставить диагноз на основе качественной и количественной оценки, выявить внутренние и внешние причины диагнозируемого состояния.

В целях мониторинга и выявления слабых мест следует использовать показатели, которые позволили бы оценить реальное состояние регионов и разработать меры по их улучшению. Эти показатели должны опираться на статистические источники, отражать прозрачность результатов, сравниваемость параметров регионов.

Центральное место в СНС занимает ВВП, региональным аналогом которого является РВП. Здесь речь идет о добавочной продукции в промышленности регионов.

**Динамика макроэкономических показателей в АР**

**Таблица 1 [3].**

| | 2000 | 2005 | 2010 | 2014 |
|---|---|---|---|---|
| Численность населения, тыс. ман. | 8081,0 | 8436,4 | 8997,6 | 9477,1 |
| Всего ВВП, млн. ман. | 4718,1 | 11875,6 | 42465 | 58977,8 |
| ВВП на душу населения, ман. | 595,1 | 1495,7 | 4753 | 6264,1 |
| Добавочная стоимость в промышленности,млн.ман. | 1699 | 6190 | 21942 | 24471 |
| Добавочная стоимость в промышленности на душу населения, ман. | 210,2 | 668,3 | 2440 | 2580 |

Отметим, что за исследуемый период ВВП на душу населения изменился в 2014 г. по сравнению с 2000 г. на 10,5 раза. В этот же период добавочная стоимость в промышленности соответственно увеличился за этот же период на 14,4 раза.

При увеличении ВВП на душу населения в 2000г. на 583,9 ман., 2005 г. – 1407,7 ман., на каждый м$^2$ территории ВВП соответственно составил – от 4481,5 ман. до 137131,6 ман. В этот период в промышленности добавочная стоимость на душу населения увеличился от 210,2 ман. до 2580 ман., в 2014 г., на каждый м$^2$ территории в промышленности добавочная стоимость 19618,9 ман. до 65103 ман. Несмотря на то, что средние показатели по республике, как ВВП,так и добавочная стоимость в промышленности на душу населения увеличились по сравнению с предыдущим периодом, наблюдается темп прироста. Следует отметить, что доля промышленной продукции в ВВП в негосударственном секторе увеличилась от 48,4% в 2000 г. до 86,1% в 2014 г.

Прослеживая индексы промышленной продукции за 2005-2014 гг. можно заметить тенденцию к снижению. Например, объем промышленной продукции в 2005 г. -133,5%, 2008 г. -106%, 2010 г. -102,6%, 2012 г. -97,7%, 2014 г. -99,3%.

При подсчете средних показателей по республике выбор соответствующих параметров не играет сравнительную роль, поэтому считаем, что отражение показателя добавочной стоимости в промышленности по административным районам даст возможность получать оперативные данные о состоянии территориального развития регионов расположенных за пределами столицы.

**Объем промышленной продукции и региональной промышленной продукции**

**Таблица 2 [3].**

| | 2000 | 2005 | 2010 | 2014 |
|---|---|---|---|---|
| Объем промышленной продукции в фактических ценах, млн. ман. | 3639 | 9309 | 27978 | 32110 |
| Региональная промышленная продукция в фактических ценах, млн. ман. | 3364 | 8620,4 | 26961,5 | 31181 |
| Удельный вес региональной промышленной продукции, % | 92,44 | 92,8 | 96 | 97 |

В 2005 г. общий объем промышленной продукции составил 9309 млн. ман., а региональная промышленная продукция – 8620,4 млн. ман., т.е. на 688,6 млн. ман. меньше, чем республиканский (региональная промышленная продукция составила 92,8% общего выпуска), а в 2014 г. объем промышленной продукции увеличился на 22801 млн. ман., т.е. в 3,4 раза, а региональная продукция на 3,6 раза и составила – 31181 млн. ман. При этом удельный вес региональной промышленной продукции вырос от 92,8% до 97%. Удельный вес г. Баку в 2014 году в региональной промышленной продукции составил 90%. Следует отметить, что в 2005 году 72,9% промышленной продукции было выработано в негосударственном секторе, а в 2014 г. – 79,9%. При этом удельный вес Апшеронского экономического района составил 2%, Гянджа-Газахском экономическом районе – 1%, Нахичеванском экономическом районе – 3%. В 2005 г. 15,2% промышленной продукции в Апшеронском экономическом районе было выработано в негосударственном секторе, а в 2014 г. – 40,4%, в Шеки-Закатальском экономическом районе соответственно – 34,7%; 67,5%; Куба-Хачмасском экономическом районе – 50,15%; 33,9%; Нахичеванском экономическом районе – 66,6%; 92,6%; Ленькоранском экономическом районе – 70,2%; 58,7%.

Основным индикатором макроэкономического состояния страны является ВВП. Говоря о региональной промышленной продукции, то этот показатель является специфическим индикатором. В большинстве развитых стран показатель региональный валовый продукт характеризует национальную политику регионов.Хотя этот показатель не может полностью отразить масштаб развития региона, но дать оценку об уровне развития региона вполне может.

Таким образом, в региональной промышленной структуре город Баку отличался высоким удельным весом, а также сохраняется стабильный темп роста.

При реализации промышленной политики опираясь на определенные критерии государство должен оценить реальную ситуацию и определить направление перспективной деятельности. В этих целях необходимо рассчитать средние показатели по стране и анализировать причины резких различий между регионами. По этой причине целесообразно рассчитать региональный внутренний продукт, структурные показатели по административным районам. Несмотря на то, что население столицы составляет 22,9% населения страны, основная трудоспособная часть населения регионов неофициально проживают в г. Баку. А это обстоятельство демонстрирует неравномерное распределение экономического потенциала страны между регионами.

Следует отметить, что в г. Баку доля занятых работников составляет 45,6% всех работающих в стране. Количество хозяйственных субъектов в г. Баку составляет 37,2%, где основную долю составляют юридические хозяйственные субъекты.

Сравнивая показатели экономических регионов можно отметить, что территориальная специализация регионов по промышленной продукции составляет высокий уровень в г. Баку (87,7%), где на душу приходится 12,7 млн. ман. промышленной продукции. В Апшеронском экономическом районе на душу населения промышленная продукция составляет 0,9 млн. ман., где доля промышленной продукции составляет 1,7%, в Гянджа-Казахском экономическом районе соответственно - 0,2 млн. ман; 1%; Шеки-Закатальском экономическом районе-0,1 млн. ман; 0,2%; Ленькоранском экономическом районе - 0,07 млн. ман; 0,2%; Губа-Хачмасском экономическом районе - 0,14 млн. ман; 0,2%; Аранском экономическом районе-0,5 млн. ман; 2,9%; Горно-Ширванском экономическом районе-0,06 млн. ман; 0,05%; Нахичеванском экономическом районе - 2,02 млн. ман; 2,77% [3]. Однако, если учесть тот факт, что

в двух экономических регионах, в частности, Верхне-Карабахском и Кельбаджар-Лачинском, захваченных армянами, основная часть населения переселены в другие территориальные районы, не дает возможность объективно оценить ситуацию. Указанных регионах промышленная продукция на душу составила 0,026 млн. ман. Для выработки промышленной политики было бы целесообразным расчет добавленной продукции в каждом районе нацеленное на стимулирование конечной продукции.

Исследуя экономическое и промышленное ориентацию отдельных регионов следует анализировать такие показатели как общий выпуск продукции, промышленную и сельскохозяйственную продукцию на душу, а также розничный торговый оборот регионов. Верхне-Карабахском экономическом регионе розничная торговля составила 0,8% от республиканского уровня, объем сельскохозяйственной продукции соответственно – 3,9%; Кельбаджар-Лачинском экономическом регионе доля сельскохозяйственной продукции – 0,9%, розничная торговля не зарегистрирована.

В целом, суть региональной политики заключается не только в отличии экономической развитии отдельных районов, главное на фоне финансовых трансфертов. Это можно заметить по количеству формировавшихся юридических субъектов. Число хозяйственных субъектов г. Баку составляет 53,3%, Апшеронского региона - 6,2%, Гянджа-Казахского региона-6,9%, Шеки-Закатальского региона - 4,3%, Ленькоранского района - 5,6%, Куба-Хачмасского района - 3%, Аранского района - 13,8%, Верхне-Карабахского района - 0,5%, Горно-Ширванского района - 1,8%, Нахичеванского района - 1,9%.

При разработке нового курса развития регионов, необходимо учесть дифференциацию регионов в социальной сфере, капитальными вложениями, трудовыми ресурсами, а также институциональных основ воспроизводства ресурсов.

Местные региональные органы управления должны активно участвовать в регулировании эффективного использования природных, трудовых, финансовых ресурсов, главной задачей которых является организация воспроизводства всех ресурсов, а также создание институциональных условий эффективного предпринимательства.

В разрешении этих задач непосредственная роль принадлежит как государственным, муниципальным органам управления, также локальным корпоративным структурам.

Развитие регионов должен рассматриваться с учетом долгосрочной их перспективы. Часто отдельные административные районы, имеющие сильный экономический потенциал играют ведущую роль в стимулировании, при этом отстающим районам не уделяется особое внимание. Региональная государственная политика за счет реальных и относительных преимуществ регионов, в целях улучшения социальных условий территорий и увеличения экономического потенциала должна стимулировать эффективное их использование.

Однако регионы имеют и такие проблемы которые невозможно разрешить собственными силами. Например, обеспечение продовольственной и экономической безопасности, защита экологии регионов, развитие магистральной инфраструктуры, с помощью последовательной инновации перестройка производственной структуры. Поэтому важное значение имеют разработка экономических приоритетов и программирование в региональных аспектах.

В целом претворение в жизнь региональной политики страны должен совместить интересы многочисленных экономических субъектов.

**Ключевые слова:** регионы, промышленная политика, ВВП, добавочная стоимость

**Использованная литература**

1. Гулиев Дж.Б. Тенденция изменения уровня жизни населения в годы независимости и оценка факторов, влияющих на него. Известия НАНА Баку, №1, 2004, с.43
2. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и статистика. 2007, 480 с.
3.www/stat.qov.az

**Gülnarə Hacıyeva**

## REGİONLARIN İNKİŞAFINDA SƏNAYE SİYASƏTİNİN ROLUNUN GÜCLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə regional siyasətin mahiyyəti və istiqamətləri,regionların iqtisadi inkişafına təsir edən amillər və bununla bağlı dovlət dəstəyi və dovlət siyasəti tədqiq edilir. İşdə makroiqtisadi göstəricilər, o cümlədən ÜDM, sənayedə əlavə dəyər dinamikada təhlil edilib, inkişaf meylləri müəyyənləşdirilmişdir. Regionların iqtisadi göstəriciləri müqayisə edilərək, onların sənayə məhsulları üzrə ərazi ixtisaslaşması müəyyən edilmiş, regionların iqtisadi potensialından səmərəli istifadənin stimullaşdırılması ilə bağlı təkliflər hazırlanmışdır.

**Açar sözlər:** regionlar, sənaye siyasəti, ÜDM, əlavə dəyər

**Gulnara Hajiyeva**

## STRENGTHENING THE ROLE OF INDUSTRIAL POLICY IN THE DEVELOPMENT OF THE REGIONS

**Summary**

The essence and directions of regional policy, the factors affecting the economic development of regions, state support, state policy are explored in the article. Macroeconomic indicators, GDP, value added in industry are analyzed in dynamics, development trends are identified. Comparing the economic indicators of the regions, the area of specialization of their industrial products have been identified and the proposals on stimulation of efficient use of the economic potential of the regions have been prepared.

**Keywords:** regions, industrial policy, GDP, value added

**UOT – 330.5**

**Hicran Mirzəyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent**

# AZƏRBAYCANDA TAXILÇILIĞIN İNKİŞAF MƏSƏLƏLƏRİ

*XX əsrin ortalarından başlayan qlobal ərzaq böhranı yeni əsrdə də özünü göstərməkdədir. Ona görə də istənilən ölkə kimi Azərbaycan dövləti də xalqının etibarlı ərzaq təminatını yaxşılaşdırmaq üçün müvafiq tədbirlər həyata keçirir. Məqalədə taxılçılığın iqtisadi səmərəliliyinin artırılması baxımından iqtisadi məsələlər təhlil edilir.*

Ölkədə həyata keçirilən iqtisadi siyasətə uyğun olaraq aqrar sahənin inkişafı üçün əlverişli mühit formalaşdırılmış, sahəyə dövlət köməyi və tənzimlənməsi sistemi inkişaf etdirilmişdir. Dövlət büdcəsindən aqrar sahənin istehsal infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsinə daha böyük həcmdə vəsait yönəldilmiş, kənd təsərrüfatı istehsalçılarına dövlət köməyinin formaları genişləndirilmiş, onlara subsidiyaların verilməsi və güzəştli qaydada kreditləşdirmənin həyata keçirilməsi üçün ayrılan resurslar əhəmiyyətli dərəcədə artırılmışdır.

Nəticədə Azərbaycan dünya miqyasında kənd təsərrüfatı sahəsinin ən surətlə inkişaf etdiyi ölkələrdən birinə çevrilmişdir. Bu, kənd təsərrüfatında istehsalın fiziki illik artım templəri göstəricisi üzrə beynəlxalq müqayisələrin Dünya Bankının məlumatlarına əsasən son illərdə kənd təsərrüfatı məhsulları istehsalının artımının orta illik göstəricilərinin ayrı-ayrı ölkələr qrupu və Azərbaycan Respublikası üzrə kəmiyyət göstəricisinin səviyyəsinə görə ölkəmiz istər gəlirlilik səviyyəsinə görə aid edildiyi ölkələr qrupu (“orta gəlirli ölkələr” qrupu, o cümlədən yuxarı orta səviyyəli ölkələr yarımqrupu), istərsə də daxil olduğu regionu əhəmiyyətli dərəcədə qabaqlamışdır [4].

Təhlillər göstərir ki, son on ildə “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”-nın icrası sayəsində aqrar sahənin struktur prioritetləri əsaslandırılmış və start vəziyyətinin yaxşılaşdırılması üçün mühüm addımlar atılmışdır. Belə ki, yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, kəskin ərzaq qıtlığı hallarına yol verilməməsi sisteminin yaradılması istiqamətində təsirli tədbirlər görülmuş, o cümlədən, ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayırmaları dəqiqləşdirilmiş, qida məhsullarının istehsalı, emalı üçün kreditlərin alınmasına kömək göstərilmiş, müəssisələr arasında qarşılıqlı borclar restrukturizasiyası davam etdirilmiş, ərzaq təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmi təkmilləşdirilmişdir.

Dövlət siyasətinə uyğun olaraq aqrar sahənin inkişafında başlıca vəzifələrdən biri əhalinin etibarlı ərzaq təminatına nail olmaq məqsədilə müvafiq kənd təsərrüfatı məhsullarının istehsalının inkişaf etdirilməsi müəyyən edilmişdir. Bu sırada ilk növbədə ölkə əhalisinin daxili istehsalı hesabına ərzaq tələbatlarının ödənilməsi məsələlərinin həlli ön plana çıxarılmışdır [1].

Məlumdur ki, ərzaq təminatı baxımından kənd təsərrüfatının sahələri arasında taxılçılığın inkişafı, xüsusilə, böyük aktuallığa malikdir. Bu sahənin stabil inkişaf etdirilməsi həm ərzaq buğdasına olan tələbatın ödənilməsində idxaldan asılılığın zəiflədilməsi, həm də heyvandarlıq, quşçuluq və balıqçılığın yem bazasının möhkəmləndirilməsi əsasında heyvandarlıq məhsul istehsalının artırılması miqyaslarını genişləndirməklə həmin məhsullara olan tələbatların daxili istehsal hesabına ödənilməsi probleminin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar taxılçılığın inkişafı islahat şəraitində də prioritet vəzifə olaraq saxlanılmışdır.

Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi hesabına kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə və texniki dəstəyin göstərilməsi mexanizmi gücləndirilmiş, aqrar sahibkarlığın inkişafının iqtisadi və institusional mühiti yaxşılaşdırılmışdır [2]. Bu və digər tədbirlər, həmçinin regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi sayəsində əhalinin istehlakında yerli taxıl məhsullarının xüsusi çəkisinin artması təmin olunsa da, əsas ərzaq məhsullarına olan tələbatın yerli

istehsal hesabına tam təminatı imkanları lazımi səviyyədə reallaşdırılmamışdır. Bunun bir səbəbi də ölkənin buğda tələbatının ödənilməsinin heç də bütün problemlərin həll edilə bilməməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdə, məsələn ABŞ-da taxıl istehsalı adambaşına 600 kq-dan yuxarıdır. Təbiidir ki, bu potensial həm ölkədaxili ehtiyacların ödənilməsinə və həm də ölkənin ixrac imkanlarının gücləndirilməsinə zəmin yaradır.

Bu baxımdan, Azərbaycanda taxılçılığın intensiv məcrada inkişaf etdirilməsinə və adambaşına istehsal həcminin artırılmasına ciddi diqqət yetirilməlidir.

Dünyanın əsas taxıl ixracatçıları olan ölkələr əkinçiliyin inkişafının tarixi mərhələlərinin xüsusiyyətlərindən asılı olaraq müxtəlif strateji prioritetlər qəbul etsələr də, müqayisəli üstünlük amilini önə çəkirlər. Bu məqsədlə əsas istehsal vasitəsi kimi torpaq resurslarının vəziyyəti və onlardan istifadə səviyyəsi qiymətləndirilir. Müxtəlif bitkiçilik məhsullarının istehsalı və satışının səmərəliliyinin müqayisəli təhlili sayəsində əkin sahələrinin əlverişli strukturu müəyyənləşdirilir.

Taxılçılığın inkişaf konsepsiyası, əkinçilik sisteminin tələblərini, onun sistem əmələ gətirən komponentlərinin (altsistemlərinin) və əlaqələrinin xarakterini nəzərə almalıdır. Ölkənin torpaq resurslarının, kənd təsərrüfatına yararlı sahələrin xeyli hissəsində məhz milli ərzaq təhlükəsizliyinin təminatının obyektiv zərurət olduğu hazırkı dövrdə, taxıl, yəni: dənli və dənli paxlalı bitkilər əkilir. Təsərrüfat dövriyyəsinə yeni sahələrin cəlb edilməsi çətinləşdikcə, mövcud sahələrdə daha məhsuldar və keyfiyyətli sortların əkilməsi məsələsi daha da aktuallaşır. Odur ki, taxılçılığın inkişaf strategiyasında yüksək məhsul verən buğda, düyü, arpa və digər taxıl sortlarının yetişdirilməsi və ya rayonlaşdırılması mühüm istiqamət hesab olunur.

Kənd təsərrüfatının ərazi təşkili konkret sahənin (taxılçılığın) inkişafı xüsusiyyətləri nəzərə alınmaqla əkinçilik sistemində sahələrarası fəaliyyət rejiminin optimallaşdırılmasını nəzərdə tutur. Sözü gedən rejim torpaq və su resurslarından istifadə mühitinin yaxşılaşdırılması baxımından geniş imkanlara malikdir.

Taxıl əkini sahələrindən səmərəli istifadə etməklə, torpağın münbitliyinin artırılması və məhsuldarlığın yüksəldilməsi istiqamətində aparılan aqrotexniki və təşkilat-təsərrüfat tədbirləri içərisində növbəli əkin sisteminin xüsusi yeri vardır. Növbəli əkin sisteminin tətbiqi istehsal edilən məhsul, ərazinin torpaq-iqlim şəraiti və bir sıra digər amillər nəzərə alınmaqla həyata keçirilməlidir. Torpağın münbitliyi növbəli əkinlərin səmərəli sxemlərinin seçilməsinin aparıcı amilidir.

Taxılçılığın intensiv və innovasiyalı inkişafı vahid müstəvidə nəzərdən keçirilməlidir. Konseptual baxımdan bu ilk növbədə, taxılçılıqda xərc amili ilə bağlıdır. Məlum olduğu kimi, intensiv inkişaf istehsalın artması müqabilində məhsul vahidinə xərcin azalmasında ifadə olunur. Taxılçılıqda intensiv inkişafda xərc amili və miqyas effekti arasında əlaqələr daha aşkar təzahür edir [3].

Məsələ ondadır ki, istehsalın intensiv inkişafının start vəziyyətində məhsula enerji sərfi kəskin surətdə artdığından taxılın enerji tutumu göstəricisi daim diqqət mərkəzində olmalıdır. Sahibkarın intensiv və innovasiyalı inkişafla bağlı qərar qəbulunda bu xüsusi əhəmiyyətə malikdir.

Taxılçılıq əmək tutumlu sahədir və burada sahibkarlığa dövlət himayəsi onun kənd yerlərində məşğulluğa böyük təsiri nəzərə almaqla həyata keçirilir. Qabaqcıl təcrübənin araşdırılması göstərir ki, taxılçılıqda sahibkarlığın inkişafında struktur siyasəti: dövlət sifarişlərinin əsaslandırılmasını, gömrük və kredit siyasətinin struktur aspektlərinin önə çəkilməsini, dayanılıqlı kommersiya əlaqələrinin təminatını, sağlam rəqabəti dəstəkləyən prioritetlərin reallaşdırılmasını diqqət mərkəzində saxlamalıdır. Ümumiyyətlə, aqrar sahədə çalışan sahibkarların rəqabət qabiliyyəti sadalanan amillərdən asılı olsa da, onların həmin amillərə fəal təsir etmək imkanları xeyli dərəcədə məhdud olaraq qalır. Ədalətli rəqabət aparan, qanunları pozmamaq şərtilə öz məqsədləri və mənafeləri naminə aparılan mübarizədə sahibkar dəstəklənməlidir.

Ən kütləvi səviyyədə istehlak olunan ərzaq məhsulları içərisində taxıl (buğda, arpa, vələmir, qarğıdalı və s.), təbii ki, öncül yerdədir. Bütövlükdə taxılın 55 %-i ərzaq kimi, 45%-i isə mal-qaranın, quşların yemlənməsinə və müvafiq fondların formalaşdırılması və yeniləşdirilməsinə sərf edilir. Taxıl istehlakı ölkənin inkişaf səviyyəsindən asılı olaraq ciddi fərqlənir. İnkişaf etmiş ölkələrdə taxılın cəmi 25 %-i bilavasitə çörək kimi istehlak olunduğu halda, inkişaf etməkdə olan ölkələrdə

bu göstərici 60-90 %-intervalında dəyişir.

Taxılçılıqda istehsalın həcminə və onun qiymətlərinə tarif və qeyri tarif tənzimləmələri, maliyyə subsidiyaları kimi xarici ticarət siyasəti vasitələri daha güclü təsir edir. Buğda və taxıl məhsullarının qiymətlərində yaranan qeyri-sabitliyin aradan qaldırılması üçün beynəlxalq əmtəə razılaşmaları, idxal-ixrac kvotaları, bufer ehtiyatları və digər bu kimi vasitələrdən istifadə olunur. Burada sahələrarası əlaqələrin xarakteri təsərrüfatçılığın formasından, aqrar sahibkarlığın inkişafı dərəcəsindən asılıdır. Belə ki, mülkiyyət formalarının müxtəlifliyi aqrar sahədə bir-birini tamamlayan mühit formalaşdırır. Müxtəliflik əlaqələrin dinamizmindən və məqsədəuyğunluğundan irəli gələn münasibətləri stimullaşdırır.

Sahibkarlığın rəqabət qabiliyyəti qiymət siyasətindən, sənaye və kənd təsərrüfatı arasında mənafelərin uzlaşdırılması qiymətlərin rolundan birbaşa asılıdır. Kənd təsərrüfatının qiymət tənzimlənməsi dərindən əsaslandırılmış formaların tətbiqini tələb edir. Xüsusən, taxılçılıqda sahibkarlığın inkişafının və sahələrarası əlaqələrin xarakterinin təhlili təminatlı qiymətlərin rolunun artdığını söyləməyə əsas verir.

Bazarlarda qiymətlərin qalxıb-enməsi, digər amillərlə yanaşı, əhəmiyyətli dərəcədə istehsalın mövsümi xarakterindən və təbii amillərdən asılıdır. Odur ki, sahibkarların qeyri-ekvivalent mübadilədə məruz qaldıqları zərəri azaltmaq üçün hökumət paritet qiymətləri dəstəkləməli və həmin qiymətlər istehsalın rentabelliyinin zəruri səviyyəsini təmin etməlidir.

Aqrar sahibkarlığın zəruri rentabellik səviyyəsi, onun innovasiyalara münasibətindən, elmi mərkəzlərlə əlaqələrin intensivliyindən bilavasitə asılıdır. Aqrar elmin nailiyyətlərinin kənd təsərrüfatı istehsalçılarına çatdırılmasına və onların reallaşdırılmasının stimullaşdırılmasına xidmət edən məqsədli proqramlar ərzaq təhlükəsizliyinin təminatında sahibkarlığın rolunun artırılmasında həlledici rol oynayır.

Respublikada taxılçılıq təsərrüfatlarının mövcud vəziyyətinin strateji təhlili, ilk növbədə onun fəaliyyət göstərdiyi klaster strukturunun araşdırılmasını nəzərdə tutur. Vəziyyəti təhlil edilən sahibkarlıq qurumlarının daxili strukturu, onu təşkil edən bölmələrin texnoloji vəhdətdə olan struktur vahidləri və ya nisbi müstəqil təşkilati vahidlər kimi fəaliyyət göstərməsindən asılı olaraq müxtəlif aspektlərdə araşdırılmalıdır.

Sahibkarlıq subyektlərinin maddi-texniki bazasının modernləşdirilməsində iştirak edən kənar qurumların fəaliyyət səmərəliliyinə təsir edən amillər rəqabət səviyyəsini müəyyənləşdirmək baxımından, əsasən beş qrupa bölünür:

- bazarın eyni seqmentinə məhsul çıxaran subyektlərin sahədaxili rəqabəti;
- fəaliyyətin genişləndirilməsi şəraitində yeni rəqiblərin meydana çıxması;
- analoji xassələrə malik əvəzləyici əmtəələrin bazara çıxarılması;
- istehlakçıların öz şərtlərini diqtə etmək qabiliyyəti;
- istehsal sahibkarlığı subyektlərinin öz şərtlərini diqtə etmək qabiliyyəti.

Aqrar sahibkarlıq fəaliyyətinin strateji təhlili rəqabət mühitində qiymət və ya keyfiyyət hesabına üstünlük qazanmaq imkanlarını aşkar etməli, məhsulun maya dəyərinin aşağı salınması istiqamətləri müəyyənləşdirilməlidir. Bu fəaliyyətdə həlledici rola malik idarəetmə qərarlarında ekstremal vəziyyətin və ya ən azı onun əlamətdar parametrlərinin nəzərə alınması zəruridir.

Taxılçılığın inkişafına dair qərar qəbulu prosesində insan fəaliyyətinin digər sahələrində nəzərə alınan çox sayda amillərlə yanaşı, biomühitin tələblərini də nəzərə almaq lazımdır. Belə vəziyyət kənd təsərrüfatı fəaliyyətinin idarə edilməsini və qərar qəbulu prosesini daha da mürəkkəbləşdirir. Məsələ ondadır ki, biomühitin xarakterik parametrlərinin bir çoxunu kəmiyyətcə ifadə etmək çətindir. Yəni yüksək qeyri-müəyyənlik şəraitində idarəetmə qərarlarının qəbulunda natamam informasiya ilə kifayətlənmək lazım gəlir. Bu səbəbdən də, təsərrüfat fəaliyyətində informasiyanın qeyri-dəqiqliyinə səbəb olan natamamlıq məsrəf və nəticələr arasında əlaqələri birmənalı qiymətləndirməyi çətinləşdirir .

Ölkəmizdə taxılçılığın subsidiyalaşdırılması üzrə həyata keçirilən əsaslandırılmış siyasət ma-

ya dəyərinin artımını və rentabelliyin aşağı düşməsi tempini zəiflətmişdir. Odur ki, informasiya resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi üçün burada sahibkarlığın inkişafının normativ-hüquqi və sosial-iqtisadi mühiti uzlaşdırılmalı, bu məqsədlə olduqca böyük miqdarda informasiya massivləri operativ surətdə emal edilməlidir.

Ümumiyyətlə, kənd təsərrüfatında taxılçılıq sahəsində sahibkarlığın inkişafı onların təşkilatlanması səviyyəsindən və tərəfmüqabillərlə münasibətindən, daxili taxıl bazarının tənzimlənməsi rejimindən, kənddə iqtisadi fəallığın dəstəklənməsi mühitindən, bürokratik əngəllərin aradan qaldırılması və digər amillərin hesabına transaksion məsrəflərin azaldılması tədbirlərinin səmərəliliyindən, eyni zamanda ölkənin dünya təsərrüfatçılıq sisteminə inteqrasiyasının xarakterindən və bazardakı mövqedən asılıdır.

Daxili bazarın qorunması inteqrasiya proseslərinin intensivləşdirilməsinə zidd olmadığından aqrosahibkarlığın inkişafında inteqrasiya amillərinin rolu hərtərəfli qiymətləndirilərkən sahələrarası əlaqələrin səmərəliliyi və yerli istehsalçıların maraqlarının qorunması ilə yanaşı, rəqabət mühitinə neqativ təsirlərin neytrallaşdırılması məsələləri də önə çəkilməlidir. Çünki yalnız sivil rəqabət mühitinin mövcudluğu şəraitində formalaşan tələb və təklif kriteriyaları bazarda qiymətlərin elastiki variasiyasını təmin etdikdə istehsalçı və istehlakçı maraqları arasındakı fərqliliklər azalır, bazar normal fəaliyyət göstərir.

**Açar sözlər:** ərzaq təhlükəsizliyi, taxılçılıq, qiymət, informasiya, rəqabət.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı. Bakı şəhəri, 2 mart 2001-ci il, №640
2. Balayeva E. İqtisadi təhlükəsizlik və inkişafın maliyyə problemləri. Bakı: Elm, 2011, 396 s.
3. Məmmədov S. İntensiv urbanizasiya mühitində kənd təsərrüfatının inkişafı. Bakı: 2010, 215 s.
4. Salahov S. Kənd təsərrüfatının inkişaf meyilləri və aqrar siyasətin prioritetləri. Az.ETKTİ və Tİ-nun Elmi Əsərləri, № 4, 2013, s.5-25

**Хиджран Мирзоева**

**ВОПРОСЫ РАЗВИТИЯ ЗЕРНОВОДСТВА В АЗЕРБАЙДЖАНЕ.**

**Резюме**

Начавшийся с середины XX века глобальный экономический кризис, проявил себя и в последующем веке. Поэтому, Азербайджан, как и любая другая страна, для улучшения снабжения своего народа продовольствием, претворяет в жизнь соответствующие меры. В статье анализируются экономические и методологические вопросы повышения экономической эффективности зерноводства.

**Ключевые слова:** продовольственная безопасность, зерноводство, цена, информация, конкуренция

**Hijran Mirzayeva**

**DEVELOPMENT ISSUES OF GRAIN PRODUCTION IN AZERBAIJAN**

**Summary**

Global food crisis beginning in the middle of XX century still continues to be actual in new century. Therefore, as any country, Azerbaijan government implements appropriate measures to improve the reliable food supply of the population. Economic and methodological issues in terms of increasing the economic efficiency of grain production are analyzed in the article.

**Keywords:** food security, grain production, price, information, competition

**UOT – 338**

**Nazim Cahangirov**
**Bakı Dövlət Sosial-İqtisadi Kolleci**

# AZƏRBAYCANDA ƏHALİNİN RİFAH SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNİN QİYMƏT ASPEKTLƏRİ

*Məqalədə rifah səviyyəsi və onu xarakterizə edən parametrlər təhlil edilir. Həyat səviyyəsinin mahiyyətinə dair müxtəlif yanaşmalar verilir. İstehlakın dəyişməsi ilə qiymətin dəyişməsi arasındakı münasibət ifadə edilir. Bazar iqtisadiyyatı şəraitində əhalinin rifah səviyyəsinin təmin edilməsində qiymət amilinin rolu araşdırılır. Ümumi kreativ rifah anlayışının mahiyyəti açılır. Rifah səviyyəsini təşkil edən bloklar içərisində sağlamlıq (səhiyyə) və təhsil blokları ön plana çəkilir. Həyat standartlarının ölçülməsi, məqsədlər və araşdırma alətləri öyrənilir.*

Mühüm sosial-bioloji varlıq olan insanın bütün dövrlərdə fəaliyyətinin əsas məqsədi tələbatlarını ödəməkdən ibarətdir. Bu baxımdan iqtisad elmi tarixində insan amili, onun tələbatları və maraqları həmişə diqqət mərkəzində olmuşdur. Belə ki, klassik siyasi iqtisad məktəbinin görkəmli nümayəndəsi A.Smit 1776-cı ildə yazdığı “Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat” əsərində qeyd edir ki, ölkədə əhalinin əksəriyyətini təşkil edən işçilərin həyat şəraitinin yaxşılaşmasına səbəb olan bütün şərtlər cəmiyyət üçün faydalı sayılmalıdır. Təsadüfi deyildir ki, bütün iqtisadi sistemlər daha çox insanla bağlıdır. Məşhur iqtisadçı C.Helbreyt 1976-cı ildə işıq üzü görən “İqtisadi nəzəriyyə və cəmiyyətin məqsədi” əsərində yazır ki, insanların çox ehtiyac duyduğu şeylərlə onların maksimum tələbatını ödəməyə qadir olan sistem ən yaxşı iqtisadi sistem hesab edilir. Geniş bir anlayış olan tələbat isə özlüyündə tələb, təklif və qiymət kateqoriyaları ilə üzvi şəkildə bağlıdır.

Sosial yönümlü bazar iqtisadiyyatı sistemi və beynəlxalq iqtisadi münasibətlərin genişləndiyi bir şəraitdə respublikamızda ardıcıl iqtisadi islahatların, o cümlədən qiymət islahatının aparılması, iqtisadi sistemin daima təkmilləşdirilməsi labüddür. Aparılan iqtisadi islahatların ana xətti, struktur və mexanizmi Azərbaycanın iqtisadi və sosial inkişafının tarixilik, millilik və dünyəvi standartlarına uyğun keyfiyyət dəyişmələri yolu ilə baş verməlidir. Əlbəttə, bu zəmində sosial inkişaf istiqamətlərinin meyar, göstərici və əsasları yaradılır.

Rifah səviyyəsi ölkə vətəndaşlarının əmtəə, xidmət, rahat və təhlükəsiz həyat tərzi ilə təmin olunmasıdır. Rifah səviyyəsi əahlinin həyat şəraitinin və tələbatlarının ödənilməsinin sosial-iqtisadi xarakteristikasıdır. BMT-nin tövsiyələrinə əsasən rifah səviyyəsi aşağıdakı elementlərin sistemini əks etdirir: sağlamlıq, o cümlədən demoqrafik şərait, qidalanma, geyim, istehlak və yığım fondları; əmək şəraiti, məşğulluq, əməyin təşkili; təhsil o cümlədən savadlılıq; mənzil təminatı; sosial təminat; insan azadlıqları [1, s.10].

Məlumdur ki, ölkənin iqtisadi-sosial inkişaf səviyyəsi cəmiyyətin ümumi rifahını əsaslandırır. İqtisadiyyatın bir sistemdən digərinə keçidi həyatın bütün aspektlərinə öz təsirini göstərir. Transformasiyanın cəmiyyətin həyat səviyyəsinə təsiri daha güclü olur. Bu təsirin mənfi meyillərini aradan qaldırmaq üçün dövlət bir sıra tədbirlər həyata keçirməli, sosial rifahın aşağı düşməsinə yol verməməli, onun heç olmasa, müəyyən səviyyədə qorunub saxlanması məqsədilə tədbirlər həyata keçirməlidir. Müəyyən sosial siyasətin işlənib həyata keçirilməsi zamanı əhalinin rifah səviyyəsinin öyrənilməsi, onu xarakterizə edən parametrlərin təhlili zərurətə çevrilir. Əhalinin həyat səviyyəsi müxtəlif parametrlərlə xarakterizə olunur. Bu parametrlərin hesablanmasında bir çox dayaq nöqtələri – limit göstəricilərdən istifadə edilir. Bu isə əhalinin rifahının müxtəlif aspektlərinin müəyyən aşağı sərhədə malik olması ilə bağlıdır [2, s.114].

Həyat səviyyəsi əhalinin rifah halını ölkənin iqtisadi artım səviyyəsinə müvafiq olaraq maddi cəhətdən xarakterizə edir. Həyat səviyyəsinin mahiyyətinin öyrənilməsinə iqtisadi ədəbiyyatlarda bir tərəfdən tələbatın ödənilməsi dərəcəsi kimi, digər tərəfdən istehlak olunmuş maddi və mənəvi nemətlər çoxluğu kimi baxılmışdır. Məsələn, akademik S.Şatalin həyat səviyyəsinin mahiyyətini

onun vahid göstərici "geniş istehlak fondu" kateqoriyası ilə ölçülməsini irəli sürmüşdür. Mürəkkəb iqtisadi kateqoriya olan həyat səviyyəsi geniş göstəricilər sistemi vasitəsilə müəyyən edilir.

Bazar iqtisadiyyatına transformasiya və rifah problemlərinin həlli müəyyən əksikliklər və vəhdətlər şəraitində baş verir. Əhalinin rifahının yüksəldilməsi və bölgü sistemində ədalətlilik ilkin momentdə siyasətin aparıcı həlqəsi və islahatların son nəticəsi olaraq qiymətləndirilir. Məhz bu prinsip əmək haqqı, pensiya islahatları, yaşayış minimumu, əhalinin rifahının aşağı düşməsinə qarşı qoyulan mexanizmlərin tətbiqi elmi əsaslarla qoyulmuş metodoloji prinsiplərdir. Sosial-iqtisadi inkişafın sürətlənməsi strategiyası rifah problemlərinin yeni həll yollarını yaradır. O cümlədən gəlirlərin artması istehlakın həcmi və strukturunun yaxşılaşması, həmçinin təhsil, elm və mədəni tələbatın yüksəldilməsi mexanizmləri və resursları yaranır. Sosial mədəni sferanın rifahın əsas maddi bazası olan iqtisadi artım və həmçinin gəlirlər sosial problemlərin özünün yeni elmi və proqnozlaşma metodologiyasını yaradır [3, s.226].

Deməli, əhalinin rifahını təyin edən amil ölkənin iqtisadi inkişaf səviyyəsidir. Sosial göstəricilərə iqtisadi artımın həm nəticəsi, həm də iqtisadi artıma təsir edən amil kimi baxılmalıdır. Belə ki, ÜDM-in artımı ölkədə sosialyönümlü tədbirlər: maddi rifah, sosial sahələrin maliyyələşdirilməsi, ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və aztəminatlı əhalinin sosial müdafiəsi üçün vəsait mənbəyidir. Ona görə də ÜDM artdıqca sosialyönümlü xərclərin maliyyələşdirilməsinə ayrılan vəsait artmaqda davam edir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsini xarakterizə edən göstəricilərdən biri olan sərəncamda qalan real pul gəlirləri də davamlı olaraq artmışdır. ÜDM-in həcm göstəricisi ölkədə ümumi inkişafı əks etdirir, həyat səviyyəsi əsasən ÜDM-in hər nəfərə düşən həcmindən asılıdır.

**Rifah səviyyəsinin təmin olunmasında qiymətlərin rolu**

Məlumdur ki, bir sıra daxili və xarici amillərin təsiri altında qiymət səviyyəsi dəyişir bu da bəzi sosial-iqtisadi nəticələrə gətirib çıxarır. Ona görə də qiymət səviyyəsinin düzgün müəyyən edilməsinin xüsusi əhəmiyyəti vardır. Belə ki, iqtisadiyyatın bir sıra göstəriciləri bilavasitə qiymət və onun səviyyəsi ilə dəyişə bilər. Ümumi daxili məhsul və milli gəlir həcmlərinin müəyyən edilməsində qiymət səviyyəsi xüsusi rol oynayır. Qiymət səviyyəsinin ölçülməsinin zəruriliyi iki mühüm hadisə ilə bağlıdır. Birincisi, biz bilməliyik ki, hər hansı bir dövr ərzində qiymət səviyyəsi hansı tərzdə dəyişmişdir. Yəni biz bilməliyik ki, həmin dövrdə inflyasiya və ya deflyasiya hadisəsi hansı miqyasda baş vermişdir. İkincisi, ümumi daxili məhsul istehsalının artması və azalması hansı ki, pul formasında ifadə olunur, necə dəyişmişdir. Daha doğrusu, ÜDM və milli gəlirin həcminin dəyişməsi hansı səbəbdən meydana gəlmişdir. Qiymət indeksinin artmasımı yoxsa, məhsul istehsalının artması nəticəsində və yaxud da əksinə.

Qiymət iqtisadi mexanizm kimi istehsal və istehlakın tarazlığını, onların dinamikasını və artım surətlərini müəyyən edir. Qiymətlə istehlak arasında əlaqə birmənalıdır. Qiymətlə tələb-təklif və istehlak arasında olan birbaşa əlaqə tələb qanununun mahiyyətində və dinamikasında baş verir. Bu qanun son hədlər prinsipi əsasında formalaşır. Qiymətin çox aşağı olması həmin məhsulun təklifinin o qədər çox olmasına gətirir ki, alıcı bu əmtəə ilə təmin olunur. Bu əmtəə ilə qiymətin sonrakı dəyişməsi istehlaka təsir etmir. İstehlakın dəyişməsi ilə qiymətin dəyişməsi arasındakı münasibət belə ifadə edilir:

$$t_i = \Delta U / \Delta Q \cdot 100\%$$

Burada $t_i$ - qiymət indeksi, U - istehlak, Q - qiymət.

Qiymətin 1% dəyişməsinin neçə faiz istehlak səviyyəsinə səbəb olduğunu göstərir. Əgər qiymət indeksi hər hansı i əmtəəsi üzrə vahiddən kiçikdirsə, $t_i < 1$ bu qiymətin 1% artımı şəraitində istehlakın 1%-dən aşağı düşməsini göstərir [4, s.146].

Bazar iqtisadiyyatı şəraitində əhalinin rifah səviyyəsinin təmin edilməsində qiymət amilinin təhlili, onun yeri və rolunun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün iqtisadi sistemləri həmişə üç problem (məsələ) düşündürür. Birincisi, hansı məhsulu nə qədər istehsal etmək lazımdır, biz istehlak şeyləri istehsalına, yoxsa istehsal vasitələri istehsalına üstünlük verməliyik. İkincisi, həmin məhsulları necə istehsal etməliyik, hansı resurslar hesabına. Üçüncüsü, kim üçün istehsal etmək lazımdır. Daha doğrusu, milli məhsul ayrı-ayrı fərdlər və ailələr arasında necə bölünməlidir. Bütün

bu problemlər hamı üçün eynidir, lakin onlar müxtəlif yollarla həll olunurlar. Bazar iqtisadiyyatı sistemində həmin problemlərin həllini qiymət öz üzərinə götürür və bazarın digər atributları (gəlir, zərər) ilə yanaşı onu həll edir.

Cəmiyyətin maddi texniki bazasının təkmilləşdirilməsi elmin nailiyyətlərinin istehsalata, məişətə yol açması surətindən asılı olaraq kəmiyyət və keyfiyyət cəhətdən yeni xüsusiyyətlər, mahiyyətlərlə zənginləşirlər. Buna uyğun olaraq əhalinin rifah halı “yaşayış səviyyəsi”, “yaşayış keyfiyyəti”, “dövlət firavanlığı” adları daşımışlar. XX əsrin 70-ci illərində C.Helbreyt “Bolluq cəmiyyəti” əsərində cəmiyyətin ənənəvi tərəfinin reallığının nəzərə alınmasının zəruriliyini qeyd edirdi. Asudə vaxt, tamaşalara baxmaq imkanı, gözəllikdən zövq almaq və yaşayışın digər yüksək məqsədləri haqqında narahatçılıq hər bir adamın orta qidalandığı şəraitdə mümkündür. Kasıb ölkələrdə insan yaşayışının bütün tərkib hissəsini yalnız iqtisadi qayğılar kimi qəbul etmək olmaz, lakin iqtisadi qayğı yaşayışın praktiki olaraq böyük hissəsini əhatə edir. Burada yaşayışın kəmiyyət və keyfiyyət tərəflərinin culğalaşması zərurəti yaranır, “yaşayış keyfiyyəti”, artıq zəngin həyat, firavan həyat anlayışı yaranır və ona uyğun sosial siyasət tələb edir. Sosial siyasətin istiqamətlərini işləyib hazırlayarkən istifadə olunan mühüm sosial iqtisadi göstəricilərin əsasını iqtisadi inkişaf səviyyəsi ilə xarakterizə edilən və ölkə vətəndaşlarının böyük əksəriyyəti üçün normal hesab edilən əlamətlər nəzərə alınmalıdır [5, s.360].

Mühüm sosial standart olan həyat səviyyəsi bir sıra göstəricilər, o cümlədən iqtisadiyyatda işləyənlərin orta aylıq əmək haqqı, ay ərzində hər nəfərə düşən pul gəlirləri, ay ərzində hər nəfərə tələb edilən yaşayış minimumu və s. göstəricilər vasitəsilə xarakterizə edilir. Cəmiyyətin rifahının bu və ya digər aspektlərinin kəmiyyət və keyfiyyət xarakteristikası üçün yaşayış minimumunun hesablanması təkmilləşdirilməlidir.

Həyat səviyyəsini xarakterizə edən göstəricilərdən biri olan yaşayış minimumu əsasında həyatın dəyəri indeksi hesablanılır. Həyatın dəyəri kateqoriyasından cəmiyyətin rifahının ümumiləşdirici göstəricisi kimi istifadə edilir. Həyatın dəyəri istehlak qiymətləri ilə istehlak strukturundan asılıdır və bu amillərə istehlak tələbinin dəyişməsi, bazar şəraitinin vəziyyəti və s. təsir göstərir. Həyatın dəyəri indeksi qiymətin əhalinin rifah səviyyəsinə təsirini əks etdirir. Bu məqsədlə qeyd olunmuş həyat səviyyəsinin, qiymətlərin dəyişməsi zamanı saxlanılması məqsədilə zəruri hesab edilən xərclər müqayisə olunur. Bu göstəriciləri hesablayan zaman əhalinin müəyyən qrupunun xərclər strukturuna müvafiq istehlakçı nemətləri təyin edir. Bu yığımın dəyəri cari və baza qiymətlərində hesablanır, sonra isə bu kəmiyyətlər müqayisə olunur:

$$\mathbf{\dot{I}_{h.d} = yM_1 / yM_o}$$

Burada $yM_1$və $yM_o$ müvafiq olaraq cari və baza ilində yaşayış minimumudur. Deməli, həyatın dəyəri indeksi yaşayış minimumuna daxil olan məhsulların qiymətlər indeksini ifadə edir [6, s.383].

Ümumi kreativ rifah cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsini xarakterizə edir. Ümumi rifah amilləri kimi səhiyyənin səviyyəsi, təhsilin səviyyəsi və əhali gəlirləri götürülür. Rifah səviyyəsini təşkil edən bloklar içərisində sağlamlıq (səhiyyə) və təhsil blokları daha önəmli yer tutur. Ona görə də ümumi kreativ rifahı əhalinin təhsil səviyyəsi ilə sağlamlıq səviyyəsinin hasili kimi də hesablamaq olar. Təsadüfi deyildir ki, cəmiyyətin sosial-iqtisadi durumu məhz səhiyyə və təhsilin səviyyəsi ilə xarakterizə edilir. Əhalinin sağlamlığının təmin edilməsi dövlətin əsas vəzifələrindən biridir. Qeyd edim ki, hələ 1999-cu ildə “İcbari tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Təəssüf ki, bu qanunun həyata keçirilməsi gecikdirilir. İcbari tibbi sığorta əsasında ödənilən və dövlət təminatı verilən tibbi xidmətlər bütün vətəndaşlara bərabər təqdim edilir. İcbari tibbi sığortanın tətbiqi, hər şeydən əvvəl, səhiyyə sahəsində şəffaflığın təmin olunmasına, aztəminatlı ailələrin tibbi xidmətlərdən yararlanmasına imkan verir.

Rifah səviyyəsinin yüksəldilməsi üçün dövlətin əlində bir sıra alətlər mövcuddur:

- artan dərəcəli vergiləndirmə;
- sosial müdafiə və işsizlik müavinətləri;
- kənd təsərrüfatı istehsalçılarını dəstəkləmə siyasətləri;
- ödənişsiz və ya aşağı qiymətlərlə təhsil;
- səhiyyə, mənzil kimi ictimai infrastruktur investisiyaları və s [7].

Həyat standartları insanların gəlir səviyyəsi, yığımları, istehlak xərcləri tərkibində qeyri ərzaq mallarının xüsusi çəkisi, səhiyyə xidmətlərindən istifadə səviyyəsi və s. kimi olduqca fərqli amillərlə birbaşa əlaqəlidir. Ona görə də həyat standartları ölçülərkən müxtəlif məqsədlər meydana gəlir. Həyat standartlarını ölçmək üçün qoyulan məqsədlər və onlara uyğun istifadə alətləri aşağıdakı cədvəldə verilmişdir.

**Həyat standartlarının ölçülməsi: məqsədlər və araşdırma alətləri.**

**Cədvəl 1**

| Məqsədlər | İndikatorlar | Alətlər |
|---|---|---|
| Fərdi və ev təsərrüfatlarının rifahının ölçülməsi | | |
| səviyyələr, bölgü və korelyasiyalar | istehlak<br>gəlir<br>sərvət, yığım<br>insan kapitalı<br>antropometriya | ev təsərrüfatı<br>sorğu anketi<br>qiymət sorğu anketi |
| Siyasətin analizi | | |
| dövlət xərclərindən proqramlarından faydalananlar<br>dövlət xərclərinin proqramlarının təsiri<br>təklif edilən xidmətlər<br>xidmətlərin keyfiyyəti<br>xidmətlərin qiyməti<br>iqtisadi siyasətlərin effekti | xidmətlərdən istidafə<br>xidmətləri və transfertləri alanlar<br>xidmətlərin maliyyəsi<br>siyasətlərin təsiri<br>ən yaxın xidmətə olan məsafə<br>təmin edilən xidmətlərin çeşidi<br>işçi, büdcə digər daxilolmalar<br>sektorlara xalis transfertlər | ev təsərrüfatı<br>sorğu anketi<br>ictimai sorğu anketi<br>imkanlar sorğu anketi<br>qiymətlər sorğu anketi |
| Determinantların müəyyənləşdirilməsi | | |
| müşahidə edilən nəticələrin (səbəblərin) ortaya çıxma səbəbləri<br>ev təsərrüfatlarının davranışına təsir edən amillər | ev təsərrüfatının tərkibi, insan kapitalı, rifah, əldə edilə bilən xidmətlər və s. | ev təsərrüfatı<br>sorğu anketi<br>ictimai sorğu anketi<br>imkanlar sorğu anketi<br>qiymətlər sorğu anketi |

**Mənbə:**www.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/AD textbook/3.pdf

Cədvəldən göründüyü kimi həyat standartlarının ölçülməsi üçün ev təsərrüfatı sorğu anketi, qiymət-sorğu anketi, ictimai sorğu anketi və imkanlar sorğu anketindən istifadə edilir.

Sosial müdafiə problemləri geniş sosial-iqtisadi və təşkilati problemlərin qarşılıqlı əlaqəsi olmaqla tədqiqinin və tənzimlənməsinin bazar tipli modelində qiymətin dəyişməsi və onun formalaşmasının sosial müdafiəyə təsirinin ölçülməsi nəzəri və metodoloji aspektlər kəsb edir. Qiymətin iqtisadi amil, tənzimləmə obyekti və münasibətlər sistemi kimi tədqiqi ilə yanaşı onun sosial müdafiə amili olaraq geniş miqyasda öyrənilməsi mövcud iqtisad elmində və konseptual idarəetmə sistemində xüsusi yer tutur. Ölkənin iqtisadi və sosial həyatında müşahidə olunan müsbət meyilləri daha da möhkəmləndirmək, əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilməlidir. Belə ki, iqtisadiyyatın bütün sahələrində, o cümlədən səhiyyədə, təhsildə və kənd təsərrüfatında əlverişli rəqabət mühiti yaradılmalıdır. Sosial-iqtisadi problem olan inhisarçılığın qarşısı alınmalı və qiymət intizamına nəzarət gücləndirilməlidir.

**Açar sözlər:** rifah səviyyəsi, qiymət indeksi, həyatın dəyəri, ümumi kreativ rifah, sosial-iqtisadi inkişaf

**İstifadə edilmiş ədəbiyyat**

1. Rəsulov F., İbadoğlu Q. İqtisadiyyatın əsasları. Bakı: Elm nəşriyyatı, 2004, 200 s.
2. Nağıyev Ə.T., Mütəllimova V.A. Sosial inkişafın iqtisadi parametrləri. Bakı: Səda, 2003
3. Əlirzayev Ə.Q., Əlirzayev E.Ə. Azərbaycanın sosial-iqtisadi problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşma mexanizmləri. Monoqrafiya. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2012, 584 s.
4. Əlirzayev Ə.Q. İslahatlar və surətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri. Təcrübə, meyillər və perspektiv istiqamətlər. Bakı: Adiloğlu, 2005, 538 s.
5. Əsgərov A.M. İqtisadiyyatın formalaşması, idarəedilməsi və keyfiyyətli, layiqli, zəngin həyat tərzinin yüksəldilməsinin spesifik Azərbaycan variantları // AMEA İqtisadiyyat institutu. Elmi əsərlər, № 4, 2014
6. Cahangirov N.X. Yaşayış minimumunun mühüm sosial indikator kimi təkmilləşdirilməsi // AMEA İqtisadiyyat institutu. Elmi əsərlər, № 4, 2014
7. Rifah-proqramı www.mediaform.az/..../Real-n.
8. www.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/ADtextbook/3 .pdf.

**Назим Джахангиров**

**ЦЕНОВЫЕ АСПЕКТЫ ПОВЫШЕНИЯ УРОВНЯ БЛАГОСОСТОЯНИЯ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В статье анализируется уровень благосостояния и характеризирующие его параметры. Анализируются различные к сущности подходы уровня жизни. Выражается отношение между изменением потребления и изменением цен. Исследуется роль ценового фактора в обеспечении высокого уровня благосостояния населения в условиях рыночной экономики. Раскрывается сущность понятия общее креативное благосостояние. Среди блоков, образующих уровень благосостояния, на первый план выдвигаются блоки здоровье и образование. Изучаются измерение жизненных стандартов, цели и инструменты исследования.

**Ключевые слова:** уровень благосостояния; ценовой индекс; ценность жизни; общее креативное благосостояние; социально-экономическое развитие.

**Nazim Jahangirov**

**EVALUATION ASPECTS OF IMPROVEMENT OF THE WELL-BEING OF AZERBAIJAN POPULATION**

**Summary**

The level of well-being and the parameters characterizing it are analyzed in the article. Different approaches on the essence of life level are given. The relation between change of consumption and change of price is expressed. The role of the price factor in ensuring of the well-being of population in market economy conditions is researched. The essence of the conseption of common creative well-being is opened. Among the blocks forming the standard of well-being, the blocks of health (healthcare) and education are put in the forefront. Life standards measurement, objectives and tools of the research are studied.

**Keywords:** level of well-being, price index, life value, common creative well-being, social-economic development

**UOT – 330.1**

**Tahir Baxşəliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

## AUDİTOR XİDMƏTİNİN TƏNZİMLƏNMƏSİ YOLLARI

*Məqalədə Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafı və iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında auditin imkanlarından istifadəsi nəzərdə tutulur. Auditor xidməti qarşısında duran vəzifələrin yerinə yetirilmə dərəcəsi təhlil edilir. Beynəlxalq audit standartlarının tətbiqinin zəruriliyi əsaslandırılır. Məqalədə auditin gələcək inkişaf istiqamətlərini müəyyən etmək üçün Azərbaycan auditinin qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi yolları və auditin tənzimlənməsi və idarə edilməsi istiqamətində görüləcək tədbirlərdən bəhs edilir.*

Müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın işıqlı gələcəyi, uzunmüddətli və dayanıqlı inkişaf strategiyası işlənib hazırlanmışdır. Hazırda Azərbaycan iqtisadiyyatının strukturdakı keyfiyyət dəyişikliyini, sosial islahatların davamlılığını təmin edən konsepsiya məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu iqtisadi modelin nəticəsidir

Ulu öndərin əsasını qoyduğu tərəqqi strategiyasını müasir dövrün tələblərinə uyğun zənginləşdirən prezident İlham Əliyev respublikamızın davamlı inkişafını sürətləndirən kompleks islahatlar həyata keçirir. Prezident İlham Əliyev qarşıdakı dövr üçün fəaliyyət proqramını, Azərbaycanın uzunmüddətli inkişaf platformasının başlıca istiqamətlərini göstərib və daha gələcəyə hesablanmış fundamental konsepsiya açıqlayıbdır. Bu konsepsiyanın başlıca məqsədi Azərbaycanın yeni iqtisadi siyasətini müəyyən edən yeni istiqamətlər açan sosial dövlətin inkişafına geniş imkanlar yaratmaqdan ibarətdir.

Artıq 25 ildir ki, Azərbaycan müstəqil dövlətdir. Bu dövr ərzində xalqımız böyük siyasi iradə və əzmlə öz milli iqtisadiyyatını qurur, gücləndirir, iqtisadi cəhətdən sərbəstliyini təmin etməklə yanaşı, öz müstəqilliyini qoruyub saxlamaq kimi mühüm vəzifəni qarşıya qoymuşdur.

Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafını özündə təcəssüm etdirən milli modelin başlıca istiqamətləri ölkə iqtisadiyyatının daha da inkişafı, dünyaya hərtərəfli inteqrasiya və Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsidir.

Dövlət müstəqilliyimizin 3-cü onilliyini uğurla irəliləyən respublikamızda sosial-iqtisadi modernləşməyə əsaslanan inkişaf strategiyası bütün sahələrdə öz nəticələrini göstərir. Bu gün özünün uzunmüddətli inkişaf strategiyasının istiqamətlərini müəyyən edən Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkələr sırasındadır.

Ən böyük nailiyyətlərimizdən biri də odur ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranmışdır. İnkişafın Azərbaycan modeli əsasında prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial iqtisadi siyasətin nəticəsi olaraq ölkəmiz əsas məqsədinə çatıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan auditi özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, ölkəmizdə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizədə onun rolu və əhəmiyyəti daha da güclənmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir “Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır.

Bu mənada həyata keçirilən islahatlar idarəetmənin mühüm bir istiqaməti kimi auditin aktuallığını artırmaqla bərabər, optimal idarəetmə məsələlərinin işlənib hazırlanması və qəbul edilməsi sahəsində onun rolunun yüksəldiləsi zərurətindən irəli gəlir.

1999-2008-ci illərdə Azərbaycan Respublikasında Auditorlar Palatası tərəfindən ilk dəfə olaraq “Azərbaycan Respublikasında audit sisteminin islahatı” konsepsiyası işlənib hazırlanmışdır. Konsepsiyada audit sisteminin normativ hüquqi bazasının təkmilləşdirilməsi, respublikada beynəlxalq təcrübə əsasında auditin təşkil edilməsi, ölkəmizdə auditor kadrlarının hazırlanması və ixtisas artırmasının istiqamətləri, auditin keyfiyyətinin yüksəldilməsi və ona nəzarətin təkmilləşdirilməsi, daxili və ekoloji auditin təşkil olunması sahələri üzrə geniş və ətraflı təhlil aparılmış, müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində təkliflər işlənib hazırlanmışdır. Nəzərdə tutulan məsələlərin həlli ölkədə müstəqil auditin beynəlxalq meyarlara uyğun yaranması və inkişafı üçün mühüm rol oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 saylı sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Proqramı”nda auditor xidmətinin təkmilləşdirilməsinə dair bir sıra mühüm vəzifələrin icrası Auditorlar Palatasına və digər müvafiq qurumlara tapşırılmışdır. Belə ki, Maliyyə Nazirliyi daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması, Vergilər Nazirliyi ilə birlikdə məcburi auditdən yayınmağa görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlərin görülməsi, habelə müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi və “Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyası”nın (2012-2020-ci illər) layihəsinin hazırlanması Auditorlar Palatası tərəfindən həyata keçirilməlidir.

Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasının reallaşdırılması istiqamətində ölkə iqtisadiyyatının tarazlı və dayanıqlı inkişafını təmin etmək, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən tədbirlərin reallaşmasına dəstək vermək məqsədini daşıyır.

Audit Peşəkar Mühasib Sertifikatlaşdırma Proqramının təkmil səviyyəsinə aiddir. Audit xidməti audit işinin strukturu, daxili audit, nəzarət prinsipləri anlayışları, audit prosedurаlarının həyata keçirilməsi və audit hesabatlarının hazırlanması üzərində təmərküzləşir.

İnsan təbiət etibarilə səhv etməyə meyillidir. O, biznesdə, mühasibatlıqda və həyatın sahələrində diqqətsizliyə, səriştəsizliyə, səmərəsizliyə və digər müxtəlif qüsurlara yol verə bilər. Bu, xətaların və saxtakarlığın baş verməsinə aparıb çıxara bilər. Lakin bir şəxs tərəfindən hazırlanmış hesabatlar digər şəxs tərəfindən əsaslı prinsiplərə, standartlara və prosedurlara uyğun yoxlanılarsa, bu xətalar və saxtakarlıqlar tamamilə aradan qaldırılmasa da, minimuma endirilə bilər.

Audit xidmətinin tərkibi olmaqla audit prosesi təşkilatın, sistemin, layihənin və ya məhsulun qiymətləndirilməsidir. Audit yoxlamaları informasiyanın doğruluğunu və etibarlılığını, əminliyini, həmçinin sistemin daxili nəzarətini qiymətləndirmək üçün tətbiq olunur. Bir qayda olaraq audit yoxlamaları şirkətin və ya biznesin maliyyə uçotu haqqında informasiyanın toplanması ilə əlaqələndirilirdi. Lakin son zamanlar audit yoxlaması ətraf mühit haqqında informasiya kimi sahələri də əhatə etməyə başlamışdır. Buna görə də audit yoxlamaları ilə məşğul olan peşəkarlara tələbat artmışdır.

Audit xidmətinin tərkib hissəsi olan audit yoxlamaları səriştəli, müstəqil və obyektiv auditorlar insanlar tərəfindən həyata keçirilir. Audit yoxlaması maliyyə hesabatlarının şirkətin (müəssisənin) maliyyə mövqeyini və onun fəaliyyətinin nəticələrini istifadəçilərə ədalətli şəkildə təqdim etməyə zəmanət verir.

Auditorlar üçün yaradılan güclü tənzimləmə mühiti və şirkətlərin (müəssisələrin, firmaların) yaxşı korporativ idarəetməsi müasir dövrdə biznes dünyasının əsas şərtlərinə çevrilmişdir.

Bu gün təşkilatlarla bağlı gözləntilər onların həm əməliyyat, həm də maliyyə hesabatı baxımından etik idarə edilməsidir. Yaxşı korporativ idarəetmə rəhbərlərin təşkilata nəzarət prosesində daha aktiv iştirakını tələb edir. Deməli, onlar öz təşkilatlarının “monitoru” olmalıdır. Öz növbəsində

auditorlarla bağlı gözləntilər təşkilatın tam və dolğun auditi vasitəsilə müəssisənin “manitor”ları üzərində monitorinqi həyata keçirməkdən ibarətdir.

Korporativ idarəetmə təşkilatın idarə edilməsi və nəzarəti müəyyən edən siyasət və prosedurları əhatə edir. O təşkilatın əsas kimi qəbul etdiyi prinsip və parametrləri özündə əks etdirir. Korporativ idarəetmə təşkilatın nə etməli olduğunu müəyyənləşdirməkdə menecer və vəzifəli şəxslərin gələcək fəaliyyətinin ölçülməsi və qiymətləndirilməsi üçün bir ölçü standartı yaratmış olur.

Bazar iqtisadiyyatının mühüm infrastruktur sahələrindən biri olan auditin gələcək unkişaf istiqamətlərini müəyyən etmək üçün Azərbaycan auditinin qarşısında duran vəzifələrin müəyyənləşdirilməsinin böyük əhəmiyyəti vardır. Konsepsiya hazırlanarkən auditor xidmətinin qarşısında duran aşağıdakı vəzifələr əsas kimi qəbul olunmuşdur:

- Maliyyə hesabatlarının keyfiyyətinə auditin təsirinin gücləndirilməsi;
- Maliyyə hesabatlarının dəqiq və dürüst aparılmasının obyektiv və səriştəli yoxlanılması əsasında onların istifadəçilərinin maraqlarının müdafiəsinin təmin edilməsi;
- Mühasibat uçotunun aparılmasında və maliyyə hesabatının tərtib edilməsində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin etməklə vergi ödəyicilərinin dövlət qarşısında öhdəliklərinin yerinə yetirilməsinə nail olunması;
- Dövlət büdcəsinə və büdcədənkənar fondlara vergi və ayırmaların düzgünlüyünə və müvafiq hesabatlarda dəqiq əks etdirilməsinə nail olunması;
- Dövlət büdcəsinin gəlir və xərc maddələrinin formalaşmasında şəffaflığın təmin edilməsinə dəstək göstərilməsi;
- Müstəqil auditlə korporativ idarəetmə və daxili nəzarətin əlaqələrinin gücləndirilməsi;
- Korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasında qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;
- Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi;
- Beynəlxalq audit standartlarının tələblərinə uyğun xidmət göstərilməsi istiqamətində auditorların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi;
- Maliyyə, mühasibat, vergiqoyma və digər əlaqəli xidmətlər üzrə məsləhət xidmətləri göstərilməsinin genişləndirilməsi.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasına tamhüquqlu üzvlüyünə qəbulu, eləcə də bu üzvlüyə görə yaranan öhdəliklər, habelə Azərbaycan Respublikasının ayrı-ayrı qanunvericilik aktlarına auditlə bağlı edilmiş əlavələr və dəyişikliklər auditor xidmətinin fəaliyyətini tənzimləyən yeni normativ aktların, yeni qanunun qəbulunu, aktual bir məsələ kimi qarşıya qoymuşdur.

Məlum olduğu kimi, 2010-cu ildən etibarən Azərbaycan Respublikasında beynəlxalq audit standartlarının tətbiqinə keçirilmişdir. Bu keçid auditor fəaliyyətinə nəzarət işinin yeni əsaslar üzrə qurulmasını vacib bir məsələ kimi zəruri etmişdir.

Auditorların müvafiq audit və etika standartlarına və müstəqillik tələblərinə əməl edilməsinin səmərəli monitorinqini aparmağa qabiliyyəti olan hərtərəfli keyfiyyətə nəzarət sisteminin işlənib hazırlanması, həyata keçirilməsi, nəzarətin müstəqilliyi və effektivliyinin təmin olunması hələ də tənzimlənməmiş qalır.

Buna görə də auditin keyfiyyətinə nəzarət işinin gücləndirilməsi, keyfiyyətə nəzarət daxili nəzarətlə kənar nəzarətin bir-birini tamamlamasına nail olunmasının böyük əhəmiyyəti vardır.

Bu mənada, ilk növbədə tələb olunur ki, Respublikamızda auditor təşkilatları və sərbəst auditorlar keçirdikləri yoxlamalarda daxili və xarici keyfiyyətə nəzarət qaydalarına riayət etsinlər. Bu qaydalar beynəlxalq audit standartları və 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartı ilə tənzimlənir.

Respublikamızda auditor xidmətinin tənzimlənməsinin və təkmilləşdirilməsi sahəsində beynəlxalq audit standartlarının tətbiqinə keçilmiş və “Milli strategiya” dan irəli gələn vəzifələrin davamlı icrasının təmin olunması məqsədilə bir sıra əsasnamə yenidən işlənib təsdiq olunmuşdur. Bu

əsasnamələrdə respublikamızda auditin tənzimlənməsi və idarə edilməsi istiqamətində bir sıra mühüm tədbirlərin görülməsi tövsiyə olunmuşdur.

Bütün bunlarla yanaşı auditin tənzimlənməsi və idarə edilməsi istiqamətində aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

- Auditorlarla əlaqələrin yüksək texnologiyaların tətbiqindən istifadə olunmaqla genişləndirilməsi və onların idarəetməyə daha aktiv cəlb edilməsi;
- Qərarların qəbul edilməsi proseslərin təkmilləşdirilməsi;
- Maarifləndirmə, auditin təbliği sahəsində fəaliyyətin intensivləşdirilməsi;
- Auditə dair metodoloji və tövsiyə xarakterli materialların hazırlanması;
- Metodiki vəsaitlərin hazırlanmasında təkcə auditorların iştirakı deyil auditor xidməti istifadəçillərinin də rəy, təklif və tövsiyələrinin nəzərə alınması;
- Auditin inkişafını şərtləndirən əsas amillərdən biri kimi yüksək səviyyəli auditor kadrlarının peşə-ixtisas səviyyəsinin artırılması;
- Auditorlar Palatası tərəfindən təşkil edilməli ixtisası artırma kursları daimi, icbari və davamlı xarakter daşımalı;
- Xarici ölkələrdə auditin təşkili təcrübəsinin öyrənilməsi və tətbiqi.

**Açar sözlər:** auditor xidməti, daxili audit, nəzarət prinsipləri, audit prosedurları, audit yoxlaması

**İstifadə edilmiş ədəbiyyat**

1. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 sentyabr 1994-cü il, №882
2. Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyası (2012-2020-ci illər).
3. “Audit” Qanunvericilik və normativ sənədlər toplusu. I-VII cildlər (1998-2013-cü illər)

**Таир Бахшалиев**

## ПУТИ РЕГУЛИРОВАНИЯ АУДИТОРСКИХ УСЛУГ

**Резюме**

В статье рассматривается возможности аудита в развитии экономики и обеспечении прозрачности финансово-экономических отнощений. Анализируется уровень выполнения задач, стоящих перед аудиторской услугой. Обоновывается необходимость применения стандартов международного аудита. В статье также анализируется регулирование деятельности аудиторской службы и направления проведения стратегических мероприятий.

**Ключевые слова:** аудиторская услуга, внутренний аудит, принципы контроля, процедуры аудита, аудиторские проверки

**Tahir Bakhshaliyev**

## WAYS OF REGULATION OF AUDITOR SERVICE

**Summary**

Audit capabilities in the development of economy and in ensuring transparency in economic and financial relations are supposed in the article. The degree of fulfilling the tasks facing the audit service is analyzed. The necessity of the application of international audit standards is justified. Measures carried out in the direction of regulation and management of the audit are dealt in the article.

**Keywords:** auditor service, internal audit, control principles, audit procedures, audit inspection

**UOT – 339.5 (479.24)**

**Racim Əsgərov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

# YENİ İQTİSADİ MÜNASİBƏTLƏR ŞƏRAİTİNDƏ XARİCİ TİCARƏTİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Məqalədə xarici ticarətin inkişafının fiskal alətləri sırasında birinci yerdə məhz optimal valyuta məzənnəsinin müəyyən edilməsi dayanır. Lakin inkar etmək olmaz ki, təcrübədə dəyişkən, eləcə də idarə olunan valyuta məzənnələri dövlətin tənzimləmə funksiyalarını xeyli məhdudlaşdırır. Dəyişkən valyuta məzənnələrinin mövcudluğu prinsip etibarilə, onların dəyişən iqtisadi tənzimləyici xarakterə malik olması ilə bağlıdır. Dəyişkən iqtisadi mühitdə valyuta məzənnələrinin tarazlı kəmiyyətinin müəyyən edilməsi xeyli mürəkkəbdir.*

Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri də ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən və milli maraqları qoruyub saxlamaqdan ibarətdir. İqtisadi ədəbiyyatda idxal və ixrac əməliyyatları üzrə gəlirliliyin səviyyəsinin bərabərliyi üzrə əldə olunan tarazlı valyuta məzənnəsinin qiymətləndirilməsi rus alimi L.A.Strijkovanın adı ilə bağlıdır [1; 2]. Belə ki, o, ədalətli valyuta məzənnəsinin müəyyən edilməsi üçün aşağıdakı sxemi təklif etmişdir:

İxracın səmərəliliyi: $S_{ix}=kU_{ix}/R_{ix}$;

İdxalın səmərəliliyi: $S_{id}=U_{id}/kR_{id}$.

Burada k - valyuta məzənnəsi; $U_{ix}$-məhsul ixracının həcmi (xarici valyuta ilə); $R_{ix}$- ixrac məhsulunun maya dəyəri (manatla); $U_{id}$ - daxili bazarın qiymətləri ilə idxalın həcmi; $R_{id}$ - məhsul idxalının xarici valyuta ilə həcmidir.

Burada bərabərlik şərti, yəni $S_{ix}=S_{id}$ nəzərə alındıqda, onda tarazlı valyuta məzənnəsi üçün düstur aşağıdakı kimi olacaqdır:

$$K=\sqrt{}\ (R_{IX}U_{Id}) / (Rid\ U_{id})$$

Buradan aydın olur ki, tarazlı valyuta məzənnəsi idxal və ixrac əməliyyatlarının bərabərliyi alınan məzənnə kimi başa düşülməlidir. Hesab edirik ki, tarazlı valyuta məzənnəsi üçün təklif olunan bu düstur bütövlükdə ölkə iqtisadiyyatı üzrə, yəni makroiqtisadi səviyyədə dövlətin xarici iqtisadi fəaliyyətinin zəruri aspektlərinin təhlili baxımından çox əlverişlidir. Lakin ayrı-ayrı mal və xidmətlər qrupu üzrə idxal və ya ixrac yönümlü istehsal (sahə) müəssisələri üçün rentabellilik səviyyəsi baxımından tarazlı valyuta məzənnəsinin hesablanması özünün daha təkmil ifadəsini fikrimizcə, rus alimləri S.M.Movşoviçin və L.E.Sokolovskinin tədqiqatlarında tapmışdır [3; 4]. Həmin tədqiqatların təhlili göstərir ki, burada ixracatçılar üçün əsas rolu mənfəət vergisi, ƏDV, sosial sığorta ayırmalarından başqa ixrac tarifləri, idxalatçılar üçün isə idxal rüsumları oynayır.

Beləliklə, bizə aydın oldu ki, xarici ticarətin inkişafının fiskal alətləri sırasında birinci yerdə məhz optimal valyuta məzənnəsinin müəyyən edilməsi dayanır. Lakin inkar etmək olmaz ki, təcrübədə dəyişkən, eləcə də idarə olunan valyuta məzənnələri dövlətin tənzimləmə funksiyalarını xeyli məhdudlaşdırır. Dəyişkən valyuta məzənnələrinin mövcudluğu prinsip etibarilə, onların dəyişən iqtisadi tənzimləyici xarakterə malik olması ilə bağlıdır. Belə məzənnələrin kəmiyyəti xeyli dərəcədə

ümumi iqtisadi mühitdən və sistemdə baş verən dəyişikliklərdən asılı olaraq formalaşdırılır. Məsələ burasındadır ki, dəyişkən iqtisadi mühitdə valyuta məzənnələrinin tarazlı kəmiyyətinin müəyyən edilməsi xeyli mürəkkəbdir, hətta əgər mümkün olsa belə, bu, yalnız qısa vaxt intervalında baş verəcəkdir. Odur ki, təcrübədə idxal və ixrac tarifləri (rüsumları) kimi fiskal alətlərdən istifadəni nəzərdə tutan dövlət tənzimləmə siyasətinin tədqiqinə üstünlük verilir.

Azərbaycanda gömrük tarif tənzimlənməsinin formalaşmasında 1997-ci ildən tətbiq olunan vahid tarif sistemi və 2001-ci ilin aprelin 16-da qəbul olunmuş diferensiallaşdırılmış tarif sistemi mühüm əhəmiyyətə malikdir.

1997-ci ildən vahid tarif sisteminə keçməkdə əsas məqsədlər gömrük rüsumlarından iqtisadiyyatın idarə edilməsinin bir elementi kimi istifadə etməkdən və dövlət büdcəsinin gəlir hissəsini təmin etməkdən ibarət olmuşdur. 1997-ci ildən etibarən ölkəyə idxal edilən xarici mallara vahid unifikasiya edilmiş 15%-lik gömrük idxal rüsumu tətbiq edildi. Başqa sözlə, ölkəyə idxal olunan mal ya idxal rüsumundan azad idi, ya da 15%-lik gömrük idxal rüsumuna cəlb edilirdi. Bir qədər sonra bəzi mal qruplarına 10%-lik, 5%-lik, 3%-lik gömrük idxal rüsumları tətbiq olunmağa başlandı. Lakin 15%-lik səviyyə maksimum hədd kimi saxlanıldı. Bu cür gömrük tarif sisteminin tətbiqi daxili istehsalın inkişafı üçün lazımi nominal şəraiti təmin etmirdi. Belə bir sistemin tətbiqi özəlləşdirmə prosesinin tələblərinə uyğun gəlmirdi. Mövcud tarif sisteminin tələblərinə uyğun olaraq bütün mallar üçün gömrük idxal rüsumları tamamilə sıfra endirilmiş, eyni zamanda bütün tarif və qeyri-tarif maneələri ləğv edilmişdir. Burada əsas məqsəd ölkədə valyuta ehtiyatlarının normal həddini təmin etmək üçün ixracın qarşısında olan bütün maneələri aradan qaldırmaqdan idi. Bunun əsasında ixrac üçün lazımi şərait təmin edilmişdi. İxracın artırılması son nəticədə kifayət qədər valyuta ehtiyatlarının yaradılmasına xidmət etməli idi. Ölkə daxilində ərzaq və qeyri-ərzaq mallarının istehsal həcmi çox az olduğuna görə, bu məhsullara tələbat, əsasən, idxal hesabına ödənilirdi. Odur ki, ixracdan daxil olan vəsaitin idxalın maliyyələşdirilməsindən yaranan xərcləri üstələməsi hesabına ölkənin maliyyə ehtiyatları formalaşdırılsın.

Xarici ticarətin inkişafının fiskal istiqaməti kimi Azərbaycanın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına daxil olmasında respublikada diferensiallaşdırılmış tarif sisteminin tətbiqi mühüm əhəmiyyət kəsb edəcəkdir. ÜTT-yə üzv olmağı sürətləndirmək məqsədilə respublikada gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi üzrə məqsədli proqramların işlənib hazırlanmasına ehtiyac vardır [5, s.162].

Bununla yanaşı, Vergi Məcəlləsinin 165.1.4-cü maddəsi beynəlxalq və tranzit yük və sərnişin daşımalarına görə ƏDV-nin sıfır (0) dərəcəsi ilə tutulmasını nəzərdə tutur [6]. Vergi qanunvericiliyinə görə ölkə ərazisindən tranzit gömrük qanunvericiliyi ilə müəyyən edilmiş qaydada respublika sərhədindəki iki məntəqə arasında Azərbaycan Respublikası ərazisi ilə daşınmadır. Eyni zamanda, bir sıra beynəlxalq müqavilələrin müddəalarında beynəlxalq və tranzit daşımalara görə ƏDV-nin sıfır (0) dərəcə ilə tutulması nəzərdə tutulur. Onu da qeyd edək ki, gömrük qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölkəmizin sərhədindəki iki məntəqə arasında respublika ərazisi ilə daşınma Azərbaycan Respublikasının ərazisindən tranzit hesab edildiyi üçün bu daşınmaya görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 25-ci maddəsində 15 növ gömrük rejimi müəyyənləşdirilmişdir ki, onlardan biri də rüsumsuz ticarət mağazalardır [7]. Gömrük Məcəlləsinin 51-ci maddəsinə əsasən rüsumsuz ticarət mağazası-mallardan gömrük rüsumları, vergilər alınmadan və onların iqtisadi siyasət tədbirləri tətbiq edilmədən respublikamızın gömrük ərazisində (beynəlxalq hava və dəniz limanlarında və Azərbaycan Respublikası gömrük orqanları tərəfindən müəyyən edi-

lən digər yerlərdə) həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimi sayılır [7]. Gömrük qanunvericiliyinə görə rüsumsuz gömrük mağazası Azərbaycan şəxsləri tərəfindən Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanından lisenziya alındıqdan sonra təsis edilə bilər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaları respublikamızın gömrük işini aparan icra hakimiyyəti orqanı rüsumsuz ticarət mağazası təsis etmək üçün lisenziya verir və onun fəaliyyət müddətini müəyyən edir. Rüsumsuz ticarət mağazası təsis etmək üçün lisenziya verilməsinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi miqdarda yığım alınır. Bundan başqa, kredit, borc və pay hesabına malların (iş və xidmətlərin) alınması və bunların idxalı ƏDV-yə sıfır (0) dərəcəsi ilə cəlb edilir. Bu mallar (iş və xidmətlər) alınarkən müvafiq təsdiqedici sənədlər təqdim edildikdə ƏDV tutulmur, ƏDV ödənildiyi halda isə əvəzləşdirilir və ya büdcədən geri qaytarılır.

Sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması, xarici-iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaradılması üçün respublika gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq spesifik rüsumlar advalor rüsumlarla əvəz olunmuşdur. Bununla yanaşı, istehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədi ilə eyni adlı malların idxalına tətbiq olunan gömrük tarif dərəcələrinə son illər xüsusi diqqət yetirilir. Onu da qeyd edək ki, malların gömrük qiymətləndirilməsi üzrə gömrük orqanları arasında operativ qarşılıqlı əlaqənin və zəruri koordinasiyanın təşkil edilməsi, habelə gömrük orqanlarına metodiki köməklik göstərilməsi və qiymət intizamının daha da gücləndirilməsi üçün qiymət-məlumat bazası, eləcə də hər bir əmtəə kodu üzrə məlumat bazası yaradılmışdır. Bundan başqa, resbuplikada gömrük işi sahəsində valyuta nəzarəti gücləndirilmiş, konsiqnasiya əməliyyatları üzrə vaxtı çatmış və gecikdirilmiş vəsaitlərin ixracatçıların bank hesablarına daxil olması, habelə barter yolu ilə aparılan ixrac əməliyyatları üzrə göndərilən malların ekvivalent dəyərində əvəzin respublikaya gətirilməsi təmin edilmişdir [8, s.26].

Fikrimizcə, vergi-büdcə və valyuta-pul siyasətinin səmərəli uzlaşdırılması, bankların fəaliyyətinə nəzarətin təmin olunmasi neqativ hallarin qarşısını almağa imkan verər. Ona görə də düşünürük ki, ölkənin valyuta-pul siyasətinin əsas hədəflərinin dövlət büdcəsi ilə birlikdə Milli Məclisdə hər il müzakirə və təsdiq edilməsi subyektiv arzu deyil, respublikanin sosial-iqtisadi inkişaf mənafeyindən irəli gələn tələbatdir. Buradan belə qənanətə gəlmək olar ki, Milli Məclis hər il dövlət büdcəsinin təsdiqi ilə yanaşi, onun icrasi üçün zəruri olan pul kütləsinə tələbatin həcmini və strukturunu müəyyən etməli, bu sahədə həyata keçiriləcək tədbirlərin ardıcıllığını və məsuliyyətini dəqiqləşdirməlidir.

**Açar sözlər:** korporativ mədəniyyət, xarici ticarət əlaqələri, dövlət dəstəyi

**İstifadə edilmiş ədəbiyyat**

1. Стрижкова Л.А. Структурные изменения промышленности в 1990-2001 г. // «Экономист», №7, 2002
2. Улякаев А., Куликов М. Проблемы денежно-кредитной политики в условиях притока капитала в России на современном этапе: дисс. канд. экон. наук. М.: 2004
3. Миклашевская Н.А., Холопов А.В. Международная экономика: Учебник / Под общ. ред. д.э.н., проф. А.В. Сидоровича; МГУ им. Ломоносова. М.: «Дело и Сервис», 2000, 303 с.

4. Стасев М.А. Использование открытых информационных источников в анализе угроз внешнеэкономической безопасности Российской Федерации // Сб. научных трудов «Рубикон» - Ростов-на-Дону: Изд-во Рост. Ун-та, 2008
5. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı: Qanun, 2003
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun, 2015
7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı: Qanun, 2015
8. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi (Monoqrafiya). Bakı: Elm, 2007, 449 s.

**Раджим Аскеров**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ВНЕШНЕЙ ТОРГОВЛИ В НОВЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ

### Резюме

В статье рассматриваются фискальные инструменты развития внешней торговли, среди которых важное место принадлежит определение оптимального валютного курса. Но нельзя отрицать, что на практике, управление валютных курсов ограничивает, регулирующие функции. Существование ворвирующих валютных курсов связано характером экономического регулирования. В изменяющейся экономической обстоновке сложно определить равновесные показатели валютных курсов.

**Ключевые слова:** корпоративная культура, иностранные торговые отношения, государственная поддержка.

**Rajim Askerov**

## MAIN DIRECTIONS OF DEVELOPMENT OF FOREIGN TRADE IN NEW ECONOMIC RELATIONS

### Summary

Determination of the optimal exchange rate stands in the first place among the fiscal tools of the development of foreign trade in the article. But it cannot be denied that changeable and managed exchange rates in practice considerably limit regulatory functions of the state. The existence of changeable exchange rates is related to the character of their variable economic regulatory. Determination of a balanced quantity of exchange rates in changeable economic environment is more complicated.

**Keywords:** corporate culture, foreign trade relations, state support.

**UOT – 339.9**

**Əsgər Əliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası i.ü.f.d., dosent**
**Sevda Məmmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası i.ü.f.d., dosent**

# CƏNUB QAZ DƏHLİZİ LAYİHƏSİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Məqalədə enerji təhlükəsizliyinin beynəlxalq təşkilatların da əsas diqqət mərkəzində duran ən mühüm məsələlərdən biri olduğu xüsusi vurğulanır. Burada Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə “Cənub” qaz dəhlizi layihəsinin həyata keçirilməsi nəticəsində Azərbaycan qazının Avropa ölkələrinə çatdırılması məsələləri ətraflı şəkildə şərh olunmuşdur. “Cənub” qaz dəhlizinin vaxtında başa çatdırılması məqsədilə TANAP və TAP layihələrinin müvafiq ölkələr tərəfindən həyata keçirilməsinin əhəmiyyəti araşdırılmışdır. Bu layihələrin vaxtında həyata keçirilməsi Azərbaycana əlavə dividentlərin gətirilməsinə səbəb olacaqdır.*

1994-cü il sentyabr ayının 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 məşhur şirkətləri (“Amoco”, BP, “Mak Dermott”, “Yunokal”, ARDNŞ, “LYKoyl”, “Stotoyl”, “Ekson”, “Türkiyə Petrolları”, “Penzoyl”, “İtoçi”, “Remico”, “Delta”) arasında Xəzər dənizinin ölkəmizə məxsus sektorundakı “Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənməsi üçün Hasilatın Pay Bölgüsü sazişi imzalanmışdır. Müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan həmin kontrakt sonralar bütün dünyada “Əsrin müqaviləsi” ilə tanındı. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 şirkət ilə daha 26 sazişin imzalanmasına imkan verdi. “Əsrin müqaviləsi”nin imzalandığı gün Azərbaycan dövlətinin inkişafı tarixində mühüm bir gün olmuşdur. Bununla əlaqədar olaraq ölkəmizin yeni neft strategiyası və doktrinası uğurla həyata keçirilməyə başlanılmışdır [4].

Son illərdə uğurla gerçəkləşdirilən yeni neft strategiyası nəticəsində Azərbaycanın hansısa ölkədən enerji asılılığı olmayan və tələbatını daxili imkanlar hesabına ödəməyə qadir bir ölkə kimi çıxış etməsi çox təqdirəlayiq bir haldır. 2006-cı ildə əfsanədən gerçəkliyə çevrilən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya əhəmiyyətli strateji layihələr olmaqla nəinki ölkəmizin, hətta bütövlükdə Avropanın fasiləsiz enerji ilə təminatına geniş imkanlar açmışdır.

İndiki şəraitdə yeni qaz layihələrinin işlənib həyata keçirilməsi ilə əlaqədar təkliflərin meydana çıxması qazın ixrac kəməri vasitəsilə Avropaya çatdırılmasında çox mühüm rol oynayacaqdır. Ümumiyyətlə “Cənub” qaz dəhlizinin təşəbbüskarı da, icraçısı da, təminatçısı da Azərbaycan dövləti olan ölkəmizin qaz potensialı kifayət qədərdir. Deməli, “Cənub” qaz dəhlizinin əsas resurs mənbəyi olan “Şahdəniz” qaz yatağı olmaqla “Şahdəniz” layihəsi XXI əsrin ən böyük əhəmiyyətli layihələrindən biridir. Mütəxəssislərin hesablamalarına görə Respublikamızın yalnız “Şahdəniz” yatağındakı qaz ehtiyatlarının həcminin 1 trilyon kubmetrdən çox olduğu qiymətləndirilir. Bu layihənin həyata keçirilməsi məqsədilə 45 milyard dollar vəsait qoyuluşu tələb olunur. Bununla yanaşı digər layihələrin də həyata keçirilməsi istiqamətində lazımi işlər görülür. Burada 25 milyard dollar sərmayə qoyuluşu tələb edən “Şahdəniz-2” layihəsinin də işlənib həyata keçirilməsi nəzərdə tutulur. Bu yataqda 26 yeni quyu qazılması nəticəsində əlavə olaraq 16 milyard kubmetr qaz əldə olunacağı proqnozlaşdırılır. Hətta bu həcmin mütəxəssislər tərəfindən 20-25 milyard kubmetr olacağı da söy-

lənilir. Bu layihənin icrası zamanı Xəzər dənizində ilk dəfə tətbiq ediləcək yeni hasilat texnologiyalarından istifadə olunması ilə yanaşı “Şahdəniz-2” yatağının istismarı ilə əlaqədar Səngəçal terminalı və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. “Cənub” qaz dəhlizinin ümumi proseslərə hərtərəfli təsiri proqnozlaşdırılarkən hər şeydən əvvəl Avropa ölkələrinə və Avropa Birliyinə daha çox inteqrasiyaya imkan verən layihə kimi qiymətləndirilməsi nəzərə alınmalıdır.

“Cənub” qaz dəhlizi layihəsinin siyasi əhəmiyyəti ondadır ki, layihənin icra edildiyi ölkələrlə iqtisadi əlaqələr daha da güclənəcəkdir. “Cənub” qaz dəhlizinin gələcəkdə daha da genişlənəcəyi, yəni bütün Balkan ölkələrinə, yəni Albaniya, Serbiya, Monteneqro və Xarvatiyaya başqa bir yol vasitəsilə ixracın həyata keçiriləcəyi nəzərdə tutulur. Digər bir ixrac yolu isə Yunanıstan və Bolqarıstanadək uzanacaqdır. Bolqarıstandan isə Rumıniya, Avstriya, Macarıstan və digər Avropa ölkələrinə çıxış əldə etmək mümkün olacaqdır.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi tarixi bir hadisə olmuşdur. Çünki bu hadisədən sonra Azərbaycan dünyada özünü qaz ölkəsi kimi göstərməyə başlamışdır. Azərbaycanda “Cənub” qaz dəhlizinin birinci hissəsi 2007-ci ildə istifadəyə verilmişdir. Lakin bundan sonrakı dövr ərzində geniş və ətraflı layihələr üzərində işlər davam etdirilmişdir. 2012-ci ildə Türkiyə ilə Azərbaycan dövlətlərinin rəhbərliyinin fəaliyyəti nəticəsində Tranc-Anadolu  kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmiş və TANAP layihəsi və onun həyata keçirilməsi bu dövrdə tarixi bir hadisə olmuşdur. TANAP layihəsinin razılaşdırılmasından sonra “Cənub” qaz dəhlizinin yaradılması istiqamətində müəyyən işlərin görülməsi qarşıya bir məqsəd kimi qoyulmuşdur. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, 2013-cü ildə TAP layihəsi, yəni Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də çox mühüm tarixi hadisələrdən biri olmuşdur. Bütün bunların sayəsində “Cənub” qaz dəhlizi layihəsi hazırlanıb və 2014-cü ildən onun tikintisinə başlanmışdır [3].

Ümumiyyətlə, TANAP layihəsi çərçivəsində boru kəmərinin tikintisi ilə əlaqədar olan bütün işlər Azərbaycan dövləti tərəfindən həyata keçirilir.

“Cənub” qaz dəhlizi Azərbaycana əlavə dividentlər gətirəcək və ölkəmizə yeni imkanlar açacaqdır. TANAP layihəsində Azərbaycan əsas səhmdar olaraq qalır və əsas maliyyə yükünü ölkəmiz öz üzərinə götürmüşdür. Bununla yanaşı, “Şahdəniz” və TAP layihələrində də Azərbaycan öz payını özü maliyyələşdirir.

“Cənub” qaz dəhlizi yalnız infrastruktur layihəsi deyil, o həm də gələcəyə olan bir baxışdır. Bu günkü gündə demək olar ki, bu baxış artıq reallığa çevrilməkdədir. Bu baxış nəticəsində Avropa ilə Asiya birləşir. Bu layihə enerji təminatı və enerji təhlükəsizliyi baxımından perspektiv dövr üçün müxtəlif dövlətlər və xalqlar arasında davamlı əməkdaşlığı təmin edəcək layihələrdən biri kimi qiymətləndirilir.

Göründüyü kimi, TAP və TANAP layihələri “Cənub” qaz dəhlizinin əsas tərkib hissələridir. “Cənub” qaz dəhlizi üzrə marşrut Türkiyədən Yunanıstana keçəcəkdir. Həmin boru kəməri Yunanıstan ərazisindən 543 kilometr keçərək Makedoniya və Albaniyaya çatacaqdır.

Burada onu da qeyd etmək lazımdır ki, Adriatik hövzəsi ölkələri olan Albaniya, Monteneqro, Bosniya və Herseqovina və Xorvatiyanı birləşdirəcək “Cənub” qaz dəhlizi kəməri çox əhəmiyyətli bir məsələ kimi qeyd olunur. Qərbi Balkanlarla bağlı Berlin konfransında “Cənub” qaz dəhlizi layihəsi Avropa üçün çox əhəmiyyətli bir layihə kimi qiymətləndirilmişdir.

2011-ci ilin yanvarında Avropa Komissiyası ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev arasında “Cənub” qaz dəhlizi ilə bağlı bağlanmış Birgə Bəyannaməyə uyğun olaraq Avropa Komissiyası, tərəfdaş ölkələr və şirkətlər bu planların reallaşdırılması istiqamətində lazımi işlər görürlər.

Bütün kəmərlərin inşası ilə əlaqədar nəzərdə tutulan 5 il başa çatdıqdan sonra bu dəhliz Qafqazdan Türkiyəyə, Yunanıstan və Albaniya ərazilərindən keçərək 2000 kilometrlik məsafəni qət edəcək və Xəzər dənizini Avropa İttifaqının mərkəzi ilə birləşdirəcək.

Göründüyü kimi, “Cənub” qaz dəhlizinin onurğa sütununu meydana gətirən layihə TANAP-dır. TANAP layihəsi baxımından böyük əhəmiyyət daşıyan bir məsələ “Şahdəniz-2” yekun investisiya qərarına dair müqavilə 2013-cü il dekabr ayının 17-də bağlanmışdır. Bu məsələdə BOTAŞ TANAP layihəsində 30 faizlik paya, TPAO isə istər “Şahdəniz” yatağında, istərsə də “Cənubi Qafqaz”boru xəttindəki hissəsini 19 faizə çatdıraraq ikinci böyük ortaq olmuşdur. Göründüyü kimi TANAP ilk mərhələdə “Şahdəniz”yatağının işlənilməsi ilə birlikdə fəaliyyətə başlayaraq daha böyük uğurlar qazanmasına gətirib çıxaracaqdır.

“Cənub” qaz dəhlizindən söhbət gedərkən TAP layihəsini də xüsusilə qeyd etmək lazımdır. Məlum olduğu kimi, İtaliya hökuməti TAP layihəsinə öz razılığını bildirib və 2016-cı ildə bu layihə reallaşacaqdır. Deməli, İtaliya hökuməti tərəfindən göstərildiyi kimi TAP layihəsi ölkənin inkişafı üçün beş prioritet layihələrdən biridir. TAP layihəsi Avropa və İtaliya üçün qaz nəqlinin şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Bu layihə İtaliya hökuməti üçün enerji strategiyasının tərkib hissəsidir. Bu layihə yalnız Cənubi Avropanın enerji şaxələndirilməsinə yox, həm də Balkan regionlarının enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət göstərəcəkdir.

Avropa İttifaqı Komissiyası tərəfindən TAP layihəsi vahid maraq kəsb edən layihələr sırasına daxil edilmişdir. Bu layihənin sürətləndirilməsi məqsədilə müvafiq maliyyə vəsaitləri ayrılmağa başlanmışdır.

Bakı-Tbilisi-Ceyhan layihəsinin başa çatdırılması, Cənubi Qafqaz kəmərinin daha da genişləndirilməsi, TANAP və TAP boru kəmərlərinin inşası nəticəsində Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində çox mühüm rola malikdir. Bu dəhlizin açılışı Avropanın enerji xəritəsinin əsaslı şəkildə dəyişdirilməsinə səbəb olmuşdur. TAP layihəsi Bolqarıstanı, Balkan ölkələrini, yəni Monteneqro və Xorvatiyanı, sonra isə Macarıstanı və Ukraynanı əhatə edəcəkdir.

Göründüyü kimi “Cənub” qaz dəhlizi, ümumiyyətlə, 3600 kilometr məsafədə uzanacaqdır. Bu layihənin həyata keçirilməsi milyonlarla istehlakçıya xidmət edəcək və minlərlə iş yerlərinin açılmasına səbəb olacaqdır. Hal-hazırda “Cənub” qaz dəhlizi marşrutu boyunca lazımi investisiya layihələri həyata keçirilir. Bunun da nəticəsində 2018-ci ildə Azərbaycan qazı həmin marşrut vasitəsilə Türkiyəyə, 2019-cu ildə isə Avropaya çatdırılacaqdır.

Bu qeyd olunanlar onu göstərir ki, hal-hazırkı dövrdə TANAP və TAP layihələri “Cənub” qaz dəhlizinin həyata keçirilməsi istiqamətində çox mühüm mərhələlərdən biridir.

Azərbaycan Prezidenti İlham Əliyev 12 fevral 2015-ci il tarixdə “Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə qeyd etmişdir ki, ötən illərdə neft-qaz layihələri ilə əlaqədar qazanılan uğurlarda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə BP arasında sıx əməkdaşlıq mühüm rol oynayır. BP-nin əməliyyatçısı olduğu “Şahdəniz” yatağı “Cənub” qaz dəhlizi üçün əsas resurs mənbəyidir. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatının 2,5 trilyon kubmetrdən çox olduğunu deyən Prezident İlham Əliyev “Cənub” qaz dəhlizinin reallaşdırılması ilə bağlı hasilatçı, tranzit və istehlakçı ölkələr arasında səyləri əlaqələndirməyin vacibliyini vurğulayaraq demişdir:

- Enerji resurslarının şaxələndirilməsi hazırda beynəlxalq təşkilatların əsas arenasında müzakirə olunan məsələdir. Azərbaycan şaxələndirmədə öz rolunu oynayır. Şaxələndirmə haqqında danışanda biz yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsini nəzərdə tuturuq. Marşrutların da şaxələndirilməsi vacibdir. Lakin mənbə eyni olanda vəziyyət çox dəyişmir. Mənbələrin şaxələndirilməsi vacibdir. Bu halda Xəzər dənizində çıxan qaz - Azərbaycan qazı növbəti illər ərzində Avropa istehlakçıları üçün yeganə yeni qaz mənbəyi olacaq” [1].

2007-ci ildə Bakı, Tbilisi və Türkiyənin Ərzurum şəhərini birləşdirən Cənubi Qafqaz boru kəmərinin çəkilişinə başlanmışdır. 2012-ci ildə Transanadolu – TANAP qaz boru kəmərinin tikintisi ilə əlaqədar Azərbaycan Respublikası ilə Türkiyə arasında saziş imzalanmışdır. Bu saziş “Cənub” qaz dəhlizinin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Ona görə ki, Azərbaycan qazının nəql edilməsində əsas olacaq layihənin uzun illər ərzində müzakirəsi zamanı Azərbaycan hökuməti tərəfindən TANAP layihəsinin təqdim edilməsi bütün tərəfdaşlar üçün güclü bir dəstəyin qazanılmasına səbəb olmuşdur. Elə bunun nəticəsidir ki, TANAP “Cənub” qaz dəhlizinin həyata keçirilməsində çox mühüm yerlərdən birini tutmuşdur. Bu günkü gündə TANAP-ın praktiki olaraq həyata keçirilməsi prosesi yüksək səviyyədə aparılır. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, 2013-cü ildə Transadriatik boru kəmərinin Avropaya əsas ixrac marşrutu kimi seçilməsi 2014-cü ilin sentyabrın 20-də “Cənub” qaz dəhlizinin təməlqoyma mərasimin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri olmuşdur. Bu layihə artıq həyata keçirilmə mərhələsində olan layihədir.

Aparılan işlərin nəticəsi göstərir ki, “Cənub” qaz dəhlizi infrastruktur layihəsi 2019-cu ildən fəaliyyətə başlayacaqdır. Bu layihənin vaxtında həyata keçirilməsi Azərbaycanın gələcək iqtisadi inkişafı ilə bərabər Avropanın enerji təhlükəsizliyi üçün də mühüm məsələlərdən biri olacaqdır. Məlumatlar göstərir ki, hal-hazırkı dövrdə “Cənub” qaz dəhlizinin reallaşması istiqamətində çox ciddi və təxirəsalınmaz işlər həyata keçirilir. Belə ki, Bolqarıstan bu layihələrin, yəni Türkiyə, Yunanıstan, Serbiya və Rumıniya ilə birləşdirici kəmərlərin inşası üzərində çox ciddi iş aparır. Bu layihələrin həyata keçirilməsi nəticəsində 2016-ci ilin sonuna qədər Yunanıstan ilə birləşdirici kəmərin inşası başa çatacaqdır. 2014-cü il sentyabrın 19-da Azərbaycan və Bolqarıstan prezidentləri tərəfindən imzalanmış Bəyannaməyə uyğun olaraq Azərbaycan tərəfindən Bolqarıstanın və həmçinin də Bolqarıstanın qaz şəbəkəsi vasitəsilə Avropa bazarlarına gedən boru kəmərlərinin Azərbaycan qazı ilə təchiz olunmasının əhəmiyyəti xüsusilə vurğulanmışdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Bolqarıstanın “Bulqarqaş” neft şirkəti arasında 2013-cü ilin sentyabrında imzalanmış və 2020-ci ildən başlayaraq 1 milyard kubmetr qazın Bolqarıstana çatdırılmasını nəzərdə tutan müqavilənin şərtlərinin vaxtında həyata keçirilməsi istiqamətində zəruri işlərin görülməsi planlaşdırılmışdır. 2014-cü il dekabrın 19-da Azərbaycan dövləti ilə Albaniya Respublikası arasında Albaniya üçün qazla bağlı baş planın işlənib hazırlanması sahəsində əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumuna əsaslanaraq Cənub-Şərqi Avropa regionu və ümumiyyətlə, Avropa İttifaqı üçün strateji maraq doğuran Trans-Anadolu, Trans-Adriatik və İon-Adriatik boru kəmərlərinin xüsusi əhəmiyyəti olacaqdır [1].

Məlum olduğu kimi Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin birinci toplantısı 2015-ci il fevral ayının 12-də keçirilmişdir. “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı isə 29 fevral 2016-cı il tarixdə yenə də Bakıda keçirilmişdir. Hər iki toplantıda qarşıda duran məsələlər ətraflı şəkildə müəyyənləşdirilmişdir. 2015-ci il TANAP layihəsinin həyata keçirilməsinin başlanğıcı kimi qeyd olunmuşdur.

2015-ci ildə Türkiyənin Qars vilayətində Türkiyə, Gürcüstan və Azərbaycan hökumətinin rəhbərliklərinin birgə iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirilmiş və bu layihənin “Cənub” qaz dəhlizi layihəsinin reallaşmasında böyük əhəmiyyət kəsb etdiyi xüsusilə qeyd olunmuşdur.

“Cənub” qaz dəhlizi layihəsi Azərbaycanın genişmiqyaslı infrastruktur və enerji təhlükəsizliyi layihəsidir.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında demişdir: “Hər ölkə layihənin öz ərazisində reallaşmasında məsuliyyət daşıyır. Fikrimcə, 2016-cı il bu baxımdan mühüm il olacaq. Ötən il biz artıq gözəçarpan irəli-

ləyişə nail olduq. Hesab edirəm ki, ölkələrimizdəki ictimai rəy bu layihənin vacibliyini bütövlükdə müsbət dəyərləndirir. Hesab edirəm ki, biz güclü tərəfdaşlıq və əməkdaşlıqla bu məqsədlərə nail olacağıq. TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca real mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Trans-Adriatik layihəsinin həyata keçirilməsində də olsun. Ümid edirəm ki, bu il tikinti işləri başlayacaq və hasilatçılarla əlaqələndirmə sayəsində “Cənub” qaz boru kəmərinin çəkilməsində məqsədlərimizə nail olacağıq” [2].

Müasir şəraitdə dünya siyasətində olduğu kimi, beynəlxalq təşkilatların da əsas diqqət mərkəzində duran ən mühüm məsələ enerji təhlükəsizliyindən ibarətdir. Bu baxımdan Azərbaycan dövləti enerji təhlükəsizliyində mühüm rol oynayan ölkələrdən biridir. “Cənub Qaz Dəhlizi” layihəsinin həyata keçirilməsi nəticəsində qarşıda duran uzun müddət ərzində Azərbaycanın hasil edə biləcək həcmə uyğun olaraq təbii qazın Avropa ölkələrinə satışından külli miqdarda gəlir əldə olunacaqdır. Bu ölkənin iqtisadi inkişafına güclü təsir göstərəcəkdir. Bu, eyni zamanda, Azərbaycanda qeyri-neft sektorunun gələcək inkişafına da təsir edən amillərdən biri kimi qiymətləndirilməlidir. 2016-cı ildə bu layihənin həyata keçirilməsində mühüm addımlar atılması nəzərdə tutulur. Aparılan müşahidələr göstərir ki, TANAP layihəsinin həyata keçirilməsi 2016-cı il müddətində olduqca fəal bir mərhələ dövründədir. Burada onu da qeyd etmək lazımdır ki, 2016-cı ildə Trans-Adriatik layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq tikinti işlərinə başlanması nəzərdə tutulur. Bunun da sayəsində hasilatçılarla əlaqələndirmə prosesinin lazımi səviyyədə həyata keçirilməsi ilə əlaqədar olaraq “Cənub” qaz boru kəmərinin çəkilməsində qarşıda duran məqsədlərə nail olunacaqdır.

29 fevral 2016-cı ildə Bakıda “Cənub Qaz Dəhlizinin” Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında iştirak edən məsul şəxslər toplantıda çıxış edərək “Cənub” qaz dəhlizinin həmin ölkələr üçün strateji baxımdan önəmli olduğunu xüsusilə qeyd ediblər.

Ümumiyyətlə, “Cənub Qaz Dəhlizi” layihəsi perspektivdə Avropanın enerji xəritəsinin dəyişilməsinə gətirib çıxaracaqdır.

2013-cü ildə “Şahdəniz-2” layiihəsi üzrə sərmayədarlar investisiya qoyuluşuna aid yekun qərar üzərində razılığa gəldikdən sonra 2014-cü ildə “Cənub” qaz dəhlizi ilə bağlı Bakıda təməlqoyma mərasiminin keçirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Bundan sonra Türkiyənin Qars vilayətində TANAP-ın təməlqoyma mərasimin keçirilməsi də böyük əhəmiyyət daşıyan məsələlərdən biri olmuşdur [2]. Göründüyü kimi, TANAP layihəsi 2018-ci ildə başa çatdırılacaqdır. 2016-cı ildə isə TAP layihəsinin təməlqoyma mərasimi olacaqdır. Məşvərət Şurasında iştirak edən Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Xorvatiya, Monteneqro nümayəndələrinin görüşünün nəticələri onu deməyə əsas verir ki, “Cənub” qaz dəhlizi genişlənəcək, Azərbaycanın qaz ehtiyatları və potensialı əlavə ehtiyatlar hesabına təbii sərvətlərin bir çox ölkələrə çatdırılmasına imkan yaradacaqdır.

Bütün bunlar onu deməyə əsas verir ki, “Cənub” qaz dəhlizi layihəsi üzrə nəzərdə tutulan bütün tədbirlərin vaxtında yerinə yetirilməsi ölkəmizə külli miqdarda gəlirlərin gətirilməsinə imkan yaradacaqdır. Bu da öz növbəsində Azərbaycanda iqtisadiyyatın inkişaf istiqamətində görülən işlərin lazımi səviyyədə aparılmasına şərait yaranmasına, qeyri-neft sektorunun inkişafına və bunun da sayəsində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən bütün tədbirlərin lazımi səviyyədə aparılmasına müsbət təsir göstərəcəkdir.

**Açar sözlər:** qaz layihəsi, ixrac boru kəməri, sərmayə qoyuluşu, enerji təminatı, enerji təhlükəsizliyi, qaz ehtiyatları

**İstifadə edilmiş ədəbiyyat**

1. Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü. Bakı, “Azərbaycan” qəzeti, 2015, 12 fevral
2. Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı. Bakı, “Azərbaycan” qəzeti, 2016, 22 fevral
3. Bakıda “Əsrin müqaviləsi” nin 20 illiyinə və “Cənub” qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim. Bakı, “Azərbaycan” qəzeti, 2014, 20 sentyabr
4. Əliyev N. “Ölkənin güclü iqtisadi potensialının əsasını neft amili təşkil edir”. Bakı, “Azərbaycan” qəzeti, 2014, 20 sentyabr

**Аскер Алиев**
**Севда Мамедова**

**НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРОЕКТА ЮЖНО-ГАЗОВОГО КОРИДОРА**

В статье отмечается, что энергетическая безопасность находится в центре внимания международных организаций. Здесь раскрываются вопросы, связанные с выходом Азербайджанского газа в Европейские страны, путем претворения в жизнь проекта Южно-газового коридора. Исследуется значимость газопроводов TANAP и TAP странами учатниками, с учетом своевременного завершения проекта Южно-газового коридора. Своевременная реализация проекта даст возможность привлечь допалнительных дивдентов.

**Ключевые слова:** газовый проект, экспорт газа, инветиции, энергоснабжение, энергетическая безопасность, газовые запасы

**Asger Aliyev**
**Sevda Mammadova**

**DEVELOPMENT DIRECTIONS OF SOUTHERN GAS CORRIDOR**

**Summary**

It is especially noted that energy security is one of the most important issues standing in main focus of international organizations. The issues of delivery of Azerbaijan gas to Europe, as a result of the implementation of Southern Gas Corridor has been interpreted. The importance of the implementation of TANAP and TAP projects by respective countries has been investigated in detail. Timely implementation of these projects will bring to Azerbaijan additional dividends.

**Keywords:** gas project, export pipeline, investment, energy supply, energy security, gas reserves

**UOT – 330.1**

**Raic Həsənov**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# İQTİSAD ELMİNİN YARANMASI VƏ İNKİŞAFININ MADDİ ƏSASLARI

*Məqalədə iqtisad elminin yaranması tarixinə diqqət yönəldilir və bu elmin inkişafına səbəb olan ayrı-ayrı iqtisadi cərəyan və məktəblər, eyni zamanda iqtisadi fikir dühalarından F.Kene, A. Smit, D.Rikardo, K.Marks və C.Keynsin fikirlərinə münasibət bildirilir. İqtisad elminin nəzəri konseptual cərəyanlarından olan merkantilizm, fiziokratlar məktəbi, marksist məktəb və keynsçilik məktəbinin mahiyyəti ətraflı təhlil olunur. Qeyd olunur ki, bazar təsərrüfatının konseptual əsasını merkantilizm təşkil edir. Merkantilist ideyalardan mübadilə konsepsiyası, proteksionist tədbirlər, aktiv ticarət balansı və s. haqqında məlumat verilir. Müəllifin fikrincə, merkantilist iqtisadi siyasətin yeganə məqsədi olan dövlətin iqtisadi sərvətini və qüdrətini artırmağın əsas yolu ticarət sisteminin gücləndirilməsi ilə bağlıdır. Fiziokratlar isə iqtisadiyyatın möhkəmlənməsini kənd təsərrüfatının inkişafı ilə bağlayırdılar. Müəllif yazır ki, keynsçi makroiqtisadi nəzəriyyənin əsas məqsədi iqtisadi dövrləşmənin sabitləşdirilməsi, məşğulluğun səviyyəsinin artırılması və iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsidir.*

Məlumdur ki, iqtisadiyyat bəşər cəmiyyətinin varlığının əsasını təşkil etsə də, iqtisad elmi çox-çox sonralar yaranmış və formalaşmağa başlamışdır. Düzdür, bu elm haqqında yazılara yetkin formada olmasa da, müxtəlif elm və mütəfəkkirlərin əsərlərində rast gəlmək olar.

İqtisad elminin ilk nəzəri konseptual əsası merkantilizm cərəyanıdır. Merkantilizmə qədər iqtisad elmi müstəqil tədqiqat sahəsi olmamışdır. Bunun da əsas səbəbi iqtisadi fəaliyyətin müstəqil fəaliyyət sahəsi kimi qəbul edilməməsindən irəli gəlir. Bəs necə oldu ki, iqtisad elminin ilk cərəyanı olan merkantilizm meydana gəldi? Ona görə bu baş verdi ki, kapitalizmə qədər iqtisadi fəaliyyət dairəsinin özü bir o qədər də inkişaf səviyyəsinə çatmamışdı. Qərb iqtisadçılarının adlandırdığı “Ənənəvi iqtisadi cəmiyyətin” hökmranlığı mövcud idi.

XVI-XVII əsrlərdə isə iqtisadiyyat bir fəaliyyət sahəsi kimi inkişaf etməyə başladı. Xüsusilə, bu dövrdə iqtisadiyyatın önəmli sahələrindən biri olan ticarət geniş vüsət almışdı. Məhz buna görə idi ki, kapitalist istehsal üsulunun və münasibətlərinin mahiyyətini,təzahür formalarını ilk dəfə öyrənən merkantilistlər olmuşlar. Merkantilizm italyanca “Merkante” sözündən olub, mənaca tacir deməkdir [1, s.76].

Merkantilizm bazar təsərüfatının konseptual əsasını təşkil edir və bazar iqtisadiyyatı iqtisad sisteminin nəzəriyyəsi öz başlanğıcını buradan götürür. Bunun bariz nümunəsi olaraq göstərməliyik ki, merkantilist ideyalar və pirinsiplər müasir bazar təsərrüfatı sistemlərində indinin özündə də, istifadə olunur. Bunlara ümumi əlamətləri merkantilistlər tərəfindən işlənib hazırlanmış mübadilə konsepsiyasını, proteksionist (himayəçilik) tədbirləri, aktiv ticarət balansını və s. aid etmək olar.

Merkantilist ideyalar və pirinsiplər o dövrün iqtisadi inkişafının qanunauyğunluqlarını və tələbatını əks etdirmişdir. “Siyasi iqtisad” termininin özünün də meydana gəlməsi merkantilizmlə bağlıdır. Bu termin ilk dəfə fransız merkantilisti A.Mankretyen tərəfindən işlədilmişdir. O, 1615-ci ildə “Siyasi iqtisad traktatı” adı altında kitab nəşr etdirmişdi [1, s.127].

Merkantilizm həm iqtisadi siyasət, həm də iqtisadi nəzəriyyələr sistemi olmuşdur. Merkantilist iqtisadi siyasətin yeganə məqsədi dövlətin sərvətini və qüdrətini artırmaqdan ibarət idi. Bunun yolları isə ticarət sistemində axtarılırdı.

Merkantilizmin məğzini və məqsədini ölkəyə pulun,yəni qiymətli metalın cəlb edilməsi təşkil edir. Hər cür sahibkarlığın başlanğıcını,çıxış nöqtəsini pul təşkil edir. Merkantilistlər əsas diqqətlə-

rini tədavül sferasına yönəldirlər. Onlar istehsala, sadəcə olaraq, sərvəti artırmaq üçün bir vasitə kimi baxırlar. Onların təlimində istehsal xarici ticarətin məqsədinə tabe edilir. İstehsal pulun xaricə axmaması işinə xidmət etməli olur. Onlar, əsasən, sərvətin mübadilə dəyəri formasına diqqət yetirmişlər. Sərvəti pul ilə eyniləşdirmişlər, onu qızıl və gümüş yığımı kimi təsəvvür etmişlər və çox pulu olan dövləti daha varlı saymışlar.

Merkantilistlər yalnız qızıl və gümüş hasilatı üzrə əməyi məhsuldar əmək hesab edirdilər. Onlar “Aktiv ticarət balansı” sistemini müdafiə edirdilər. Aktiv ticarət balansını təmin etmək üçün merkantilizmin mühüm tələbi - proteksionizm (himayəçilik) siyasəti, dövlətin təsərrüfat həyatına bilavasitə müdaxiləsi siyasəti dururdu.

İqtisad elminin yaranması və inkişafında böyük rol oynamış ilk cərəyanlardan biri də fiziokratlar məktəbidir. Fiziokratların yaradıcılığı feodalizmdən kapitalizmə keçid dövrünə təsadüf edir. Fiziokratiya sözü, iki yunan sözündən – “fizis” təbiət və “kratos” hakimiyyət sözlərinin birləşməsindən törəyən “Təbiyyətin hakimiyyəti” deməkdir. Tədavül sferasını öyrənən merkantilistərdən fərqli olaraq, fiziokratlar təbiətlə bağlı olan əkinçilik, kənd təsərrüfatı istehsalını tədqiq etməyi əsas götürmüşlər. Bununla onlar iqtisadiyyatın əsas, həlledici sahələrindən biri olan kənd təsərrüatı istehsal dairəsinin öyrənilməsinə başlamışlar. Lakin onlar bütün iqtisadiyyatı deyil, yalnız əkinçiliyi əsas götürmüş və onun sərvətin yaradılmasının yeganə mənbəyi hesab etmişlər.

Fiziokrat iqtisadi nəzəriyyənin əsasını qoyan fransalı həkim və təbiətşünas olan Fransua Kene (1694-1774) olmuşdur. Altmış yaşında iqtisadi məsələlərlə məşğul olmağa başlayan F.Kene XVIII əsrin ən böyük iqtisadçısı kimi dünyada şöhrət qazanmışdır. F.Kene “fermerlər”, “taxıl”, “vergilər” və s. kimi iqtisadi məqalələr yazmış və 1758-ci ildə özünün məşhur “İqtisadi cədvəl” əsərini nəşr etdirmişdir. Kene başda olmaqla fiziokratların əsas nəzəri-iqtisadi görüşləri sərvətin yaranması, mənbələri və bölgüsünün təhlilinə yönəldilmişdir. Fiziokratlar belə hesab edirdilər ki, əkinçilikdən kənar istehsal sahələrində, sənayedə, emal müəssisələrində istehsal olunan məhsulların ilk mənbəyi təbiət və torpaqdır. Onların fikrinə görə sənayedə,emalatxanalarda təbiətin və əkinçiliyin verdiyi məhsulların yalnız şəkli, forması dəyişdirilir. Ona görə də bu sahələrdə sərf edilən əmək məhsuldar əmək ola bilməz [2, s.154].

İqtisad elmi tarixində ilk dəfə ictimai təkrar istehsal nəzəriyyəsinin əsasını da Kene tərəfindən qoyulduğuna görə, o, təkrar istehsal nəzəriyyəsinin banisi hesab olunur. F.Kenenin iqtisad elminə daxil olan və müasir dövrdə də öz aktuallığını saxlayan məşhur “İqtisadi cədvəl”i dəfələrlə dərc olunmuş və onun davamçıları tərəfindən istifadə olunmuşdur. Bu cədvəldə rəqəmlərin və qrafiklərin köməyi ilə əkinçilikdə yaranan ümumi və xalis məhsulun natural və pul formasında dövranı təsvir olunur.

Fiziokratların sərvətin yalnız kənd təsərrüfatında yaradıldığı haqqındakı fikirləri məhdud xarakter daşıyır. Bu fikirlərin məhdudluğu isə onunla səciyyələnir ki, onların yaşadığı dövrdə iqtisadiyyatın bu sahəsi öndə idi. Baxmayaraq ki, artıq XVIII əsrdə İngiltərədə artıq sənaye çevrilişi baş vermiş və bu sahədə maşınlı istehsal bərqərar olmuşdu. Bütövlükdə iqtisadiyyatı bir sistem kimi tədqiq, təhlil və izah etmədən təbii ki, sərvətin də mənbələrini aşkar etmək mümkün deyildi.

Yuxarıda qeyd etdik ki, XVIII əsrdə İngiltərədə iqtisadiyyatın mühüm sahələrindən biri sayılan sənayedə inqilab baş verdi. Avropanın bu ölkəsində həmin dövrdə iqtisadiyyatın əsas sahələri olan sənayedə, kənd təsərrüfatında, nəqliyyatda,ticarətdə sıçrayışlar baş verdi. İngiltərədə sərbəst sahibkarlıq, azad bazar və rəqabətə əsaslanan yeni kapitalist istehsal üsulu daha sürətlə inkişaf etməyə başladı. Elə buna görə də iqtisadiyyatın bütöv bir sistem kimi öyrənilməsinə ehtiyac yarandı. Dövrün ehtiyac və tələbləri bu elmi yaradanları, Uilyam Petti (1623-1687), Adam Smit (1723-1790) və David Rikardo (1772-1823) kimi dünya şöhrətli iqtisadçıları da yetişdirdi.

İqtisad elminin baniləri və klassiklərinin böyük xidməti ondadır ki, ilk dəfə onlar cəmiyyətin iqtisadiyyatını bütöv halda götürüb tədqiqat obyektinə çevirmişlər. Bazar iqtisadiyyatının nəzəri

kökləri merkantilizm cərəyanına bağlı olsa da, klassiklər bu cərəyandan fərqli olaraq sərbəst bazar iqtisadiyyatı nəzəriyyəsini yaratmışlar.

Cəmiyyətin iqtisadi həyatını və onun inkişaf qanunlarını daha sistemli şəkildə araşdıran dahi ingilis iqtisadçısı Adam Smit olmuşdur. A.Smit uzun müddətli axtarışlardan və müşahidələrdən sonra iqtisadi məsələlərlə məşğul olmağa başlamışdır. Nəticədə “Xalqların şəraitinin təbiəti və səbəbləri haqqında traktat” (1776) adlı şah əsəri ilə məşhur olmuşdur. Beş kitabdan ibarət olan bu əsərdə o, sərbəst bazar iqtisadiyyatı nəzəriyyəsinin banisi kimi çıxış etmişdir. Onun fikrincə, istehsalçılar, alıcılar və satıcılar arasında sərbəst rəqabət olmadan iqtisadiyyat inkişaf edə bilməz. O, rəqabəti insanların sərbəst iqtisadi fəaliyyətlərini tarazlaşdıran başlıca qanun hesab edir. Smit azad rəqabətin söndürülməsini iqtisadiyyatın sərbəst inkişafı üçün bir fəlakət hesab edir.

A.Smit sərvətin mənbəyini əməkdə görür və yazır ki, hər xalqın illik əməyi,onun yaşayışına və həyat rahatlığına lazım olan məhsulları gətirən bir ilkin fonddur. Smitə görə illik məhsulun və sərvətin kəmiyyəti əsasən iki amildən: birincisi,istehsalda tətbiq olunan əməyin miqdarından, yəni işçilərin sayından, ikincisi isə əməyin məhsuldarlığından aslıdır. Buna görə də əmək məhsuldarlığı yüksək olan mədəni xalqlar daha çox sərvət yaradır və yaxşı yaşayırlar. Əmək məhsuldarlığı aşağı olan, ibtidai durumda olan xalqlar isə az sərvət toplayır və pis yaşayırlar. A.Smit iqtisadiyyatın inkişafında insan amilinə, onun aparıcı roluna böyük qiymət verir. O yazır: “Hər bir dövlətin (ölkənin) əsas əhali kütləsi fəhlələrdən, işçilərdən, xidmətçilərdən ibarətdir. Ölkədə əhalinin əksəriyyətini təşkil edən işçilərin həyat şəraitinin yaxşılaşmasına səbəb olan bütün şərtlər cəmiyyət üçün faydalı olmalıdır. Əgər əhalisinin əksər hissəsi yoxsul, bədbəxt vəziyyətdə olarsa, o cəmiyyət heç vaxt çiçəklənə bilməz, xoşbəxt ola bilməz” [2, s.87].

A.Smitdən sonra iqtisad elminin inkişafında ən böyük xidməti olan D.Rikardodur. O, XVIII əsrin sonu XIX əsrin əvvəllərində baş verən sənaye inqilabı dövründə yaşamışdır. Məhz bu dövrdə iqtisadiyyatda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri A.Smitin iqtisadi nəzəriyyəsinin D.Rikardo tərəfindən inkişaf etdirilməsinə rəvac vermişdir. İstedadlı bir maliyyəçi olan D.Rikardo heç bir ardıcıl təhsil almadan dərin və mürəkkəb iqtisadi məsələlərin tədqiqi ilə məşğul olmuşdur. O, iqtisad elminin pul tədavülü, kredit, vergi, beynəlxalq əmək bölgüsü, dünya ticarəti kimi konkret sahələr üzrə qiymətli nəzəri və əməli fikir söyləmişdir. Rikardo öz nəzəri görüşlərini başlıca əsəri olan “Siyasi iqtisadın və vergi qoyulmasının əsasları” əsərində (1817) əks etdirmişdir. O, bu əsərində Smitin iqtisadi nəzəriyyələrini inkişaf etdirir və təkmilləşdirir. Rikardo belə hesab edir ki, cəmiyyətin inkişaf və tərəqqisinin yeganə hərəkətverici güvvəsi insanların şəxsi mənafeyidir. Bu şəxsi mənafelər isə sərbəst bazara, sərbəst rəqabətə əsaslanan iqtisadi sistemdə reallaşa bilər [2, s.116].

D.Rikardonun əsərlərində insanların istehsal münasibətlərini siyasi iqtisadın predmeti kimi qələmə verməsi də təqdirə layiqdir. “Torpaq sərvətin anası, əmək isə atasıdır” kəlamı da D.Rikardoya məxsusdur.

XIX əsrin ikinci yarısında yeni bir iqtisadi məktəb - Marksist məktəb meydana gəldi. Bu məktəbin baniləri K.Marks (1818-1883) və F.Engels (1820-1895) klassik iqtisad elmindən bir mənbə kimi istifadə etmişlər. Onlar ictimai-iqtisadi fikrin təhlilinə sinfi mövqedən yanaşmışlar. Bunun da obyektiv səbəbi var idi. Çünki onların yaşayıb-yaratdığı dövrdə cəmiyyətin əsas hissəsini fəhlə-kəndli və sahibkarlar təşkil edirdi. Marks və Engels kapitalizmin kommunizm ilə əvəz olunmasının nəzəriyyəsini əsaslandırmağa çalışmışlar.

Marksın iqtisadi təhlilinin əsasında kapitalist əmtəə təsərrüfatı, izafi dəyər və onun formaları haqqındakı nəzəriyyə durur. Kapital yığımı, fəhlə sinfinin mütləq və nisbi yoxsullaşması marksist nəzəriyyədə mühüm yer tutur. Buna baxmayaraq Marks və Engelsin əsərlərində ümumbəşəri dəyərlər və ideyalar da öz əksini tapmışdır.

K.Marks “Kapital”ın I cildində yazdığı müqəddimədə deyir: “Cəmiyyət öz inkişafının təbii qanunun izinə düşdükdə nə təbii inkişaf mərhələləri üzərindən sıçraya bilməz, nə də bu mərhələləri

dekretlə ləğv edə bilməz”. Bu inkarolunmaz nəzəri fikir cəmiyyətin inkişafının təbii qanunauyğunluğun əsasında baş verdiyini göstərir.

XIX əsrin sonu XX əsrin əvvəllərində cəmiyyətin ictimai-iqtisadi həyatında böyük dəyişikliklər baş verdi. İstehsalın miqyası artdı, istehsal infrastrukturu genişləndi və şaxələndi. Böyük işlərin, iri layihələrin həyata keçirilməsində fərdi kapitalın gücü yetərli deyildi. Ona görə də kapital fərdilikdən çıxıb ictimai xarakter almağa başladı. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesləri baş verdi. Bununla da iqtisadi inhisar formaları yarandı. İdarəetmə mülkiyyətdən ayrıldı və yeni bir peşənin, sənətin yaranması zərurəti meydana çıxdı.Bu peşə isə “menecment” adlandırıldı. Təsadüfi deyil ki, neoklassik məktəbin banisi A.Marşal bununla əlaqədar olaraq J.B.Seyin “üç amil” torpaq, əmək, kapital nəzəriyyəsinə dördüncü amil kimi sahibkarlıq fəaliyyətini də əlavə etdi.

1929-1933-cü illəri əhatə edən dövrdə sənayecə inkişaf etmiş ölkələrdə dərin iqtisadi böhran baş verdi və neoklassik nəzəriyyələrin bu böhranı aradan qaldırmaqda gücsüz olduğu məlum oldu. Məhz bu dövrdən başlayaraq iqtisad elmində yeni bir məktəbin, Keynsçilər məktəbinin əsası qoyuldu.

Keynsçi baxışlar sisteminin əsas müddəaları C.M.Keynsin “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” (1936) əsərində öz əksini tapmışdır. Keyns iqtisadiyyatın bazar mexanizmi vasitəsilə özünü tənzim etməsi nəzəriyyəsinin artıq qüvvədən düşdüyünü söyləyir və göstərir ki, təbii (kənardan müdaxilə olmadan) inkişaf edən bazar iqtisadiyyatı artıq dövrümüz üçün ideal sistem deyil və bu sistemə iqtisadi sarsıntılar xasdır. Keyns bazar iqtisadiyyatını saxlayıb, yalnız onun dövlət tərəfindən tənzimlənməsini təklif edir. Deməli, keynsçilik dövlət tənzimlənməsinə əsaslanan makroiqtisadi nəzəriyyədir. Keynsçi nəzəriyyə dövlətin investisiya qoyuluşundan və istehlakdan əmələ gələn, dövlət xərcləri ilə tamamlanan məcmu səmərəli tələbi müəyyən edən xərclər və gəlirlər arasındakı nisbətin tənzimlənməsidir. Tənzimlənmə obyekti səmərəli tələbin ən mühüm tərkib hissəsi olan investisiya qoyuluşudur. Məqsəd dövlətin köməyi ilə investisiya qoyuluşlarının sabit artımını təmin etməkdir. İnvestisiya qoyuluşlarının sabit artımı isə öz növbəsində səmərəli tələbin təmin olunmasının həlledici amili hesab olunur.

Keynsçi makroiqtisadi nəzəriyyədə əsas məqsəd iqtisadi tsikli sabitləşdirmək və məşğulluğun yüksək səviyyəsini təmin etməkdir. Həlledici rol isə fiskal siyasətə-büdcə vergi siyasətinə verilir. Keynsə görə Fiskal siyasət iqtisadiyyatın dövlət tənzimlənməsinin başlıca aləti hesab olunur. Pul-kredit siyasətini isə iqtisadiyyatın tənzimlənməsinin dolayı yolu hesab edir.

Keynsin nəzəriyyəsi makroiqtisadi göstəricilərin və kəmiyyətlərin proporsionallığını və funksional asılılıqlarını öyrənir. Onun mühüm vəzifəsi investisiya qoyuluşu, istehlak və milli gəlir arasında əlaqə yartmaqdır. Bu əlaqə multiplikator mexanizmi vasitəsilə yaradılmışdı. Multiplikator iqtisadi böhranları və işsizliyi zəiflətmək üçün dövlət xərclərini artırmağı nəzəri cəhətdən əsaslandıran vasitədir. Multiplikator gəlirin artımının kapital qoyuluşlarının artımına olan nisbətini ifadə edir. O kapital qoyuluşunun hər yeni artımı nəticəsində gəlirin artımını avtomatik təmin edir və çoxaldıcı funksiyanı yerinə yetirir.

Keyns göstərir ki, investisiya qoyuluşlarının hər bir artımı cəmiyyətdə milli gəlirin artımını təmin edir və məşğulluğu artırır. Milli gəlirin artımı isə yeni əlavə investisiya qoyuluşu üçün zəmin yaradır.

Keynsçi nəzəriyyə müasir dövrümüzdə öz aktuallığını saxlayır və saxlamaqdadır. İndiki dünyanın əksər ölkələri bu nəzəri iqtisadi təlimdən faydalanır və öz ölkələrinin iqtisadiyyatını tənzimləməkdə ondan istifadə edirlər.

**Açar sözlər:** merkantilizm, fiziokratlar, təkrar istehsal, məşğulluq, ticarət

**İstifadə edilmiş ədəbiyyat**
1. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Çaşıoğlu, 2001, 691 s.
2. Meybullayev M.X. İqtisadi təlimlər tarixi. Dərslik. Bakı: Nurlar, 2005, 560 s.
3. Smit A. Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat. 1931, 371 s.

**Раич Гасанов**

**МАТЕРИАЛЬНЫЕ ОСНОВЫ СОЗДАНИЯ И РАЗВИТИЯ ЭКОНОМИЧЕСКОЙ НАУКИ**

**Резюме**

В статье обращается внимание на историю возникновения экономической науки и проявляется отношение к отдельным экономическим течениям и школам, в том числе идеям корифеев экономической мысли Ф.Кене, А.Смита, Д.Рикардо, К.Маркса и Дж. Кейнса являющимся предпосылкой развития данной науки. Всесторонне анализируется сущность меркантилизма, школы физиократов, марксистской школы и школы кейнсианства, как теоретических концептуальных течений экономической науки. Подчеркивается, что концептуальную основу рыночного хозяйства составляет меркантилизм. Предоставляется информация о таких идеях меркантилизма, как концепция обмена, протекционистские меры, активный торговый баланс и т.д. По мнению автора, основным путем преумножения экономического богатства и мощи государства связано с усилением торговой системы. А физиократы укрепления экономики связывают с развитием сельского хозяйства. Автор утверждает, что основной целью макроэкономической теории кейнсианства является стабилизация экономической цикличности, повышение уровня занятости и регулирование экономики государством.

**Ключевые слова:** меркантилизм, физократы, воспроизводство, занятость, торговля

**Raij Hasanov**

**MATERIAL BASIS OF THE EMERGENCE AND DEVELOPMENT OF ECONOMIC SCIENCE**

**Summary**

Special attention is paid to the history of the creation of economic science, currents and schools leading to the development of this science, the opinions of F.Kene, A.Smith, D.Ricardo, K.Marks and C.Keynes are expressed in the article. The theoretical, conceptual currents of economic science as mercantilism, physiocrat schools, Marxist school, Keynesian school are analyzed. It is noted that the conceptual basis of market economy is mercantilism. Information about concept of exchange, protectionist measures and active trade balance as mercantilist ideas are given in the article. According to the author the main way to increase the economic wealth and power of state is to strengthen trade system. Physiocrats link the strengthening of the economy with the development of agriculture. Author writes that the main purpose of Keynesian macroeconomic theory is to stabilize economic period, to increase the level of employment and to regulate the economy by the state.

**Keywords:** mercantilism, physiocrats, remanufacturing, employment, trade

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

## № 1 (05), 2016


**Redaktorlar:**

***Gülnarə Hacıyeva, Lətifə Məcidova, Qızılgül Əlimirzəyeva***

**Kompüter tərtibatı:**

***Pərvanə Məcidova***

**Dizayn:**

***Mail Xəlilov***

Yığılmağa verilib: 19.07.2016
Çapa imzalanıb: 29.07.2016
Format: 70x100 16/1
7.62 ş.ç.v
Tiraj: 200

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının mətbəəsi***